AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI
MİLLİ MÜNASİBƏTLƏR İNSTİTUTU

**SƏİD SADIQOV**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI TARİXİNDƏN

**BAKI — 1995**

**Elmi redaktor:** tarix elmləri namizədi
**KAMİL MUXTAROV**
**Rəyçi:** tarix elmləri doktoru
**RİZVAN ZEYNALOV**

**Sadıqov S. H.** Naxçıvan Muxtar Respublikası tarixindən Bakı, 1995, 144 səh.

Əsərdə «sosializm quruculuğu dövrü» adlanan illərdə Naxçıvan diyarında baş vermiş mürəkkəb proseslərdən, o cümlədən, Naxçıvan Muxtar Respublikasının yaranmasından, şəhər və kəndlərdə dinc həyatın başlanmasından, xalq təsərrüfatının bərpası illərində və beşilliklər zamanı Naxçıvan MR-də iqtisadiyyat və mədəniyyətin dirçəldilməsi üçün həyata keçirilən tədbirlərdən, 1941 — 1945-ci illər Almaniya — SSRİ müharibəsində Naxçıvanın iştirakından, habelə müharibədən sonrakı illərdə Naxçıvan MR-in iqtisadi və mədəni həyatında baş vermiş dəyişikliklərdən tariximizə yeni münasibət baxımından bəhs olunur.

Əsər Naxçıvan MR tarixi ilə maraqlanan mütəxəssislər, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© «İrşad mərkəzi» — 1995-ci il.

**MÜNDƏRİCAT**


Ön söz ........................................................................................................... **s. 4**
Giriş ........................................................................................................... **s. 6**
Naxçıvan diyarı 1918—1920-ci illərdə............................................................. **s. 8**
Naxçıvanda Sovet hakimiyyəti necə qalib gəlmişdi?........................................... **s. 14**
Naxçıvanda iqtisadi vəziyyəti ləğv etmək və muxtariyyət məsələləri ilə bağlı həyata keçirilmiş tədbirlər.................................................................................... **s. 21**
Naxçıvanda dinc həyatın başlanması və qaçqınlar probleminin qismən həll edilməsi........................................................................................................... **s. 30**
Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının dirçəldilməsi və kollektivləşdirmə ............................................................................................. **s. 34**
Naxçıvan sənayesinin bərpa və inkişafı ................................................................ **s. 44**
Naxçıvan Muxtar Respublikasında maarifin yayılması və mədəni səviyyənin yüksəldilməsi ........................................................................................... **s. 48**
Naxçıvan Muxtar Respublikası İkinci dünya müharibəsi illərində......................... **s. 55**
Naxçıvan Muxtar Respublikası müharibədən sonrakı illərdə ................................ **s. 60**
Nəticə............................................................................................................ **s. 65**

## ÖN SÖZ

71 illik fasilədən sonra 1991-ci il oktyabrın 18-də elan edilmiş İstiqlaliyyət Bəyannaməsi ilə Azərbaycan Respublikası yenidən müstəqil inkişaf yoluna qədəm qoymuşdur. İndi hər il bayram kimi qeyd etdiyimiz həmin əlamətdar gündən başlayaraq respublikamızın suveren hüquqlarının təmin edilməsi yolunda atdığımız hər uğurlu addım müstəqilliyimizin möhkəmlənməsinə xidmət etmişdir və etməkdədir. Zaman keçdikcə, bu tarixi hadisə xalqımıza və torpağımıza öz əvəzsiz bəhrələrini daha çox bəxş edəcək, keçmişimizin, bu günümüzün və gələcəyimizin tale yüklü məsələlərində mühüm rol oynayacaqdır. Aydındır ki, bizi, yəni gənc respublikanın azad, bərabər hüquqlu vətəndaşlarını yaxın gələcəkdə bu sahədə daha böyük işlər gözləyir. Bu gün müstəqilliyin həyatımızın bütün sahələrinə, o cümlədən mənəviyyatımıza fəal nüfuz etməsinə nail olmaq üçün çalışmaq hamımızın ən ümdə vəzifəsi olmalıdır.

Xalqın milli mənlik şüurunun təşəkkül tapmasında və möhkəmlənməsində onun tarixi keçmişinin dolğun və obyektiv işıqlandırılması mühüm yer tutur. Bu sahədə tarix elmi qarşısında duran vəzifələr həqiqətən olduqca böyükdür. Bəs tarix elmimiz yeni şəraitdə onun qarşısına qoyulmuş həmin tələblərə cavab verirmi? Əlbəttə, bu suala birmənalı cavab vermək mümkün deyildir. Əgər nəzərə alınsa ki, üç cildlik «Azərbaycan tarixinin akademik nəşrindən 30 ildən artıq bir vaxt keçir, Azərbaycan EA Tarix İnstitutunda artıq uzun illər boyu nəşrə hazırlanan çoxcildlik «Azərbaycan tarixi» hələ də çap olunmamışdır. Yaxud, orta məktəb üçün yazılmış «Azərbaycan tarixi» dərsliklərinin çoxu elə vəziyyətdədir ki, onların tədrisi xeyirdən çox ziyan verə bilər, o zaman bu sahədə işlərin heç də qənaətbəxş olmadığı aydınlaşar. Lakin məsələyə daha diqqətlə yanaşdıqda son illərdə tariximizin tədqiq olunmasında, öyrənilməsində ciddi irəliləyiş baş verdiyini də görməmək olmaz. Nisbətən qısa müddətdə tariximizin qaranlıq səhifələrinin işıqlandırılması sahəsində xeyli iş görülmüş və qiymətli əsər-[3-4]lər çapdan çıxmışdır. Bu deyilənlər, xüsusilə qədim və orta əsrlər tariximizə, həmçinin, qısa ömrünə baxmayaraq Azərbaycan tarixində silinməz izlər buraxmış Azərbaycan Demokratik Respublikanın tarixinə aiddir. Həmçinin son illərdə tariximizin ən vacib və mühüm probleminə — xalqımızın etnogenzinə və formalaşmasına həsr olunmuş araşdırmaların da işıq üzü görməsi çox uğurlu addımlardandır. Orta məktəbin 6, 7, 9, 11-ci sinifləri üçün latın əlifbası ilə, yeni «Azərbaycan tarixi» dərslikləri buraxılmışdır. Lap bu yaxınlarda akademik 3. M. Bünyadov və professor Y. B. Yusifovun redaktəsi ilə çapdan çıxmış «Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək)» kitabını [1] Azərbaycan tarixinin yeni baxımdan işıqlandırılmasında ciddi addım hesab etmək olar. Kitab müəlliflərinin və redaktorlarının bu xeyirxah işini təqdir etməklə yanaşı, bildirmək istəyirik ki, təlatümlü XX əsr hadisələrinin də yeni baxımdan belə sanballı, ümumiləşdirilmiş nəşrə ehtiyacı vardır. Yəqin ki, onlar bunu kitabın ikinci cildini nəşrə hazırlayarkən mütləq nəzərə alacaqlar. Bilmək lazımdır ki, vaxtilə marksist-leninçi metodologiyanın sxemləri əsasında yazılmış və əslində xalqın tarixini Kommunist Partiyasının tarixi ilə uyğunlaşdırmağa daha çox əhəmiyyət verilmiş kitablar bugünkü həssas və tələbkar oxucularımızı heç bir vəchlə təmin edə bilməz. Deməli, gözləmə mövqeyini kənara atmaq, xalqın XX əsrdəki tarixini də bəzəksiz-düzəksiz, onun yalançı xilaskarlarının istədiyi kimi deyil, olduğu kimi vermək, obyektiv mövqelərdən işıqlandırmaq, bir sözlə müstəqilliyimizə layiq şəkildə qələmə almaq olduqca vacibdir. Əks təqdirdə, biz əvvəllər yol verdiyimiz ifratçılığı, indi də başqa şəkildə təkrar etmiş olarıq.

Heç kəs üçün gizli deyildir ki, son illərdə tariximizin Sovet dövrünə dair kitablar, demək olar ki, çap edilmir, alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyalarda isə bir çox hallarda əvvəlki nöqsanlar yenə də bu və ya başqa şəkildə qalmaqda davam edir. Halbuki, 70 il az müddət deyildir. Həm də həmin illərdə həyatımız təkcə nailiyyətlərdən, yaxud, fəlakətlərdən ibarət olmamışdır. Bu illərdə xalqın tarixində elə hadisələr baş vermişdir ki, onların əziyyətini bu gün də çəkirik. «Lenin milli siyasətinin təntənəsindən ağız [4-5]dolusu, uca səslə danışırdıq, onun parlaq nəticələri»ni isə bu gün Dağlıq Qarabağ faciələrində görürük. «Mədəni inqilabımız»ın isə ən böyük nəticəsi bundan ibarət olmuşdur ki, bu günün özündə də hansı əlifbaya üstünlük verdiyimizi özümüz üçün qəti aydınlaşdırmamışıq, Azərbaycan dilini respublikamızın rəsmi dövlət dili elan etmişik, lakin məsul iclaslarda azərbaycanca danışanda az qala xəcalət təri tökmüşük.

Bir sözlə, Sovet hakimiyyəti illərində xalqımızın tarixində həm kədərli, həm də fərəhli anlar olmuşdur. Sadəcə olaraq fərəhli anlarımızı şişirtmiş, onların əsasında ümumiləşdirmələr aparmış, təsadüf edilən ayrı-ayrı uğurları ümumi Azərbaycan nailiyyətləri kimi qələmə verməyə çalışmış, xalqın sıxıntılarını, məhrumiyyətlərini daha çox görməmək istəmişik. Bax, bu mənada, çox şükür ki, belə bezikdirici, çox vaxt yalnız «nailiyyətlər»in quruca sadalanmasından və təsvirindən ibarət olan əsərlər indi heç kəsə lazım deyildir. Lakin bütün bunlar heç də o demək deyildir ki, 70 il ərzində yazılmış tarix kitabları, dərs vəsaitləri, çoxsaylı sənəd materialları bir kənara qoyulmalı və «Sovet imperiyası tarixinə aiddir» dərkənarı ilə kağız hazırlığına göndərilməlidir. Yaxşıdır,

---

[1] Azərbaycan tarixi I cild, Azərnəşr, 1994, 687 səh. (Ali məktəblər üçün dərslik).

ya pisdir, uğurludur, ya uğursuzdur, — bunlar hamısı bizim tariximizdir və mütləq öyrənilməli, yeni baxımdan araşdırılmalı və doğma xalqa əsl tarix şəklində çatdırılmalıdır.

Bütün bu deyilənlər Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sovet dövrü tarixinə də aiddir. Naxçıvan MR- in Sovet hakimiyyəti illərində keçmiş olduğu keçmə-keşli həyat yolunun doğru-dürüst işıqlandırılması, heç şübhəsiz, 90-cı illərin əvvəllərinin milli dirçəlişinə gəlib çıxmağımızın əsl səbəblərini aşkara çıxarmaqda faydalı yol göstərici rolunu oynaya bilər. Çünki milli dirçəlişə, özünüdərkə gedən yollar heç də boş, quru yerdə yaranmamışdır. Əgər 80-ci illərin sonlarından başlayaraq bütün Azərbaycanda olduğu kimi, Naxçıvan MR-də də milli azadlıq hərəkatı geniş vüsət almışsa və xoşbəxtlikdən daha mütəşəkkil xarakter daşımışdırsa, Ermənistanın blokadasından və təcavüzündən daha çox məhrumiyyətlərə məruz qalan və əzab çəkən Naxçıvan Muxtar Respublikası əhalisi bütün çətinliklərə mətanətlə dözərək öz torpağının bir qarışını belə düşmənə təslim etməmişsə və həmişə Azərbay[5-6]canda milli azadlıq hərəkatının ön cərgələrində getmişsə, bütün bunlarda heç şübhəsiz 70 illik tarixi yolun da böyük təsiri və rolu olmuşdur. Həmin keçilmiş yolun ümumiləşdirilərək tarix şəklində doğma xalqa çatdırılması bu mənada olduqca vacib və əhəmiyyətlidir.

Bəs, 70 il ərzində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, iqtisadi və mədəni həyatında baş vermiş dəyişiklikləri özündə kifayət qədər əks etdirən sanballı əsərlər yaradılmışdırmı? Axtarışlar belə bir qənaətə gəlməyə imkan verdi ki, Naxçıvan Muxtar Respublikasının Sovet hakimiyyəti illərindəki tarixini hərtərəfli əks etdirən ümumiləşdirilmiş bir əsər indiyə kimi çap edilməmişdir. Halbuki, mərhum tarixçi-alim, ömrünün son illərində Azərbaycan EA Milli Münasibətlər İnstitutunda elmi işçi çalışan S. H. Sadıqov (1925 — 1993) hələ 70-ci illərdə belə bir əsər yazmış və nəşriyyata təqdim etmişdi. O dövrün tələblərinə uyğun olaraq «Naxçıvan Muxtar Sovet Sosialist Respublikası 50 il səadət yollarında» adlanmış bu kitab özünün əhatə dairəsinin genişliyi ilə fərqlənir. Kitabda 1920 — 1970-ci illərdə Naxçıvan Muxtar Respublikasının siyasi, iqtisadi və mədəni həyatında baş vermiş dəyişikliklər, demək olar ki, bütövlükdə öz ifadəsini tapmışdır. Əsərin təkcə elə mündəricatına nəzər salınarsa, görmək olar ki, burada Naxçıvan Muxtar Respublikasının 50 illik tarixini müfəssəl işıqlandırmaq üçün cəsarətli cəhdlər vardır. Lakin nəzərə alınmalıdır ki, əsər 70-ci illərdə yazılmış və çap üçün təqdim edilmişdir. Elə buna görə də əsərdə dövrün tələblərindən irəli gələn sxematiklik, müəyyən olunmuş çərçivədən kənara çıxmamaq, nailiyyətləri qabarıq şəkildə göstərməyə səy etmək, partiya və hökumətin Naxçıvan Muxtar Respublikası zəhmətkeşlərinə, onların rifah halını yüksəltməyə göstərdiyi daimi qayğını xüsusilə nəzərə çarpdırmaq və sair hallar özünü bu və ya başqa şəkildə büruzə verir. Lakin bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, əsərdə, 50 ildən artıq bir müddətdə Naxçıvan Muxtar Respublikasının dolğun tarixini əks etdirən zəngin faktlar və rəqəmlər, rəngarəng statistik materiallar müəllif tərəfindən bacarıqla araşdırılmış və bunların üzərində ciddi ümumiləşdirmələr aparılması nəticəsində maraqlı tədqiqat əsəri yaranmışdır. Çox təəssüf ki, müəllifin vaxtilə göstərdiyi bütün səylərə baxmayaraq, əsasən, subyektiv səbəblər üzündən əsər [6-7]işıq üzü görməmiş və bununla da oxucularımız Naxçıvan Muxtar Respublikası tarixinə dair qiymətli bir vəsaitdən məhrum edilmişlər. Halbuki, əsərin çap edilməsinə elə həmin dövrdə də ciddi ehtiyac olmuşdur. Əsərə rəy vermiş tarix elmləri doktoru, Azərbaycan EA-nın müxbir üzvü Q. Ə. Mədətovun və başqalarının (həmin rəylər S. h. Sadıqovun arxivində saxlanılır) haqlı olaraq qeyd etdikləri kimi, 70-ci illərin özündə də «Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının tarixi ölkəmizin digər muxtar respublikalarının tarixinə nisbətən az öyrənilmiş və sosializm quruculuğu dövrünü əhatə edən heç bir tarixi əsər yaranmamışdı».

Əsərin bu gün də aktuallığını itirmədiyini və Naxçıvan Muxtar Respublikasının yarım əsrdən çox bir dövrünün tarixini nisbətən dolğun əhatə etdiyini, həmçinin, müəllifin xatirəsini əziz tutaraq, onun öz sağlığında həyata keçməmiş istəyini və ailəsinin də bugünkü arzusunu nəzərə alaraq biz həmin əsəri yeni baxımdan yanaşmaqla çapa hazırlamaq qərarına gəldik. Hörmətli oxucuların nəzərinə çatdırırıq ki, kitab çapa hazırlanarkən müasir tələblər baxımından əsərin adının dəyişdirilməsini lazım bilmiş, onun məzmununa xələl gətirməyən bir sıra redaktə xarakterli dəyişikliklər aparılmışdır. Həmçinin, müəllifin ömrünün son illərində «Azərbaycan Kommunisti» və «Dirçəliş» jurnallarında dərc etdirdiyi maraqlı məqalələrini əsas götürərək «Naxçıvan Muxtar Respublikası 1918 — 1920-ci illərdə» bölməsi əsərə əlavə edilmişdir. Bütün bu işlərin həyata keçirilməsində Səid müəllimin (iş yoldaşları — tarix elmləri doktoru Rizvan Zeynalovun və tarix elmlərin namizədi Kamil Muxtarovun xidmətləri xüsusi qeyd olunmalıdır.

Ümidvarıq ki, tariximizin hər hansı dövrünə dair yeni əsərləri maraqla izləyən tələbkar oxucularımız S. H. Sadıqovun onların mühakiməsinə təqdim olunan bu əsərini də maraqla qarşılayacaqlar.

**Vaqif ARZUMANLI,**
**Azərbaycan EA Milli Münasibətlər İnstitutunun direktoru, professor.** [7]

# GİRİŞ

Rusiyada 1917-ci il fevral inqilabı nəticəsində mütləqiyyət üsul-idarəsinə son qoyulması demokratiyanın inkişafı üçün əlverişli imkanlar açdı. Rusiya cəmiyyətinin demokratik əsaslar üzərində qurulacağına artan ümid Rusiya İmperiyasında əsarət altında yaşayan xalqların həyatında da xeyli canlanma yaratmış, onların öz müqəddəratını təyin etməsi uğrunda fəal mübarizəyə qoşulmasına ciddi təsir göstərmişdi. Rusiyada 1917-ci il fevral inqilabının indiyədək bilərək açılmamış bir çox qaranlıq səhifələri öyrənildikcə daha çox aydın olur ki, məhz fevral inqilabından sonra dünyanın ən nəhəng imperiyalarından birində məzlum xalqlar bir qədər sərbəst nəfəs almaq, ilk dəfə olaraq özlərini əsl mənada azad insan kimi dərk etmək üçün müəyyən imkanlar qazanmışdılar. Əlbəttə, hadisələrin sonrakı gedişi göstərdi ki, bir çox məsələlər özlərinin milli hüquqları uğrunda mübarizəyə qalxan xalqların həmin mübarizəyə nə səviyyədə hazır olmasından xeyli dərəcədə asılı olmuşdur. Yəni, demokratik rejimin cücərtiləri şəraitində , milli mənlik şüurunu dərk etmiş xalqlar daha böyük müvəffəqiyyətlər əldə etmiş olurdular. Əgər bu gün müstəqil Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsini təşkil edən Naxçıvan Muxtar Respublikası inkaredilməz bir gerçəklikdirsə, bunlar məhz ona görə mümkün olmuşdur ki, bizim xalqımız da vaxtilə Rusiya imperiyasının dağılması ilə başlanğıcı qoyulmuş nəhəng ictimai və siyasi hadisələrin fəal iştirakçısına çevrilə bilmişdir.

Hətta, 1917-ci ilin oktyabrında çevriliş yolu ilə hakimiyyətə kələn bolşeviklər, iradələri əksinə olsa belə, xalqların öz müqəddəratını təyin etməsi hüququna ciddi əhəmiyyət verməyə məcbur olmuşlar. Çünki onlar bilirdilər ki, çoxluğun deyil, azlığın iradəsi ilə, demokratik prinsiplər əsasında deyil, çevriliş yolu ilə hakimiyyətə gəlmişlər. İlk vaxtlar, hakimiyyətdə möhkəmlənmək, yalan, məstedici vədlər verməklə, başqa ad altında dağılmış imperiyanı əvvəlki sərhədlərində bərpa etmək üçün [8-9]onlara çoxluq təşkil edən qeyri-rus xalqların rəğbət və etimadı lazımdır. Elə, onların hakimiyyətdə qalacaqları təqdirdə milli məsələni həll edəcəkləri barədə verdikləri vədlər, yeni yaradılacaq ittifaq dövlətində bütün millətlərin bərabər hüquqlu olacağı, hər bir xalqın dilinə, dininə, mədəniyyətinə hörmətlə yanaşılacağı barədə söylədikləri xoş sözlər də daha çox təbliğat məqsədi güdür, xüsusən Sovet hakimiyyətinin ilk illərində bolşeviklər üçün zəruri olan həmin etimadın qazanılmasına xidmət edirdi. O dövrdə yaradılmış çoxlu milli dövlət ərazi vahidləri (muxtar respublika, muxtar vilayət, milli mahal, milli qəza, milli rayon və hətta milli kənd sovetlikləri) məhz həmin məqsədyönlü siyasət naminə həyata keçirilmişdi.

Biz, indi, heç olmazsa, bununla təsəlli tapırıq ki, Azərbaycanda da o dövrdə elə ağıllı, düşünən başlar, millətinin tarixinə dərindən bələd olan, xalqın dərdlərini yüngülləşdirmək və bir əsrdən artıq gözlədiyi azadlığı ona qovuşdurmaq istəyən istedadlı və bacarıqlı oğullar tapıldı. Onlar xalqı milli ideya bayrağı altında birləşdirib, ona milli mənlik şüurunu — azərbaycançılı ideyalarını aşılaya bildilər. Onlar xalqın önündə gedərək azad və müstəqil Azərbaycan Demokratik Respublikasını yaratdılar. 23 ay ömür sürmüş həmin milli dövlətimizin rəhbərləri Naxçıvan diyarını həmişə Azərbaycanın ayrılmaz hissəsi saymış, bu məqsədə nail olmaq üçün bütün vasitələrdən (o cümlədən, diplomatik, hərbi) istifadə etməyə hazır olduqlarını bildirmişlər.

Bütün bunlarla yanaşı, hadisələrin mərkəzində, hər vaxt daşnak Ermənistanının təcavüzünə, quldur Andronikin başkəsənlərinin basqınlarına mərdliklə sinə gərərək özlərini heç vaxt Azərbaycansız təsəvvür etməmiş Naxçıvan diyarının mərd əhalisi durmuşdu. Məhz onların qəhrəmancasına mübarizəsi sayəsində Naxçıvan həmişə Azərbaycanın tərkib hissəsi kimi qalmış, erməni daşnakları bütün dövrlərdə burunları ovularaq Naxçıvan ərazisindən qovulmuşlar. Naxçıvan muxtariyyətinin qorunub saxlanması da ilk növbədə məhz Naxçıvan əhalisinin xidmətidir. Naxçıvan Azərbaycanın tərkibində muxtar respublika statusu aldıqdan sonra diyarın iqtisadi, sosial və mədəni quruculuq yollarında əldə etdiyi bütün uğurlar da yenə Naxçıvan Muxtar Respublikası əhalisinin yaradıcı əməyinin bəhrəsidir. Bütün bu deyi [9-10]lənlər Naxçıvan Muxtar Respublikası tarixinin öyrənilməsinin nə qədər zəruri olduğunu bir daha təsdiq edir.

İndiyə qədər yazılmış tarix kitablarında Naxçıvan Muxtar Respublikası tarixinin ayrı-ayrı dövrləri öyrənilsə də, onun dolğun şəkildə hələ bütövlükdə tədqiq olunması, nəşri hələ də başa çatdırılmamışdır halbuki, həmin tarixin öyrənilməsinin, Naxçıvan Muxtar Respublikasında son 50—60 ildə baş vermiş nəhəng dəyişikliklərin ümumiləşdirilərək kitab halında nəşr edilməsinin çox böyük siyasi, tərbiyəvi və elmi əhəmiyyəti vardır. Bu həm də tarix elmimizin inkişafına mühüm töhfə ola bilər. Naxçıvan Muxtar Respublikasının tarixinin öyrənilməsi bir də ona görə vacibdir ki, bu muxtar respublikanın tarixi keçmişi SSRİ-nin digər muxtar respublikaları ilə müqayisədə nisbətən az öyrənilmişdir. Burada, xüsusilə Naxçıvan Muxtar Respublikası yaradıldıqdan sonra, yeni həyat quruculuğu, iqtisadi və mədəni inkişafın müxtəlif sahələrində əldə edilmiş zəngin, təcrübə, heç şübhəsiz, ciddi maraq doğurur və onun öyrənilməsinə ehtiyac vardır.

«Azərbaycan tarixi»nin akademik nəşrinin üçüncü cildinin hər iki kitabında və digər kollektiv əsərlərdə Naxçıvan MR tarixinə yeri gəldikcə toxunulsa da, bunlar çox vaxt epizodik xarakter daşımış və muxtar

respublika tarixi barədə tam təsəvvür yaratmamışdır. Təsəvvür edin ki, bir nəfər tarix fakültəsi tələbəsi Naxçıvan Muxtar Respublikası tarixindən kurs işi, yaxud diplom işi yazmaq istərsə, o, nə qədər çətinliklərlə üz-üzə gəlməli olacaqdır. Çünki kitabxanalarımızda Naxçıvan Muxtar Respublikası tarixinə dair biblioqrafik mövzu göstəricisi belə, demək olar ki, yox dərəcəsindədir. Beləliklə, Naxçıvan Muxtar Respublikası tarixini dolğun əks etdirən kitabın buraxılması, onun zəngin biblioqrafiya ilə təchiz edilməsi bu baxımdan da çox əhəmiyyətli bir işdir.

Monoqrafiyanı çapa hazırlayarkən müxtəlif sənəd materialları, statistik materiallar və tədqiqatlar müəllif tərəfindən bir daha nəzərdən keçirilmişdir. 1925 — 1927-ci illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin sədri işləmiş H. Sultanovun «Naxçıvan diyarı və onun «iqtisadiyyatı» kitabı (Bakı, 1927) və çoxlu məqalələri, N. A. Sokolskinin kitabları («NSSR-in öyrənilməsinə dair materiallar», Tiflis, I və II kitab, 1931 və 1933-cü illər) [10-11] və məqalələri müəllifə Naxçıvan Muxtar Respublikasının tarixinə, iqtisadiyyat və mədəniyyətinə dair zəngin materiallar vermişdir. Q. Ə. Mədətovun «Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının təşkili» kitabı (Bakı, 1958) Naxçıvanda 1917 — 1924-cü illərdə baş vermiş hadisələri öyrənmək üçün olduqca qiymətli mənbədir. T. Ə. Novruzovun «Böyük Vətən müharibəsi dövründə Azərbaycanın kolxozçu kəndlilərinin əmək hünərləri (1941 — 1945-ci illər)», (Bakı, 1969, rus dilində) və C. B. Quliyev, Q. Ə. Mədətov, A. A. Nadirovun «Sovet Naxçıvanı» (Bakı, 1984, rus dilində) kitabları da Naxçıvan Muxtar Respublikası tarixinin ayrı-ayrı dövrlərini öyrənməkdə mühüm mənbələr sayıla bilər.

Naxçıvanın Sovet dövrü tarixinin müxtəlif mövzularına həsr olunmuş H. M. Hüseynovun, M. M. Niftəliyevin, İ. Şükürzadənin namizədlik dissertasiyaları və Ə. İ. Əliyevin kitabçası Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmlənməsi, xalq təsərrüfatının bərpası dövründə mədəni quruculuq məsələlərini və ikinci dünya müharibəsi dövrünü öyrənməyə imkan verir.

Bunlardan əlavə, bir sıra müəlliflər Azərbaycan tarixinin sovet dövrünə dair müxtəlif problemlərini öyrənərkən yeri gəldikcə Naxçıvan Muxtar Respublikasında baş verən hadisələrə də öz münasibətlərini bildirmişlər ki, onların araşdırmaları da Naxçıvan Muxtar Respublikası tarixini öyrənməyə bu və ya başqa dərəcədə kömək edir.

Bununla belə bir daha qeyd edilməlidir ki, muxtar respublikanın tarixinin ayrı-ayrı dövrlərinə həsr olunmuş kitab, kitabça və dissertasiyaların heç birində hadisələrin şərhi tam əhatəli səviyyədə verilməmiş, arxiv sənədləri, dövri mətbuat və 20-ci illərdə dərc olunmuş tarix ədəbiyyatı kifayət qədər araşdırılıb ümumiləşdirilməmişdir. Kitab muxtar respublikada sosializm quruculuğu illəri adlanan dövrdə baş vermiş prosesləri və dəyişiklikləri daha dolğun işıqlandırmaq baxımından da ilk cəhd sayıla bilər.

Kitab yazılarkən Moskva və Bakının partiya tarixi arxivlərində, Azərbaycan, Ermənistan və Gürcüstan SSR mərkəzi dövlət arxivlərində saxlanılan çoxsaylı sənəd materiallarından, dövri mətbuat və tarix ədəbiyyatından geniş istifadə olunmuşdur. [11]

# NAXÇIVAN DİYARI 1918— 1920-ci İLLƏRDƏ

1918 — 1920-ci illərdə Naxçıvan diyarında baş verən hadisələr, Andronik başda olmaqla erməni quldurlarının Naxçıvan, Şərur—Dərələyəz və Ordubad qəzalarında törətdikləri milli qırğınlar, bununla əlaqədar olaraq dəhşətli və faciəli şəkil almış ictimai və siyasi vəziyyət Zaqafqaziya hüdudları çərçivəsindən çox-çox kənara çıxaraq beynəlxalq problemə çevrilmişdi. Törədilmiş milli qırğınlar nəticəsində diyarın təsərrüfat həyatı ciddi tənəzzülə uğramış, mədəniyyəti əvəzolunmaz itkilərə məruz qalmış, əhalisinin sayı isə azalmışdı. Hərbi əməliyyatlar kənd və şəhərlərin dağılmasına, boşalmasına səbəb olmuşdur. Göstərilən illərdə Naxçıvan, Ordubad, Şərur — Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd ya tamam, ya da qismən dağıdılmışdı.

Naxçıvan məsələsi 1918-ci ildə bir neçə dəfə Zaqafqaziya seymində, 1918 — 1920-ci illərdə dəfələrlə Azərbaycan Demokratik Respublikasının parlamentində və Milli Şurasında, Erməni Milli Şurasında, Ermənistan və Türkiyə parlamentlərində, Təbriz bələdiyyə idarəsində, Maku xanlığında, 1919-cu ildə Versal sülh konfransında, 1919 — 1920-ci illərdə Ermənistanda və Naxçıvanda olan ABŞ nümayəndəliyində, 1920 —1921-ci illərdə Azərbaycan SSR və Ermənistan SSR inqilab komitələrində, 1921-ci il martın 16-da RK(b)P Siyasi Bürosunda və 1920 — 1921-ci illərdə RSFSR Xalq Komissarları Sovetində, həmçinin, 1920-ci ildə Moskva və Qars şəhərlərində keçirilmiş beynəlxalq sülh konfranslarında müzakirə edilmişdir. Naxçıvan məsələsinin həllinin bir o qədər də asan bir iş olmadığını bundan da görmək olar ki, Zaqafqaziyanın, RSFSR-in, Türkiyənin, İranın və hətta Avropa ölkələrinin bir çox görkəmli dövlət xadimləri, diplomatları, hərbçiləri vaxtilə həmin məsələ ilə ciddi məşğul olmuş və onu dinc vasitələrlə nizama salmağa çalışmışlar. Onların bir çoxunun məsələyə vicdanla və məsuliyyətlə yanaşması müşkül görünən dü[12-13]yünlərin açılmasına və beləliklə də, məsələnin ədalətli ən başlıcası isə, həmişəlik həllinə imkan vermişdir.

Bəs, Naxçıvan məsələsinin mürəkkəbliyi nədə idi? Nə üçün həmin məsələ nisbətən uzun müddət bir sıra dövlətlərdə, beynəlxalq təşkilatlarda iclasların az qala daimi müzakirə obyektinə çevrilmişdir? Həmin suallara düzgün cavab tapmaq üçün qədim Azərbaycan torpağı olan Naxçıvanda 1917 — 1920-ci illərdə baş vermiş ictimai-siyasi hadisələrin bir daha qısa xülasəsini verməklə, onları yeni baxımdan işıqlandırmağa ehtiyac vardır.

Rusiyada 1917-ci il fevralın 27-də çarizm devrildikdən sonra, bütün imperiyada olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlik meydana gəldi. Bir tərəfdən, diyarda qəza komissiyalarının və ictimai təşkilatların kənd icraiyyə komitələrinin şəxsində müvəqqəti hökumətin hakimiyyəti yarandı, digər tərəfdən isə Naxçıvanda əlahiddə fəhlə və əsgər deputatları Sovetləri, Culfa şəhərində, habelə Şahtaxtı dəmir yolu stansiyasında əsgər Sovetləri təşkil edildi.[1]

1917-ci il martın 9-da təsis edilən Xüsusi Zaqafqaziya Komitəsi elə həmin aydan başlayaraq bütün Zaqafqaziyada, o cümlədən Azərbaycan qəzalarında müvəqqəti hökumətin hakimiyyət orqanları olan ictimai təşkilatların icraiyyə komitələrini və komissarlıqları yaratmağa başladı. Naxçıvan və Şərur qəzalarına isə Xüsusi Zaqafqaziya Komitəsinin vəkalətli komissarları 1917-ci il aprel ayının axırlarında təyin edilmişdi. Yalnız 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkilləri Naxçıvanda yerli hakimiyyət orqanları — qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başlamışdılar. Sonrakı aylarda kənd ictimai təşkilatlarının icraiyyə və ərzaq komitələrinə seçkilər keçirilmiş, 1917-ci ilin yayında isə Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının yaradılması başa çatdırılmışdı.[2]

Rusiyada fevral «inqilabının qələbəsi və mütləqiyyətin devrilməsi əsarət altına alınmış xalqlar arasında azadlığa olan ümidləri artırdı, milli azadlıq hərəkatının genişlənməsində yeni bir mərhələ oldu. Azərbay[13-14]can xalqı da fevral inqilabının xəbərini böyük sevinc və ruh yüksəkliyi ilə qarşıladı. Fevral hadisələrindən sonra «Müsavat» partiyası açıq fəaliyyətə başladı, Gəncədə Federalistlər partiyası, İrəvanda «İrşad» milli partiyası təsis edildi.

Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə müvafiq olaraq təmsil edildiyi «qarışıq milli komitələr» yaradıldı. Milli komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmlənməsinə də kömək edirdilər. Eyni zamanda, milli komitələrin silahlı qüvvələrinin yaradılmasına başlanırdı. Milli komitələrdə təmsil olunan əsas partiyalar — müsavatçılar və daşnaklar öz qüvvələrinin sayını artırmaq məqsədilə yerlərə öz təşkilatçılarını göndərirdilər. Əlbəttə, ilk vaxtlar, belə tədbirlər, daha çox demokratik vasitələrə riayət etməklə həyata keçirilmişdi. Onu da qeyd edək ki,

---

[1] *Hacıbaba Əzimov.* Azərbaycan qəzalarında Sovetlər. Bakı, 1971, s. 18

[2] *Q. Mədətov.* Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili, Bakı, 1958, səh. 14-15.

Naxçıvan diyarında azərbaycanlıların əhalinin böyük əksəriyyətini təşkil etməsi (61 faizdən çox)[3] onların qarışıq milli komitələrdə də təmsil olunmasında özünü göstərirdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından onlar müxtəlif fitnəkarlıqlara əl atır, milli nifaqı qızışdırırdılar. Bu isə, öz növbəsində, müsavatçıların və daşnakların qarışıq milli komitələrdə birgə fəaliyyət göstərməsini getdikcə çətinləşdirirdi. Milli Komitələrin «milli hissələr» bayrağı altında özlərinin silahlı qüvvələrini yaratması fitnəkarların mövqeyini, xüsusilə təhlükəli edirdi.

Naxçıvan milli komitələrində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması hadisələrin sonrakı gedişatının göstərdiyi kimi, dinc əhalinin daşnak, fitnələrindən qorunmasında çox böyük əhəmiyyəti olmuşdu.

Naxçıvanda fəaliyyət göstərən Sovetlərin işinə gəldikdə isə göstərmək lazımdır ki, onlar daha çox rus ordu hissələrinə arxalanmışlar. Məsələn, 1917-ci il martın 9-da Naxçıvanda ştab-kapitan Prokopoviçin təşəbbüsü ilə yaradılan qarnizon komitəsi fəaliyyətinin ilk günlərində qarnizon rəisi Qrippenberqi vəzifəsindən kənar etmiş, Tiflis qarnizonu Sovetinin İcraiyyə[14-15] Komitəsi ilə əlaqə yaratmağa çalışmışdı. Martın ortalarında Şahtaxtı Soveti 6-cı Qafqaz fəhlə batalyonunun polkovniki Vişkonu həbs etmişdi.[4] Göründüyü kimi, xüsusilə, ilk vaxtlar Sovetlərin fəaliyyətində yerli əhalinin iştirakı yox dərəcəsində olmuşdur. Təbiidir ki, rus qoşun hissələri Naxçıvandan çəkildikdən sonra Sovetlərin fəaliyyəti xeyli zəifləmişdi və onlar Naxçıvan milli komitələri tərəfindən darmadağın edilmişdilər.

1918-ci ilin əvvəllərində Naxçıvanın başı üstünü ciddi təhlükə almışdı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdılar.

1918-ci ilin fevralında Zaqafqaziya Komissarlığını (1917-ci il noyabrın 11-də Xüsusi Zaqafqaziya Komitəsini əvəz etmiş Zaqafqaziya hökuməti) Zaqafqaziya seyminin (qanunvericilik orqanı) əvəz etməsi və Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq uğrunda fəaliyyətin güclənməsi Naxçıvan milli komitəsindəki ziddiyyətləri daha da dərinləşdirdi və müsavatçılarla daşnakların birgə fəaliyyətini qeyri-mümkün etdi.

Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsi yalnız güclü hərbi qüvvəyə arxalanmaqla baş tuta bilərdi.

Bakının daşnakların və eserlərin əlində olduğu bir şəraitdə Naxçıvan Milli Komitəsi real köməyi yalnız türklərdən ala bilərdi. Odur ki, 1918-ci ilin yazında Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski o zaman türklərin tabeliyində olan Maku xanlığına getmiş və burada Maku xanının vasitəsilə türk komandanlığı ilə əlaqə yaratmış və Naxçıvana türk hərbi dəstələri yeridilməsi barədə danışıqlar aparmışdı. Qəribə də olsa, Naxçıvan əhalisinin təhlükəsizliyinə heç bir təminat vermək iqtidarında olmayan Zaqafqaziya seyminin Naxçıvan qəzasındakı nümayəndəsi Cəfərqulu xanın bu hərəkətindən narazı qalmış və bunu Naxçıvan xanlarının Zaqafqaziya seymini və Rusiyanı tanımaq istəməsi kimi qiymətləndirmişdi.[5] Görəsən, Naxçıvan əhalisinin başı üstünü almış real daşnak təhlü[15-16]kəsi şəraitində Cəfərqulu xan daha kimdən kömək uma bilərdi.

Onu da qeyd etmək olar ki, daşnakların niyyətlərinə yaxşı bələd olan türk komandanlığı hələ 1918-ci ilin fevralında bir sıra təhlükəsizlik tədbirləri görərək, öz qoşunlarını şərq istiqamətində xeyli irəli çəkmişdi. Bu əməliyyatın vacibliyi onunla izah edilirdi ki, Şimali İrandakı ingilis ordusu Türkiyə sərhədlərinə xeyli yaxınlaşaraq onun həyati mənafeyi üçün real təhlükə yaratmışdı. Türk komandanlığı Zaqafqaziya Komissarlığı nümayəndələri ilə danışıqlarda ingilislərə qarşı fəal döyüş əməliyyatları keçirmək məqsədilə, həmçinin, Naxçıvan və Şərur — Dərələyəz qəzalarının və Culfa — Aleksandropol dəmir yolu xəttinin onların nəzarəti altına keçməsi zəruriliyini göstərirdilər. Əgər bu belə olardısa, o zaman Naxçıvan diyarının da daşnak basqınlarından qorunması üçün real təminat artardı. Zaqafqaziya Komissarlığı hələ 1917-ci il dekabrın 18-də 3-cü türk ordusunun komandiri Vahid paşa ilə barışıq bağlasa da, türklərin bu tələblərini qəbul etməmişdi. Lakin türklərin Zaqafqaziya Komissarlığı ilə müstəqil surətdə danışıqlara başlamaq təklifi qəbul olunmuşdu. Bu isə Zaqafqaziyanı Rusiyadan ayırmaq yolunda ciddi addım sayıla bilərdi. Danışıqlar 1918-ci il martın 14-də Trabzon şəhərində başlanmışdı. 1918-ci il aprelin 22-də Zaqafqaziya seyminin «Zaqafqaziyanı müstəqil demokratik, federativ dövlət elan etməsi ilə Zaqafqaziyanın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi.[6] May ayında Türkiyə ilə danışıqlarda heç bir irəliləyişin olmamasa mayın 19-da danışıqların kəsilməsi, sonra

---

[3]Azərb. OİMDA, f. 970, siyahı 1, iş 42, vərəq 3—4
[4] *Hacıbaba Əzimov.* Göstərilən əsəri, səh. 52.
[5].Gürcüstan OİMDA, f. 8, siyahı 1, iş 179, vərəq 43.
[6] С.Т. Аркомед Материалы по истории отпадения от России, Тифлис, . 1931, с. 25.

Zaqafqaziyada üç müstəqil respublikanın — Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi.

Azərbaycan Demokratik Respublikası yarandığı gündən Naxçıvan diyarının əhalisi özünün bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də, yaranmış siyasi və beynəlxalq vəziyyət xalqın arzusunu həyata keçirməyə imkan verməmişdi.

1918-ci ilin yayında Naxçıvan iki tərəfdən məngənə arasında qalmışdı: bir tərəfdən Naxçıvanın özündə yaşayan erməni əhalisi diyarın Ermənistana birləşdiri[16-17]ləcəyi barədə şayiələrdən xoşlanaraq artıq bu yerlərə Ermənistanın bir hissəsi kimi baxır və daxildə hər cür fitnəkarlıqlar törədirdilər. Digər tərəfdən isə daşnakların ingilislərdən geniş yardım alaraq Culfanı öz əlinə keçirmiş başçısı Andronik Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdı: Süst, Çeşməbasar, Tumbul və s. kəndlər tamamilə dağıdılmışdı. Lakin bu azğınlıqlara baxmayaraq müttəfiq dövlətlər — İngiltərə və Fransa daşnakların hərbi əməliyyatlarına yardım göstərdiklərini bildirməkdə davam edirdilər.[7]

Yaranmış ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi türklərlə əlaqəni daha da genişləndirməyi lazım bildi. Onu da qeyd edək ki, həmin vaxtda türklər Şərur — Dərələyəz və İrəvan — Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın komandanlığı altında olan türk diviziyası Şərur qəzasına daxil olduqdan sonra hücumu müvəqqəti dayandırdığından Andronikin Naxçıvanı ələ keçirməsi üçün əlverişli imkan yaranmışdı. Belə bir şəraitdə Naxçıvan Milli Komitəsi daşnakların üstün qüvvələri qarşısında döyüşə girmədən geri çəkilməyi məqsədəuyğun saymışdı. Bu zaman xalq özü torpaqlarının müdafiəsinə qalxmışdı. Nehrəm kəndində bütün qonşu kəndlərin nümayəndələrinin iştirakı ilə xalq qoşunu dəstələri yaradılmışdı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andronikin quldur dəstəsi ilə qarşılaşaraq onu əzdi. Andronik biabırçılıqla Qarabağ dağlarına qaçdı. Bu hadisədən sonra, görünür, yeni daşnak talanlarına yol verməmək məqsədilə türk qoşunları, Naxçıvana, Ordubada və Culfaya daxil olmuşdular. Daşnaklarla döyüşdə qətiyyət göstərməməsi, ilk vaxtlar, türklərlə Naxçıvan Milli Komitəsi arasında münasibətlərin soyumasına səbəb olmuşdu. Çünki Naxçıvana daxil olam kimi türklər ilk siyasi tədbir kimi Naxçıvan Milli Komitəsini və adilli hissələri buraxmışdılar. Xəlil bəy Naxçıvanın general-qubernatoru təyin olunmuşdu. Lakin bu vəziyyət çox da uzun sürməmişdi. Tezliklə Naxçıvan Milli Komitəsinin və onun silahlı dəstələrinin fəaliyyəti bərpa edilmişdi. 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü vəsabit [17-18]yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Elə yerli hakimiyyət ki, daşnakların hücumuna davam gətirərək diyarı heç vaxt onların tapdağı altına verməsin. 1918-ci ilin axırlarında, yəni türk qoşunları Naxçıvan ərazisini tərk etməzdən əvvəl yaradılan, ərazisi əsasən Naxçıvan və Şərur — Dərələyəz qəzalarından ibarət olan Araz Respublikası da məhz bu məqsədə xidmət etmişdi. Həm də Araz Respublikasının yaradılması ilə türklərin Naxçıvan diyarı ilə əlaqələri də tamam kəsilmirdi. Onlar Araz Respublikası nəzdində Xəlil bəyin şəxsində özlərinin daimi hərbi müşavirinə malik olacaqdılar. Bundan başqa türklərin Naxçıvanda 5 zabiti və 300 əsgəri qalırdı. Naxçıvanın ingilislər tərəfindən işğal edilməsi ilə əlaqədar həmin əsgər və zabitlər forma və silahlarını gizlədərək özlərini müxtəlif peşə sahibləri kimi qələmə vermiş və Naxçıvanın müxtəlif kəndlərində özlərinə məskən salmışdılar.

1919-cu ilin yanvarında ingilislər Naxçıvanı işğal etdilər. Araz Respublikasına Türkiyənin yaratmış olduğu oyuncaq dövlət qurumu kimi baxan ingilislər onunla hesablaşmağı lazım bilmir, Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək üçün üsul və vasitələr axtarır, fəal danışıqlar aparırdılar. Hələ 1919-cu il yanvarın əvvəllərində Böyük Britaniya ordusunun mayoru Gibbon Naxçıvana gəlmişdi. Onun gəlişinin əsl məqsədi diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz Respublikası silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdur. [8]

1919-cu ilin fevralında digər bir ingilis emissarı kapitan Lautonun başçılıq etdiyi nümayəndə heyəti də Naxçıvana gəlmişdi. O, Britaniya qoşun hissələrinin Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda yerləşdirilməsi, bu yerlərdə bütün məsələlərin ingilis hakimiyyət orqanları tərəfindən həll ediləcəyi barədə danışıqlar aparmışdı. Naxçıvan rəhbərləri yerli muxtariyyəti saxlamaq şərti ilə ingilislərin təkliflərini qəbul etmiş və bunun işdə sübutu kimi bir neçə ingilispərəst yerli xadimi öz hökumətlərinin tərkibinə daxil etmişdilər. Əlbəttə, Azərbaycan Demokratik Respublikasının (ADR) beynəlxalq mövqelərinin kifayət qədər aydınlaşmadığı bir şəraitdə bütün bunlar ingilislərə münasib[18-19]ətdə yol verilən zəruri güzəştlər idi. Daha doğrusu, digər çıxış yolu olmayası, daşnak təhlükəsinin isə daim yaxında olması ilə izah edilən güzəştlər idi.

Onu da qeyd etmək olar ki, həmin vaxtda Azərbaycan Demokratik Respublikası ilə münasibətləri sıxlaşdırmaq yolunda ilk addımlar atılmışdı. Belə ki, 1919-cu ilin martında Araz Respublikası hərbi hissəsinin

---

[7] G. Mədətov. Göstərilən əsəri, səh. 39

[8] *Q. Mədətov.* Göstərilən əsəri, səh. 45-46.

rəisi, müsavatçı Bəhram xan Naxçıvanski Bakıya göndərilmişdi. Yolüstü o, Tiflisdə və Gəncədə danışıqlar aparmışdı. Məhz Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən və ADR rəhbərləri ilə danışıqlarından sonra iki respublika arasında qardaşlıq əlaqələrinin xeyli canlanması müşahidə edilir. Danışıq və razılaşmalardan sonra ADR hökumətinin Naxçıvana göndərdiyi 10 nəfərlik zabit heyəti Araz Respublikasının hərbi hissələrində təlim keçmiş, kəşfiyyat işlərinin təşkilində və sərhəd xətlərinin möhkəmləndirilməsində iştirak etmişdi. Danışıqlarda, həmçinin, Naxçıvanın ADR-in tərkibinə daxil olunması məsələlərinə də toxunulmuşdu.

Böyük Britaniya komandanlığının Naxçıvana münasibətdə siyasətində ikiüzlülük həmişə özünü göstərmişdir. Bunu sübut edən sənədlər istənilən qədərdir. Məsələn, 1919-cu il martın 10-da Ermənistanla Naxçıvan sərhədində duran daşnak hərbi hissəsindən Ermənistanın daxili işlər nazirinə göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı daşnakların Şərur qəzasının bir sıra kəndlərini tutmasına etiraz etmir. Yaxud da, 1919-cu il mayın 4 — 5-də ingilis generalı Devi Naxçıvana gələrək bildirmişdi ki, Naxçıvan və Şərur qəzası Ermənistan Respublikası ərazisində yerləşdiyinə görə Ermənistan hökumətinə tabe olmalıdır. Lakin həmin təklif müzakirə olunduqda müsəlmanların yığıncağı qərara almışdı ki, ermənilərin tutmuş oldular ərazilərdə müsəlmanların vəziyyətinin hədsiz dərəcədə ağır olduğu nəzərə alınmaqla Devinin təklifi məqbul sayıla bilməz. Naxçıvan və Şərur qəzalarının müsəlmanları özlərinin və yaşadıqları ərazinin Azərbaycan Respublikasına tabe olduğunu təsdiq edir və erməni silahlı hissələrini deyilən qəzaların ərazisinə buraxmamağı qərara alırlar. [9] Lakin ingilis komandanlığı xalqın bu haqlı tələbinə məhəl qoymadı.

İngilislərin himayədarlığından istifadə edən daşnaklar ingilis zabitlərinin iştirakı ilə 1919-cu ilin [19-20]iyununda Naxçıvanı tutdular. Araz Respublikası hökuməti süqut etdi. Naxçıvan əhalisinin müsibətli günləri başlandı. Naxçıvanda yeni təşkil edilmiş general-qubernatorluğa əvvəlcə general Şelkovnikov, sonra isə qatı daşnak Varşamyan başçılıq edirdi. General Şelkovnikov və general Devinin imzaladıqları bəyannamədə milli sülh, kəndlilərə dinc həyat və torpaq vəd edilsə də, əslində, bu yerlərdə azərbaycanlıların təqib edilməsi, öldürülməsi daşnaklar üçün həyat normasına çevrildi. 1919-cu ilin iyununda Naxçıvan, Şərur və Ordubaddan gələn məlumatlara görə, Ermənistan hökuməti müsəlman xadimləri həbs edir, hər addımda axtarışlar aparır, müsəlmanların əmlakını müsadirə edirdi. Ermənistan hökumətinin nizami hissələri Naxçıvan yaxınlığındakı müsəlmanların yaşadıqları Bulqan kəndini atəşə tutmuşdu, əhali vahimə içərisində evlərini tərk etməkdə idi.[10]

Əlbəttə, Naxçıvan torpağında özlərini əsl qəsbkar kimi aparan ingilislər və daşnaklar hər an xalqın qəzəbinə düçar ola biləcəklərini də unutmurdular. Məhz xalqın intiqamından qorxduqları üçün ingilis nümayəndəsi və daşnak general-qubernatoru şəhərdə deyil, Naxçıvandan üç kilometrlik məsafədə yerləşən hərbi düşərgədə lövbər salmağı daha məqsədəuyğun saymışdılar.

Xalq düşmən işğalı altında yaşamağı özünə təhqir bilir və fəal çıxışlara başlayırdı. 1919-cu ilin yazında Ordubadda, Zeynəddin, Bulqan, Şahbuz, Qıvraq və sair kəndlərdə ingilislər və daşnaklar əleyhinə çıxışlar baş vermiş, işğalçıların Naxçıvan torpaqlarını tərk etməsi tələb olunmuşdu. Xoşbəxtlikdən xalqın həmin arzusunun həyata keçməsini çox gözləmək lazım gəlmədi. Milli azadlıq hərəkatının bütün dünyada genişlənməkdə olan dalğaları 1919-cu il iyunun sonu — iyulun əvvəllərində ingilisləri öz qoşunlarını Naxçıvandan çıxarmağa məcbur etdi. Onlar getdikdən sonra Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdı.[11]

1919-cu ilin ikinci yarısında Zaqafqaziya işlərində Paris sülh konfransı adından çıxış edən Amerika Birləşmiş Ştatlarının rolu kəskin surətdə artdı. Hələ [19-20]1919-cu ilin əvvəllərindən Azərbaycanla ciddi maraqlanan ABŞ nümayəndələri tez-tez Bakıda görünməyə başlamışdılar. Əlbəttə, onların Azərbaycana dair planlarında mühüm strateji mövqedə yerləşən Naxçıvan diyarına da xüsusi yer ayrılırdı. Lakin yeni hamilərin siyasəti də öz ikiüzlülüyü, daha çox ilk vaxtlar ermənipərəstliyi ilə ingilislərdən az fərqlənirdi. Məsələn, 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ polkovniki Rey eyni vaxtda həm müsavatçılarla, həm daşnaklarla, həm də türk zabiti Xəlil bəylə danışıqlar aparmışdı. O, Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq ideyasını irəli sürmüşdü. [12]

1919-cu il avqustun axırlarında Amerika polkovniki Qaskel Paris sülh konfransı və Antantanın ittifaq şurası adından ADR hökumətinə bildirmişdi ki, Naxçıvan və Şərur—Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general-qubernatorluğu təşkil olunacaqdır.

1919-cu il sentyabrın 1-də Qaskelin Paris sülh konfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi «Naxçıvan və Şərur — Dərələyəz qəzaları haqqında əsasnamə»də həmin fikirlər bir

[9] Газ. «Азербайджан», 16 мая 1919 г.
[10] Azərb. OİMDA, f. 970". siyahı 1, iş 142, vərəq 56—63.
[11] Yenə orada, iş. 42, vərəq 3-4.
[12] *Дж. Б. Гулиjев, Г. А. Мадатов, А. А. Надиров.* Советскаjа Нахичеванъ. Бакы, 1984, səh. 33-34.

daha nəzərə çatdırıldı. Əsasnaməyə görə, Naxçıvan və Şərur — Dərələyəz qəzalarını əhatə edən rayonlar bitərəf zona elan edilir və burada bütün idarəçilik işləri Amerika general-qubernatoruna tapşırılırdı: bütün hərbi qüvvələr, poçt, teleqraf onun tabeliyinə verilir, yerli vəzifəli şəxsləri general-qubernator təyin edirdi. Lakin ABŞ-ın həmin mövqeyi ADR hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilmədi. Hətta 1919-cu ilin oktyabrında polkovnik Qaskelin Naxçıvana səfəri də vəziyyətdə əsaslı dəyişiklik yaratmadı. Naxçıvan Milli Komitəsinin liderləri Cəfərqulu xan və Kəlbəli xan Qaskeli inandırmaq istəyirdilər ki, ABŞ-ın Zaqafqaziya işləri üzrə ali komissarına tabe olmaq şərti ilə Naxçıvanda general-qubernatorluğun yaradılması daha çox məqsədəuyğundur. ADR hökuməti isə Naxçıvanda Azərbaycanın general-qubernatorluğunun yaradılmasında israr edirdi.[20-21]

Türklərin Naxçıvandakı nümayəndəsi Xəlil bəy də ilk vaxtlar ADR hökumətinin mövqeyini müdafiə edirdi.[13]

Lakin amerikalılar diplomatik və hərbi (o vaxt bir qrup ABŞ zabiti İrəvana gəlmişdi və belə bir şayiə yayılmışdı ki, onların ardınca nizami ordu hissələri gələcəkdir) təzyiq vasitələrindən istifadə edərək öz mövqeyinin qəbul edilməsinə nail ola bildi.

1919-cu il oktyabrın 22-də Bakıda ADR-in rəsmi orqanı olan «Azərbaycan» qəzetində Naxçıvanda ABŞ polkovniki Edmund Deli başda olmaqla Amerika general-qubernatorluğunun təşkil olunması haqqında əsasnamə dərc edildi. Bu isə, əslində, çıxılmaz vəziyyətdə qalmış ADR rəhbərliyinin həmin məsələyə qeyri-rəsmi qaydada razılığı kimi qəbul edilə bilərdi. Bununla, belə, Azərbaycan hökuməti ilə Naxçıvan Milli Komitəsi arasında qardaşlıq münasibətləri əvvəlki kimi saxlanılırdı. Əldə olunmuş razılığa əsasən, ADR hökuməti altı min nəfərlik qoşun hissəsini silahlandırmağı Naxçıvan Milli Komitəsinə vəd etmişdi.

Qeyd olunmalıdır ki, Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılsa da, bu əcnəbi hakimiyyət qurumu Naxçıvan əhalisi arasında heç bir dayağa malik deyildi. Xalq ingilislər kimi, amerikalılara da şübhə ilə yanaşır, onların da Ermənistana açıq-aşkar rəğbət bəsləməsindən narazı qalırdı. 1919-cu il noyabr ayının əvvəllərində Naxçıvan general-qubernatorunun köməkçisi Xan-Pirin başçılığı ilə bir dəstə amerikalı zabit Naxçıvana gəldikdə bu narazılıq xüsusilə artdı. Qubernatorluğun binası qarşısında toplaşmış şəhər və kənd əhalisi Xan-Pirin və onunla gəlmiş zabitlərin dərhal Naxçıvandan çıxarılmasını tələb etdilər. General-qubernator Deli zabitləri geri qaytarmağa məcbur oldu və özü də şəhərdə qalmaqdan ehtiyat edərək Naxçıvan yaxınlığındakı hərbi düşərgəyə getdi. Həmin əhvalatdan sonra Delinin əmrləri öz kəskinliyini xeyli itirdi və daha çox «sülhpərvər» xarakter aldı.

1919-cu il noyabrın axırlarında polkovnik Rey Naxçıvana gəldi. Onun gəlişindən məqsəd Deli ilə Naxçıvan Milli Komitəsi arasındakı ixtilafları bir təhər yoluna qoymaqdan ibarət idi. Danışıqlar zamanı Kəlbəli xan və Xəlil bəy polkovnik Reyi razı sala bilmişdilər ki, Deli Naxçıvanda yerli müsavat hökuməti yanında[21-22] ABŞ-ın müşaviri kimi öz vəzifəsini icra etməyə başlasın. Vəziyyətin belə hal alması müsavatçıların nüfuzunun güclənməsi, ABŞ-ın mövqeyinin isə xeyli laxlaması demək idi. Hadisələrin bu məcrada inkişafı Naxçıvanın Azərbaycana birləşməsin ən yaxın perspektivə çevirə bilərdi. Buna yol verməmək üçün Rey və Deli Azərbaycanla Ermənistan arasında müharibə qızışdırmaqda savayı çıxış yolu görmədilər Onlar elə zənn edirdilər ki, müharibə baş verəcəyi təqdirdə, Naxçıvanda Azərbaycan silahlı qüvvələri olmadığı üçün Ermənistan ordusu qısa müddətdə Naxçıvan Milli Komitəsinin zəif qüvvələrini əzəcəkdir və beləliklə də Naxçıvanda əsl mənada ABŞ general-qubernatorluğu yaratmaq mümkün olacaqdır. ABŞ nümayəndəliyinin bu uğursuz addımı onun ümidlərini doğrulda bilməzdi. Əvvələn, bu, açıq ermənipərəst mövqe olduğundan, yalnız Naxçıvanda türklərin və müsavatçıların mövqeyinin güclənməsinə kömək edə bilərdi. İkinci tərəfdən də, başlanacaq hərbi münaqişədə hansı tərəfin üstünlük qazanacağını əvvəlcədən müəyyənləşdirməyin özü də düzgün deyildi və hadisələrin sonrakı gedişi bunu bir daha təsdiq etdi. Lakin uğursuz olsa da amerikalıların bu mövqeyi, Naxçıvanı işğal etməyə daim fürsət axtaran daşnak Ermənistanının Naxçıvana yeni, təcavüzü üçün kifayət qədər tutarlı dayaq nöqtəsi oldu. 1919-cu ilin sonlarında Naxçıvana hücum etmiş Ermənistanın nizami qoşun hissələri ilə Naxçıvan Milli Komitəsinin hərbi dəstələri arasında qanlı toqquşmalar başlandı. Lakin bu toqquşmalar amerikalıların ümidlərini doğrultmadı. Öz döyüş qabiliyyətini çoxdan itirmiş Ermənistan ordusu heç bir əhəmiyyətli müvəffəqiyyət qazanmadı. Amerikalıların gözlədiklərinin əksinə olaraq hərbi toqquşmalar, azərbaycanlı əhaliyə qarşı törədilən qanlı cinayətlər Naxçıvan Milli Komitəsinin başçısı, müsavatçı Kəlbəli xanın hərbi, inzibati və siyasi hakimiyyətini daha da möhkəmləndirdi. O, həmçinin, xəzinəyə, dəmir yoluna, poçt-teleqrafa və vergilərin qoyulmasına nəzarəti ələ keçirdi.

Buna baxmayaraq, amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhd göstərdikdə, onun müdafiəçilərinin vəziyyəti xeyli mürəkkəbləşdi. ADR-in özündə

---

[13] *Q. Mədətov.* Göstərilən əsəri, səh. 58

siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım [22-23]göstərilməsini çətin vəziyyətdə qoydu və demək olar ki, qeyri-mümkün etdi. Düşmənin üstün qüvvələri qarşısında tək qalmış Naxçıvan rəhbərliyi kömək üçün türklərə müraciət etməli oldu. Bu isə öz növbəsində Naxçıvanda Azərbaycanın mövqelərini xeyli zəiflətdi. Hətta 1920-ci ilin fevralında ADR hökumətinin nümayəndələri Naxçıvana tərk etməyə məcbur oldular. Qəribə də görünsə, o dövrdə müəyyən türk dairələrində güclənməyə başlayan antiazərbaycan əhval-ruhiyyəsi burada da öz təsirini göstərdi. Yəni Naxçıvanı Azərbaycandan «asılı olmayan ölkə» elan etmək planının həyata keçirilməsi müqabilində Türkiyənin Naxçıvana yardım göstərəcəyi vəd edildi. Türk zabiti Xəlil bəyin 11-ci türk diviziyasının komandiri Cavid bəyin adına göndərdiyi şəxsi məktubda da Naxçıvanı, erməni təcavüzündən qorumaq üçün türklərin himayəsi altına almağın zəruriliyi göstərilmişdi. Hər halda, nə ad altında həyata keçirilməsindən asılı olmayaraq Naxçıvan əhalisinin qırğından xilas edilməsi üçün belə köməyə həqiqətən ehtiyacı var idi. Yerli əhali nümayəndələrinin türk qoşunlarını Naxçıvana dəvət etmək barədə mətbuatda dərc olunmuş müraciətində də həmin məsələnin ölüm-dirim məsələsi olduğu qeyd edilmişdi. Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymur bəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi[14] əhali tərəfindən böyük şadlıqla qarşılandı. Hadisələrin sonrakı gedişi bir daha təsdiq etdi ki, bu tədbir Naxçıvan əhalisinin yeni qırğınının qarşısını almış, diyarın gələcək siyasi taleyinin həllində, yəni onun məhz Azərbaycanın tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli, bəlkə də müəyyənedici rol oynamışdır.

ADR-in süqutu ərəfəsində Naxçıvan diyarında yaranmış siyasi vəziyyət belə idi.[23-24]

---

[14] *Q. Mədətov.* Göstərilən əsəri, səh. 62.

## NAXÇIVANDA SOVET HAKİMİYYƏTİ NECƏ QALİB GƏLMİŞDİ?

1920-ci il yanvarın 11-də Azərbaycan xalqının tarixində çox mühüm və əlamətdar bir hadisə baş verdi. Həmin gün Paris Sülh Konfransının Ali Şurası Azərbaycanın istiqlaliyyətinin de-fakto kimi tanınması haqqında yekdilliklə qərar çıxardı. Azərbaycan xalqı yaratdığı demokratik dövlətlə sərbəst yaşamağa hazır olduğunu bütün dünyaya sübut etdi. 1920-ci il yanvarın 13-də «Azərbaycan» qəzeti bu şad xəbər haqqında məlumatı dərc etməklə xalqı ürəkdən sevindirdi. Yanvarın 14-də bütün Azərbaycan bayram içində idi. Elə həmin gün Azərbaycan parlamentinin təntənəli iclası oldu. Millət vəkilləri və parlamentin iclasında olmuş xarici qonaqlar daha sonra hərbi paradda iştirak etdilər. Azərbaycanın başqa şəhərlərində də təntənəli mərasimlər keçirildi. Azadlıq və müstəqillik qazanmış xalqın sevincinin həddi-hüdudu yox idi. Mart ayının əvvəllərindən Azərbaycan hökuməti öz suverenliyinin de-yure tanınması üçün, konkret tədbirlər həyata keçirməyə başladı. Fransa, Böyük Britaniya, İtaliya, ABŞ və Polşanın paytaxtlarında aprel ayının 1-dən fəaliyyət göstərəcək Azərbaycan diplomatik nümayəndəliklərinin yaradılması haqqında parlamentə qanun layihəsi təqdim edildi. Siyasi vəzifələrdən başqa bu nümayəndəliklər Azərbaycanın iqtisadi yüksəlişinə də kömək etmək üçün öz səlahiyyətləri daxilində hər cür tədbirlər həyata keçirə bilərdilər. Beləliklə, dünya ölkələri birliyi müsəlman Şərqinin ilk respublikasını tam hüquqla öz sıralarına qəbul idi. Əgər belə davam edərdisə, çox keçmədən qədim tarixə, dövlətçilik ənənələrinə və zəngin mədəniyyətə malik olan Azərbaycanı xalqı həm də siyasi cəhətdən inkişaf etmiş mədəni xalqlar arasında özünün layiqli yerini tutacaqdı. O vaxt Rusiyada ağalıq edən bolşeviklər və onların rəhbəri Leninin fikrincə isə məhz buna yol vermək olmazdı. Çünki belə olardısa, o zaman neft qıtlığı üzündən təsərrüfatı iflic vəziyyətinə düşmüş Rusiyanı xilas etmək çox müşkül işə çevrilərdi. Həqiqətən də bolşevik Rusiyası qarşısında bu məsələni həll etmək[25-26] üçün iki yol var idi. Birinci yol demokratiya yolu, dövlətlər arasında bərabərliyə əsaslanan hüquq normalarını gözləmək yolu idi. Yəni Rusiyanın bolşevik hökuməti imperiya ambisiyalarından əl çəkib ADR-i suveren dövlət kimi tanımalı, bərabər hüquqlar əsasında onunla iqtisadi əlaqələr yaratmalı və beləliklə öz iqtisadiyyatının neftə olan ehtiyacını qanuni yollarla ödəməli idi. İkinci yol isə beynəlxalq quldurluq yolu idi. Yəni, bütün beynəlxalq hüquq normalarına arxa çevirərək cəngəllik qanunları ilə hərəkət etmək, dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatlarının tanıdığı gənc suveren dövlətə qarşı zorakılıq tədbirlərinə əl atmaq, yaxud təcavüzə başlamaq.

«Dünya proletariatının rəhbəri» Leninin rəhbərlik etdiyi Rusiya hökuməti məhz ikinci yolu — beynəlxalq quldurluq yolunu seçdi. V. İ. Lenin hələ 1920-ci il martın 17-də sanki bir qədər də gecikdiyini dərk edib, Qafqaz, hərbi inqilab şurasına, öz lakeyləri Smilqa və Orconikidzeyə aşağıdakı göstərişi verdi: «Bakını tutmaq bizə son dərəcə və son dərəcə zəruridir. Bütün səyinizi buna verin».[1] Görürsünüzmü, söhbət dünyanın əsas dövlətlərinin tanıdığı suveren dövlətin paytaxtından gedirdi.

Lakin Lenin dediyindən asanlıqla dönən deyildi. O, öz göstərişlərini əməli tədbirlərlə möhkəmləndirməyi bacarırdı. Denikinin könüllü ordusunu darmadağın edən XI Qızıl Ordu hissələri artıq 1920-ci il aprelin ortaları üçün Dərbənd şəhərini tutaraq, Azərbaycan sərhədlərinə yaxınlaşmışdılar. Bu vəziyyət Azərbaycan hökumətində narahatlıq doğurmaya bilməzdi. Aprelin 15-də ADR-in xarici işlər naziri F. X. Xoyski Rusiyanın xarici işlər naziri Çiçerina nota ilə müraciət edərək külli miqdarda Qızıl Ordu hissələrinin Dərbənd rayonunda cəmləşməsinin səbəbini soruşmuş və hər iki dövlət arasında bütün mübahisəli məsələləri sülh yolu ilə həll etmək üçün istənilən vaxtda və yerdə danışıqlara başlamağa hazır olduğunu bildirmişdi.[2] Beynəlxalq quldurluq ənənələrinə sadiq qalan Çiçerin aprelin 24-də həmin sorğuya cavab olaraq bəyan etmişdi: «Bu qoşunların Şimali Qafqazda hərəkətindən müstəsna məqsəd əks-inqilabçı ağqvardiyaçıların, Denikin və onun köməkçilərinin qüvvələri qalıqlarının hələ davam etməkdə olan [26-27]müqavimətinə qarşı mübarizədən ibarətdir».[3] Bu cavab Azərbaycana basqından iki gün əvvəl söylənmiş növbəti yalan idi.

Bədbəxtlikdən həmin vaxt Qarabağ böhranı üzündən Bakıda siyasi böhran başlamış, hakimiyyətdə qeyri-müəyyənlik yaranmışdı. Bu isə Azərbaycan siyasi dairələrində çaşqınlığın meydana çıxmasına səbəb olmuş, hökumət böhranına gətirib çıxarmışdı. Qarabağda daşnakların qiyamını yatırmaq üçün qoşun hissələrinin ora göndərilməsi isə Azərbaycanın şimal sərhədlərini müdafiəsiz qoymuş və 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə XI Qızıl Ordu hissələrinin Azərbaycana soxulması üçün əlverişli şərait yaratmışdı. Əlbəttə, sərhəd qüvvələrindən ibarət olan Azərbaycan Ordusu dəstələri 72 min nəfərlik Qızıl Ordu hisslərinə müqavimət göstərə bilməzdi. Odur ki, Qızıl Ordu hissələri sürətlə Bakıya doğru irəliləməyə başladılar. Aprelin 27-də gündüz saat 4-də Azərbaycan KP MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından

---

[1] *V.İ. Lenin.* Tam əsərləri külliyyatı, c. 51, səh. 175

[2] Azərbaycan OİMDA, f. 970, siy. 1, iş 204. vər. 1.

[3] «İzvestiya» qəzeti, 27 aprel 1920-ci il

Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum təqdim edildi. Azərbaycan parlamenti şəhərin dağılmasına və dinc əhalinin qırılmasına yol verməmək üçün aşağıdakı şərtlərlə hakimiyyəti Azərbaycan kommunistlərinə təslim etməyə razılıq verdi: «1. Rus ordusu Bakıya girmədən dəmiryolu ilə birbaşa Anadolunun imdadına gedəcək; 2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və quyuddan (ilhaqdan — S. S.) qorunacaq; 3. Azərbaycan Ordusu olduğu kimi qalıb buraxılmayacaq; 4. Azərbaycan siyasi partiyaları hürriyyət və sərbəstliyini mühafizə edəcək; 5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək; 6. Azad şəraitdə toplanacaq Azərbaycan şuraları hökumətin idarə şəklini təyin qılacaq idi».[4]

Beləliklə, 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə Azərbaycanda sovet hakimiyyəti deyilən rejim quruldu. Bir daha əsarət altına düşən Azərbaycan xalqı yenidən müstəqillik qazanacağını daha 71 il gözləməli oldu.

Yeni hakimiyyət Bakıya öz strukturlarını da gətirdi. Rusiya Kommunist Partiyasının tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyası hakim partiya oldu. Çoxpartiyalılığa son qoyuldu.[27-28]

Beləliklə, 1920-ci il aprelin 27-dən 28-nə keçən gecədə Azərbaycan parlamenti və ADR hökuməti buraxıldı: Azərbaycan Sovet Sosialist Respublikası elan edildi.

Aprel çevrilişindən sonra Azərbaycan Müvəqqəti İnqilab Komitəsi Ali qanunverici və icraedici orqan elan edildi. Onun tərkibi N. Nərimanov, A. Əlimov, M. D. Hüseynov, Ə. H. Qarayev, Q. Musabəyov və H. Sultanovdan ibarət idi. Müvəqqəti İnqilab Komitəsi aprelin 28-də öz qərarı ilə respublikanın yeni hökumətinin—Xalq Komissarları Şurasının tərkibini təsdiq etdi. Yeni hökumətin də sədri, eyni zamanda xarici işlər üzrə xalq komissarı Nərimanov idi.[5] Lakin yuxarıda deyildiyi kimi, real hakimiyyət 1920-ci ilin fevralında yaranmış və öz fəaliyyətində tam şəkildə Rusiya Kommunist Partiyasına tabe olan, Azərbaycan Kommunist Partiyasına məxsus olmuşdur. Partiyanın rəhbər orqanı olan Mərkəzi Komitə respublikada daxili siyasətin bütün əsas istiqamətlərini müəyyən edir və onları Azərbaycan İnqilab Komitəsinin qərarlarında dövlət qanunları şəklində əks etdirirdi.

Bakıdakı çevriliş xəbəri Naxçıvan diyarına çox tez, elə aprelin 28-də çatdı. Əhali və hakimiyyət strukturları bu xəbəri heç də bir mənalı qarşılamadı. Elə həmin gün XI Qızıl Ordunun Hərbi Şurası və Azərbaycan İnqilab Komitəsi Naxçıvana göndərdikləri teleqramda hakimiyyətin Sovetlərə verilməsini tələb etmişdilər. Naxçıvan İnqilab Komitəsinin sədri, sonra isə müavini işləmiş İ. Ponomaryov bu barədə Azərbaycan İnqilab Komitəsinə göndərdiyi məlumatda yazırdı; «1920-ci il aprelin 28-də Azərbaycan Milli Demokratik hökumətinin Naxçıvanı təmsil edən nümayəndəsi məni yanına çağırtdıraraq bildirdi ki, Bakıdan telefonoqramma ilə aldığımız sərəncama əsasan hakimiyyət Sovetlərə keçir. Siz yeni hökumət təşkil edin. Biz kommunistləri, sol cinahdan olan nüfuzlu şəxsləri təcili surətdə çağırıb, tərkibi yeddi nəfərdən ibarət İnqilab Komitəsi yaratdı. Lakin Bakıdan verilən sərəncamlara əsasən bir həftə ərzində İnqilab Komitəsinin sədri uç dəfə dəyişdirildi».[6] Əhalinin böyük əksəriyyəti isə, görünür, o zamankı rəsmi türk təbliğatının təsiri altında [28-29]çevrilişin onların köməyi və əli ilə həyata keçirildiyini güman edərək həmin xəbəri nisbətən sakitliklə qəbul etmişdi.

Lakin o dövrdə Naxçıvan diyarında və onun ətrafında yaranmış mürəkkəb siyasi şərait hadisələrin asanlıqla dinc axara düşəcəyinə ümid vermirdi. Hələ XI Qızıl Ordu hissələri Naxçıvana gəlməzdən əvvəl türk qoşun dəstəsinin burada yerləşməsi, 1500 nəfərlik Naxçıvan Milli Komitəsi qoşun hissələrinin fəaliyyəti, daşnak Ermənistanı Ordusunun Naxçıvana ara verməyən hücumları və ABŞ, İngiltərə, Fransa nümayəndəliklərinin müxtəlif formalarda Naxçıvan məsələsinə müdaxilə etmələri siyasi vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Naxçıvan İnqilab Komitəsinin arxasında real siyasi və hərbi qüvvə durmadığı, daşnak fitnəkarlıqlarının və basqınlarının isə davam etdiyi bir şəraitdə Naxçıvan Milli Komitəsi rəhbərliyi hakimiyyəti təhvil verməyə tələsmirdilər. Əslində, onları qınamaq da olmazdı. Çünki yeni hakimiyyət Naxçıvan məsələsinə öz münasibətini hələ qəti olaraq bildirməmişdi.

Bununla belə, yeni hakimiyyət Azərbaycanla Ermənistan arasında münasibətlərin əsl mahiyyətindən də xəbərsiz deyildi. Bunu belə bir faktdan da aydın görmək olar ki, hələ 1920-ci il aprelin 30-da Azərbaycan SSR Xarici İşlər Komissarının müavini M. D. Hüseynovun daşnak Ermənistanın Xarici İşlər Nazirliyinə göndərdiyi notada deyilirdi: «Azərbaycan Sovet Sosialist Respublikasının fəhlə-kəndli hökuməti İnqilab Komitəsinin simasında sizdən tələb edir: 1) Qarabağ və Zəngəzuru öz qoşunlarınızdan dərhal təmizləyin; 2) Qoşunlarınızı öz sərhədlərinizə çəkin; 3) Milli qırğınlara son qoyun. Əks təqdirdə Azərbaycan Sovet Sosialist Respublikasının

---

[4] *M. Ə. Rəsulzadə.* Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, səh. 67.
[5] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, 1964, s. 346-347
[6] Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, iş 1027, vər. 105.

İnqilab Komitəsi özünü sizinlə müharibə vəziyyətində hesab etmiş olacaqdır. Notaya cavab vermək üçün üç gün vaxt verilir».[7] Lakin o zaman hələ Azərbaycanın özündə real hakimiyyət kimi tanınmayan bir qurumun həmin ultimatumuna ciddi əhəmiyyət veriləcəyini gözləmək sadəlövhlük olardı. Çünki son sözü yalnız XI Qızıl Ordu hissələri söyləyə bilərdi. Onlar isə Bakıda təzəcə bərqərar olurdular. Həqiqətən də Bakıda Sovet hakimiyyəti elan edildikdən sonra ilk günlər öz hücum[29-30]larına bir qədər ara vermiş daşnaklar XI Qızıl Ordu hissələrinin qətiyyətsizliyini yəqin etdikdən sonra yenidən Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana basqınlarını gücləndirmişdilər.

1920-ci il iyunun 19-da N. Nərimanovun, P. Mdivaninin və başqalarının imzaları ilə RSFSR xarici işlər komissarı K. Çiçerinə və məlumat üçün surəti Vladiqafqazda olan XI Qızıl Ordu hərbi şurasının üzvü Q. Orconigidzeyə göndərilən teleqramda deyilirdi: «Daşnak hökuməti Azərbaycanda öz qanunsuz işlərini davam etdirir. Bir neçə rayonda onlar müvəffəqiyyət qazanmışlar. Bu gün onların qoşunları Qazax və Gədəbəyə yaxınlaşır, dəmir yolunun ələ keçirilməsi qorxusu vardır. Erməni üsyançıları Azərbaycana çəkilərək müsəlmanlarla birlikdə daşnaklara qarşı mübarizə aparırlar. Müntəzəm surətdə hücum edən general Dronun dəstələri bizim yaxınlaşdığımızı görərək Qarabağı tərk etmişlər. Nuru paşa Qarabağdan çəkilmiş, hazırda İrana həmsərhəd olan Cəbrayıldadır. Dro getdikdən sonra Dağlıq Qarabağın, Zəngəzurun erməni kəndləri Sovet hakimiyyəti elan etmişlər. Ermənistanda minlərlə adam həbs edilmiş, yüzlərlə kommunist güllələnmişdir. Daşnaklar tərəfindən onlarca kənd dağıdılmışdır. Müsəlman kəndliləri kütləvi surətdə daşnaklar tərəfindən doğranmışlar. İki mindən çox erməni Azərbaycanda sığınacaq tapmışdır. Qalanları dağlarda gizlənmişlər. Culfa və Naxçıvan rayonlarında müsəlmanların yurdları daşnaklar tərəfindən tutulmuş, bir ildən çoxdur ki, əlaqələr kəsilmişdir. Yerli əhali öz qüvvələri ilə daşnak hökumətinin əleyhinə çıxıb müdafiə mövqeyi tutmuşdur. Onlar bu mübarizədə öz qüvvələrinə və Türkiyə qoşunlarının gücünə arxalanırlar Bizim qoşunlar bu yerləri azad etdikdən sonra həmin yerlər ancaq Azərbaycana birləşdirilməlidir».[8]

Həmin gün Q. Orconigidze teleqramın mətnini V. Lenin və K. Çiçerina göndərmiş və əlavə olaraq qeyd etmişdir ki, «Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edilmişdir. Göstərilən ərazilər Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsidir. Naxçıvan bir neçə aydır üsyançı müsəlmanların əlindədir. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycanın nümayəndəsini Mos[30-31]kvaya çağırıb onunla birlikdə Azərbaycana və Ermənistana aid mübahisəli məsələləri həll etmək lazımdır».[9]

Onu da qeyd etmək lazımdır ki, 1920-ci ilin iyununda Qarabağda XI Qızıl Ordunun üstün qüvvələri qarşısında geri çəkilməyə və Azərbaycan ərazisindən mühacirət etməyə məcbur olmuş 2000 nəfərə yaxın Azərbaycan Milli Ordusunun əsgər və zabitlərinin də bir hissəsi Naxçıvan və Ordubad şəhərlərində qalmışdı. Azərbaycan Milli Ordusunun tanınmış generallarından biri olan Həbib bəy Səlimov hətta Sovet hakimiyyətinin tərəfinə keçmiş və İnqilab Komitəsinin tərkibinə daxil olmuşdu. Lakin XI Qızıl Ordu hissələri Naxçıvana gəldikdən sonra həmin generalın Azərbaycan Milli Ordusunun yaradılmasında və keçirdiyi əməliyyatlarda xüsusi xidmətləri olduğunu ona bağışlamamışdılar. O, XI Qızıl Ordunun hərbi qərargahı tərəfindən həbs edilmiş və «sosializm cəmiyyətinin düşməni kimi» güllələnmişdi.[10]

1920-ci ilin iyununda daşnak Ermənistanının ordu hissələri Naxçıvan diyarını ələ keçirmək və onu Azərbaycandan ayırmaq məqsədilə yenidən güclü hücuma keçdilər. Şərur qəzasını işğal edən daşnak dəstələri əhaliyə amansız divan tutaraq Naxçıvan üzərinə yeridilər. Daşnakların özbaşınalığı minlərlə adamı öz yurd-yuvasından didərgin saldı. Naxçıvandan daşnakların yanına göndərilən nümayəndə heyəti iyunun ortalarında Naxçıvanın dərhal Ermənistana qatılması, yerli hökumətin buraxılması, hərbi hissələrin və bütün əhalinin tərksilah edilməsi tələbləri ilə geri qayıtdı. Naxçıvanın başı üstünü yenidən qara buludlar aldı. 1920-ci ilin iyununda Azərbaycan SSR-in xahişi ilə RSFSR-in İrəvandakı səlahiyyətli nümayəndəsinin daşnak hökuməti ilə apardığı danışıqlar da arzu olunan nəticəni vermədi. İlkin şərt kimi irəli sürülən Naxçıvanda milli qırğın müharibəsinin dayandırılması tələbi belə qəbul edilmədi.[11]

1920-ci il iyunun birinci yarısında Naxçıvan kəndliləri RSFSR-ə və Azərbaycan SSR-ə müraciət edərək An[31-32]tantaya və daşnaklara qarşı azadlıq mübarizəsində onlara yardım göstərməyi xahiş etdilər.[12]

Nəhayət, XI Qızıl Ordu rəhbərliyi Ermənistanla danışıqların heç bir nəticə verməyəcəyini yəqin etdikdən sonra, iyul ayının 19-da Naxçıvana daxil olmaq barədə əmr verməyə məcbur oldular. 1920-ci il iyulun 27-də

---

[7] Naxçıvan MP MDA, f, 314, siy. 5,11-12, vər, 27.
[8] Azərbaycan OİMDA. f. 10, siy. 3, iş 69. vər. 181—187.
[9] *Дж.Гулиев.* Борьба Коммунистической партии за осуществление Ленинской национальной плотики в Азербайджане. Бакы, 1970, сəh. 556-557.
[10] Naxçıvan MP MDA, f. 63. iş 4, vər. 1—2.
[11] *Q. Mədətov,* Göstərilən əsəri, s. 71
[12] Yenə orada, səh. 70

gecə XI Qızıl Ordunun 1-ci Qafqaz polkundan olan 30 nəfərdən ibarət süvari dəstəsi, iyulun 28-də isə XI Qızıl Ordunun «Yoldaş Trotski» adına 106-cı polkunun süvari dəstələri Naxçıvan şəhərinə daxil oldular. Onların ümumi sayı 300 nəfərdən artıq deyildi.[13] XI Qızıl Ordu hissələri bura Zəngəzurdan keçib gəlmişdilər.

İyulun 29-da Naxçıvan şəhərində hərbi İnqilab Komitəsi və Hərbi Əmək Müdafiə Şurası yaradıldı. Oktyabrın 19-da Ordubadda, dekabrın 2-də isə Şərurda inqilab komitələri və yerli hakimiyyət orqanları yaradılmışdı.

Qızıl Ordu hissələrinin Naxçıvana daxil olması burada bolşevik təşkilatlarının fəaliyyətinin canlandırılmasında mühüm rol oynadı. Naxçıvan bolşevik təşkilatı yenidən təşkil olundu. Partiya təşkilatının iclaslarında yerli kommunistlər — Ə. Ə. Rüstəmov, M. Bəktaşov, N. Nəcəfov, Qızıl Ordudan Starov, həmçinin türk zabiti Xəlil bəy iştirak edirdi. O, Naxçıvan Sovet hökuməti ilə Kamalçı Türkiyə arasında əlaqə yaradırdı.

Qeyd edilməlidir ki, Qızıl Ordu əsasən Naxçıvan şəhərinə və onun ətraf kəndlərinə nəzarət edə bilirdi, bütövlükdə daşnak ordusunun hücumlarını dəf etmək iqtidarında deyildi. Şərur qəzası tamamilə, Ordubad qəzasının isə, əsasən dağ kəndləri daşnak qoşunlarının əlində idi. Quldurlar tərəfindən tutulmuş bu yerlərin əhalisi didərgin vəziyyətdə yaşayırdı. Ona görə də Qızıl Ordu hissələri Naxçıvanda yerləşən türk qoşun dəstələri ilə birlikdə avqust ayının ilk günlərində Naxçıvan qəzasını daşnaklardan təmizlədikdə İrana qaçmış əhali geri qayıtmağa başladı. Onların arasında Naxçıvan əhalisi ilə yanaşı daşnak qırğınından canını qurtararaq İrana pənah aparmış Zəngəzur, Vedi-basar, Zəngi-basar və başqa qəzalardan olan əhali də var idi. XI Qızıl Ordu və türk qoşun dəstələri az müddətdə[32-33] yarım milyondan artıq əhalini müvəqqəti sığınacaqlarda yerləşdirməli olmuşdular.[14]

Daşnak quldurlar isə öz quldurluq əməllərini davam etdirməkdə idilər. Məsələn, onlar Şəruru, Vedi-basarı, Zəngi-basarı mühasirəyə aldıqdan sonra əhaliyə ultimatum verərək təcili olaraq 300 min pud buğda, 300 at və 200 baş iş heyvanı vermələrini tələb etmişdilər. Daşnaklar hədələyərək bildirmişdilər ki, əgər tələblər yerinə yetirilməsə, əhali öz yurdlarına buraxılmayacaqdır.[15]

Naxçıvan İnqilab Komitəsi bu quldurluq tələbinə qəti etiraz etmiş və o zaman Şahtaxtı kəndində yerləşən erməni qoşunlarının rəisinə avqustun 1-də aşağıdakı məzmunda məktub təqdim etmişdi: «Naxçıvan rayonunun əhalisi monarxist üsul-idarəsinin zəncirini birdəfəlik öz boynundan atmışdır və daşnakların bizi əsarət altına alıb qul etmək üçün hər hansı cəhdinə cavab verməyə hazırdır. Naxçıvan rayonunun əməkçi xalqı özünü RSFSR-lə ittifaqa girmiş Azərbaycan Sovet Respublikasının ayrılmaz tərkib hissəsi elan etmişdir. Xalq heç vaxt erməni zəhmətkeşləri ilə düşmənçilik etməmiş və etməyəcəkdir. Ancaq qəddar, zülmkar daşnaklara qarşı mübarizəni davam etdirəcəkdir».[16]

Naxçıvan Hərbi İnqilab komitəsi üç nəfərdən: 1 nəfər Qızıl Ordudan, 1 nəfər türk ordusundan və naxçıvanlı Əli Babayevdən ibarət nümayəndə heyəti ilə məktubu Şahtaxtıdakı daşnak qoşunlarının komandirinə təqdim etdi. Daşnaklar nümayəndə heyətinin sülhsevər çağırışlarına, ciddi xəbərdarlıqlarına əhəmiyyət verməyərək onları həbs etdilər və nəzarət altında İrəvan şəhərinə göndərdilər. Yalnız Naxçıvan hərbi İnqilab Komitəsinin, nümayəndə heyətinə göstərilən bu münasibətə qarşı kəskin etirazından sonra nümayəndələr azad edilərək Şahtaxtıya qaytarılmışdırlar.

Lakin bundan sonra da daşnaklar Naxçıvan ərazisini ələ keçirmək məqsədilə yenidən həyasızcasına cəhd göstərərək öz ordusunu Naxçıvan üzərinə göndərmişdi. Naxçıvanda qanlı vuruşmalar baş vermiş, dinc əhalidən ölənlər və yaralananlar olmuşdu. Yalnız avqustun 10-da [33-34]Azərbaycan İnqilab Komitəsinin kəskin xəbərdarlıq və tələbi, RSFSR-in Ermənistanda olan nümayəndəsinin işə qarışması nəticəsində iki maddədən ibarət saziş bağlanmış və bunun əsasında hərbi əməliyyatlar dayandırılmışdı.[17]

Naxçıvan əhalisinin yeganə arzusu Azərbaycan SSR tərkibində öz müstəqilliyinə nail olmaqdan ibarətdir. Bu fikir Naxçıvan İnqilab Komitəsinin Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri N. Nərimanova 1920-ci il avqustun 10-da göndərdiyi məktubda da öz konkret ifadəsini tapmışdır. Məktubda deyilirdi ki, Naxçıvan diyarı, zəhmətkeşlərin böyük əksəriyyətinin arzu və tələblərini nəzərə alaraq özünü Azərbaycan SSR-in ayrılmaz hissəsi elan etmişdir: xalq kütlələri bütün dövrlərdə ancaq Azərbaycana meyl göstərmişdir.[18]

Yeri gəlmişkən, Naxçıvan hərbi İnqilab Komitəsinin fəaliyyətində Qızıl Orduya arxalanan bolşeviklərin mövqeyi gücləndikcə solçuluq və diktaturaya meyl də artırdı. Bunu 1920-ci il avqustun 22-də Naxçıvan şəhərində İnqilab Komitəsinin iclasının materiallarından da görmək olar. İclasda bolşeviklərdən 17 nəfər üzv və

---

[13] «Kommunist» q., 28 iyul 1930-cu il
[14] Ermənistan SSR OİMDA, or. 114, siy. 1, iş 25, vər. 12—14.
[15] И. Шахдин. Дашнаксутюн на службе Русской белогвардейщины и английского командования на Кавказе. Тифлис. 1931, с. 87.
[16] Gürcüstan SSR OİMDA, f. 13, siy. 1, iş 114. vərəq 94. 29-3 33
[17] *İ. Şaxdin.* Göstərilən əsəri, səh. 87
[18] *Dj. Kuliev.* Göstərilən əsəri; səh. 315 — 316.

üzvlüyə namizəd iştirak etmişdi. İclasa sədrlik edən də XI Qızıl Ordunun zabiti Fyodorov olmuşdu. Onun iyulun 29-dan avqustun 22-dək Naxçıvan İnqilab Komitəsinin fəaliyyəti haqqında məruzəsindən sonra aydın olmuşdur ki, guya həmin dövrdə bu ali hakimiyyət orqanı xanların, bəylərin, varlıların mənafeyini müdafiə etmişdir. Əlbəttə, daşnak əsarəti qapını döydüyü bir vaxtda xalqı parçalamağa yönəldilən bu addıma heç cür haqq qazandırmaq olmazdı. Fyodorovun qəzəbinə səbəb olan bu idi ki, həmin dövrdə Naxçıvan İnqilab Komitəsinin sədr müavini Azərbaycan Ordusunun keçmiş generalı Həbib bəy Səlimov olmuşdur. Onun həmin çıxışı kifayət etmişdi ki, Azərbaycanın bu istedadlı hərbçisi həbs olunsun, sonra isə «sosializm cəmiyyətinin düşməni kimi» güllənsin.[19] İclasda Naxçıvan İnqilab Komitəsinin yeni heyəti seçilmişdi: XI Qızıl Ordunun zabiti N. Fyodorov, türk ordusu zabiti Naşid Cavad və Naxçıvan sakini İbrahim Şahtaxtinski eyni hüquq və səlahiyyətlərlə İnqilab Komitəsinin sədrləri seçilmişdilər. İclas [34-35]İnqilab Komitəsinin şöbələrini və şöbə rəislərini də təsdiq etmişdi.[20]

1920-ci il avqustun 29-da Naxçıvan şəhərində XI Qızıl Ordunun Qafqaz polkunun komandiri Starovun və zabit Fyodorovun iştirakı və sədrliyi ilə keçirilən İnqilab Komitəsi iclasında Naxçıvan Milli Komitəsinin rəhbərləri Cəfərqulu xanın, Rəhim xanın və onun oğlu İsgəndər xanın məsələsi müzakirə edilmişdi. Bunlardan Cəfərqulu xanın Naxçıvan Milli Komitəsinin istər yaradılmasında, istərsə də erməni təcavüzünün qarşısının alınmasına yönəldilmiş fəaliyyətində xidmətləri xüsusilə böyük olmuşdu. İndi isə sanki bu adamların həmin xidmətləri unudulmuşdu. İnqilab Komitəsinin iclası əmlakları müsadirə olunmaqla Cəfərqulu xanı və Rəhim xanı həbs etdirib XI Qızıl Ordunun hərbi tribunalına vermək barədə qərar çıxartmışdı. İsgəndər xanın isə Təbriz şəhərində yaşadığı nəzərə alınaraq onun öz əmlakını da götürüb Naxçıvan şəhərini tərk etməsinə icazə verilmişdi.[21] Göründüyü kimi, Naxçıvan İnqilab Komitəsinin bu dövr üçün fəaliyyətində artıq repressiyanın ilk nişanələri görünməyə başlayırdı. Halbuki diyarda Sovet hakimiyyəti hələlik yalnız Naxçıvan şəhərində və onun ətraf kəndlərində fəaliyyət göstərirdi. Naxçıvan diyarının çox böyük hissəsi daşnakların əlində idi. Avqust ayının ortalarında isə Zəngəzurun daşnaklar tərəfindən yenidən zəbt edilməsi ilə Naxçıvanın Azərbaycanla əlaqələri tamam kəsilmişdi. Naxçıvanda yerləşən Qızıl Ordu hissələri hücuma keçmək əvəzinə müdafiə mövqeyi tutmuşdu.

Doğrudur, Naxçıvan İnqilab Komitəsinin avqust ayının ikinci yarısında keçirdiyi iclaslardan sonra sovet quruculuğuna başlamaq sahəsində ilk tədbirlər görülməsinə başlanmışdır. Yəni sovetlərin fəaliyyəti canlandırılmış, torpaq milliləşdirilmiş, köhnə polis idarələri ləğv edilmiş, dəmir yolu dövlətin nəzarəti altına keçmişdi. Qaçqınların işi ilə daha ciddi məşğul olmaq üçün Naxçıvan İnqilab Komitəsi nəzdində geniş səlahiyyətlərə malik xüsusi qaçqınlar komitəsi yaradılmışdı. Qaçqınlar və yoxsul kəndlilər natura ilə alınan bütün vergilərdən azad edilmişdilər[35-36]

1920-ci ilin avqustunda Bahadır Vəlibəyovun Azərbaycan İnqilab Komitəsinin və XI Qızıl Ordu Hərbi İnqilab Şurasının qərarı ilə Naxçıvan diyarına fövqəladə komissar təyin olunması yeni hakimiyyət orqanlarının fəaliyyətini xeyli gücləndirmiş və məqsədyönlü etmişdi.[22]

1920-ci il sentyabrın əvvəllərində Naxçıvanda fövqəladə istintaq komissiyası yaradılmış, oktyabrda isə İnqilab Komitəsinin qərarı ilə köhnə məhkəmə sistemi ləğv edilərək yeni, xalq məhkəmələrinin yaradılmasına başlanmışdı.

Yeri gəlmişkən, həmin ərəfədə Naxçıvan diyarında həyatın normal məcraya yönəldilməsində, daşnak təcavüzünün ləğv edilməsində türk ordu hissələri mühüm rol oynayırdı və Qızıl Ordunun bütün tədbirləri, əsas nöqtələrdəki fəaliyyəti türk ordusunun nümayəndəsi ilə danışıqlar aparıldıqdan və razılıq əldə edildikdən sonra həyata keçirilirdi. Arazdöyən stansiyasından başlamış Culfa stansiyasına qədər dəmir yolu vağzallarında, dayanacaqlarda silahlı türk əsgərləri dayanır, qatarların hərəkətinə nəzarət edirdilər. Poçt-teleqraf, rabitə işlərinə türk zabiti Hikmət əfəndi başçılıq edirdi. Sonralar isə, Ordubad, Culfa, Naxçıvan, Baş Noraşen, həmçinin bir çox iri kəndlər türk əsgərlərinin nəzarəti altına alınmışdı. Türklərin icazəsi olmadan heç kəs Ermənistandan Naxçıvan ərazisinə daxil ola bilməzdi. Oğurluğa, quldurluğa, xəyanətə və digər cinayətlərə qarşı sərt qanunlar qoyulmuşdu.

Deyildiyi kimi, diyarda yeni hakimiyyətin qalib gəlməsi yalnız o halda mümkün ola bilərdi ki, ilk əvvəl onun ərazi bütövlüyü təmin edilsin. Bunu nəzərə alan Naxçıvan İnqilab Komitəsi, fövqəladə komissarlıq və türk komandanlığı ilə qarşılıqlı əlaqədə daşnak tapdağı altında inləyən Ordubad və Şəruru azad etmək əməliyyatlarını hazırlamağa başladı. Bu məqsədlə yerli əhali arasında hərbi hazırlıq və səfərbərlik işləri

---

[19] Naxçıvan MR MDA, f. 63. iş 4 vərəq 1-2.
[20] Yenə orada, vərəq 4.
[21] Naxçıvan MP MDA, f. 63, siy. 1, iş 4, vərəq 34.
[22] Azərbaycan OİMDA, f. 379, siy. 25, iş 2, vərəq 8.

gücləndirildi, Könüllü qoşun dəstələri yaradıldı, həmin qoşunlara rəhbərlik etmək üçün o zaman öz dəstəsi ilə İranın Mərənd şəhərində olan məşhur Vedi-basar silahlı partizan dəstələrinin başçısı, tanınmış sərkərdə Abbasqulu bəy Şadlinski Naxçıvana dəvət [36-37]edildi. Abbasqulu bəy Naxçıvana gəlib «Qırmızı tabor»dəstələrini yenidən təşkil etdi.[23]

1920-ci ilin payızında öz qüvvələrini Gorusda toplayan, İtaliyadan 15 yeni zirehli maşın və İngiltərədən çoxlu miqdarda tüfəng və patron alan daşnaklar artıq Ordubad qəzasının cənub kəndləri istiqamətində Naxçıvana hücum etmək niyyətində olduqlarını gizlətmirdilər. Elə bu faktın özü də onlara yaxın vaxtda sarsıdıcı zərbə endirilməzsə, vəziyyətin ciddi surətdə mürəkkəbləşəcəyini göstərirdi. Odur ki, hazırlıq işlərini bir qədər də sürətləndirmək tələb olunurdu.

Daşnakların hücumunu çox gözləmək lazım gəlmədi. 1920-ci il sentyabrın ortalarında hərbi hazırlıq işlərini başa çatdırmış daşnak hissələri Naxçıvan üzərinə hücuma başladılar. Düşmənin hücumunun qarşısını almaq, onu dayandırmaq, sonra isə gözlənilməz zərblərləmi zəiflədərək Ordubadı azad etmək günün ən mühüm vəzifəsinə çevrildi. Qızıl Ordu hissələri, türk qoşun dəstəsi və yerli hərbi birləşmələr həmin vəzifənin öhdəsindən bacarıqla gələ bildilər. 1920-ci il sentyabrın 18 də daşnak quldur dəstələrinin hücumu dəf olundu. Əks-hücumla Ordubad şəhəri azad edildi. Şəhərin və ətraf kəndlərin əhalisi öz xilaskarlarını böyük sevinclə qarşılamışdılar. Təkcə Naxçıvandan Ordubada gedən yolda 200-ə yaxın kəndli könüllü surətdə ordu hissələrinə qoşulmuşdu. 1920-ci il oktyabrın sonuna yaxın, demək olar, bütün Ordubad qəzası daşnaklardan təmizlənmiş, yerlərdə inqilab komitələri yaradılmışdı.[24] Ordubad qəzası ərazisinin daşnaklardan təmizlənməsi Naxçıvana qarşı onların quldur dəstələrinin bilavasitə hücum təhlükəsini aradan qaldırsa da, onu tamamilə ləğv etmədi. Belə ki, Ordubad istiqamətində məğlubiyyətə uğrayan daşnaklar bu dəfə öz qüvvələrini Şərurda və Şahtaxtıda toplamağa başladılar. Onu da deyək ki, daşnak quldur dəstələrinin döyüş sursatı və hərbi texnika ilə təchiz olunmasında ABŞ əsas ağırlığı öz üzərinə götürmüşdü. Daşnak ordusu nəqliyyat vasitələri, hətta təyyarələrlə təchiz olunmuşdular. Qarsdakı silah zavodu RƏ Aleksandropoldakı patron zavodu amerikalıların pulu hesabına işləyirdi.[25] Buna görə də daşnak təcavüzü təhlükəsinin tamamilə ləğv edildiyini söyləmək hələ tez [37-38]idi. Deməli, qarşıda duran vəzifə nəinki daşnakların Şərurdan gözlənilən hücumunun qarşısını almaqdan, həm də həmlələrlə onları taqətdən salaraq Şərur ərazisini azad etməkdən ibarətdir.

Məhz, bu məqsədlə Naxçıvandakı Qızıl Ordu hissələri komandanlığı türk ordusunun qərargahı ilə razılaşdırılmış plan işləyib hazırlamış və həmin plan barədə XI Qızıl Ordunun hərbi Şurası və Türkiyə Ordusunun şərq cəbhəsinin baş komandanı Kazım Qara Bəkir paşaya telefonoqram ilə məlumat verilmişdi. Hətta, düşmən cəbhəsində vahimə yaratmaq üçün psixoloji təsir vasitələrindən istifadə etmək belə yaddan çıxarılmamışdı. Kəşfiyyatçılar vasitəsilə düşmən arasında belə bir şayiə yayılmışdı ki, guya Budyonnının süvari dəstələri Qızıl Orduya köməyə gəlmişlər və Naxçıvan sərhədlərinə yaxınlaşmaqdadırlar. Əlbəttə, bütün bunlar təsirsiz qalmamış və daşnak ordusunda müəyyən çaşqınlıq yaranmasına səbəb olmuş, fərariliyi gücləndirmişdi.

1920-ci il noyabrın 7-də daşnakların növbəti təcavüzünə cavab olaraq XI Qızıl Ordunun Qafqaz polkunun hissələri, türk qoşun dəstələri, yerli əhalidən təşkil olunmuş 1500 nəfərlik könüllü əsgərlər ilə birlikdə A. Şadlinskinin «Qırmızı Tabor» dəstələri həmçinin İrandan Naxçıvana qayıtmış üsyançı Şərur qaçqınları düşmənə qarşı əks-hücuma keçdilər. Əks-hücum bir neçə istiqamətdə — Şərur, Qıvraq, Qarabağlar və Əznəburd kəndləri istiqamətlərində başlandı. Hücum o qədər gözlənilməz və sarsıdıcı olmuşdu ki, daşnak ordularının vahimə içərisində öz mövqelərini qoyub qaçmaqdan başqa çıxış yolu qalmamışdı.

Şərurun azad edilməsi əsl bayrama çevrilmişdi. Əhali ordu hissələrini və könüllüləri gülərüzlə, sevinclə qarşılamışdı. Qaçqınlar bir neçə gün ardı-arası kəsilmədən Şərura gələrək öz kəndlərinə yollanmışdılar. Şərur əməliyyatı daşnak qoşun hissələrinin tam məğlubiyyəti ilə başa çatmışdı. Mühasirəyə düşdükləri üçün tam darmadağın olmaq təhlükəsindən yaranan ağır ruh düşkünlüyü şəraitində general Şelkovnikovun — 2500 nəfərlik daşnak diviziyası təslim olmuşdu. Təslim olanların 65 nəfəri komandir heyətinə daxil idi. 14 yararlı top, 32 pulemyot və çoxlu mərmi, patron, döyüş və geyim sursatı qənimət kimi ələ keçirilmişdi. Bu cəsarətli əməliyyat nəticəsində Şərur və Naxçıvan rayonları [38-39]tamamilə daşnaklardan təmizlənmişdi.[26] Naxçıvan diyarının başqa qəzalarında olduğu kimi, Şərur qəzasında da qəza və dairə inqilab komitələri yaradılmışdı.

Şərur məğlubiyyətindən sonra yeni hakimiyyətin Ermənistan ərazisinə də keçəcəyindən qorxuya düşən daşnakları yalnız bir məsələ düşündürürdü: nə vasitə ilə olursa-olsun süqut etməkdə olan mənfur hakimiyyətlərini qoruyub saxlamaq. Bu məqsədlə daşnaklar İrəvan ilə Naxçıvan şəhərini birləşdirən dəmir yolu xəttini ələ keçirib XI Qızıl Ordu hissələrinin Ermənistana daxil olmasına mane olmağa çalışırdılar. Lakin

---

[23] Kommunist» qəzeti, 28 iyul 1930-cu il
[24] *Q. Mədətov.* Göstərilən əsəri, səh. 84-85.
[25] Yenə orada, səh. 86.
[26] Azərbaycan OİMDA, f. 379, siy. 25. iş 2, vərəq 8.

onların bu arzusu da həyata keçmədi. Çətin bir şəraitdə, aclıq, silahın çatışmaması, ağır müharibə vəziyyətinə baxmayaraq A. Şadlinskinin «Qırmızı tabor» dəstələri köməyə gələrək, daşnak ordularına zərbələr endirməklə onların mənfur planlarını pozdular, bir daha Naxçıvan diyarına sahib olacaqları ümidlərini həmişəlik alt-üst etdilər. Bununla da, Naxçıvan diyarında Sovet hakimiyyətinin qələbəsi qarşısıalınmaz bir prosesə çevrildi. Çünki Naxçıvan əhalisi o dövrdə Qızıl Ordu hissələrinə də, türk qoşun dəstələrinə də erməni daşnakların üstün qüvvələrinə qarşı mübarizədə xilaskar nəzəri ilə baxır və onlara hər cür yardım göstərirdilər.

Beləliklə, araşdırmalar bir daha göstərir ki, indiyədək tarix əsərlərində yazıldığı kimi, Naxçıvan diyarında Sovet hakimiyyətinin qələbəsini yalnız XI Qızıl Ordu hissələrinin adı ilə bağlamaq tarixi həqiqətlərə heç də uyğun deyildir. Azərbaycanda olduğu kimi Naxçıvanda da Sovet hakimiyyətinin qələbəsi, Naxçıvana məhz Azərbaycan SSR tərkibində muxtariyyət verilməsi, əvvələn, ona görə mümkün olmuşdur ki, Naxçıvan əhalisi hələ 1917 — 1920-ci illərdə hər cür məhrumiyyətlərə dözərək doğma torpağın erməni təcavüzkarlarının tapdağı altına düşməməsi üçün nə lazımdırsa etmişdi. Onlar istər qondarma Ermənistan Respublikasının, istərsə də onların güclü hamilərinin hakimiyyətini heç vaxt qəbul etməmişdilər. Lazım gəldikdə isə silaha sarılaraq ata-baba yurdunun keşiyində sayıq durmuşdular. Bir anlığa təsəvvür edin ki, elə o vaxt da Azərbaycan torpaqları hesabına özlərinə «respublika» düzəltmiş ermənilər əgər Naxçıvan diyarına da yiyələnsəydilər, o zaman heç şübhəsiz ki, bu yerlərin əhalisini də Zəngəzurun, [39-40]Basar-keçərin, Göyçənin və digər Azərbaycan torpaqlarında yaşamış azərbaycanlı əhalinin acı taleyi gözləyəcəkdi.

Sonra, Naxçıvanda Sovet hakimiyyəti ona görə qalib gələ bilmişdi ki, bu hakimiyyət XI Qızıl Ordu süngüləri ilə Azərbaycana gətirilsə də, hər halda müstəqil milli-inzibati ərazi vahidi kimi respublikanın sərhədlərinin toxunulmazlığını qəbul etmişdi. Azərbaycan SSR-də ali hakimiyyət orqanlarında əsas vəzifələrin yerli əhalinin nümayəndələrinə verilməsi də Naxçıvan əhalisini xeyli dərəcədə bu hakimiyyətin tərəfdarı etmişdi.

Nəhayət, Naxçıvan diyarında Sovet hakimiyyəti ona görə qalib gələ bilmişdi ki, bu hakimiyyəti müdafiə edən qüvvələr sırasında Qızıl Ordu hissələri ilə yanaşı, yerli əhalidən təşkil edilmiş xalq qoşunu dəstləri və türk qoşun hissələri də var idi. Yerli əhali və doğma torpaqlarından didərgin salınmış üsyançı qaçqınlar və hakimiyyətə erməni daşnaklarının ardı-arası kəsilməyən və hər dəfə daha amansız vəhşiliklərlə müşayiət olunan quldur basqınları əleyhinə etibarlı sipər kimi baxırdılar. Türk qoşun hissələri isə din və dil telləri ilə qədimdən bağlı olduqları azərbaycanlıları müdafiə etmək, həmçinin Sovet Rusiyası ilə kamalçı Türkiyəsi arasında dostluq münasibətlərini əsas tutaraq, daşnakların Naxçıvan torpaqlarına sahib olmasına yol verməmək üçün Qızıl Ordu ilə fəal əməkdaşlıq edirdilər. Əgər Naxçıvanı erməni təcavüzündən qoruyan qüvvələr həqiqətən Sovet hakimiyyətini dəstəkləməsəydilər, azsaylı və yerli şəraitə bələd olmayan Qızıl Ordu hissələrinin öz qüvvələri ilə bu işin öhdəsindən gələ biləcəyini düşünməyin özü belə sadəlövhlük olardı. Bir sözlə, Naxçıvan diyarında Sovet hakimiyyəti ona görə qalib gəlmişdi ki, Naxçıvan Milli Komitəsi istisna olmaqla bütün ictimai-siyasi, hərbi qüvvələr bu hakimiyyəti fəal surətdə müdafiə etmişdilər və bu zaman erməni təcavüzünə qarşı vahid cəbhədən çıxış edilməsi başlıca meyar sayılmışdır.[40]

## NAXÇIVANDA İQTİSADİ VƏZİYYƏTİ YAXŞILAŞDIRMAQ VƏ AZƏRBAYCAN SSR TƏRKİBİNDƏ MUXTARİYYƏT MƏSƏLƏLƏRİ İLƏ BAĞLI HƏYATA KEÇİRİLMİŞ TƏDBİRLƏR

Hadisələrin sonrakı gedişi göstərdi ki, Naxçıvan diyarında əhalinin və türk qoşun dəstəsinin fəal köməyi ilə qurulmuş Sovet hakimiyyəti də bu ərazinin Ermənistanla birləşdirilməsinə dair daşnak fitnəkarlarının qəsbkarlıq planlarının heç də tamamilə aradan qaldırılması demək olmamışdır. Bəlkə də əksinə, Naxçıvanı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək üçün düzəldilmiş siyasi, hərbi, diplomatik fırıldaqlar çağının ən qızğın günləri elə 1920-ci ilin noyabr — dekabr və 1921-ci ilin yanvar — fevral aylarında, yəni «qardaş» Ermənistana Sovet hakimiyyəti qurmaq üçün göstərilmiş «yardım» şəraitində baş vermişdir. Həm də daha böyük hiddət doğuran tərəfi budur ki, daşnak partiyasının, əsasən, Azərbaycan torpaqları, o cümlədən Naxçıvan hesabına «böyük erməni dövləti» yaratmaq planının həyata keçirilməsinə ABŞ, Böyük Britaniya, Fransa dövlətləri ilə yanaşı Sovet Rusiyası da fəal surətdə kömək etməyə səy göstərmişdir. XI Qızıl Ordu hissələri işğalçılıq yürüşü ilə Azərbaycan xalqının müstəqil dövlətinin varlığına son qoyduqdan sonra bu sərsəm cəhdlər nəinki zəifləməmiş, əksinə, daha da güclənmişdir. XI Qızıl Ordu hissələri Naxçıvana daxil olduqdan və burada Sovet hakimiyyəti qurulduqdan sonra isə düşmən tərəf daha da fəallaşmış, müharibələr yolu ilə həll edə bilmədiyi məsələləri siyasi fırıldaqlar yolu ilə həll etməyə çalışmışdır. Ermənistanda Sovet hakimiyyəti elan edilməsi ilə bu cəhdlər özünün ən yüksək zirvəsinə çatmış və yalnız Naxçıvan əhalisinin sayıqlığı, kamalçı Türkiyənin fəal diplomatik və hərbi yardımı bu mənfur planı həyata keçirmək istəyənlərin arzusunu ürəyində qoymuşdur.

Hadisələrin obyektiv nəzərdən keçirilməsi belə bir nəticəyə gəlmək üçün əsas verir ki, 1920-ci ilin oktyabrından, yəni Naxçıvanda Sovet hakimiyyəti qələbəsinin başa çatdırıldığı, sovet idarə sistemi yaradılması və sosialist islahatlarının həyata keçirilməsinə hazırlıq [41-42]görüldüyü, Ermənistanda isə hələ daşnakların hakimiyyətdə olduğu bir şəraitdə bu sahədə ilk ciddi addım atılmışdır. Oktyabrın 5-də Rusiyada təhsil almış orada inzibati orqanlarda fəaliyyət göstərmiş və XI Qızıl Ordu üçün etibarlı şəxs sayılan Bahadır Vəlibəyov XI Qızıl Ordunun əlavə dəstələri ilə fövqəladə komissar kimi Naxçıvan şəhərinə gəlmişdi. Onun Naxçıvana gəlişi ilə Naxçıvan İnqilab Komitəsinin fəaliyyəti fövqəladə komissarlıq qarşısında kölgədə qalmışdı. Görünür, Naxçıvanın gələcəkdə yaradılacağı nəzərdə tutulmuş Ermənistan SSR tərkibinə daxil edilməsi planları da məhz elə bu vaxtlar işlənib hazırlanmışdı. Əslində heç bir ehtiyac olmadan bütün səlahiyyətlərə malik fövqəladə komissarlığın fəaliyyətinin gücləndirilməsindən başlıca məqsəd də Naxçıvanı siyasi fırıldaqlar və kələk yolu ilə «öz əlimizlə» Ermənistana «peşkəş» etməkdən ibarət olmuşdu.

Məlum olduğu kimi, 1920-ci il noyabrın axırlarında Azərbaycan SSR ərazisində yerləşən XI Qızıl Ordu hissələrinin hücumu ilə Ermənistanda da Sovet hakimiyyəti elan edilmişdi. Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə Naxçıvanın daşnaklar tərəfindən daim gözlənilən basqınlarına həmişəlik son qoyulacağına sadəlövhcəsinə ürəkdən inanan Naxçıvan əhalisi də bu «qardaş xalqa» öz köməyini əsirgəməmişdi. Ermənistanda Sovet hakimiyyətinin qələbəsində Abbasqulu Şadlinskinin «Qırmızı tabor» dəstələri xüsusilə fərqlənmişdilər. Təkcə bu faktı göstərmək yerinə düşər ki, Ermənistan MİK-nin həmin münasibətlə «Şərəf nişanı» ordeni ilə təltif etdiyi 25 nəfərdən 7-si naxçıvanlı olmuşdur. Sonralar, «Qırmızı tabor»dan daha 19 nəfər Azərbaycan SSR və RSFSR ordenləri ilə təltif edilmişdi. [1] Maraqlı cəhət budur ki, Azərbaycanda olan türk hərbi əsirlərindən, kommunistlərdən və fəhlələrdən təşkil olunmuş kommunist atıcı polku XI Qızıl Ordunun 28-ci diviziyası tərkibində Gorus yaxınlığında və Ermənistanın digər yerlərində Sovet hakimiyyəti uğrunda vuruşmuşdular. [2]

Belə çıxırdı ki, Ermənistanda Sovet hakimiyyətinin qələbəsi Naxçıvan üçün hər an gözlənilən hücum və qarətçilik təhlükəsini aradan qaldırmışdı. Hər halda, Er[42-43]mənistan və Azərbaycan İnqilab Komitələrinin rəsmi müraciət və bəyanatlarında belə deyilirdi. Lakin bunlar zahiri təsəvvürlər idi. Əslində isə, xalqdan gizli olaraq Naxçıvanı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək istəyən qara qüvvələrin fəaliyyəti üçün daha geniş imkanlar açılmışdı. Bu qüvvələr XI Qızıl Ordunun hərbi qərargahında, Ermənistan İnqilab Komitəsində, Naxçıvan Fövqəladə Komissarlığında, qismən də Azərbaycan İnqilab Komitəsində gərgin iş aparırdılar. 20 — 30-cu illərdə çap olunmuş bir sıra kitabların, habelə çoxlu arxiv sənədlərinin nəzərdən keçirilməsi bir daha əmin olmağa imkan verir ki, həmin qara qüvvələr Zaqafqaziya respublikalarında ərazi məsələlərini «ədalətlə həll etmək» kimi humanist bir vəzifəni öz öhdəsinə götürmüş S. Orconigidzenin əsas rol oynadığı XI Qızıl Ordunun hərbi Şurasına daha böyük ümidlə baxırmışlar.

---

[1] *3. İbrahimov.* V. İ. Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi, Bakı, 1970, səh. 466.
[2] Yenə orada

Ermənistanda Sovet hakimiyyətinin qələbəsi xəbəri Bakıya 1920-ci il noyabrın 30-da gəlib çatmışdı. Həmin gün öz birgə iclasını keçirən Azərbaycan K(b)P Siyasi və Təşkilat büroları N. Nərimanova tapşırmışdı ki, bu münasibətlə Azərbaycan İnqilab Komitəsinin müvafiq bəyannaməsini hazırlasın. Qəribə də olsa, həmin tapşırıqda bəyannamənin prinsipləri də müəyyənləşdirilirdi. Məsələn, Azərbaycanla Ermənistan arasında sərhəd məsələsinin mövcudluğu inkar edilirdi, deməli, Azərbaycan Ermənistan tərəfindən öz ərazisinin bir hissəsinin işğal edilməsi faktı ilə barışırdı, yaxud, Azərbaycan Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verməyi öhdəsinə götürürdü.

1920-ci il dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında N. Nərimanovun oxuduğu Azərbaycan İnqilab Komitəsinin bəyannaməsində həmin prinsiplər bir növ öz ifadəsini tapdı. Həmin bəyannamə ilə Azərbaycan özünün 10 min kvadratmetrlik ərazisindən—işğal olunmuş şimal-qərb torpaqlarından, Zəngəzurun bir hissəsindən dərhal imtina etmiş oldu. Üstəlik də bəyannamədə Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsi elan edilir, Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə özlərinin müqəddəratını təyin etmək üçün tam müstəqillik vədi verilirdi. [3] [43-44]Heç şübhəsiz, RK(b)P rəhbərliyinin tələbi və XI Qızıl Ordu hərbi şurasının təzyiqi altında (RSFSR-in mərkəzi hökumətinin həmin qərəzli mövqeyi onun Zaqafqaziyadakı baş emissarı S. Orconigidzenin 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasındakı çıxışında da bir daha «əsaslandırılmışdı») tərtib edilmiş bu bəyannamə ilk növbədə 1917-1920-ci illərin ağır sınaqlarında öz istiqlaliyyətini qismən də olsa qoruyub saxlamış, 1920-ci ilin iyul ayından isə Sovet hakimiyyətini qəbul edərək noyabrda diyarın bütün qəzalarında daşnakların hakimiyyətinə son qoymuş Naxçıvan Sovet Sosialist Respublikası üçün yenidən Ermənistanın əsarəti altına düşmək təhlükəsi yaradırdı. Daşnakların simasında erməni çirkinliklərinə yaxşı bələd olan Naxçıvan əhalisi onların «sovetləşəndən» sonra tez bir zamanda düzələcəyinə sadəlövhcəsinə inana bilməzdi.

Naxçıvanın Ermənistana verilməsi barədə Azərbaycan İnqilab Komitəsinin bəyanatı xəbəri Naxçıvana bir qədər gec gəlib çıxmışdı. Lakin artıq şayiələr yayılmaqda idi. Əhali dekabrın 5-dən etibarən hər gün dəstə-dəstə axışıb İnqilab Komitəsinin qarşısına toplaşaraq tələb edirdilər ki, həmin sənəd oxunsun və məzmunu xalqa izah edilsin Naxçıvan şəhərində yaranmış belə çətin və gərgin bir vaxtda Azərbaycan İnqilab Komitəsi Naxçıvanın yerli şəraitinə və adamlarına yaxşı bələd olan Azərbaycan SSR Ədliyyə Komissarı və İnqilab Komitəsinin üzvü B. Şahtaxtinskini Naxçıvana göndərir.[4] Naxçıvana gələn B. Şahtaxtinski əhalinin Azərbaycan İnqilab Komitəsinin bəyanatı haqqında nigarançılıqla dolu suallarına cavab verərək həqiqəti demək məcburiyyəti qarşısında qalır. O, həmçinin, bildirir ki, Azərbaycan İnqilab Komitəsinin üzvü kimi Vəlibəyovu vəzifəsindən azad edib özü ilə Bakıya aparacaqdır: «Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər».

B. Şahtaxtinskinin bu çıxışı əhalini nisbətən sakitləşdirmişdi. Sonra B. Vəlibəyov çıxış etmiş və bildirmişdi ki, Azərbaycan İnqilab Komitəsinin bu bəyana[44-45]tı Ermənistanda Sovet hakimiyyətinin qələbəsindən əvvəl hazırlanmış və elan edilmişdir. [5]

B. Şahtaxtinski, həmçinin, Naxçıvan şəhərində Şərur—Dərələyəz və Ordubad əhalisinin mitinqlərini keçirmişdi. Bu mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR qəyyumluğunda müstəqil Sovet Respublikası kimi təşkil edilməsi arzusunda olduğunu bildirmişdi. Mitinqlərin nəticələri barədə Azərbaycan və Ermənistan İnqilab Komitələrinə müvafiq məlumatlar verilmişdi.

Naxçıvanın Ermənistana verilməsi barədə mərkəzin və onun təzyiqi ilə Azərbaycan İnqilab Komitəsinin tutmuş olduğu yanlış mövqeyə əhalinin qəti etirazı təsirsiz qalmadı. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz mövqeyini müəyyən qədər də olsa dəyişməsinə səbəb olmuş və Naxçıvana öz müqəddəratını müstəqil təyin etmək hüququ verən yeni sənədin elan edilməsi ilə nəticələnmişdi. Lakin necə deyərlər, dəyirman artıq öz işini görmüşdü. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 1 dekabr tarixli bəyannaməsini əldə dəstavüz edən Ermənistan İnqilab Komitəsi artıq Naxçıvanın müstəqilliyi və onun əhalisinin haqlı tələbləri barədə eşitmək belə istəmirdi. Bu barədə B. Vəlibəyov yazırdı: «Naxçıvandakı siyasi vəziyyət və xalqın Azərbaycan İnqilab Komitəsinin bəyanatına olan münasibəti barədə Ermənistan İnqilab Komitəsinə və Kommunist Partiyası MK-ya məruzə etmək üçün İrəvan şəhərinə getdim. Orada mənim məruzəmi çox diqqətlə dinləyib vəziyyəti sabitləşdirmək üçün tədbirlər görəcəklərinə söz verdilər».[6] Ermənistanın yeni «inqilabi» hakimiyyət orqanlarının ilk «tədbiri» isə bundan ibarət olmuşdu ki, Ermənistan İnqilab Komitəsi B. Vəlibəyovu

---

[3] «Kommunist» qəzeti, № 178, 2 dekabr 1920-ci il
[4] Ermənistan SSR MDA, f. 114, siy. 1, iş 6, vərəq 1.
[5] Naxçıvan MP MDA f. 314 siy. 1, iş 14, vərəq 21
[6] Azərbaycan Respublikası OİA, f. 376, siy. 3, iş 124, vərəq 232.

Naxçıvanın Fövqəladə Komissarı təyin etmişdi. Bunun ardınca isə Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 26-da Naxçıvan haqqında geniş bəyanat verərək Naxçıvanın «könüllü» surətdə Ermənistana birləşdiyini bildirmişdi. Bu bəyanatda Naxçıvan Respublikasının müstəqilliyi ideyasının özü rədd olunmuşdu. [7] Göründüyü kimi, hər iki sənəddə Naxçıvana artıq Ermənistanın inzibati-ərazi vahidi mövqeyindən yanaşılırdı. Lakin cəmi iki gün sonra — dekabrın 28-də Naxçıvan barədə özünün ikinci bəyanatın[45-46]da Ermənistan İnqilab Komitəsi Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və daşnakların bu ərazi ilə əlaqədar iddialarından imtina etdiyini bütün dünyaya bildirmişdi.[8] Qəribə də olsa, hər iki sənədi Ermənistan İnqilab Komitəsinin sədri Kasyan və onun üzvləri Avis və Bekzadyan imzalamışdılar.

Əlbəttə, Ermənistan SSR rəhbərliyinin mövqelərində bu dəyişiklik təsadüfən yaranmamışdı. Bu işdə Naxçıvan əhalisinin Azərbaycanla birləşmək arzusunu qətiyyətlə bildirməsi ilə yanaşı, həmin vaxtda türk qoşun dəstəsinin Naxçıvanda yerləşməsi də az rol oynamamışdı. Belə ki, türk qoşunları XI Qızıl Ordu hissələrinə nisbətən daha güclü olmaqla yanaşı, həm də əhali arasında böyük nüfuza malik idilər. Daşnakların xalqımızı qılıncdan keçirmək, torpaqlarımıza sahib olmaq və eyni zamanda Türkiyənin Qars əyaləti və digər ərazilərinə sahib olmaq iddialarına birdəfəlik son qoymaq məqsədi ilə Türkiyə hökuməti hələ 1920-ci il iyunun 9-da Kazım Qarabəkir paşanın komandanlığı altında Şərq cəbhəsi yaratmışdı. Bu cəbhədə Türkiyənin 22 min nəfərli qoşun hissəsi var idi. Şərq cəbhəsi qoşunlarının siyasi işlərinə baxan Veysəl bəy Türkiyənin Naxçıvanda yerləşən qoşunlarının başçısı təyin olunmuşdu. Hərbi qərargah Şahtaxtı kəndində yerləşirdi. Naxçıvanın daşnak quldurlarından müdafiəsində türk qoşun dəstələri mühüm rol oynayırdı. Şərurun Arazdöyən stansiyasından başlamış Ordubada qədər hər yerdə — dəmir yolu stansiyalarında, dayanacaqlarda, şəhərlərdə, iri kəndlərdə və sərhədlərdə türk əsgərləri dayanmışdılar. Türk ordusu zabitlərinin icazəsi olmadan heç bir silahlı və silahsız erməni Naxçıvan ərazisinə daxil ola bilməzdi. Naxçıvan torpağının hər hansı bir nöqtəsində bir hadisə baş verən kimi dərhal Veysəl bəyə məlumat çatdırılırdı.

Heç də təsadüfi deyildi ki, B. Vəlibəyov Ermənistan İnqilab Komitəsinin mandatı ilə 1920-ci il dekabrın 23-də İrəvan şəhərindən Naxçıvana qayıdarkən onun qatara qoşulmuş ayrıca vaqonu Şahtaxtı stansiyasında saxlanılmış və iki sutka ərzində Naxçıvana buraxılmamışdı. Veysəl bəy Vəlibəyova açıqca bildirmişdi ki, «sən Naxçıvanı Ermənistana satmısan».[9][46-47]

Əlbəttə, Türkiyə ordusu ilə XI Qızıl Ordu arasında əlaqə və münasibətlər çox mehriban, anlaşıqlı və dostluq şəraitində olmuşdur. Bu münasibətlər B. Vəlibəyovun Ermənistan İnqilab Komitəsinə, XI Qızıl Ordunun hərbi şurasına və surəti məlumat üçün Azərbaycan K(b)P MK-ya, Azərbaycan İnqilab Komitəsinə və RK(b)P MK-ya yazdığı hesabatlarda, habelə sonradan həmin hesabatlara etdiyi əlavələrdə də öz dolğun ifadəsini tapmışdır. Bununla belə, həmin dövrdə B. Vəlibəyovun Naxçıvanın, heç bir əsası olmadan və xalqın böyük əksəriyyətinin rəyi ziddinə Ermənistana birləşdirilməsi tərəfdarı kimi çıxış etməsi xeyli təəccüb doğurur.

Əlbəttə, bu da bir həqiqətdir ki, məhz kamalçı Türkiyəsi ilə Sovet Rusiyası, Türkiyə ordusu ilə XI Qızıl Ordu arasında münasibətlərin dostluq şəraitində qurulması Ermənistan SSR rəhbərlərinin Naxçıvana münasibətdə öz mövqelərini belə kəskin surətdə dəyişməyə məcbur etmişdi. Çünki onlar yaxşı bilirdilər ki, XI Qızıl Ordusuz bir saat belə hakimiyyətdə qala bilməzlər. Lakin Ermənistan SSR rəhbərləri hələ 1921-ci ilin əvvəllərinədək Naxçıvanı Ermənistana birləşdirmək ümidlərindən əl çəkməmişdilər. 1921-ci il yanvarın 1-dən 5-dək RSFSR-in Ermənistandakı nümayəndəsi Leqranın başçılığı ilə Ermənistan SSR nümayəndələrinin Şərurun Sədərək, Baş Noraşen, Yeycə, Şahtaxtı kəndlərində, Naxçıvan şəhərində və bir sıra digər yerlərdə mitinqlər təşkil etməsi, qaçqınlarla, XI Qızıl Ordu, Qırmızı türk ordusunun zabitləri ilə söhbətlər aparması da məhz elə bu ümidlərin dirçəldilməsinə yönəlmişdi. Mitinqlərdə «Sovet Ermənistanının düşməni Sovet Naxçıvanının düşmənidir» və yaxud «Sovet Naxçıvanının düşməni Sovet Ermənistanının düşmənidir» kimi şüarlar söylənilməsi də məhz həmin xam xülyalar naminə edilmişdi.[10]

Yeri gəlmişkən, Naxçıvanda Ermənistandan gəlmiş ermənilərin təşkil etdikləri «dostluq mitinqləri» keçirilərkən Veysəl bəy onun təşkilatçılarının dərhal həbsə alınmalarını əmr etmiş və bununla əlaqədar B. Vəlibəyovun adına rəsmi sorğu göndərmişdi. Burada deyilirdi:

«Mən, Şərq cəbhəsi baş komandanlığının siyasi nümayəndəsi kimi sizə aşağıdakılar barədə rəsmi sorğu verirəm:[47-48]

---

[7] Ermənistan SSR MDA, f. 114, siy. 1, iş 27, vərəq 23,
[8] Naxçıvan MDA, f.314, siy. 5, iş 14, vərəq 20-22.
[9] Naxçıvan MDA, f.314, s. 5, qov. 15, iş 14, vərəq 28.
[10] Ermənistan SSR OİMDA, f 114, siy 1, iş 25, vərəq 21 — 37. *həmçinin,* Naxçıvan MDA, f. 314, siy. 5, iş 14, vərəq 15 — 16.

1. Yaranmış yeni tarixi şəraitlə əlaqədar, mümkünsə, sizin, Naxçıvan rayonunun fövqəladə komissarı təyin olunmağınız barədə mandatınızı Naxçıvanda rabitə zabiti Hikmətə təqdib edib, surətini isə mənə göndərin, əgər mümkün deyilsə, səbəbini göstərin.

2. 20-ci il bu ayın 7-də bir nəfər erməni mitinq keçirmiş, Naxçıvan rayonu əhalisi adından erməni hökumətinə təbrik göndərmiş və Naxçıvan rayonunun Ermənistana birləşdirilməsi üçün imzalar toplamaq istəmişdir. Əgər onun səlahiyyəti vardırsa, heç şübhəsiz, Naxçıvan hökumətinə bildirməlidir ki, həmin erməni rəsmi şəxsdir. Nəyə görə siz İrəvan İnqilab Komitəsindən həmin erməniyə kömək göstərilməsi barədə göstəriş almamısınız, əgər almısınızsa, onun surətini təqdim etməyinizi xahiş edirəm.

3. Hökumət tərəfindən Naxçıvanın Türkiyə protektoratlığına keçməsi üçün mitinqlər keçirməyə yol veriləcəkdirmi: əgər verilməyəcəksə, o zaman bunun sizin üçün nə fərqi var?

4. Əhalinin heç nədən xəbəri olmadığı halda sizin razılığınızla bütün kəndlərə çöndərilmiş təşviqatçılar erməniləri tərifləydikləri halda, türk əhalisinin dəhşətlərindən ağız dolusu danışırlar; bizdə bunu təsdiq edən rəsmi sənəd vardır. Məgər Sovet hakimiyyətinin proqramında belə bir müddəa vardırmı ki, əhali öz-özünü idarə etdiyi halda bu və ya digər dövlətin xeyrinə təşviqat aparılsın. Əgər türklər də indi siz etdiyiniz kimi hərəkət etsələr və əhali iki cəbhəyə ayrılsa və günahsız qan tökülsə, bundan ötrü kim məsuliyyət daşımalıdır. Tutaq ki, günahkar türklərdir, bəs niyə ermənilərin xeyrinə təşviqat aparmaq olar, türklərin xeyrinə isə yox.

5. Ermənistan və İnqilabçı Türkiyə arasında Aleksandropolda bağlanmış sülhə əsasən inqilabçı türk dəstəsi Naxçıvanda Sovet hakimiyyətini mühafizə etməli və onun keşiyində durmalıdır. Daşnakların Naxçıvana sonuncu hücumu zamanı Abbasqulubəy Ağcakənddən İrana üç pulemyot ötürmüşdür. Bu barədə bizdə rəsmi sənəd vardır və həmin iş barəsində sizə dəfələrlə məlumat verilmişdir. Lakin bu iş üzrə istintaqı qurtarmamış yüzlərlə qaçqın kütləvi soyuqdan və aclıqdan məhv olduğu bir vaxtda siz adı bəlli olan Abbasqulubəyi İrəvandan gətirdiyiniz iri məbləğdə pulla təchiz edib İrana göndərdiniz. Sizin tərəfdən belə davranış məgər demirmi[48-49] ki, siz açıqca əclaflara və əməkçi xalqı düşmənlərinə kömək edirsiniz. Sizin hərəkət və əməlləriniz sayəsində Naxçıvanda Sovet hakimiyyətinin mənafeyini müdafiə etməli olan inqilabçı dəstəmiz hazırda əməkçi ünsürlərin düşmənlərinə kömək edən hakimiyyətin müdafiəçisi olmuşdur. İnqilabçı türk qırmızı dəstəsi sizin xalqın nəfəsini kəsən hərəkətlərinizə etirazını bildirir.

6. Abbasqulubəyin üç pulemyotu İrana keçirib orada satması barədə sübuta yetirilmiş sənəd olduğu halda siz dürüst olmayan məlumatlar əsasında silah satanları dərhal həbs edirsiniz. Onu isə nəinki həbs etmirsiniz, hətta iri məbləğdə pulla təchiz edib İrana göndərirsiniz. Kommunistlərin proqramı buna yol verirmi, əgər yol vermirsə, həmin işi görən kommunist öz əli ilə özünü cəzalandırmağa borclu deyildirmi? Ola bilsin ki, bizim kommunistlər haqqında anlayışlarımız səhvdir. Kommunist olmağa can atan inqilabçı türklərin yuxarıda göstərilən məsələ barəsində izahat almağa ehtiyacları vardır.

7. Surəti Şərq cəbhəsinin komandirinə, İrəvan və Naxçıvandakı rabitə zabitinə, 106-cı kommunist polkuna, Naxçıvan İnqilab Komitəsinə və Kommunist Partiyasına göndərilir.

Qırmızı türk dəstəsinin komandiri — Şərq cəbhəsi baş komandanlığının siyasi nümayəndəsi Veysəl bəy».[11]

Belə nisbətən böyük iqtibas gətirməkdə məqsəd türk qoşun dəstəsinin o dövrdə Naxçıvanın ictimai-siyasi həyatındakı rolunu bir daha nəzərə çarpdırmaqdan ibarətdir. Bu rol isə həqiqətən böyük olmuşdur.

1921-ci il yanvarın 7-də Veysəl bəy Naxçıvan şəhərində Ermənistan didərginləri ilə birlikdə əhalinin izdihamlı mitinqini təşkil etmişdi. O, özünü Naxçıvanın fövqəladə komissarı elan etmiş və bildirmişdi ki, Naxçıvan Türkiyənin protektoratlığına keçir və torpaq onun ayrılmaz hissəsidir. Həmin gün, həmçinin, fövqəladə komissarlıq tərəfindən əvvəllər həbs olunmuş bir neçə nəfər müsavatçı həbsxanadan azad edilmişdi.[12]

Beləliklə, B. Vəlibəyovun Naxçıvanda erməni nümayəndələrinə Ermənistanın xeyrinə sərbəst təşviqat aparmaq imkanı verməsi ağır siyasi nəticələrə gətirib çıxar[49-50]mışdı ki, bunları aradan qaldırmaq üçün xeyli cəhdlər göstərmək lazım gəlmişdi. Yanvarın 9-da Qızıl Ordunun yeni dəstəsi Şahtaxtıdan Naxçıvana gəlmiş, fitnəkar hadisələrin törədilməsində günahkar olan 5— 6 nəfər hərbi tribunalın qərarı ilə güllələnmişdi. Yalnız bundan sonra vəziyyət nisbətən sabitləşmişdi. Bununla yanaşı, həmin hadisələr B. Vəlibəyovu və onun hamilərini buna da inandırmışdı ki, Naxçıvanı asanlıqla Azərbaycandan qoparıb Ermənistana, «bağışlamaq» mümkün olmayacaqdır. Çünki əhalinin böyük əksəriyyəti bu barədə eşitmək belə istəmir, burada olan türk qoşun hissəsi isə onları müdafiə edirdi.

Bunu 1921-ci il yanvarın 19-da Vəlibəyovun Anadoluda Kazım Qarabəkir paşaya təqdim etdiyi məktubdan da görmək olar. Məktubda deyilirdi:

---

[11]Naxçıvan MDA, f. 314, siy. 5, ç. 25, iş 14. vərəq 20 — 29.
[12] Yenə orada

«Son vaxtlar cəbhədə baş verən hadisələr əlaqələrimizin kəsilməsinə səbəb olmuşdur. Sanki Şərqdə siyasi vəziyyət sönmüşdür. Şərqdəki inqilabçı yoldaşların güclü əlləri ilə qaynar Şərqin üzərindən qara tüstülər artıq uzaqlaşır. Anadoluya birinci dəfədir ki, daxil oluram. İndi Anadolu qırmızı bayrağı qaldırıb Şərqin azad olması şüarı ilə məzlumları irəliyə doğru aparır. Şərqin taleyini Moskvada olduğu kimi, Türkiyədə də zəhmətkeş xalqın ixtiyarına vermək günü yaxınlaşmışdır... Millətlərin həyat şəraitinə, adət-ənənəsinə, dilinə, milli xüsusiyyətlərinə başlıca diqqət vermək lazımdır. Naxçıvanın müstəqilliyini Ermənistan, Ukrayna, Dağıstan Sovet Respublikaları, Maku xanı və Təbriz şəhərinin hakimi tanımışlar. Türkiyə tərəfi Naxçıvanın Azərbaycanın himayəsində özünü tam idarə edə biləcəyinə əmin ola bilər».[13]

Yeri gəlmişkən, belə bir mühüm cəhət də qeyd edilməlidir ki, 1920-ci ilin ikinci və 1921-ci ilin birinci yarısında RSFSR-lə Türkiyə dövləti arasında diplomatik əlaqələrin yaradılması və saxlanılmasında Naxçıvan əsas vasitəçi rolunu oynamışdı. Çünki, 1920-ci illə Qara dənizdə Antantanın hərb gəmiləri dayanmışdı, Gürcüstanın və Ermənistanın menşevik və daşnak hökumətlərinin Türkiyə ilə diplomatik əlaqələri yox dərəcəsində idi.

1921-ci ilin yanvarında Şahtaxtıda yerləşən XI Qızıl Ordunun 106-cı polkunun zabitləri arasında qiyam [50-51]baş verməsi Naxçıvanda yaranmaqda olan siyasi sabitlik üçün ağır zərbə oldu. Fövqəladə komissarlığın və türk qoşunu rəhbərliyinin bütün tədbirlərinə baxmayaraq 1921-ci il yanvarın 10-dan 11-nə keçən gecə təxminən 300 nəfər qızıl əsgər və zabit Şahtaxtı körpüsündən keçərək İrana getdi.[14]

Bu hadisə Naxçıvanın siyasi və iqtisadi həyatına pis təsir etdi.

Əsgər və zabitlərin İranda olan denikinçilərə qoşulub soyğunçuluq və quldurluqla məşğul olmalarından narazı qalan Maku xanı Murtuzaqulu xan Naxçıvanla əlaqəni kəsdi. Bu isə Naxçıvanda onsuz da ağır olan iqtisadi vəziyyəti daha da çətinləşdirdi. Çünki həmin dövrdə Naxçıvana taxıl və digər ərzaq məhsulları əsasən Makudan gətirilirdi.

Naxçıvan İnqilab Komitəsi bu ağır vəziyyətdən çıxmaq üçün Təbriz şəhərində Naxçıvanın ticarət nümayəndəliyini yaratdı. İnqilab Komitəsi qaçqınları yerləşdirmək, çöməklə, ev əşyaları ilə təchiz etmək üçün tez-tez Azərbaycan hökumətinə, XI Qızıl Ordunun hərbi Şurasına, RSFSR hökumətinə, Təbriz hakiminə, Maku sərdarına, Xoy hakiminə müraciət edir, iqtisadi və ticarət əlaqələrini möhkəmləndirmək üçün tədbirlər görürdü.

Göstərilən dövrdə iqtisadi çətinliklərə baxmayaraq Naxçıvan əhalisini ən çox düşündürən məsələ öz müqəddəratını təyin etməsi məsələsi idi. 1920-ci ilin sonu— 1921-ci ilin əvvəllərində Naxçıvanda baş verən hadisələr Azərbaycan İnqilab Komitəsinin 1 dekabr 1920-ci il tarixli bəyannaməsini, Ermənistan İnqilab Komitəsinin 1920-ci il 26 və 28 dekabr tarixli bəyanatlarını hüquqi cəhətdən əsassız etmişdi. Naxçıvan əhalisi Azərbaycan SSR tərkibində muxtariyyət tələb edirdi 1921-ci ilin ilk aylarında bu sahədə artıq müəyyən irəliləyişlər əldə edilmişdi. Bunun üçün isə ilk əvvəl türklərə Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyət alacağı barədə təminat verilməli və buna Moskvanın razılığı əldə olunmalı idi. 1921-ci ilin fevral-martında danışıqlar məhz bu istiqamətdə aparıldı. Danışıqlarda o dövrdə N. Nərimanovun tapşırığı ilə Moskvaya gəlmiş B. Şahtaxtinskinin mühüm xidmətləri olmuşdur. 1921-ci il martın əvvəlində Moskvaya gəlmiş Türkiyə nümayəndəsi ilə onun apardığı danışıqlar müvəffəqiyyətlə nəti[51-52]cələnmişdi. O, bu barədə martın 7-də Çiçerinə və Stalinə göndərdiyi məktubda yazmışdı: «Dünən türklərlə mənim çox uzun sürən söhbətim oldu. Naxçıvan diyarı və Batum indi onları az maraqlandırır. Çünki onlar başa düşürlər ki, bu rayonlar üstündə aparılan mübahisələr səmərəli nəticələr verə bilməz».[15]

B. Şahtaxtinskinin bir qədər əvvəl martın 1-də RSFSR Xalq Komissarları Sovetinin sədri V. İ. Leninə göndərdiyi məktub da çox maraqlıdır. Məktubda, əsasən, Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan və Şimali Qafqaz müsəlman xalqlarının gələcək talelərindən söhbət açılırdı. Məktuba adları çəkilən ərazilərin coğrafiyası, əhalisinin milli tərkibi, sayı haqqında arayışlar əlavə edilmişdi.

Məktubda, Zaqafqaziyada ərazi sərhədləri ilə, həmçinin, Naxçıvanla bağlı mühüm təkliflər irəli sürülmüşdü. Həmin təkliflər Leninin diqqətini cəlb etmiş və martın 7-də onun dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilmişdi.[16]

Bütün bu səylər Türkiyə dövləti ilə danışıqların başlanmasında və müvəffəqiyyətlə başa çatdırılmasında əhəmiyyətli rol oynamışdı.

1921-ci il martın 16-da Moskvada RSFSR-in, Türkiyənin, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR nümayəndələrinin iştirakı ilə aparılmış danışıqlar başa çatmışdı. Danışıqlar RSFSR-lə Türkiyə arasında dostluq və qardaşlıq haqqında müqavilənin imzalanması ilə nəticələnmişdi. Müqavilənin RSFSR

---

[13] Naxçıvan MDA. f. 314, s. 5. ç. 16, iş 15, vərəq 7 — 9.
[14] Ermənistan SSR OİMDA, f. 114, siy. 1, iş 25, vərəq 21 — 37
[15] H. *Hüseynov.* Göstərilən əsəri. s. 367 — 368.
[16] С.М.Хамандарян. Ленин и становление Закавказской Федерации. 1921-1923гг . Ераван,1969. с. 96 - 97.

tərəfdən xarici işlər naziri K. Çiçerin, Dağıstan İnqilab Komitəsinin sədri, RSFSR MİK-in üzvü, C. Korkmasov, Türkiyə tərəfdən isə Yusif Kamal, Riza Nuri, Əli Fuad imzalamışdılar. Müqavilədə Naxçıvan məsələsi də özünün ədalətli həllini tapdı. Müqavilənin üçüncü maddəsində deyilirdi: «Danışıqlar aparan tərəflər razılığa gəlirlər ki, Naxçıvan vilayəti həmin müqavilənin 1 (s) saylı əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaradır, bu şərtlə ki, Azərbaycan həmin protektoratlığı üçüncü dövlətə güzəştə kedə bilməz».[17][52-53]

Müqavilənin həmin maddəsinə sonuncu bəndin əlavə edilməsi Naxçıvan məsələsinin sonralar yenidən müzakirə obyektinə çevrilməsinin qarşısının alınmasında mühüm rol oynadı. Ermənistan SSR-in Naxçıvana olan ərazi iddialarını heçə endirdi Müqavilənin əhəmiyyəti RSFSR rəhbərliyi, o cümlədən V. İ. Lenin tərəfindən də qeyd edildi.

Beləliklə, Naxçıvanın tarixən təşəkkül tapmış milli xüsusiyyətləri və ənənələri, əhalinin arzu və istəkləri uğrunda uzun müddətdən bəri daşnak qəsbkarlarına qarşı apardığı mübarizə nəhayət ki, yüksək səviyyədə nəzərə alındı və ona Azərbaycan SSR tərkibində əlahiddə Sovet Sosialist Respublikası kimi təşkil olunmaq hüququ verildi.

1921-ci il oktyabrın 13-də Qars şəhərində RSFSR-in iştirakı ilə bir tərəfdən Ermənistan SSR, Azərbaycan SSR, Gürcüstan SSR hökumətləri, digər tərəfdən Türkiyə Böyük Millət Məclisi hökuməti arasında bağlanmış dostluq haqqında müqavilə imzalandı. Qars müqaviləsini Türkiyə tərəfdən Kazım Qarabəkir paşa, Vəli bəy, Muxtar bəy, Məmdux Şövkət bəy, Azərbaycan SSR-dən xalq dövlət nəzarət komissarı Behbud bəy Şahtaxtinski, Ermənistan SSR-dən xarici işlər komissarı Əskinaz Mravyan, xalq daxili işlər komissarı Poqos Makinzyan, Gürcüstan SSR-dən xalq hərbi və dəniz işləri komissarı Şalva Eliava, xalq xarici işlər və maliyyə komissarı Aleksandr Svanidze və RSFSR-in Latviyadakı səlahiyyətli səfiri Yakov Qapetski imzalamışdılar. Müqaviləyə edilən əlavədə Ermənistan SSR-in Türkiyə və İran dövlətləri ilə sərhədləri göstərilmiş, Naxçıvan SSR-in Türkiyə ilə sərhədi Arazdöyən stansiyasına qədər 11 km uzunluğunda müəyyən edilmiş, İranla sərhədi isə 176 km uzunluğunda, yəni 1828-ci il Türkmənçay müqaviləsində olduğu kimi saxlanılmışdı. Müqavilənin beşinci maddəsi ilə bir daha təsdiq edilirdi ki, Türkiyə hökuməti və Sovet Ermənistanı və Azərbaycan hökumətləri, Naxçıvan vilayətinin həmin müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar.[18]

1921-ci il aprelin 4-də Naxçıvan SSR-in yeni hökuməti təşkil edilmişdi. Həmin hökumətin tərkibi belə idi:[53-54]

1. Xalq Komissarları Sovetinin sədri A. Qədimov (o, həm də İnqilab Komitəsinin sədri vəzifəsində saxlanılırdı).
2. Fövqəladə daxili işlər, poçt, teleqraf komissarı Ş. Əliyev.
3. Naxçıvan qarnizonunun rəisi A. Şadlinski.
4. Xalq Təsərrüfatı Şurasının sədri Mehdiyev.
5. Səhiyyə komissarı Ə. Abbasov.
6. Maliyyə komissarı Bənəniyarski.
7. Maarif və ədliyyə komissarı Ə. Rüstəmov.
8. Torpaq komissarı Hacılarov.
9. Ərzaq komissarı Məmmədov.
10. Fəhlə-kəndli müfəttişliyi Musayev.[19]

Qeyd etmək yerinə düşər ki, 20-ci illərdə Naxçıvan SSR-in hüquq və səlahiyyətləri daha geniş olmuşdur. Qonşuları — İran və Türkiyə dövlətləri və Zaqafqaziya respublikaları ilə diplomatik və iqtisadi əlaqələri konsulluq və nümayəndəliklər vasitəsilə həyata keçirilirdi. Naxçıvanın Maku, Xoy və Təbriz şəhərlərində konsulluqları, Türkiyənin Qars şəhərindəki RSFSR konsulluğu yanında Naxçıvan müvəkkilliyi yaradılmışdı. Türkiyənin Naxçıvanda hərbi nümayəndəliyi 1924-cü ilin iyulunadək, İranın Naxçıvandakı konsulluğu isə 1938-ci il noyabrın 17-dək fəaliyyət göstərmişdir. Makuda İsmayılbəy Camalbəyov, Təbrizdə Qasımbəy Camalbəyov Naxçıvan SSR-in ilk konsulları olmuşlar. Qars şəhərində Naxçıvanın müvəkkili Balabəy idi.

Naxçıvan SSR-in Bakı, Tiflis və İrəvan şəhərlərində də nümayəndəlikləri yaradılmışdı. Əziz Şərif 1922-ci ilin yanvarında Gürcüstan SSR-də Naxçıvanın nümayəndəsi təyin edilmişdi.

Yeri gəlmişkən, belə bir cəhət də mütləq qeyd edilməlidir ki, Naxçıvan Mərkəzi Dövlət Arxivində saxlanılan sənədlər uzun illər boyu lazımınca araşdırılmadığından Naxçıvan tarixinin Sovet dövrünün ilk iki

---

[17] Документы внешней политики СССР, т. Ш_М., 1959, с.598-599.
[18] Azərb. EA-nın Xəbərləri, tarix fəlsəfə və hüquq seriyası. 1990, s 72 — 74.
[19] «Azərbaycan Kommunisti», 1990, № 11, s. 77 — 78.

onilliyinin öyrənilməsi və şərhində təhrif və səhvlərə yol verilmişdir. Naxçıvandan bəhs edərkən, adətən Naxçıvan MSSR-dən söhbət açılmışdır. Əslində isə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin, Xalq Komissarları Sovetinin, Vilayət Partiya Komitəsinin həmin dövr üçün sənədlərində və bu respublikanın 1926-cı ildə qəbul olunmuş konstitusiyasında adı 1937-ci ilədək «Naxçıvan [54-55]Sovet Sosialist Respublikası» kimi verilmişdir. «Muxtar respublika» sözü isə ilk dəfə Naxçıvanda Sovet hakimiyyəti qurulmasının 15 illiyi münasibətilə mətbuatda çap olunmuş materiallarda işlədilmişdir.

Naxçıvan diyarına Azərbaycan SSR tərkibində muxtar ərazi kimi təşkil olunmaq hüququ verilməsi və bu hüququn dövlətlərarası müqavilələrdə təsbit olunması xəbəri Azərbaycanda razılıqla qarşılandı. Hələ 1921-ci ilin mayında 1-ci Ümumazərbaycan Sovetlər qurultayında M. D. Hüseynov nümayəndələrin verdiyi suallara cavabında demişdi ki, Zaqafqaziya respublikalarının razılığı və iştirakı ilə RSFSR-lə Türkiyə arasında martın 16-da imzalanmış müqaviləyə əsasən Azərbaycanın tərkibində Naxçıvan əlahiddə müstəqil sovet sosialist respublikası kimi təşkil olunmuşdur. Naxçıvanda Azərbaycanın, Bakıda isə Naxçıvanın nümayəndəliyi yaradılmışdır. Azərbaycan hökumətinin Naxçıvana geniş miqyaslı və hərtərəfli yardım göstərməsi nəzərdə tutulur.[20]

Qeyd etmək lazımdır ki, RSFSR və Zaqafqaziya sovet respublikaları ilə Türkiyə dövləti arasında imzalanmış müqavilələrdən sonra da türk qoşunları Ermənistan SSR və Naxçıvan SSR ərazilərindən çəkilib aparılmamışdı. Bu məsələləri Türkiyə dövlətinin, indiyə qədər deyildiyi kimi, həmin respublikalara ərazi iddiaları kimi izah etmək, əlbəttə, düzgün olmazdı. Çünki yuxarıda deyildiyi kimi, həmin ərazilərdə yerləşdirilmiş məhdud saylı türk qoşun hissələri daha çox daşnak təcavüzünün qarşısını almaq və sovet hakimiyyətini müdafiə etmək vəzifəsini yerinə yetirmişdi. Görünür, türk qoşunlarının çıxarılmaması, başlıca olaraq, daşnakların hakimiyyətinin bərpa oluna biləcəyi təqdirdə Naxçıvana qarşı yeni təcavüz başlanması təhlükəsinə yol verməmək, həmçinin, Naxçıvan SSR-in Azərbaycanın protektoratlığına keçməsinin qanunvericilik yolu ilə nizamlanmaması ilə bağlı olmuşdur. Bunu belə bir faktdan da aydın görmək olar ki, hətta RSFSR hökumətinin tapşırığı ilə XI Qızıl Ordunun Ermənistandakı qoşunlarının baş komandanı A. İ. Qekker türk qoşunlarını Naxçıvan və Ermənistandan çıxarmaq barədə Türkiyə ordusu Şərq cəbhəsinin komandanı Kazım Qara-bəkir paşaya ultimatumla müraciət etdikdən sonra da[55-56] türklər aprelin 22-də ancaq Ermənistan SSR-in Aleksandropol qəzasından öz qoşunlarını çıxarmışdılar. Hadisələrin sonrakı gedişi türklərin ehtiyat etməsinin əsaslı olduğunu göstərmişdi. Belə ki, 1921-ci ildə bir-sıra tədbirlər görüldü. Bütün Naxçıvan ərazisində Sovet hakimiyyəti əleyhinə qiyamları zamanı türk qoşun hissələri Qızıl Ordu hissələrinə kömək etməklə yanaşı, həm də ehtiyat tədbiri kimi özlərinin başlıca qüvvələrini Şahtaxtıdan Naxçıvana yeritmişdilər.

Bütün bunlar isə öz növbəsində Naxçıvan SSR-in Azərbaycan SSR tərkibində muxtariyyət hüququnun nizama salınmasını və qanunvericilik yolu ilə təsbit olunmasını tələb edirdi. Bu məqsədlə hələ 1921-ci ildə bir sıra tədbirlər görüldü. Bütün Naxçıvan ərazisində Sovet hakimiyyətinin qalib gəlməsi ilə əlaqədar 1921-ci il yanvarın 21-də dövlət hakimiyyətinin ali orqanı Naxçıvan Diyar İnqilab Komitəsi yaradıldı.

1921-ci il oktyabrın 16-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Naxçıvanda Sovet quruculuğu işlərinə rəhbərlik etmək üçün ora bir qrup təcrübəli sovet işçiləri göndərdi.

1922-ci il martın 3-də Azərbaycan MİK-nin sessiyası Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR, RSFSR ilə Türkiyə arasında imzalanmış 1921-ci il 16 mart və 13 oktyabr tarixli müqavilələri təsdiq etdi.[21]

1922-ci ilin sentyabrında Azərbaycan MİK diyara maddi yardım göstərilməsi haqqında Naxçıvan MİK-nin xahişini yerinə yetirdi. Azərbaycan SSR Xalq Komissarlar Q.Sovetinin 1922-ci il 10 oktyabr tarixli qərarı ilə Naxçıvan Respublikası aylıq krediti 10 milyard manatadək artırılmaqla Azərbaycan SSR-in dövlət təchizatı planına daxil edildi.

Hələ 1921-ci ilin sentyabrından fəaliyyət göstərməkdə olan Naxçıvan SSR Xalq Komissarları Sovetinin ərzaq, torpaq, maliyyə, səhiyyə, maarif, daxili işlər, hərbi işlər, fəhlə-kəndli müfəttişliyi xalq komissarlıqlarına oktyabr ayından xalq xarici işlər, rabitə, əmək, daxili ticarət, sosial təminat, ədliyyə, xarici ticarət, fövqəladə komissiya, xalq təsərrüfatı şurası və hərbi tribunal komissarlıqları da əlavə olundu.[22] [56-57]

1921-ci ilin sonunda Naxçıvan Respublikasında Sovetlərə seçkilər keçirildi.

1922-ci il yanvarın 25-də Naxçıvan SSR Sovetlərinin birinci qurultayı oldu. Qurultay Diyar İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin hesabatlarını dinləyərək müzakirə etdi və sovet, təsərrüfat, mədəniyyət quruculuğuna dair mühüm qərarlar qəbul etdi. Qurultay Diyar İnqilab Komitəsini ləğv edərək Naxçıvan SSR-in Mərkəzi İcraiyyə Komitəsini yaratdı.

---

[20] Azərbaycan OİMDA. f. 379. siy. 16, iş 13, vərəq 6—7.
[21] Azərbaycan OİMDA, f. 379, siy. 16, iş 13, vərəq 6—7.
[22] *Dj Kuliev, Q A Madatov A. A Nadirov.* Göstərilən əsəri. s. 55-56.

1922-ci ilin dekabrında Azərbaycan SSR-in ZSFSR tərkibində SSRİ-yə daxil edilməsi onun suveren hüquqlarını xeyli məhdudlaşdırsa da, Naxçıvanla bağlı məsələnin konstitusiya yolu ilə həlli məsələsinin əhəmiyyətini heç də azaltmadı. Deyildiyi kimi, Naxçıvan, Sovet hakimiyyətinin diyarda qalib gəldiyi ilk günlərdən, xüsusilə RSFSR ilə Türkiyə arasında Moskva müqaviləsi bağlandıqdan sonra Azərbaycan SSR-in muxtar hissəsi kimi idarə edilirdi, lakin bu hələ konstitusiya yolu ilə rəsmiləşdirilməmişdi. Görünür, həmin məsələnin qeyri-müəyyən müddətə yubadılmasında da müəyyən qüvvələrin marağı olmuşdu.

Nəhayət, 1922-ci ilin dekabrında Zaqafqaziya birinci Sovetlər qurultayı bu məsələ ilə əlaqədar xüsusi qərarında göstərmişdi: «Naxçıvan Respublikası muxtariyyət hüququnda Azərbaycan SSR-in ayrılmaz və tərkib hissəsi hesab edilsin».[23] Həmin qərardan sonra Azərbaycan SSR tərkibində Naxçıvanın muxtariyyəti məsələsi Zaqafqaziya və Azərbaycan Kommunist Partiyası rəhbərliyində müzakirə olunmuş məsələni qəti həll etmək və müvafiq bəyannamə işləyib hazırlamaq Naxçıvan Diyar Sovetlər qurultayına həvalə olunmuşdu.

Naxçıvanın əməli olaraq Azərbaycanla birləşməsi barədə yayılan məlumatları Naxçıvan əhalisi böyük ruh yüksəkliyi ilə qarşılamışdı. Naxçıvan şəhəri dəmir yolu fəhlələrinin, şəhər qulluqçuları və zəhmətkeşlərinin həmin məsələnin müzakirəsinə həsr edilmiş 1923-cü il 24 fevral tarixli ümumi yığıncağının qərarında oxuyuruq: «Naxçıvan SSR-in yenidən təşkil edilməsi və Naxçıvanın Azərbaycan SSR ilə birləşməsi haqqında məruzə və çıxışları dinləyib müzakirə edərək, biz qardaş Sovet Azərbaycanı ilə birləşmək ideyasını tama[57-58]milə və bütünlüklə bəyənirik». O dövrdə Azərbaycan SSR rəhbərliyinə göndərilən belə məzmunlu qərar və məktubların sayı yüzlərlə idi.

1923-cü il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi məsələsini müzakirə edərək qərara aldı: «...Fəhlə və kəndlilərimizin mənafeyinin qorunması rəhnini, mədəni, iqtisadi inkişafımızı və tərəqqimizi biz ancaq Azərbaycanla sıx birlikdə görürük».[24] Qurultay, muxtariyyət və Azərbaycanla birləşmək haqqında bəyannamə qəbul etdi.

Qurultay qərara aldı: Naxçıvan MİK, Xalq Komissarları Soveti və bütün xalq komissarlıqları buraxılsın Diyarı idarə etmək üçün gələcəkdə Naxçıvan Diyar İcraiyyə Komitəsi adlanan 17 üzv və 7 namizəddən ibarət komitə seçilsin.

1923-cü il iyunun 16-da Azərbaycan MİK-in üçüncü sessiyası Naxçıvan Sovetlər qurultayının Naxçıvan diyarının muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi haqında xahişini bəyəndi və Naxçıvan SSR yenidən təşkil edilərək, muxtar diyar oldu.

Azərbaycan MİK-in Naxçıvan muxtar diyarı haqqında əsasnaməsinə uyğun olaraq diyarda bütün hakimiyyət diyar mərkəzi icraiyyə komitəsinə məxsus idi. Ali hakimiyyət orqanı ildə bir dəfə çağırılan diyar Sovetlər qurultayı sayılırdı. Ləğv edilmiş xalq komissarlıqları əvəzinə diyar icraiyyə komitəsinin şöbələri yaradıldı.

Əlbəttə, Naxçıvan diyarına muxtariyyət hüququ verilməsi və onun Azərbaycana birləşməsi özlüyündə çox böyük müvəffəqiyyət sayıla bilərdi. Bununla belə, həmin muxtariyyət inzibati vilayət muxtariyyəti hüquqları çərçivəsindən kənara çıxmırdı və siyasi hüquqlarına görə muxtar respublikadan xeyli geriyə qalırdı. Odur ki, hələ 1923-cü ilin sonuna doğru bu sahədə çatışmazlıqlar özünü göstərdi.

1923-cü ilin dekabrında Azərbaycan Kommunist Partiyası rəhbərliyi məsələnin mühüm əhəmiyyətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası yaradılması təklifini irəli sürdü.

1923-cü il dekabrın 31 də Azərbaycan MİK Naxçıvan Muxtar Diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya MİK-dən xahiş etdi. [58-59]

1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK-nin birinci plenumu Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında məruzəni və Azərbaycan MİK-nin müvafiq qərarını müzakirə edərək Naxçıvan Muxtar Diyarını Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Respublikasına çevirmək haqqında qərar çıxartdı.

1924-cü il yanvarın 18-də Naxçıvan MİK-nin birinci plenumu çağırıldı. Plenumda Zaqafqaziya və Azərbaycan MİK-lərinin qərarları əsasında Naxçıvan Muxtar Diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında məsələ müzakirə və təsdiq edildi. Plenumun qərarı ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası MİK-i, Xalq Komissarlıqları Soveti və komissarlıqların (torpaq, daxili işlər, maarif, səhiyyə), habelə Azərbaycan SSR xalq komissarlıqlarının (maliyyə, əmək, hərbi komissarlıq) müvəkkillikləri yaradıldı. Plenumda MİK-in 7 nəfərdən ibarət rəyasət heyəti seçildi, Naxçıvan MSSR MİK nəzdində elektrikləşdirmə, telefonlaşdırma və

---

[23] *Q. Mədətov.* Göstərilən əsəri, səh. 149.
[24] Naxçıvan MP MDA, f. 40, siy. 4, iş 15. vərəq 12.

mənzil tikintisi üzrə komissiyalar təşkil edildi. Naxçıvan MSSR inzibati cəhətdən üç qəzaya: Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsbit edildi.

Bununla da Naxçıvan məsələsinin qanunvericilik qaydasında nizama salınması başa çatdırıldı. Naxçıvan əhalisi əbədi olaraq öz doğma qardaşlarına qovuşdu.

1924-cü ilin aprelində Azərbaycan MİK tərəfindən təsdiq edilmiş Naxçıvan MSSR haqqında yeni əsasnamənin birinci maddəsində deyilirdi: «Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Naxçıvan ərazisində yaşayan bütün zəhmətkeşlərin azad sosialist cəmiyyətidir. Naxçıvan MSSR hüdudları daxilində bütün hakimiyyət ölkənin Sovetlərdə birləşmiş əməkçi əhalisinə məxsusdur».

Əsasnamənin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-in tərkib hissəsidir və muxtar respublika kimi ona daxil olur. Naxçıvan MSSR-in Azərbaycan SSR-lə qarşılıqlı münasibətləri Azərbaycan SSR Konstitusiyası ilə müəyyən edilirdi. Onu da qeyd edək ki, 1926-cı ilin aprelində Naxçıvan MSSR-in birinci Konstitusiyası qəbul edilənədək əsasnamə Naxçıvan [59-60]Muxtar Respublikasında ictimai, iqtisadi, siyasi həyat tənzimləyən başlıca qanunvericilik aktı olmuşdur.

Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-in yaradılması daşnak-kommunist blokuna sarsıdıcı zərbə oldu, əzəli Azərbaycan torpaqlarını onun əsl sahiblərinin əbədi qisməti etdi.[60]

## NAXÇIVANDA DİNC HƏYATIN BAŞLANMASI VƏ QAÇQINLAR PROBLEMİNİN QİSMƏN HƏLL EDİLMƏSİ

1918-ci illərdə ardı-arası kəsilməyən daşnak basqınları şəraitində Naxçıvanın iqtisadi və mədəni həyatı ağır vəziyyətə düşmüşdü.

1920-ci ilin payızı və 1921-ci ilin yazında Naxçıvanda yaranmış dəhşətli vəziyyəti B. Vəlibəyovun 1921-ci il martın 16-da yazdığı hesabatdan daha aydın görmək olar**.** Orada deyilirdi: «Naxçıvanın 1920-ci ildəki dəhşətli mənzərəsi insanın xatirəndə həmişəlik qalacaqdır**.** Adamların baxışlarının biganəliyi, qəlblərinin soyuqluğu, sifətlərinin solğunluğu, yaşıl bağları da, çiçəkli dağları da gözə xəzan göstərir. Çünki hər tərəfdə səfalət, aclıq, yurdsuzluq və çoxlu insan qurbanları əhalini taqətdən salmışdı. Şəhər və kəndlərdən insanların nalə və sızıltı səsləri gəlir, hər yerdə insan meyitləri ilə qarşılaşırsan».[1]

1921-ci ilin yazında Azərbaycan İnqilab Komitəsində edilən məruzədə isə göstərilirdi ki, Naxçıvan, Ordubad, Şərur — Dərələyəz qəzalarında erməni quldurları tərəfindən azı 240 kənd xarabalığa çevrilmişdi. Bundan başqa Ermənistan SSR ərazisində, qalmış Azərbaycan kəndləri əsl mənada fəlakətə məruz qalmışdı: Zəngi-basar 48, Vedidə 118, Dərələyəzdə 74 kəndin əhalisi qılıncdan keçirilmiş, evlərə od vurulub yandırılmışdı. Bu yerlərdən 500 min nəfərdən çox əhali öz ana yurdlarından qovulmuşdu. Onlar Azərbaycanın, Naxçıvanın və İranın şəhər və kəndlərində didərgin kimi dolanmaqda idi. Təkcə Naxçıvanın üç qəzasında əhalinin 60 — 70 min baş mal-qarasını Andronikin quldur dəstələri sürüb aparmışdılar. 1920-ci ildə taxıl zəmiləri əkin üçün yararlı torpaq sahəsinin yalnız 9 — 10 faizini təşkil edirdi. Şərur qəzasında əhalinin kənd təsərrüfatı alətləri qarət olunmuş, yaşayış evləri, anbarlar, tövlələr yandırılmışdı. [2] Aclıq, xəstəlik bütün diyarı bürümüşdü. 1920-ci ilin payızında Maku sərdarı İrandan [61-62]Naxçıvana taxıl daşınmasını qadağan etdikdən sonra vəziyyət xüsusilə faciəli hal almışdı. Naxçıvan qəzalarına geri qayıtmış qaçqınlar arasında aclıqdan və xəstəlikdən ölənlərin sayı minlərlə idi. Hətta Azərbaycan İnqilab Komitəsinə göndərilmiş məktublardan birində açıqca göstərmişdi ki, əgər Sovet hökuməti gələn məhsul ilinə qədər yardım göstərməzsə, Ordubaddan başlamış Zəngibasara, Vediyə qədər bütün əhali məhv ola bilər və gələcək müvəffəqiyyətlərimiz ilk növbədə aclığa qarşı mübarizə də əldə edəcəyimiz müvəffəqiyyətlərdən asılı olacaqdır. [3]

Əlbəttə, Naxçıvan İnqilab Komitəsi bu ağır vəziyyətdən çıxmaq üçün tədbirlər görürdü və bu məqsədlə Təbriz şəhərində Naxçıvanın ticarət nümayəndəliyini yaratmışdı. Lakin nümayəndəliyin geniş fəaliyyət göstərə bilməsi üçün pul vəsaitinin olmaması işləri nizamlamaq imkanını məhdudlaşdırırdı. Naxçıvan İnqilab Komitəsi qaçqınları yerləşdirmək, çörəklə, ev əşyaları ilə təmin etmək üçün tez-tez Azərbaycan hökumətinə, XI Qızıl Ordunun hərbi şurasına, RSFSR hökumətinə, Təbriz hakiminə, Maku sərdarına, Xoy hakiminə müraciətlər edir, iqtisadi və ticarət əlaqələrini möhkəmləndirməyə cəhd göstərirdi.

Naxçıvan diyarında aclıq təhlükəsini az da olsa, aradan qaldırmaq işinə Azərbaycan İnqilab Komitəsinin və şəxsən də onun sədri N. Nərimanovun göstərdiyi qayğını da burada göstərmək yerinə düşər. Belə ki, Naxçıvanı düşmüş olduğu ağır iqtisadi vəziyyətdən xilas etmək, onun əhalisinin çörəyə, ərzaq mallarına olan ehtiyaclarını qismən də olsa, ödəmək üçün N. Nərimanov daim yeni mənbələr axtarır və bu barədə Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi vasitəsilə RSFSR rəhbərliyinə vaxtında məlumatlar çatdırırdı. Hələ 1921-ci il. fevralın 7-də o, RSFSR xarici işlər komissarı K. Çiçerinə və milli işlər komissarı İ. Stalinə yazmışdı: «Qardaş Sovet respublikalarının ehtiyacı üçünərzaq tədarük etməkdən ötrü təcili olaraq İranın gümüş tümənindən istifadə etmək lazımdır. Ancaq bu yolla Makudan taxıl tədarük etmək olar. Məncə, əhalini aclıqdan xilas etmək üçün ancaq bu yolla getmək lazımdır...».[4]

Əlbəttə, qeyri-demokratik yolla hakimiyyətə gəlmiş bolşevik rəhbərliyi xalq arasında öz nüfuzunu qaldır[62-63]maq üçün yaranmış ağır iqtisadi vəziyyətdən istifadə etməyi unutmur, lazım gəldikdə bu ali məqsəd naminə sədəqələr də verirdi. Fevralİn 14-də həmin məsələyə RK(b)P MK Siyasi Bürosu səviyyəsində baxılması K. Cİçerinin təklifi ilə Ermənistan və Naxçıvan üçün Maku xanlığından ərzaq alınması haqqında qərar çıxarılması və məsələni öyrənmək üçün yüksək səviyyəli komissiya yaradılması da məhz bu ali məqsəd naminə edilmişdi. Lakin «məsələnin öyrənilməsi» iki ay yarımdan artıq çəkmiş və yalnız 1921-ci il iyunun 1-də Şahtaxtı stansiyasında Naxçıvan İnqilab Komitəsinin, Qızıl Ordunun Qafqaz cəbhəsi hərbi şurasının Naxçıvanda olan nümayəndəsinin, Sentrosoyuzun, RSFSR-in Ermənistandakı nümayəndələrinin və Maku xanı Murtuzaqulu xan başda olmaqla İran nümayəndələrinin iştirakı ilə müqavilə imzalanmışdı. [5]

---

[1] Azərbaycan OİMDA. f. 92, siy. 1, iş 118. vərəq 1—3
[2] Ermənistan SSR OYMDA, f. 114, siy. 1, iş 87. vərəq 10.
[3] Yenə orada, vərəq 10—12.
[4] *S. V, Xarmandaryan.* Göstərilən əsəri, səh. 121.
[5] Naxçıvan MDA. f. 314, siy. 5, iş 16, vərəq 24

1921-ci il sentyabrın 15-də Ermənistan SSR ilə Naxçıvan SSR arasında ticarət münasibətlərini nizama salmaq və ticarəti inkişaf etdirmək haqqında müqavilə imzalanmışdı. [6]

1921-ci il fevralın 26-da Moskvada RSFSR-lə İran arasında imzalanmış müqavilə vaxtilə çar Rusiyası ilə bu ölkənin münasibətlərindəki qeyri-bərabərliyə son qoydu. İrana edilən bir sıra iqtisadi güzəştlər əvəzində RSFSR hökuməti həmin müqaviləyə İran ərazisində Sovet hökuməti əleyhinə təhlükə yaranarsa, ora öz qoşunlarını yeritmək hüququ verən maddəni daxil etdi. [7]

Əlbəttə, bu müqavilə İranı çar Rusiyasının asılılığından qurtardı və bir növ onun müstəqil dövlət statusunu özünə qaytardı. Gözləmək olardı ki, müqavilə imzalandıqdan sonra İran dövləti həmin müqavilənin bağlanmasına öz köməyini əsirgəməmiş Azərbaycan SSR hökuməti ilə də öz münasibətlərini xeyli yaxşılaşdıracaqdır. Lakin danışıqlar vaxtı İran nümayəndələrindən 3 nəfərinin Azərbaycanda və Naxçıvanda şəxsi mənafeləri ilə əlaqədar yüksək iddialarla çıxış etmələri xeyli təəccüb doğururdu. Bununla əlaqədar N. Nərimanov «Lenin və Şərq» kitabında yazmışdı: «Müttəfiq Azərbaycan Respublikası ərazisində zərər çəkmiş bir dəstə acgöz İran tacirlərinin mənafeyini müdafiə etmək məqsədi güdən İran diplomatiyası, ticarət əlaqələri yaratmaq[63-64] haqqında bizimlə aparılan danışıqlar zamanı elə hərəkət edirdi ki, hələ dünəndən vahid və müstəqil İranın əslində olmadığını və onun simasız vəziyyətini sanki unutmuşdu».[8]

Burada, Azərbaycan İnqilab Komitəsinin sədri N. Nərimanovun istər Naxçıvan diyarının ac və didərginlərinə, istərsə də vaxtilə Naxçıvan qaçqınlarına böyük yardım göstərmiş Maku, Xoy, Ələmdar, Təbriz əhalisinə 1921-ci ildə quraqlıqla əlaqədar göstərdiyi şəxsi qayğını qeyd etmək İran diplomatiyasının həmin mövqeyinə layiqli cavab ola bilər. N. Nərimanov İrandan qayıdıb Naxçıvana toplaşan Ermənistan didərginlərinin və Naxçıvan əhalisinin ehtiyacları üçün RSFSR Xarici Ticarət Komissarlığının Naxçıvandakı müvəkkilliyinə milyon manat qızıl pul, 70 milyon manat Azərbaycan SSR-in kağız pulu, daxili işlər komissarlığının fondundan 30 min İran gümüş tümən pul göndərilməsinə sərəncam vermişdi. Bundan əlavə, Azərbaycan SSR yollar komissarı Ç. İldırıma göstəriş vermişdi ki, İranda taxıla dəyişdirmək üçün Yevlax stansiyası bazasından iki sistern neft göndərsin.[9] N. Nərimanov İran Azərbaycanı əhalisinin müraciətini də cavabsız qoymamışdı. Qasımbəy Camalbəyov bu barədə öz xatirələrində yazırdı: «Azərbaycan İnqilab Komitəsi N. Nərimanovun sədrliyi ilə qərara almışdır ki, Naxçıvana 30000 manat qızıl pul buraxılsın və həmin vəsait zərər çəkmiş Maku kəndlərinə toxum almaq üçün paylansın». Bu yardım hər iki ölkə arasında qonşuluq münasibətlərinin daha da möhkəmlənməsinə və Naxçıvan — İran əlaqələrinin genişlənməsinə səbəb olmuşdu.

1921-ci il aprelin 19-da Azərbaycan İnqilab Komitəsinin iclasında B. Şahtaxtinskinin «Naxçıvanın siyasi və iqtisadi vəziyyəti haqqında» məruzəsi dinlənilmişdi. İnqilab Komitəsi İrandan satın almaq yolu il Naxçıvan əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün pul vəsait ayırmışdı.[10]

Naxçıvan əhalisinə yardım təkcə dövlət xətti ilə olmamış, tanınmış xeyriyyəçilərimiz də bu işə qoşulmuşdular. Sovet hökumətinin qoyduğu məhdudiyyətlərə baxmayaraq xalqımızın insanpərvər oğlu, milyonçu H.Z.Ta[64-65]ğıyev qaçqınların ehtiyacları üçün 5 min manat gümüş pul göndərmişdi.

Lakin görülmüş tədbirlərə baxmayaraq qaçqınlıq və aclıq problemlərini aradan qaldırmaq sadəcə olaraq imkan xaricində idi. O dövrdə Ermənistan, əsasən də Zəngəzurdan gəlmiş 15 min nəfərə qədər yetim uşaq Şərurda, Naxçıvanda və Ordubadda açılmış yetimxanalarda yerləşdirilmişdi. Lakin yerləşdirməyə yararlı bina olmadığı üçün 2 min nəfər uşaq yetim evlərindən kənarda qalmışdı. Yetim evlərini ən zəruri avadanlıqla təchiz etmək imkanı və tibbi xidmət yox dərəcəsində idi. Ərzaq çatışmırdı. Naxçıvan şəhərində 750 uşaq 5—7 darısqal otaqlarda yerləşdirilmişdi. Naxçıvan SSR-in hər üç qəzasında əhalinin böyük əksəriyyəti aclıq çəkirdi. Şərur qəzasında 30 min nəfər, Naxçıvan, Ordubad qəzalarının hər birində 10 min nəfər əhalinin gündəlik qidalanması üçün heç bir azuqəsi yox idi[11]. Qeyd etmək lazımdır ki, 1918 — 1920-ci illər erməni təcavüzünün ağır nəticələrinə 1921-ci ilin quraqlıq keçməsi nəticələri də əlavə olunmuşdu. Bu isə dözülməz əzab və məhrumiyyətlərin taqətdən saldığı Naxçıvan əhalisinin və xüsusilə də burada özünə sığınacaq tapmış qaçqınların vəziyyətini əsl fəlakət dərəcəsinə çatdırmışdı. Ordubad qəzasına aid olan bir məlumatda göstərilirdi ki, əhalinin yarıdan çoxu aclıq çəkir. Qaçqınlar ot ilə qidalanırlar. Aclığın təsiri ilə özünü öldürmək halları getdikcə artır. Naxçıvanda yaranmış fəlakətli vəziyyət hətta beynəlxalq təşkilatların və xarici dövlətlərin də diqqətini cəlb etməyə başlamışdı. Məsələn, aclığa qarşı mübarizə aparan Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin

[6] Yenə orada, f. 63, siy. 1, iş 27, vərəq 100.
[7] Хрестоматия по новейшей истории. М., 1960, с. 821.
[8] *N. Nərimanov.* Lenin və Şərq. Bakı, 1970, səh. 31
[9] Azərbaycan OİMDA, f. 410, siy. 1. iş 88, vərəq 1
[10]. Yenə orada, f. 29, siy. 1, iş 129, vərəq 30.
[11] MLİ Gürcüstan filialının arxivi. f. 13, siy. 1, iş 38. v. 11

xətti ilə ABŞ nümayəndəliyi Naxçıvan SSR-nin hər üç qəzasında pulsuz yemək məntəqələri və onlarca kəndlərdə yemək şöbələri açdırmışdı.

1921-ci ilin sentyabrından Naxçıvana hər ay 10 min pud taxıl göndərmək haqqında Zaqafqaziya diyar partiya komitəsinin qərarı ləng həyata keçirilirdi. Belə ki, bir ay ərzində Naxçıvana gəlib çıxan taxıl 7 — 8 min puddan artıq olmurdu.[12]

1921-ci ilin payızı və 1922-ci ilin qışında Naxçıvan SSR-də aclıq daha dəhşətli şəkil almışdı. Əhalinin hər iki nəfərindən biri aclıq çəkirdi. Həmin dövrdə [65-66]Azərbaycandan, Rusiyadan gələn ərzaq və pul vəsaitləri əhalini minimum şəkildə yedizdirmək üçün belə kifayət etmirdi. Lakin hər halda aclığın qarşısını müəyyən qədər də olsa, almağa kömək edirdi. Məsələn, RSFSR Xalq Komissarları Soveti 1921-ci il sentyabrın 20-də əhalini və qaçqınları aclıqdan, yoluxucu xəstəliklərdən xilas etmək və payız əkinini başa çatdırmaq üçün Naxçıvana 100 min pud buğda və bir vaqon səhiyyə avadanlığı, habelə dərman göndərilməsi haqqında qərar qəbul etmişdi. [13] Bunun əvəzində Naxçıvan əhalisi imkan düşdükcə təsərrüfatı qaydaya salmağa, edilən yardımların əvəzini qismən də ödəməyə səy göstərirdi. Məsələn, Naxçıvan İnqilab Komitəsi duz mədənlərində işləri yenidən qurmaq, duz istehsalını bir neçə dəfə artırmağa nail olmaq, fəhlələrin sayını 100 nəfərə çatdırmaq barədə Naxçıvan Xalq Təsərrüfatı Şurasına göstəriş vermişdi. Duz tədarükünü artırmaq hesabına fəhlələr üçün ərzaq və maliyyə fondu yaratmaq nəzərdə tutulurdu. Eyni zamanda RSFSR-in Naxçıvandakı xarici ticarət komissarlığının Müvəkkilliyinə göstəriş verilmişdi ki, Ermənistan nə Gürcüstan İnqilab Komitələri ilə əlaqəyə girib duzu Naxçıvanın ehtiyacı olan mallar ilə dəyişdirmək ticarətini təşkil etsin.[14]

1921-ci il aprelin 23-də Azərbaycan SSR-də məsul vəzifəyə keçməsi ilə əlaqədar Naxçıvan SSR fövqəladə komissarı vəzifəsindən azad edilən B. Vəlibəyovun yerinə Qafqaz cəbhəsi hərbi inqilab şurası üzrə verilən əmrlə B. Şahtaxtinski təyin olundu. Şahtaxtinski Naxçıvana getdikdən sonra həm də Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri seçilmişdi. O bu vəzifədə sentyabr ayının ortalarına qədər işləmiş və bütün bacarığını sovet idarə orqanlarını təşkil etmək və möhkəmləndirmək işinə sərf etmişdi.[15] Naxçıvan SSR-də qaçqınları yerləşdirmək, onları torpaqla, iş alətləri və toxumla təmin etmək məsələsi Naxçıvan SSR Xalq Torpaq Komissarlığına həvalə edilmişdi. Xalq Torpaq Komissarlığının həmin məsələ ilə əlaqədar tərtib etdiyi tezislərdə, göstərilirdi ki, 1917 — 1920-ci illərdə Zəngəzur, Vedi, Sisyan və Ermənistanın digər bölgələrində azərbaycanlı kəndləri daşnaklar tərəfindən dağıdılmış, əhalisi qılıncdan keçirilmiş, sağ qalanları isə öz doğma yurd[66-67]larından didərgin düşmüşdülər. Qaçqınlar özlərini hər hansı təhlükədən xilas etmək üçün əsasən qaçıb İrana getmişdilər. 1918 — 1920-ci illərdə Ermənistanda boş qalmış azərbaycanlı kəndlərində ermənilər, Naxçıvanda isə qismən boşalmış erməni kəndlərində azərbaycanlı qaçqınlar yerləşdirilmişdi. Lakin məsələ onda idi ki, sayca qat-qat çox olan azərbaycanlı qaçqınlar daha ağır vəziyyətdə yaşayırdılar. Görünür, elə bu səbəbdən də 1921 — 1922-ci illərdə qaçqınlar daha çox ana yurdlarına qayıdıb yerləşdirilməyi tələb edirdilər. Bu məsələ ətrafında uzun müddət Naxçıvan SSR ilə Ermənistan SSR, Azərbaycan SSR ilə Ermənistan SSR, RSFSR və bu respublikalar ilə Təbriz bələdiyyə rəisi, Maku xanı, Culfa gömrük rəisi arasında yazışmalar getmişdir.

1922-ci il iyulun 9-da Naxçıvan SSR və Ermənistan SSR-ə aid olan qaçqınlar məsələsi ZSFSRİ-nin İttifaq Sovetində müzakirə edilmişdi.

İttifaq Soveti qaçqınların Ermənistan SSR-dən Naxçıvana, Naxçıvan SSR-dən Ermənistana yerdəyişməsini qadağan edən birtərəfli qərar qəbul etməklə Naxçıvanda torpaq bölgüsünü xeyli çətinləşdirmişdi.[16]

Naxçıvan İnqilab Komitəsi, fövqəladə komissarlıq və Xalq Komissarları Soveti Zaqafqaziyada qaçqınlar məsələsinin ədalətlə həll edilməsi üçün dəfələrlə Zaqafqaziya və İttifaq miqyasında məsələ qaldırmışdılar. Əgər həmin məsələ Zaqafqaziya miqyasında həllini tapsaydı, o zaman Naxçıvanda torpaq islahatının həyata keçirilməsi asanlaşardı. Lakin çox təəssüf ki, Zaqafqaziya İttifaq Sovetinin daha əvvəl qəbul edilmiş 1922-ci il 12 iyun tarixli qərarı Ermənistandan olan 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda saxlanmasını qanuniləşdirməklə bu məsələdə açıqca qərəzli mövqe tutmuşdu.[17]

Bütün bunlara baxmayaraq 1922-ci ilin yazına qədər qaçqınlar məsələsi bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da əsasən həll edilmişdi, yəni qaçqınlar Naxçıvan kəndlərində yerləşdirilmiş və torpaqla təmin edilmişdilər. 1922-ci ilin mayında bunu II Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Q. Musabəyovun məruzəsinin qaçqınlardan bəhs edən hissəsində də görmək olar.

---

[12] Naxçıvan MDA, f. 63, siy. 1 q. 13/3. vərəq 21.
[13] «Şərq qapısı» qəzeti, 1 yanvar 1922-ci il
[14] Naxçıvan MDA f 63 siy. 1, ç. 13-3, vərəq 21.
[15] Azərbaycan OİMDA, f.23, siy. 1, iş 129, vərəq 30.
[16] Xarmandarayan. Göstərilən əsəri, səh.188.
[17] Gürcüstan OİMDA, f. 63. siy. iş 58, vərəq 5.

O demişdi: «Azərbaycanda qaçqınlar məsələsinə gəldikdə onlara [67-68]imkan vermək lazımdır ki, dirçəlib öz təsərrüfatları ilə məşğul olsunlar. Qaçqınlar məsələsi artıq müvəffəqiyyətlə həll olunmuşdur. İndi bizdə bilə bir məsələ yoxdur». Əlbəttə, həmin sözlərin yüz faiz həqiqətlə səsləşdiyini iddia etmək düzgün olmasa da, hər halda bu da şəksiz idi ki, bu mühüm problemin həlli üçün iki il ərzində xeyli iş görülmüşdü və qaçqınlar məsələsi 1920-ci ildə olduğu kimi tam çılpaqlığı ilə qarşıda durmurdu. Lakin ayrı-ayrı yerlərdə qaçqınlar məsələsi 1923-cü ildə də özünü göstərmişdi. Məsələn, 1923-cü il avqustun 6-da Naxçıvan MİK-nin Ermənistan SSR Daxili İşlər Nazirliyinə göndərilmiş məktubunda deyilirdi:

«İttifaq Sovetinin 1922-ci il iyulun 9-da qəbul etdiyi qanuna uyğun olaraq İrandan gəlmiş və müvəqqəti olaraq Culfa və Əylisdə yaşayan 300 nəfər erməni qaçqını Sovet Ermənistanına göndərilir. Naxçıvanda boş qalmış evlər və torpaqlar Zəngəzur, Sisyan və Vedidən gəlmiş azərbaycanlı qaçqınlarına paylanmışdır».[17] Görünür, Ermənistandan baş götürüb getmiş 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda yerləşdirilməsi qonşularımız üçün kifayət deyilmiş, üstəlik, erməni qaçqınlarını da Culfa və Əylisdə ev-eşik sahibi etmək istəyirmişlər

Onu da qeyd edək ki, 1920 — 1921-ci illərdə qaçqınların ardı-arası kəsilmədən Naxçıvana axışıb gəlməsi, onların sərgərdan kimi şəhər və kəndləri dolaşması, aclıq və işsizlik, möhtəkirlik, oğurluq, dövlət mülkiyyətini talamaq və sair cinayətkarlıq hallarının artması üçün əlverişli zəmin yaratmışdı. Bu kimi neqativ hallarla mübarizə aparmaq məqsədilə 1921-ci il sentyabrın 25-də Naxçıvan SSR Xalq Komissarları Sovetinin göstərişi əsasında Naxçıvan fövqəladə komissiyası nəzdində oğrularla, möhtəkirlərlə, qaçaqmalçılarla mübarizə aparan yol şöbəsi təşkil edilmişdi. Əvvəllər Arazdöyəndən Culfaya qədər səlahiyyət dairəsi olan bu təşkilatın fəaliyyətindən əldə edilmiş nəticələrdən sonralar «əksinqilabla mübarizədə» Naxçıvan SSR-in bütün idarə və müəssisələrində istifadə olunmuşdu. Beləliklə, əvvəllər daha çox zəhmətkeş əhaliyə, qaçqınlara kömək məqsədilə yaradılmış bu təşkilatın əli ilə, sonralar, bir çox günahsız adamlara «əksinqilabçı» damğası vurulmuşdu.[68-69]

Gətirilən fakt və rəqəmlərdən göründüyü kimi, 1921 — 1923-cü illərdə Naxçıvan SSR ərazisində qaçqınların yerləşdirilməsi sahəsində xeyli iş görülmüş, onların böyük hissəsi torpaq sahəsi ilə təchiz edilmiş və yerləşdirilmişdi. Bütün bunlar isə əlbəttə, dinc quruculuq işlərinə başlamağa və ilk növbədə dağıdılmış və bərbad halına salınmış kənd təsərrüfatında həyati əhəmiyyətli tədbirlər keçirməyə imkan verdi.[69]

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ DİRÇƏLDİLMƏSİ VƏ KOLLEKTİVLƏŞDİRMƏ

Naxçıvanda Sovet hakimiyyətinin qələbəsinə qədər ümumi torpaq sahəsi 508.208 desyatinə bərabər idi. Bu torpaq sahəsinin 92,1 faizi mülkədar, bəy, xan, xəzinə və məscidlərə məxsus idi və yalnız 7,9 faizi (40.405 desyatin) kəndli torpaqları sayılırdı. 1630 kəndli ailəsi torpaqdan, 8714 ailə isə canlı və cansız kənd təsərrüfatı avadanlığı və alətlərindən məhrum edilmişdi.[1] Rusiyada fevral inqilabı ərəfəsində hər kəndli ailəsinə orta hesabla Ordubad qəzasında 0,19 desyatin, Şərur — Dərələyəz qəzasında isə 0,11 desyatin suvarılan torpaq sahəsi düşürdü.

Birinci dünya müharibəsi, erməni müdaxiləsi, daşnak Ermənistanının arası kəsilməyən təcavüz və işğalları, qeyri-sabit hakimiyyət Naxçıvan iqtisadiyyatına böyük zərbə vurmuşdu. 1914 — 1920-ci illərdə pambıqçılıq, taxılçılıq, baramaçılıq təsərrüfat sahələri xeyli azalmış, üzüm, meyvə və tut bağlarının çox hissəsi sıradan çıxmış, mal-qaranın sayı nəzərə çarpacaq dərəcədə aşağı düşmüşdü. Belə ki, göstərilən dövrdə barama istehsalı 20 min puddan 1,5 puda enmiş, pambıq istehsalı üç dəfə azalmışdı. İribuynuzlu mal-qaranın sayı 94 min başdan 21 minə, davarların sayı isə 172 min başdan 63 min başa enmişdi. [2]

Ara verməyən erməni təcavüzləri və daşnak fitnəkarlıqları nəticəsində əhali doğma yurdundan baş götürüb qaçmağa məcbur olmuşdu. Şəhər və kəndlər xarabazarlığı xatırladırdı. Naxçıvan şəhərinin 60 faizdən çoxu, Sədərək, Dəmirçi, Baş Noraşen, Güznüt, Çeşməbasar, Yaycı, Yuxarı Əylis, Aşağı Əylis, Əliabad, Nəzər-abad, Aza, Təzəkənd və Cəhri kəndləri tamamilə dağılmışdı. Ümumiyyətlə isə, bu və ya başqa dərəcədə dağıntıya məruz qalmamış kənd qalmamışdı. B. Vəlibəyov Naxçıvanın 1920-ci ildəki vəziyyətini belə təsəvvür edirdi: «Aclıq içərisində can çəkişən Naxçıvan ölgün bir də[70-71]nizə, bir qəbiristana bənzəyirdi. Qar ilə örtülmüş yollarda addımbaşı qaçqınların, soyuqdan donmuş insanların meyitlərinə rast gəlmək olurdu».[3]

O dövr şahidlərinin qeyd etdiyinə və arxiv sənədlərinə əsasən tam qətiyyətlə demək olar ki, Zaqafqaziyada ən çox ziyan çəkmiş, dağılmış və xarabalığa çevrilmiş ərazi məhz Naxçıvan diyarı olmuşdu.

Naxçıvanda Sovet hakimiyyətinin bərqərar olması, siyasi sabitliyin yaranması və əhalini daha çox düşündürən bir məsələnin — Naxçıvanın milli-ərazi muxtariyyəti məsələsinin ədalətli həlli yerli hakimiyyət orqanlarına diyarın ən ümdə iqtisadi problemləri ilə yalından məşğul olmaq üçün nisbətən əlverişli şərait yaratmış oldu.

Naxçıvan Fövqəladə Komissarlığı İnqilab Komitəsi ilə birlikdə ilkin tədbir kimi yerlərdə torpaq komitələri, yoxsul komitələri və qaçqınlar komitələrini yaratdılar Məhz bu təşkilatlar da kənddə ilk quruculuq tədbirlərinin həyata keçirilməsində aparıcı rol oynadılar

Naxçıvan Respublikasının qarşısında duran vəzifələr isə aydın və perspektivli idi. Yəni ilk növbədə dağılmış sənaye müəssisələrini, kənd təsərrüfatını, şəhər və kəndləri, nəqliyyatı bərpa və inkişaf etdirmək, qaçqın kəndliləri torpaq, çörək, toxum, kənd təsərrüfatı alətləri ilə, işlə təmin etmək tələb olunurdu.

Əlbəttə, bütün adları çəkilən bu mühüm tədbirlər «Leninin atalıq qayğısı» və «sosializm quruculuğu» şüarı altında həyata keçirilirdi və bəzən də yerli-yersiz Kommunist Partiyasının rolunu şişirdən təbliğat pərdəsinə bürünürdü. «Sinfi mübarizə» prinsipini əsas tutan kommunist ideologiyasının ən ağır zərbələri isə ilk növbədə «istismarçı ünsürlər» sayılan bəylərə, xanlara, iri mülkədarlara dəyirdi ,və bu adamların yerli şəraitə bələd olması, təsərrüfatı bilməsi, əhalinin psixologiyasına bələdçiliyi bir kənara qoyulur, könüllü surətdə yeni hakimiyyətin tərəfinə keçənlərə belə aman verilmirdi. Məsələn, Naxçıvan İnqilab Komitəsi 1921-ci ilin noyabrında Naxçıvanda mülkədar, xan, bəy və xəzinə torpaqlarının müsadirə edilib zəhmətkeş kəndlilərə paylanması haqqında dekret vermişdi. Həmin dekretə əsasən, iri torpaq sahiblərindən Kəngərlinskilərin 59.117 [71-72]desyatin, Xan Naxçıvanskilərin 38.507 desyatin, Kərbalayı Əlixanovun 28.618 desyatin, Səfiyevlərin 5.543 desyatin, Sultanovların 2.521 desyatin, Şahingərayın 2.500 desyatin, Tərxanovun 1.515 desyatin, Yelizarovların 1.105 desyatin və başqalarının torpaq sahələri müsadirə edilib milliləşdirilmişdi. [4]

Naxçıvanın Sovet hakimiyyəti orqanları, həmçinin, su arxlarını, kanalları, kəhrizləri bərpa etmək, kəndlilərə toxum, kənd təsərrüfatı alətləri, qoşqu heyvanları vermək, torpaq bölgüsü aparmaq haqqında müvafiq qərarlar qəbul etmişdi. [5] Lakin xüsusilə torpaq bölgüsünün həyata keçirilməsində yerli hakimiyyət orqanlarının qarşısına ciddi çətinliklər çıxmışdı. Bu çətinliklər ilk növbədə yerli müsəlman əhalisinin islam dininin

---

[1] Naxçıvan MDA, f. 40, siy. 2, iş 97, vərəq 8
[2] Г.Султанов. Нахчыван и его экономика. Баку, 1927, стр.13
[3] «Kommunist» qəzeti, 28 iyul 1930-cu il.
[4] MLİ Azərbaycan filialının arxivi, f 95, siy. 1, iş 1572 səh. 1—5
[5] Yenə orada

göstərişlərinə uyğun olaraq özgə torpağını mənimsəməyi haram iş hesab etməsindən irəli gəlirdi. Bu deyilənlər o dövrün sənədlərində yerlərdə «feodal-patriarxal münasibətləri qalıqlarının güclü olması» ilə izah edilirdi.

Digər bir çətinlik sovet idarələrində torpaq işindən baş çıxaran mütəxəssis kadrların olmamasından irəli gəlirdi. Əlbəttə, dədə-baba torpaqlarının müsadirə edilməsindən narazı qalan mülkədar, bəy və xanların, onların qohum-əqrəbalarının bu işə mane olması üçün göstərdikləri müqavimətin də əhəmiyyətini azaltmaq olmazdı. Heç də təsadüfi deyildi ki, həmin müqaviməti qırmaq üçün Cəhri, Əbrəqunis, Şahbuz, Sədərək, Şahtaxtı və digər kəndlərdə torpaq komissiyası üzvlərini müdafiə edən xüsusi dəstələr təşkil edilmişdi. Lakin xüsusi dəstələrin fəaliyyəti də istənilən nəticəni verməmişdi. Belə olduqda, Bakıda xüsusi təlimatlandırılmış 20 nəfər savadlı fəhlə torpaq bölgüsü aparmaq üçün Naxçıvana göndərilmişdi. [6]

Naxçıvanda torpaq bölgüsünün zəif getdiyini belə bir faktdan da aydın görmək olar ki, 1923 — 1925-ci illərdə cəmi 13 kənddə bu iş başa çatdırılmışdı. Yalnız inzibati təzyiq vasitələrinin gücləndirilməsi sayəsində həmin tədbirin həyata keçirilməsi bir qədər sürətlənmişdi. Buna baxmayaraq, yalnız 1927-ci ilin yayında Naxçıvanın 227 kəndindən 217-də torpaq bölgüsünü əsa[72-73]sən başa çatdırmaq mümkün olmuşdu Bunun da nəticəsində torpaq fondunun 86,5 faizini təşkil edən 398.295 desyatin torpaq kəndlilərə verilmişdi. Torpağın 13,5 faizi isə dövlət fondunda saxlanılmışdı.

Göstərilən dövrdə kəndlilərə toxumluq buğda paylanması da əkin kampaniyasını genişləndirməyə kömək etmişdi. Məsələn, 1922-ci ildə yaz əkin kampaniyasını keçirmək üçün kəndlilərə 22.500 pud buğda, payız əkini zamanı isə 30.000 pud buğda paylanmışdı. [7]

Yenə həmin ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin xüsusi qərarı ilə kənd təsərrüfatı işlərində istifadə etmək üçün Naxçıvanın qaçqın kəndlilərinə pulsuz olaraq 5.000 ədəd bel göndərilmişdi. Həmçinin, Naxçıvan əhalisinə əvəzsiz olaraq kənd təsərrüfatı krediti buraxılmış, qaçqın kəndlilərin uşaqları pulsuz dərs vəsaiti və geyimlə təchiz edilmişdi. [8]

Naxçıvanda pambıqçılığı inkişaf etdirmək məqsədilə pambıq əkən kəndlilərin əksəriyyəti kənd təsərrüfatı vergilərindən azad edilmişdi. Bütün bu tədbirlər hələ 1922-ci ildə Naxçıvanın kənd təsərrüfatını müəyyən qədər dirçəltməyə imkan vermişdi, kəndlilərin iqtisadi vəziyyətində yaxşılaşma halları müşahidə edilmişdi.

Naxçıvan kəndlilərinin iqtisadi vəziyyətinin az da olsa yaxşılaşmasında Naxçıvan Respublikası I Sovetlər qurultayında 1922-ci il yanvarın 28-də qəbul olunmuş ərzaq vergisinə keçmək haqqında qərarın böyük əhəmiyyəti var idi. Bu qərarın kəndlilərə əldə olunmuş məhsulun müəyyən hissəsindən sərbəst istifadə etmək hüququ verməsi onların xüsusilə ürəyincə olmuşdu.

Naxçıvan Respublikasında kəndlilərin istehlak mallarına olan tələbatını ödəmək və qaçaqmalçılığın qarşısını almaq üçün 1921-ci ilin noyabrında Naxçıvan İstehlak Cəmiyyəti (Naxittifaq) təşkil edilmişdi. Bu təşkilatın açdığı üç kooperativ dükanı Naxçıvanın üç qəzası arasında bərabər surətdə bölüşdürülmüşdü. Lakin xüsusi ticarətin üstünlük təşkil etdiyi bir şəraitdə kəndlilərin alıcılıq qabiliyyətinin aşağı olması üzündən istehlak mallarının satılmamasını nəzərə alan Azərbaycan SSR Xalq Komissarları Soveti Dövlət Bankının Culfa şöbəsini açaraq qaçqın kəndlilərə,[73-74] müharibə cəbhələrində həlak olanların ailələrinə güzəştli kreditlər buraxmaqla yardım göstərmişdi.

1923-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Bankın Naxçıvan şöbəsi yaradılmışdı. Tez bir zamanda fəaliyyətini canlandırmağa nail olmuş şöbə 1924-cü il müstəqil Naxçıvan kənd təsərrüfatı krediti şirkətinə çevrilmişdi. Şirkətin Gültəpə, Cəhri, Əbrəqunis Nərimanov (Şahbuz), Aza, Əylis və Parata şöbələri kənlilərə 250.000 manat məbləğində güzəştli kredit buraxmış, həmçinin müxtəlif kənd təsərrüfatı alətlərin satışını təşkil etmişdi. [9] Bütün bu tədbirlər Naxçıvan kənd əməkçilərinin tədricən kredit şirkətlərinə cəlb edilməsində mühüm rol oynamışdı. Məsələn, 1927-ci il oktyabrınadək 9357 kəndli təsərrüfatı şirkətlərə cəlb edilmişdi ki, bu da muxtar respublikada kəndli təsərrüfatlarının ümumi sayının (22.540) 44,4 faizini təşkil edirdi. Naxçıvan kənd təsərrüfatı şirkətləri 1927-ci ildə təşkil olunan Naxçıvan kənd təsərrüfatı kooperasiyası mərkəzində (Naxçıvan Göybirliyi) birləşdi. Göybirliyi 17 pambıqçılıq, 8 heyvandarlıq, 8 meliorasiy 6 maşın, 4 bağçılıq, 3 üzümçülük-şərabçılıq, 1 baramaçılıq və 1 dəyirman şirkətlərini birləşdirmişdi.[10]

Muxtar Respublikada kənd təsərrüfatının dirçəldilməsi su təsərrüfatının inkişafı ilə bilavasitə əlaqədar idi. Buna görə də Naxçıvanda dinc quruculuq işlərinin genişləndirilməsi su təsərrüfatına da diqqəti artırmışdı. Təkcə 1924 — 1928-ci illərdə Naxçıvanda 161 kəhriz təmir edilmiş, Dəstə, Qaraxanbəyli, Böyükdüz və başqa kəndlərə Araz çayından suvarma qurğuları qoyulmuş, 25 kilometrlik Fərhad arxında təmir işləri aparılmışdı. D.

---

[6] Naxçıvan MDA, f. 34, siy. 1, iş 14, vərəq 20
[7] «Bakinski raboçi» qəzeti, 17 oktyabr 1922-ci il.
[8] «Zarya Vastoka» qəzeti, 27 oktyabr 1922-ci il.
[9] Г.Султанов. Советское Закавказье. Справочная книга. 1926-1927 гг.Тифлис. 1927, с.95
[10] Бах: Советское Закавказье. Справочная книга на 1926-1927 гг.Тифлис. 1927, с.89.

Bünyadzadə adına sovxoz Arpa çayından, Yaycı, Dəstə kəndlərinə isə Araz çayından su kanalları çəkilmiş, Bulqan kəndində böyük su anbarı tikilmişdi. Görülmüş tədbirlər muxtar respublikanın ərazisində suvarılan əkin sahələrini 40 faiz genişləndirməyə imkan vermişdi.

Kənd təsərrüfatının müasir texnika ilə təchiz olunması göstərilən illərdə diqqət mərkəzində olmuşdu. Bu məqsədlə .1925-ci ildə Azərbaycan SSR Kənd Təsərrüfatı Komissarlığında kənd təsərrüfatı texnikası və alətlə[74-75]ri satan Naxçıvan, Ordubad və Şərur şöbələri açılmamışdı.

1925-ci ilin iyulunda Naxçıvan kənd təsərrüfatı ilk traktoru qəbul etmişdi. Kənd təsərrüfatının mexanikləşdirilməsini sürətləndirmək üçün 1925 — 1926-cı illərdə Naxçıvana 10 traktor verilmişdi.[11]

Azərbaycan SSR hökuməti Şərur və Naxçıvan bölgələrində pambıqçılığı inkişaf etdirmək məqsədilə 1926-1928-ci illərdə 7 maşın şirkəti yaratmış və şirkətlərin sərəncamına daha 10 traktor vermişdi. Yoxsul kəndlilər maşın şirkətlərinə böyük həvəslə üzv yazılırdılar.[12]

Muxtar respublikada kənd təsərrüfatının dirçəldilməsində aqrotexniki qaydalardan istifadə edilməsinin böyük rolu olmuşdu. 1924-cü ildə Naxçıvanda, Şərurda və Ordubadda aqrotexniki, Biçənək kəndində isə zootexniki məntəqələr yaradılmışdı. Aqronomluq məntəqələrinin təşəbbüsü ilə muxtar respublika ərazisində 128 yerdə təcrübə sahəsi təşkil edilmişdi.

Naxçıvanda aqrotexniki qaydaların yayılmasında D. Bünyadzadə adına sovxozun mühüm xidməti olmuşdur. Sovxoz Göybirliyi yerli şirkətləri vasitəsilə kəndliləri yeni növ toxumla, o cümlədən çiyidlə təmin edirdi.

Ordubad qəzasının Aşağı Əndəlic kəndində yaradılmış bağçılıq aqrotexniki məntəqəsi yerli şəraitə uyğunlaşa bilən yeni meyvə sortlarını yaymaq üçün Krımdan və Şimali Qafqazdan yeni ağaclar gətirib kəndlilərə paylayırdı. Biçənək kəndində yerləşən zoobaytar məntəqə mal-qaranın cinsinin yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyət göstərmişdir. Zaqafqaziyada «balbas» qoyunlarının vətəni sayılan Naxçıvan diyarında qoyunçuluğun inkişafına xüsusi əhəmiyyət verilməsinin nəticəsi idi ki, burada qoyunların sayı müharibədən əvvəlki dövr ilə müqayisədə 1929-cu ildə 39,7 faiz artmışdı. Artımın 36,7 faizi balbas qoyunları hesabına olmuşdu.[13]

Naxçıvanda kənd təsərrüfatının dirçəldilməsi sahəsində həyata keçirilmiş tədbirlər əkin sahələrini xeyli genişləndirməyə imkan vermişdi. Məhsuldarlıq[75-76] artmışdı. Məsələn, pambıq əkini sahəsi 1921-ci ildə 4233 hektardan artıb 1927-ci ildə 8307 hektar olmuşdu, məhsuldarlıq isə müharibədən əvvəlki səviyyə 84 faiz ötmüşdü.[14]

Fakt və rəqəmlərdən göründüyü kimi, kənd təsərrüfatının kollektivləşdirilməsinə başlayana qədər Naxçıvanın kənd təsərrüfatında xeyli irəliləyiş əldə edilirdi. Əgər həmin əsas üzərində iş davam etdirilsəydi, şübhəsiz, daha böyük uğurlar əldə ediləcəkdi.

1927-ci ilin dekabrında keçirilən ÜİK(b)P-nin qurultayı nisbətən normal vasitələrlə kənd təsərrüfatının dirçəldilməsi tədbirlərini qeyri-qənaətbəxş , hesab etdi, inzibati-amirlik metodlarının xalq təsərrüfatının bu mühüm sahəsində də tətbiqini zəruri saydı. Qurultayın «xırda fərdi kəndli təsərrüfatını bildirmək və iri kollektivlərə çevirmək vəzifəsi»ni[15] əsas vəzifə kimi elan etməsi həmin normal inkişaf prosesinə son qoymuş oldu. 1929-cu ilin martında toplanmış Azərbaycan K(b)P IX qurultayının həmin vəzifəni Azərbaycan kənd təsərrüfatı üçün baş vəzifə kimi səciyyələndirəsi Azərbaycan kəndində, o cümlədən Naxçıvanın kənd təsərrüfatında sonrakı bədbəxtliklərin təməlini qoydu. Kənd təsərrüfatı təbiətinə zidd sıçrayışlarla inkişaf xəttinin həyata keçirilməsinə əməli olaraq başlandı. Kəndin dirçəldilməyində böyük əməyi olan varlı kəndli təsərrüfatlarına qarşı hücum dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Qeyd edək ki, 1928-ci ildə qolçomaq adlanan varlı kəndlilər muxtar respublikada kəndli təsərrüfatlarının cəmi 3 faizini təşkil edirdi. Yeri gəlmişkən, kəndliləri kollektiv təsərrüfatların yaradılmasına hazırlamaq üçün müəyyən siyasi xarakterli tədbirlər həyata keçirilmişdi. Bundan məqsəd, «kollektiv təsərrüfatın üstünlüklərini» nümayiş etdirmək idi. Məsələn, 1929-cu ildə muxtar respublikada 22540 təsərrüfatdan 15580-i müxtəlif şirkətlərə cəlb edilmişdi, bunlardan da 131 təsərrüfat, əsasən yoxsul kəndlilər vergilərdən azad edilmişdi. Bütün vergilərin 60 faizi qolçomaqların üzərinə qoyulmuşdu.[16] Hələ 1928-ci ilin sonunda muxtar respubl[76-77]ikada 580 təsərrüfatı birləşdirən 20, 1929-cu ilin oktyabrında isə 790 təsərrüfatı birləşdirən 36 kolxoz yaradılmışdı.[17]

---

[11] Azərbaycan EA Tarix İnstitutun elmi arxivi. 1, siy. 83. iş. 1932, vərəq 1-5.
[12] MLİ Azərbaycan filialının arxivi, f. 95, siy. 1, iş 1571. v. 30
[13] Н.А. Сокольский. Материалы по изучению Нахичеванской АССР, Тифлис. 1933,с.56
[14] *N. A, Sokolskiy.* Göstərilən əsəri, səh. 61.
[15] Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qa namə və qərarları, II hissə, Bakı, 1954, səh. 525.
[16] MLİ Azərbaycan filialının arxivi. f. 95. siy. 1, iş 1499| vərəq 2—3.
[17] Yenə orada, iş 999, vərəq 6.

Lakin başlıca olaraq yoxsul təsərrüfatları əsasında yaradılmış bu kolxozlar təsərrüfat-təşkilat cəhətdən çox zəif idilər.

ÜİK(b)P MK-nın 1929-cu il noyabr plenumu kolxoz quruculuğu məsələlərinə diqqəti artırmağın zəruriliyi göstərmiş, 1930-cu il yanvarın 5-də isə ölkənin kənd təsərrüfatını kollektivləşdirmək haqqında qətnamə qəbul etmişdi. Kollektivləşmənin sürətinə görə bütün ölkə ərazisi 3 qrupa bölünmüşdü. Azərbaycan kollektivləşdirmək 1932-ci ilin yazında başa çatdırmalı olan üçüncü qrup rayonlar sırasına daxil edilmişdi. Kolxozlar üç formada — kommuna, artel və tozlar formasında yaradılmışdı. Kolxozların ən yüksək forması olan kommuna istehsalın, hətta məişətin ən yüksək səviyyədə ümumiləşdirilməsini nəzərdə tuturdu. Artel əsas istehsal vasitələrinin (torpaq, avadanlıq, iş heyvanı və s.) ümumiləşdirilməsi, tozlar isə torpağın birgə becərilməsi demək idi.

Azərbaycan K(b)P MK yerlərdə xalqın adət-ənənələrinə, məişətinə zidd olan kolxoz quruculuğunun müvəffəqiyyət qazanacağına inanmadığından daha «inqilabçı» sinif saydığı fəhlələrin köməyinə böyük ümid bəsləyirdi. Bu məqsədlə hələ 1929-cu ilin sonunda kolxoz sədrləri, dairə birləşmələri müdirləri, direktorları vəzifələrinə 400 fəhlə göndərilmişdi. Bakıdan Naxçıvan Muxtar Respublikasına göndərilmiş 17 nəfər fəhlə Naxçıvan, Noraşen traktor təmiri emalatxanalarında, D. Bünyadzadə adına sovxozda və kolxozlarda işə başlamışdılar.[18]

Azərbaycan K(b)P MK hətta hadisələri qabaqlayaraq 1929-cu ilin sonunda bəzi pambıqçılıq rayonlarında elliklə kollektivləşməyə keçmək üçün tədbirlər hazırlamışdı. Xoşbəxtlikdən Naxçıvan Muxtar Respublikası o zaman elliklə kollektivləşmə rayonları sırasına daxil edilməmişdi.[19]

Əvəzində Naxçıvan vilayət partiya komitəsinin 1929-cu il dekabrın 5-də keçirilmiş iclasında Naxçıvan MR[77-78] kolxoz mərkəzinin, dörd sovetlikdə kənd təsərrüfatını elliklə kollektivləşdirmə planını müzakirə edərək öyrənmişdi. Bu məqsədlə Naxçıvan və Şərur dairələrin elliklə kollektivləşmə iki həftəliyi keçirilmişdi. Həftəliyin sonunda kolxozların sayı 89-a, onlarda birləşmiş təsərrüfatların sayı isə 3326-ya çatdırılmışdı ki, bu da ümumi təsərrüfatların 14 faizin təşkil etdirdi.

ÜİK(b)P MK-nın 1930-cu il yanvarın 5-də qəbul etdiyi «Kollektivləşmənin surəti və dövlətin kolxoz qucuculuğuna yardım göstərmək tədbirləri haqqında» qərarından sonra Azərbaycan K(b)P MK-da keçirilmiş xüsusi müşavirədə kənd təsərrüfatının elliklə kollektivləşdirmək və qolçomaqları bir sinif kimi ləğv etmək haqqında düşünülməmiş və tələsik bir qərar çıxarılmışdı. Həmin qərardan «ruhlanan» Naxçıvan MR partiya sovet təşkilatları kənd təsərrüfatının elliklə kollektivləşməsini sosializm yarışına çevirərək bu sahədə Azərbaycan üzrə birinciliyi qazanmağa cəhd göstərmişdilər. Nəticədə, kənd zəhmətkeşlərinin kolxozlara cəlb edilməsində zorakılıq hallarına yol verilmişdi. 1930-cu il yanvarın 7-dən 28-dək muxtar respublikada kənd təsərrüfatının elliklə kollektivləşməsi üç həftəli kampaniyası zamanı könüllülük prinsipin pozulması hallarına xüsusi ilə kobud şəkildə yol vermişdi. Nəticə də 6777 kəndli təsərrüfatını birləşdirən (28,8 faiz) 119 kolxoz təşkil edilsə də, onların çoxu quru kağız üzərində qalmışdı.[20] Halbuki Naxçıvan MR-in sərhəd zonasında yerləşməsi burada kolxoz quruculuğuna daha ehtiyatla yanaşmağı tələb edirdi. Quru rəqəmlər arxasınca qaçaraq birincilik xülyası ilə yaşayan bəzi yerli rəhbərlər Naxçıvan, Şərur və Ordubad dairələrində kənd təsərrüfatı artelləri təşkil etmək əvəzinə ev quşlarının, mal-qaranın, arı pətəklərinin və ev əşyalarının ictimailəşdirilməsi haqqında göstərişlər vermiş, arıçılıq, quşçuluq, maldarlıq kolxozları təşkil etməyə təşəbbüs göstərmişdilər. Hətta iş o yerə gəlib çatmışdı ki. Naxçıvan partiya və komsomol fəallarının 1930-cu il fevralın 2-də keçirilən müşavirəsi rayonun kənd təsərrüfatının elliklə kollektivləşməsində 40 faiz nəticəsini qənaətbəxş hesab etməmiş, yaz əkin kampaniyası dövründə kollektivləşməni 100 faizə çatdırmaq və qolçom[78-79]aqları tamamilə əmlakdan məhrum edib sürgünə göndərək barədə qərar çıxarmışdı.[21]

Naxçıvanda kənd təsərrüfatının kollektivləşməsi zamanı yol verilmiş bu nöqsanlar onların təkrarsızlığı barədə sonralar Zaqafqaziya ölkə partiya təşkilatının VI qurultayında (iyun 1930-cu il) da qeyd edilmiş və bunlar «ağlasığmaz əyintilər» adlandırılmışdı.[22]

Kollektivləşmə xəttinin həyata keçirilməsi ilə əlaqədar 1929-cu ildən tətbiq edilən zorakılıq metodları kənddə ümumi narazılıq və etirazlara səbəb olurdu. Kəndlilərin zorla kolxozlara cəlb olunması, əmlaklarının müsadirə edilməsi, kolxoz hərəkatına qarşı çıxanlar haqqında ciddi cəza tədbirlərinin tətbiqi, güllələmə, sürgün, siyasi hüquqlardan məhrum etmə halları artdıqca, onların etiraz səsi də güclənirdi. Azərbaycan kəndində mal-qaranın məhv edilməsi, taxıl məhsullarının yandırılması, silahlı müqavimət göstərilməsi halları getdikcə artırdı.

---

[18] *B. S. Qurbanov*. Bakı fəhlələrinin Azərbaycan kəndinə hamilik köməyi. Bakı, 1960, səh. 91.
[19] *E. İ. Məmmədov*. Elliklə kollektivləşmə illərində AzərbaYcan kəndində sinfi mübarizə. Bakı, 1967, səh. 18.
[20] «Bakinski raboçi» qəzeti, 27 yanvar 1930-cu il.
[21] MLİ Azərbaycan filialının arxivi, f. 95, siy. 1, iş 22. vərəq 109.
[22] Стенографический отчет IV съезда Коммунистических организации Закавказья. Тифлис, 1930, с.263.

Məsələn, təkcə Naxçıvan MR-də qaramalın, qoyun və keçilərin sayı 1930-cu ildəki 279,5 min başdan 1932-ci ildə 160,3 min başadək azalmışdı. 1929-cu ilin sonundan etibarən başlayan silahlı müqavimət 1930-cu ilin yayında daha geniş yayılmışdı. Şahbuz rayonunda Sovet hakimiyyətinə göstərilən silahlı müqavimət xüsusilə güclü olmuşdu. Naxçıvan, Şərur, Ordubad rayonlarının dağ kəndləri silahlı müqavimət tərəfdarları üçün sığınacaq məntəqələrinə çevrilmişdi.[23] 1930-cu ildə Naxçıvanda kommunistlərin hakimiyyətini devirmək üçün əhali tərəfindən cəhd göstərilmiş, yalnız sovet qoşunlarının müdaxiləsi bolşevik hakimiyyətini bərpa etməyə imkan vermişdi. Həmçinin daxili müqavimət hərəkatını xaricdəki mühacir təşkilatlarının fəaliyyəti ilə əlaqələndirmək üçün təşəbbüslər göstərilmişdi.[24] Doğrudur, silahlı müqavimət genişlənib bütün respublika ərazisini əhatə etməsə də, hər halda kolxoz quruculuğunun «zəfərli yürüşü»nü müəyyən müddətdə dayandırmış və hətta geriyə çəkmişdi. Məsələn, 1930-cu il mart — may ayları ərzində Naxçıvan Muxtar Respublikasında kol[79-80]xozların sayı 56-ya, onlarda birləşən təsərrüfatların sayı 1387-yə enmişdi.[25]

Muxtar respublikada yaranmış gərgin vəziyyət yüksək səviyyəli partiya və sovet hakimiyyəti orqanlarında dəfələrlə müzakirə olunmuş və bu məqsədlə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Q. Musabəyov SSRİ və ZSFSR MİK-ləri adından tam səlahiyyətlə Naxçıvana təhkim edilmişdi. Yalnız təbliğat və təşviqat vasitələrinin tam qüvvəsi ilə işə salınması, kömək üçün hərbi birləşmələrə müraciət edilməsi vəziyyətin daha təhlükəli hala düşməsinin qarşısını almış, Sovet hakimiyyətini qoruyub saxlaya bilmişdi. 1930-cu il martın 20, 21 və 22-də sayı 500 nəfərə çatan və ən çox Şahbuz rayonunda toplaşan silahlı müqavimət dəstələrinə qarşı nizami ordu hissələrinin yeridilməsi döyüşlərin taleyini həll etmişdi. Yenə də qılınc və qan hesabına bolşeviklərin hakimiyyəti qalib gəlmişdi. Kədərli cəhəti bu idi ki, hər iki tərəfdə İtki verənlər azərbaycanlılar olmuşdu. Yəni Sovet hakimiyyəti əleyhdarları da, yalançı təbliğata uyub Qızıl Ordu hissələri tərəfindən vuruşub canından keçənlər də elə azərbaycanlılar idi. Ayrı-ayrı yerlərdə aprel ayında da ağır döyüşlər getmişdi.[26] Lakin çox təəssüf ki, öz vətənini bolşevik azarından xilas etmək istəyən vətənpərvərlər «quldurlar» adlandırılmış, yalançı təbliğata uyaraq vətən torpağında əsarət rejimini gücləndirməyə kömək edənlərin adları isə əbədiləşdirilmişdi.[27]

Bununla belə, tökülən günahsız qanlar onların səbəbkarlarını öz cinayətkar əməlləri üzərində az da olsa düşünməyə vadar etmişdi. Nəhayət, anlaşılmışdı ki, tarixən tək təsərrüfatçılığın üstünlük təşkil etdiyi, müəyyən iqtisadi sərbəstliyin mövcud olduğu Azərbaycanda kəndli təsərrüfatlarının kollektivləşməsi asanlıqla başa gəlməyəcəkdir. həm də iş elə gətirmişdi ki, Azərbaycanda kollektivləşmə prosesi Sovet dövlətinin dinə, milli adət-ənənələrə qarşı apardığı mübarizə ilə eyni vaxta düşmüşdü. Bir tərəfdən kəndlilərin olan-qalan əmlakının müsadirə edilib kolxozlara qatılması, digər tərəfdən onun dini mərasimlərinin qadağan edilməsi xalqın narazılığını qat-qat artırmışdı. Bunlar[80-81]dan başqa Azərbaycanda kolxoz quruculuğuna onun ən yüksək forması olan kommuna və artellərdən başlanılması da vəziyyəti xeyli kəskinləşdirmişdi. Torpağın, iş heyvanının ictimailəşdirilmənsə bir təhər dözən Azərbaycan kəndlisi məişət avadanlığının, evinin ümumiləşdirilməsi ilə heç bir vəchlə barışa bilmirdi.

Bütün bu deyilənlər barədə Zaqafqaziya ölkə partiya komitəsinin 10 aprel 1930-cu il, Azərbaycan K(b)P MK bürosunun 14 aprel 1930-cu il tarixli qərarlarında ətraflı danışılmışdı. Azərbaycan K(b)P MK bürosu «Kollektivləşmə işlərində buraxılmış səhvlər haqqında» qərarında Azərbaycanda, o cümlədən, Naxçıvan Muxtar Respublikasında kolxoz quruculuğu sahəsində buraxılmış səhvləri aradan qaldırmaq üçün tədbirlər müəyyən etmişdi. Əlbəttə, belə qərarlar, daha əvvəl, SSRİ rəhbərliyi tərəfindən qəbul olunmuşdu. Məsələn, 1930-cu ilin fevralında kənd təsərrüfatı artelinin nümunəvi nizamnaməsinə əlavə və təshihlər edilərək martın 2-də dərc olunmuş, 1930-cu il aprelin 2-də kolxozlar iki il müddətinə vergilərdən azad edilmişdilər və s.[28] Deməli, söhbət kolxoz quruculuğuna yeni qüvvə ilə başlamaqdan, kolxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsindən gedirdi.

Naxçıvan vilayət partiya komitəsinin rəyasət heyəti özünün 1930-cu il 1 və 3 may, 16 iyun tarixli iclaslarında yuxarı partiya təşkilatlarının rəhbər göstərişlərini əsas tutaraq onları həyata keçirmək üçün tədbirlər müəyyən etmişdi. Muxtar respublikanın rəhbərliyində dəyişikliklər edildi. Muxtar respublika əhalisi arasında təbliğat-təşviqat işləri gücləndirildi. Bakı şəhərinin Lenin rayonu müəssisələrinin muxtar respublika kəndlərini hamiliyə götürməsi haqqında qərarı elan edildi. Azərbaycan həmkarlar İttifaqlarının Mərkəzi Şurası və Gəncə

[23] MLİ Azərbaycan filialının arxivi, f. 95, siy. T • iş 1791, vərəq 113
[24] Yenə orada, siy. 4, iş 35, vərəq 5,
[25] Yenə orada
[26] Naxçıvan MDA, f. 40, siy. 4, iş 14, vərəq 32.
[27] Yenə orada
[28] Коллективизация сельского хозяйства. Важнейшие постановления коммунистической партии и Советского правительства.1927-1935 гг, стр. 379-380.

şəhər həmkarlar təşkilatlarının nümayəndələrindən ibarət briqada avqust ayında Naxçıvana gəldi.[29] Eyni zamanda muxtar respublikanın rayon mərkəzlərindəki təşkilat və müəssisələri kolxozları hamiliyə götürdülər. Sovet hakimiyyəti üçün ənənəvi olan tədbirlər — iməciliklər və məhsul bayramları keçirildi. 31 [81-82]kənddə savadsızlığı ləğv etmə kursları təşkil edildi. 12 radio nöqtəsi çəkildi, 16 kolxozda körpələr evi açıldı. Eyni zamanda kolxozları kadrlarla təmin etmək məqsədi ilə 75 nəfər üçün iki həftəlik kurs təşkil edildi. Şərur və Naxçıvanda aqrokimya məsləhətləri verən kurslar açıldı və bunlara 250 nəfər yoxsul fərdi təsərrüfatçı və kolxozçu cəlb edildi.[30]

Bütün bu tədbirlər Naxçıvan rəhbərliyinə 1930-cu il oktyabrın 15-dən 25-dək olan müddətdə «kollektivləşmə və məhsul günü» kampaniyasını keçirməyə imkan verdi, Əhalini yenidən guya nöqsanlardan təmizlənmiş kolxoz quruculuğuna cəlb etmək əməliyyatlarına başlanıldı. Hətta 1930-cu ilin ikinci yarısından respublikanın kolxozları arasında sosializm yarışının keçirilməsinə diqqət artırıldı. Bir sözlə hay-küy kampaniyası yenidən baş alıb getdi. 1930-cu ilin avqustundan kolxozların sayının «durmadan» artması barədə verilən məlumatlar da bunu bir daha təsdiq edirdi. Məsələn, 1930-cu il avqustun 1-də muxtar respublikada 2340 təsərrüfatı birləşdirən 62 kolxoz var idisə, dekabrda onların sayı 77-yə çatmışdı.[31] 1931-ci il aprelin sonunda kolxozların sayı artıq 101-ə, onlarda birləşmiş təsərrüfatların sayı isə 3400-ə çatdırılmışdı.[32] 1931-ci ilin sonuna olan məlumata görə Naxçıvan Muxtar Respublikasında kolxozların sayı 161, onlarda birləşmiş təsərrüfatların sayı isə 6234 olmuşdur. Bunlardan da 115-i pambıqçılıq, 29-u taxılçılıq, 19-u isə heyvandarlıq kolxozları idi. Göründüyü kimi, kollektivləşmə daha çox pambıqçılıq sahəsini, qismən də taxılçılıq və heyvandarlıq sahələrini əhatə etmişdi ki, bu da həmin sahələrdə kənd təsərrüfatı maşınlarının tətbiqi və mexanikləşdirmə üçün böyük perspektivlə bağlı idi.

Muxtar respublikanın təsərrüfatında üzümçülük mühüm yer tuturdu. Göstərilən dövrdə üzümçülük bir çox kəndlərin iqtisadi inkişafının əsasını təşkil edirdi. Üzümçülüyün muxtar respublika iqtisadiyyatı üçün səmərəliliyi nəzərə alınaraq 1931-ci ildə 1442 hektarlıq üzümçülük sahəsini daha 1000 hektar artırmaq haqqında qərar qəbul edilmişdi. Azərbaycan SSR Xalq Komissarla[82-83]rı Soveti 1929 i— 1932-ci illərdə Naxçıvan, Ərəqunis və Şahbuz şərab zavodlarını inşa edərək istifadəyə vermişdi. 1929 — 1930-cu illərdə təkcə üzümçülüklə məşğul olan fərdi təsərrüfatçılar dövlət tədarükü məntəqələrinə 18,9 min sentner üzüm satmışdılar.[33] 1931-ci və 1932-ci illərdə üzümçülüklə məşğul olan kəndlərdə də kolxozların təşkilinə başlanmışdı. Artıq 1932-ci ildə muxtar respublikada bağçılıq və üzümçülüklə məşğul olan 13 kolxoz var idi.

Kolxozların maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə 1930-cu ildə Noraşendə, 1931-ci ildə isə Naxçıvanda maşın-traktor stansiyaları (MTS-lər) təşkil edildi. Kolxozlara texniki və təşkilati yardım göstərmək üçün yaradılmış, traktor, kombayn və sair maşınlarla təchiz edilmiş MTS-lər ilk növbədə fərdi təsərrüfatçıya kollektiv təsərrüfatın üstünlüyünü nümayiş etdirməli idilər. Əlbəttə, fərdi təsərrüfatçılığın inkişafı yolunda süni maneələr yaradıldığı bir şəraitdə kəndlinin onsuz da kolxozlara üzv yazılmaqdan başqa çarəsi qalmırdı. MTS-lərin yaradılması ilə bu iş bir qədər də sürətlənirdi. Məsələn, əgər 1931-ci il yanvarın 1-i üçün Naxçıvan rayonu üzrə kənd təsərrüfatının kollektivləşməsi 23 faiz təşkil etmişdisə, dekabr ayında 31,9 faizə çatmışdı. 1931-ci ildə muxtar respublikanın dağ kəndlərində ilk dəfə olaraq 14 kənddə kolxoz təşkil olunmuşdu. Böyük Düzdə heyvandarlıq, toxumçuluq, Ordubadda meyvəçilik, ipəkçilik sovxozları yaradılmışdı.[34] Təkcə 1931-ci ilin yaz əkin kampaniyası zamanı MTS işçilərinin apardıqları izahat işi nəticəsində 300 nəfər yoxsul və ortabab kəndli kolxozlara üzv yazılmışdılar.

Dövlətin, MTS-lərin maşın və traktor parkını gücləndirmək üçün gördüyü tədbirlər, həm də kolxozların təşkilat-təsərrüfat cəhətdən möhkəmləndirilməsinə kömək edirdi, dünənki kəndlilərdə yeni əmək vərdişlərinin yaranmasına səbəb olurdu.

1932-ci ildə Noraşen və Naxçıvan MTS-lərində traktorların sayı 82-yə çatmışdı.[35] Müasir kənd təsərrüfatı texnikasının faydasını öz gözləri ilə görən və ondan yalnız kolxoz üzvü olmaqla istifadə edə biləcəyini başa [83-84]düşən kəndli 1931-ci ilin sonu və 1932-ci ilin birinci yarısından etibarən kolxozlara yeni gözlə baxmağa başladı. Digər tərəfdən də, aparılan güclü təbliğat və təşviqat işləri onda belə bir ümidi möhkəmləndirdi ki, kolxoza girməklə o, nəhayət, bütün əvvəlki məhrumiyyətlərdən yaxa qurtara biləcəkdir. Əlbəttə, belə hisslər kəndlilərin yoxsul və ortabab kütlələrinə daha doğma və yaxın idi. Deyilənləri əlimizdə olan fakt və rəqəmlər

---

[29] MLİ Azərbaycan filialının arxivi, f. 95, siy. 1 iş 1933 vərəq 1—2,
[30] Naxçıvan MP MDA, f. 40, siy. 4, iş 56. vərəq 17.
[31] Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, f. 1, s. 3, iş 1815, vərəq 63.
[32] MLİ Azərbaycan filialının arxivi, f. 95, siy. 4, iş 36, vərəq 69
[33] *N. A. Sokolskiy,* Göstərilən əsəri, səh. 118.
[34] MLİ Azərbaycan filialının arxivi, f. 95, s. 1, iş 2063, vərəq 28
[35] Naxçıvan MDA, f. 39, s. 1, ar. 196, iş 14, vərəq 19.

təsdiq edir. Muxtar respublikada kənd təsərrüfatının kollektivləşməsi 1932-ci il yanvarın 1-də 33,4 faiz, apreldə 42,7 faiz, noyabrın 10-da isə 47 faiz təşkil etmişdi.[36] Kolxozların sayı artaraq 193-ə çatmışdı. 122 pambıqçılıq, 32 taxılçılıq, 13 bağçılıq-üzümçülük, 18 heyvandarlıq, 7 tütünçülük və 1 ipəkçilik kolxozu fəaliyyət göstərirdi.

Kolxozların sayca çoxalması və iqtisadi cəhətdən nisbətən möhkəmlənməsi ilə yanaşı onların əkin sahələri də qat-qat artmışdı. Əgər 1928-ci ildə ümumi əkin sahəsinin 1,25 faizi kolxozların payına düşürdüsə, 1932-ci ildə bu rəqəm 44 faiz təşkil etmişdi.

1929-cu ildə kolxozlar 369 hektar pambıq və 744 hektar taxıl əkmişdilərsə, 1932-ci ildə pambıq əkini sahəsi 6073 hektar, taxıl əkini sahəsi isə 8804 hektar olmuşdu.[37]

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının dirçəldilməsi dövründə sovxoz təsərrüfatının da sürətlə genişlənməsi diqqəti cəlb edir. İri mexanikləşdirilmiş dövlət müəssisəsi olan sovxozlar həm dövlətin ərzaq bazasını möhkəmləndirir, həm də kəndlilər üçün təsərrüfatları mədəni qaydada aparmaq nümunəsi göstərməklə onları cins mal-qara, keyfiyyətli toxumla təmin edir, kolxozlarda birləşmələrinə kömək edirdilər. Zaqafqaziyada ilk sovxozlardan biri D. Bunyadzadə adına sovxoz, «Naxçıvanın 10 illiyi» adına heyvandarlıq sovxozu, 1931-ci ildə Ordubad şəhərində konserv zavodu nəzdində təşkil olunmuş ipəkçilik-meyvəçilik sovxozu və Naxçıvan şəhərindəki quşçuluq sovxozu kənd təsərrüfatının dirçəldilməsi işində mühüm rol oynamışdılar.

Əlbəttə, kolxoz və sovxozların sayca çoxalması onların kəndin məhsul istehsalındakı payını da artırmışdı. 1932-ci ildən etibarən kolxoz və sovxozlar kənd təsərrüfatı məhsulları tədarükü planlarını yerinə yetirməyə [84-85]başladılar. Məsələn, 1932-ci ildə Naxçıvan rayonunun kolxozları kənd təsərrüfatı məhsullarının tədarükü mallarını pambıq üzrə 120,5 faiz, taxıl üzrə 120, tütün üzrə 135, üzüm üzrə 105 faiz yerinə yetirmişdilər

Bu gün kolxoz quruculuğuna münasibətdə müxtəlif fikirlər mövcuddur Bəziləri kolxozların yaradılmasını ictimai inkişaf qanunlarına zidd bir hal, hadisə kimi qiymətləndirir, xalqın əsrlərdən gələn adət və ənənələrinə kökündən vurulan zərbə hesab edir, digərləri isə demokratik prinsiplərə əməl etməklə kolxozları müasir tələblərə cavab verən təsərrüfat orqanizminə çevirməyin mümkünlüyünü göstərirlər. Hazırda xalqımızın həmişəlik seçmiş olduğu müstəqil inkişaf yolu da bütün bu məsələlərə bir daha dərindən baxılması zəruriliyini irəli sürür. Kolxozların həyatın sınaqlarına davam gətirdiyinə onların bu günün özündə də yaşaması faktı müəyyən mənada elə cavabdır. Lakin bir məsələ aydındır. Kolxozların yaradılması bütün fəlakətləri, əyintiləri, nöqsanları, müvəffəqiyyətləri ilə bizim tariximizin bir hissəsidir. Onu düzgün araşdırıb layiqli qiymətini vermək həm mümkündür, həm də olduqca vacibdir.

Beləliklə, birinci beşilliyin sonlarına doğru kənd təsərrüfatının kollektivləşməsi yolunda əməli addımlar atılmışdı.

İkinci beşilliyin əvvəllərində Azərbaycan SSR-də 3400 kolxoz yaradılmışdı ki, onlar da bütün kəndli təsərrüfatlarının 45,5 faizini, əkin sahələrinin isə 49,9 faizini əhatə edirdilər. Naxçıvan MR-də bu rəqəmlər müvafiq surətdə 193, 47,7 faiz və 44 faiz təşkil edirdi. Növbəti vəzifə kolxozları təşkilat—təsərrüfatca daha da möhkəmləndirməkdən, onları kənd təsərrüfatı məhsullarının əsas istehsalçılarına çevirməkdən, kadrlara ehtiyacı ödəməkdən, nəhayət, əmək məhsuldarlığını yüksəltməkdən ibarətdir.

Xalqın iradəsi ziddinə yaradılan və onun köməyindən məhrum olan kolxoz quruluşunu möhkəmləndirmək üçün bir daha inzibati amirlik metodlarına əl atmaq lazım gəldi. Əks təqdirdə çox yerdə kağız üzərində yaradılmış və möhkəm maddi-iqtisadi bazaya malik olmayan kolxozlar və sovxozlar tez bir zamanda da süquta uğraya bilərdi. Buna isə heç bir vəchlə yol vermək olmazdı. Çünki artıq «sosializmin bütün cəbhə boyu hücumu» başlanmışdı və o «qalibiyyətlə» başa çatdırılmalı idi Bü[85-86]tün bu deyilənlər, həmçinin birinci beşillik illərində yaradılmış, lakin hələ mənimsənilməmiş sənaye müəssisələrinə də aid idi. Nəhəng ölkənin düşmüş olduğu ağır vəziyyət do bunu tələb edirdi.

Birinci beşilliyin yekunlarını və 1933-cü ilin (ikinci beşilliyin birinci ilinin, xalq təsərrüfatı planını müzakirə etmiş ÜİK(b)P MK və MNK birləşmiş plenumu (yanvar 1933-cü il) qeyd etmişdi ki, ikinci beşillik əsasən yeni sənaye müəssisələrini mənimsəmək, kolxoz və sovxozları təşkilatça möhkəmləndirmək beşilliyi olmalıdır. Plenum MTS-lərin və sovxozların yanında siyasi şöbələrin təşkil edilməsi haqqında xüsusi qərar qəbul edərək göstərmişdi: «MTS və sovxozların siyasi şöbələri, həm MTS və sovxozların özlərinin, həm də MTS-lər tərəfindən xidmət edilən kolxozların bütün iş və yaşayış sahələri üzərində partiya gözü və nəzarəti olmasını təmin etməlidirlər».[38]

---

[36] Naxçıvan MDA, f. 221, siy. 2, iş 16. vərəq 67.
[37] Yenə orada
[38] Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. III hissə, səh. 213.

1933-cü il fevralın 22-də keçirilmiş Azərbaycan K(b)P MK və MNK-nın birləşmiş plenumu respublikanın MTS və sovxozlarında siyasi şöbələrin yaradılması haqqında müvafiq qərar çıxarmış və onu həyata keçirməyə başlamışdı. Artıq 1933-cü ilin iyulunda respublikanın 29 MTS və 9 sovxozunda siyasi şöbələr yaradılmış və onların rəhbərliyi Bakıdan göndərilmiş 106 nəfər kommunist hesabına möhkəmləndirilmişdi.[39]

Ölkədə partiya diktaturasının möhkəmləndirilməsi, yolunda yeni ciddi addım atılmışdı və amansızlıqla həyata keçirilirdi. Naxçıvan Muxtar Respublikasında da Noraşen və Naxçıvan MTS-ləri yanında siyasi şöbələr təşkil edilmişdi. Onların köməyi ilə 60 nəfər kolxoz sədri, 99 nəfər briqadir, anbardar, hesabdar ifşa olunub kolxozlardan qovulmuş, 75 nəfər qolçomaq aşkara çıxarılmış və dərhal mülkiyyətdən məhrum edilərək həbs olunmuşdu.[40] Heç də təsadüfi deyildi ki, Azərbaycan MİK-in sədri S. M. Əfəndiyev 1933-cü ilin yaz əkini kampaniyası zamanı muxtar respublikada qolçomaqların bir sinif kimi ləğv edilməsi işinin başa çatdırıldığını iftixarla qeyd etmişdi. Kollektivləşməni şəriət qanunla[86-87]rı əleyhinə tədbir sayan din xadimlərinə qarşı da amansız cəza tədbirləri tətbiq edilmişdi.

Siyasi şöbələr müstəqil düşünmə qabiliyyəti olan adamlardan mümkün qədər tez yaxa qurtarmaq üçün dövlətin kadr siyasətinə də ən kobud şəkildə müdaxilə edir, onların göstərişlərini kor-koranə yerinə yetirməyən bütün işçiləri vəzifələrindən uzaqlaşdırırdılar. Bunun əvəzində siyasi şöbələr nəzdində tələsik təşkil olunmuş kurslarda «inqilabi ideyalara sadiq» kadrlar hazırlığı gündən-günə sürətlənirdi. Məsələn, təkcə 1934-cü ilin yaz əkini kampaniyasına qədər qısa müddətli kurslar vasitəsilə 20 nəfər kolxoz sədri, 115 nəfər mühasib, 130 nəfər briqadir və başqaları hazırlanmışdı. 1934-cü ildə bütövlükdə isə Naxçıvan, Noraşen, Ordubad, Şahbuz, Əbrəqunis və Culfa rayon torpaq şöbələri, həmçinin Naxçıvan və Noraşen MTS-ləri nəzdindəki kursları 952 nəfər belə yüksək ixtisaslı kənd təsərrüfatı işçiləri, habelə 93 nəfər mexanizator bitirmişdi.[41] Naxçıvan, Noraşen, Şahbuz, Əbrəqunis, Ordubad rayonlarına göndərilən təkcə kolxoz sədrlərinin sayı 66 nəfər olmuşdu. 1934-cü ilin payız və 1935-ci ilin yaz əkini kampaniyaları dövründə daha 314 nəfər qısa müddətli kursları bitirmiş və kolxozlara göndərilmişdi. 1932-ci ildə Naxçıvan MR-də kolxoz istehsalat briqadalarının sayı 80 olduğu halda, 1934-cü il yaz əkini kampaniyası zamanı rayon torpaq şöbələri və MTS-lər yanında təşkil olunmuş kurslar vasitəsilə daha 146 nəfər istehsalat briqadiri hazırlanmış və beləliklə istehsalat briqadalarının sayı 226-ya çatdırılmışdı.[42] 1934-cü ilin yaz əkini kampaniyası ərəfəsində muxtar respublika kolxozlarına kömək məqsədilə normadan əlavə daha 20 traktor göndərilməsi məsələsi müsbət həll edilmişdi. Hətta Naxçıvan MR-də xidmət edən sərhədçi əsgərlər belə kolxozlara hamilik işinə cəlb edilmişdilər. Naxçıvan ərazisi sərhədləri 24 nəfərlik tərkibdə iki briqada yaratmış və onları Noraşen və Naxçıvan MTS-lərinə təhkim etmişdilər. Onlar kolxozlarda kənd təsərrüfatı maşınlarını təmir edir, traktor parklarının pasportlarını qaydaya salırdılar.

Naxçıvan kolxozlarına göstərilən, necə deyərlər, bu ümumdövlət və ümumxalq yardımı, əlbəttə, nəticəsiz qala [87-88]bilməzdi. Odur ki, hələ 1933-cü və 1934-cü illərə dair məlumatlarda əmək məhsuldarlığı sahəsində qazanılmış «yüksək nailiyyətlərdən» söhbət açılırdı. Məsələn, Naxçıvan rayonundakı «Qızıl əsgər» kolxozu pambıq planına 160 faiz, Gültəpə kolxozu isə 208 faiz əməl edərək yüksək məhsul götürmüşdülər. Muxtar respublikanın kolxozları taxılçılıq üzrə planı 112 faiz, üzümçülük üzrə 105 faiz, tütünçülük üzrə 135 faiz, baramaçılıq üzrə 114 faiz yerinə yetirmiş, nəticədə kolxozçuların əməkgününə düşən pay xeyli artmışdı. 1932-ci ildə pambıqçılıq kolxozlarında hər əmək gününə 2,6 kiloqram taxıl düşdüyü halda, 1933-cü ildə 6 kiloqram, 1934-cü ildə isə daha çox taxıl düşmüşdü.[43]

Kənddə kolxozların təşkilat-təsərrüfatca möhkəmlənməsi fərdi təsərrüfatçıların kolxozlara axınını xeyli sürətləndirmiş və onu müəyyən mənada «elliklə kollektivləşmə» səviyyəsinə çatdırmışdı. Məsələn, 1934-cü ilin oktyabrında muxtar respublikanın kolxozlarında birləşmiş təsərrüfatların sayı 13,2 min nəfərə çatmışdı ki, bu da bütünlükdə təsərrüfatçıların 61,6 faizini təşkil edirdi.[44]

Naxçıvan MR-də kənd təsərrüfatının kooperasiya əsasları üzərində dirçəldilməsində heyvandarlıq fermalarının təşkilinin də mühüm rolu olmuşdur. Bu işə əsasən, 1933-cü ildə başlanmış və 3448 davarı əhatə edən 17 ferma təşkil olunmuşdu. 1934-cü ildə fermaların sayı 53-ə, davarların sayı isə 6254-ə çatdırılmışdı. Heyvandarlıq fermalarının təşkili ilə yanaşı onların yem bazasının möhkəmləndirilməsi üçün də lazımi tədbirlər görülmüşdü. 1932-ci ildə muxtar respublikada 3152 hektar çoxillik və 3425 hektar birillik yem otları əkilən sahələr olduğu halda 1934-cü ildə həmin sahələr 2,5 dəfə artırılmışdı Bununla yanaşı, 1934-cü ildə 1930 —

---

[39] 3. *B. Şıxlinski,* İkinci beşillik illərində Azərbaycanda fəhlə sinfi ilə kolxozçu kəndlilərin ittifaqının möhkəmlənməsi. Bakı, 1961, səh. 17
[40] Azərbaycan EA Tarix İnstitutunun elmi arxivi, f. 1, s. 11, iş 5190. vərəq 76.
[41] MLİ Azərbaycan filialının arxivi, f. 95, s. 4, iş 193, vərəq 1
[42] Rəqəmlər müəllif tərəfindən müxtəlif mənbələr əsasında hazırlanmışdır.
[43] Naxçıvan MDA, f. 34, siy. 267. iş 20, vərəq 15
[44]Экономико-статический бюллетень. Баку, 1934. № 1—4 s. 104

1931-ci illərlə müqayisədə muxtar respublikada heyvanların sayının xeyli azaldığı fakt da müşahidə edilir. Məsələn, mal-qaranın sayı 1930 — 1931-ci illərdə 46.090 başdan 1934-cü ildə 24.809 başa, davarların sayı 174650 başdan 126481 başa, atların sayı 3417 başdan 1904 başa qədər azalmışdı. Bütün bu xoşagəlməz faktlar kolxoz quruculuğu sahəsində yol verilmiş əyintilərə kəndlilərin mənfi əks-sədası mənasında izah edilə bilər.[88-89] Həmin əyintilər xalq arasında şayiələr yaratmışdı ki, sovet dövləti kolxozların və fərdi təsərrüfatçıların qoyun, keçi və inəklərini, iş heyvanlarını əllərindən alıb kolxozlara verəcəkdir. Belə şayiələrdən qorxuya düşmüş kəndlilər 11787 iribuynuzlu mal-qaranı və 1644 camışı, 32163 baş qoyunu, 11180 baş keçini, 107 dəvəni qırmışdılar.[45] Göründüyü kimi, heyvandarlıq fermalarının yaradılması ərəfəsində muxtar respublikada bütünlükdə heyvandarlığın inkişafına güclü zərbə endirilmişdi. Bütün bunlar kənddə xalqın ənənəvi təfəkkür tərzinə zidd olan yeni istehsal münasibətləri yaranmasına onun düşmən münasibətindən irəli gəlirdi. Kollektivləşmənin əyintiləri, onun qəddarlıqla həyata keçirilməsi bu münasibəti daha da gücləndirmiş və yuxarıda göstərilən faciələrə gətirib çıxarmışdı. Heç bir heyvandarlıq ferması xalqa vurulan bu maddi və mənəvi zərərin əvəzini ödəyə bilməzdi. ÜİK(b)P MK-nın 1933-cü il iyun — iyul plenumunda «heyvandarlığın yaxşılaşdırılması və inkişaf etdirilməsi haqqında» məsələ müzakirə etməsi və onun materiallarında hiss olunan təşviş və narahatlıq isə belə bir fikrə gəlmək üçün əsas verirdi ki, heyvandarlıq sahəsində ittifaqın digər respublika və vilayətlərində də vəziyyət Naxçıvanda olduğundan yaxşı deyildi.[46] Plenumun qərarlarına müvafiq olaraq muxtar respublikada nümunəvi heyvandarlıq briqadalarının təşkilinə başlanılması da daha çox təbliğat məqsədi daşımışdır. Heyvandarlıq briqadalarını yaratmaq sahəsində əldə edilmiş təcrübəni yaymaq məqsədilə Dağıstan və Çərkəz muxtar respublikaları ilə Naxçıvan MR arasında sosializm yarışı keçirilməsi də bütövlükdə heyvandarlığı düşmüş olduğu ağır vəziyyətdən xilas etmək üçün göstərilən uğursuz təşəbbüsdən başqa bir şey deyildi.[47]

Onu da qeyd edək ki, Kommunist Partiyası və Sovet dövləti ikinci beşillik illərində bütün kolxozları bolşevik kolxozu və kolxozçuları varlı etmək şüarını irəli sürmüşdü. Bu şüar onu irəli sürənlərin nəzərincə yüksək əmək məhsuldarlığına «ail olmaq üçün sosializm yarışını genişləndirməkdə mühüm bir mərhələ təşkil etməli və kolxoz quruculuğunu uğurla başa çatdırmalı idi. Xüsusilə, 1935-ci ildə bu şüar ətrafında daha çox [89-90]hay-küy qaldırılmış və sosializm yarışı az qala əmək sahələrini, həyat və məişətin bütün sahələrini əhatə edərək bir növ «dillər əzbəri» olmuşdu. Bu məqsədlə çoxlu toplanışlar, yığıncaqlar, görüşlər keçirilmiş, müraciətlər qəbul olunmuş, qərarlar hazırlanmış və «həyata keçirilmişdi». İttifaqda və Azərbaycan SSR-də yayılmış bir çox sosializm yarışı hərəkatlarının Naxçıvan MR-də geniş yayılması üçün həvəsləndirmə tədbirləri də görülmüşdü. Məsələn, 1935-ci ildə Azərbaycanda pambıq yetişdirmək və toplamaq sahəsində daha çox müvəffəqiyyət qazanmış Naxçıvan MR-in 5 kolxozu, 18 nəfər kolxozçusu və MTS işçisi Azərbaycan K(b)P MK və Respublika Xalq Komissarları Soveti tərəfindən pul və qiymətli hədiyyələrlə mükafatlandırılmışdı.[48]

Noraşen rayonunun kolxozlarında kənd təsərrüfatının inkişafında daha çox nailiyyətlər əldə edilməsi xüsusilə qeyd edilmişdi. Məsələn, rayonun kolxozları 1935-ci ildə dövlətə 4890 ton məhsul təhvil vermişdilər ki, bunun da 900 tonu öhdəlik hesabına toplanmışdı. Ümumiyyətlə, isə muxtar respublikada 1935-ci ildə dövlətə 7 min ton pambıq təhvil verilmişdi və bunun da 1500 tonu öhdəlik hesabına idi.[49] Həmin ildə kənd təsərrüfatı məhsulları tədarükü planları taxıl və barama üzrə 100 faiz, üzüm üzrə 120 faiz, ət-süd məhsulları isə 148 faiz yerinə yetirilmişdi. 1935-ci ildə kolxozların əksəriyyətində yardımçı təsərrüfat sahələri kimi fəaliyyət göstərmiş bağçılıq, üzümçülük, bostançılıq, arıçılıq, quşçuluq, heyvandarlıq və baramaçılıqda da müəyyən irəliləyişlər nəzərə çarpır. Elə bu vaxtlardan da muxtar respublikanın kolxozlarda bir sıra mədəni-məişət və təsərrüfat binalarının inşası genişlənmişdi. Məsələn, Noraşen rayonunun «Sosializm» kolxozunda 1935 — 1936-cı illərdə məktəb, bağça-yaslı, bərbərxana, dəyirman, taxı və yem anbarları, iki tövlə tikilmişdi.[50] Muxtar respublikanın digər rayonlarında da bu sahədə müvəffəqiyyətlər var idi. Sovet hakimiyyəti qurulmasından keçən 15 il ərzində ilk dəfə olaraq bu tipli tikililərə xüsusi əhəmiyyət verilməsinə başlanması, əlbəttə, kənddə iqtisadi vəziyyətin sabitləşdiyini, kolxoz quruluşunun həqiqətən qalib gəldiyini göstərirdi. Bu işdə [90-91]1935-ci ilin fevralında keçirilmiş Ümumittifaq zərbəçı kolxozçuların ikinci qurultayında qəbul olunmuş kənd təsərrüfatı artelinin yeni nümunəvi nizamnaməsi də mühüm rol oynamışdı. ÜİK(b)P MK və SSRİ Xalq Komissarları Soveti 1935-ci il fevralın 17-də qəbul etdikləri qərarda yeni kolxoz nizamnaməsini təsdiq etmişdilər. Bundan bir qədər də əvvəl, yəni 1934-cü ilin noyabrında ÜİK(b)P MK plenumunun MTS-lərin siyasi şeşələri haqqında qərarı elan

---

[45] MLİ Azərbaycan filialının arxivi, f. 95, siy. 1, iş 59, vərəq 25.
[46] Sov. İKP-nin qətnamə və qərarları, III hissə, 1954, səh. 778.
[47] Bakinski raboçi» qəzeti, 29 dekabr 1935-ci il.
[48] «Kommunist» qəzeti, 6 yanvar 1936-cı il.
[49] «Şərq qapısı» qəzeti, 146dekabr 1935-ci il.
[50] Şərq qapısı» qəzeti, 14 dekabr 1935-ci il.

edilmişdi. Həmin qərarla MTS siyasi şöbələri adi partiya orqanlarına çevrilmişdilər.[51] Göründüyü kimi, hər iki qərar kəndə iqtisadi və siyasi təzyiqi nisbətən yüngülləşdirmək məqsədi daşımış və bununla da iqtisadi sabitliyin yaranmasına xeyli kömək etmişdi.

İkinci beşillikdə Naxçıvan MR kənd təsərrüfatında kolxoz quruluşunun qələbəsini təmin edən mühüm amillərdən biri də texniki təchizatın xeyli yaxşılaşdırılması olmuşdu. Ən yeni kənd təsərrüfatı texnikası fərdiyyətçi kəndlilərin son müqavimətini də aradan qaldırdı. Daha doğrusu, fərdi təsərrüfatçının ətrafında yaradılmış bütün şərait onu son nəticədə kolxoza çəkib gətirdi. Bu şəraitin yaranmasında isə, heç şübhəsiz, kənd təsərrüfatı texnikasının da mühüm əhəmiyyəti olmuşdu. 15 — 16 il əvvəl əsas təsərrüfat aləti ağac xışdan ibarət olan Naxçıvan kəndliləri 1937-ci il-də 2 MTS-də 182 traktora və yüzlərlə müxtəlif kənd təsərrüfatı maşınlarına malik olmuşdular.[52]

Göstərilən dövrdə SSRİ-nin ictimai-siyasi həyatında mühüm dəyişikliklər baş verməkdə idi. Bütün nöqsan, əyinti və məhdudiyyətlərinə baxmayaraq ölkədə sosialist münasibətlərinin qələbə çalması nəticəsində onun iqtisadiyyatında və ictimai quruluşunda əmələ gəlmiş keyfiyyət dəyişiklikləri 1936-cı ilin dekabrında VIII Ümumittifaq fövqəladə Sovetlər qurultayında qəbul edilmiş SSRİ-nin yeni konstitusiyasında qanunvericilik yolu ilə təsbit edildi 1937-ci ilin martında IX Ümumazərbaycan Sovetlər qurultayında SSRİ-nin yeni konstitusiyasına uyğun olaraq müttəfiq respublika hüququnda SSRİ-nin tərkibinə daxil olmuş Azərbaycan SSR-in yeni konstitusiyası qəbul edildi. 1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR-in X fövqəladə sovetlər qurultayı muxtar respublikanın yeni konstitusiyasını qəbul etdi.[91-92]

İkinci dünya müharibəsindən əvvəlki illərdə də muxtar respublikanın kənd təsərrüfatı xeyli inkişaf etmişdi. Əkin sahələri genişlənmiş, məhsuldarlıq artmış, kolxozların ümumi gəliri çoxalmışdı. 1939-cu ildə muxtar respublika üzrə kolxozların ümumi gəliri 38 milyon manata çatmışdı.[53]

Üçüncü beşillikdə muxtar respublikada kolxozlardan kənarda qalmış tək-tək kəndli təsərrüfatlarının da demək olar ki, hamısı kolxozlara daxil olmuşdu. 1940-cı ildə ümumi təsərrüfatların 98,9 faizi və 55.193 hektar əkin sahəsi kolxozların payına düşmüşdü. Pambıqçılıq və taxılçılıq kolxozlarının mexanikləşdirilməsi başa çatdırılmışdı. Məsələn, 2 MTS-də birləşən 207 traktor, 10 kombayn və yüzlərlə müxtəlif kənd təsərrüfatı maşınları kolxozların sərəncamına verilmişdi. Yenə həmin ildə Naxçıvan MSSR kolxozlarında 272 qoyunçuluq, 209 qaramal, 46 atçılıq, 19 donuzçuyuq və onların əksəriyyətində isə quşçuluq fermaları təşkil olumuşdu.[54]

Beləliklə, hələ müharibədən əvvəlki illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının dirçəldilməsi yeni sosialist münasibətlərinin tətbiqi ilə eyni vaxta düşdüyündən böyük çətinliklərlə üzləşərək ciddi məhrumiyyətlərlə qarşılaşsa da, 30-cu illərin ortalarına doğru bu çətinliklər əsasən aradan qaldırılmışdı. Bütün bunlar 30-cu illərin ortalarından kənd təsərrüfatında sabit və perspektivli inkişaf yolu tapmağa qismən imkan verdi.[92]

---

[51] Sov. İKP-nin qətnamə və qərarları, III hissə, səh. 294
[52] Большая советская энциклопедия, т. 41, Москва. 1939. с. 338.
[53] «Kommunist» qəzeti, 28 iyul, 1940-cı il.
[54] Yenə orada.

## NAXÇIVAN SƏNAYESİNİN BƏRPA VƏ İNKİŞAFI

Naxçıvan diyarı 1920-ci ilədək, əsasən, aqrar ölkəsi olmuş, sənayesi zəif inkişaf etmişdi. Əsas sənaye müəssisələri Naxçıvan və Sovet duz mədənlərindən, Ordubad, Naxçıvan şəhərlərindəki ipək fabriklərindən, Naxçıvan və Noraşen pambıqtəmizləmə zavodlarından ibarətdir. Bunlardan başqa Naxçıvan və Ordubad şəhərlərində yerli əhəmiyyətli kustar müəssisələr — kərpic istehsal edən kameralar, əhəng, kəc istehsal edən müəssisələr, Şahtaxtı daş karxanası, ayaqqabı istehsal edən sexlər, dəbbaqxana emalatxanaları, kənd təsərrüfatı alətləri istehsal və təmir edən dəmirçixanalar var idi.

Yerli sərvətlərlə zəngin olmasına baxmayaraq dağ-mədən sənayesi inkişaf etməmişdi.

Naxçıvanda Sovet hakimiyyəti elan edildikdən sonra muxtar respublikanın xalq təsərrüfatında əsas yeri duz sənayesi tuturdu. Muxtar respublikanın duz ehtiyatı Naxçıvanın, Ermənistanın, Azərbaycanın qərb rayonlarının və Cənubi Azərbaycanın sərhəd rayonlarının ehtiyacını ödəmək üçün tamamilə kifayət edirdi.

Qeyd olunmalıdır ki, mədənlərdə duz əl ilə çıxarılırdı. İş şəraiti ağır və dözülməzdi. İş günü 10 — 11 saata çatırdı. Məişət şəraiti daha acınacaqlı idi. İçməli su kənardan gətirilirdi. Əmək haqqı ən adi gündəlik yaşayış xərclərini belə ödəmirdi. Şikəstlik və qıçalığa görə heç bir yardım və təqaüd verilmirdi. Sanitariya qaydalarına əməl olunmurdu,

Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları duz mədənlərinə də böyük ziyan vurmuşdu, duz istehsalı xeyli azalmışdı.

Beləliklə, yeni hakimiyyətin ilk mühüm vəzifəsi dağılmış duz mədənlərini bərpa etməkdən, duz istehsalını ilk vaxtlar heç olmazsa müharibədən əvvəlki səviyyəyə çatdırmaqdan ibarət idi. Görünür elə duz istehsalını nizama salmağın zəruriliyi 1921 - 1922-ci illərdə Naxçıvan duz mədənlərinin bərpası işinə Qızıl Ordu [93-94]hissələrinin cəlb edilməsinə əsas səbəb olmuşdur. Naxçıvan Xalq Komissarları Sovetinin qərarı ilə duz mədənləri Qafqaz Ordusunun Naxçıvanda yerləşən hissələrinin sərəncamına verilmiş, 1922-ci ildə Naxçıvan «Solprom» tresti yaradılmışdı. [1] 1923-cü ildə Naxçıvan duz mədənləri Azərbaycan Ticarət Komissarlığının, 1924-cü ildə isə Azərbaycan Xalq Təsərrüfatı Şurasının sərəncamına keçmiş, Naxçıvanda isə əlahiddə Naxçıvan duz tresti təşkil olunmuşdu.

Bu təşkilati tədbirlər öz səmərəsini vermiş və hələ 1924-cü ildə duz istehsalı müharibən əvvəlki dövrün 52 faizini təşkil edərək 1 milyon 600 min puddan çox olmuşdu. [2]

1925-ci ildə Naxçıvan duz sənayesinin mexanikləşdirilməsi sahəsində böyük iş görülmüş, 200 at qüvvəsində olan elektrik stansiyasının istifadəyə verilməsi ilə yeraltı şaxtalarda əl ilə görülən ən ağır işlər mexanikləşdirilmiş, şaxtalar işıqlandırılmışdı. 1926-cı ildə isə İsveç və Almaniyadan alınmış üç maşın şaxtalarda duz çapma işlərini mexanikləşdirməyə imkan vermişdi. Nəticədə burada işləyən 45 — 55 fəhləni 5 fəhlə əvəz etmişdi. 1926 — 1929-cu illərdə Naxçıvan duz mədənlərindən Bozbaşı stansiyasına çəkilən kanat yolu ildə 6 milyon pud duz daşımağa imkan vermiş, duzun maya dəyərini 6 — 7 dəfə azaltmışdı. [3] Duz sənayesində ağır işlərin mexanikləşdirilməsi və elektrikləşdirilməsi əmək məhsuldarlığını artırmış və işçi güvəsinə olan ehtiyacı azaltmışdı. Məsələn, 1922 — 1924-cü illərdə hər iki mədəndə 260 — 280 fəhlə işlədiyi halda, 1930 — 1931-ci illərdə fəhlələrin sayı 148 nəfərə qədər azalmış, lakin duz istehsalı 3—4 dəfə artaraq 1931-ci ildə 3.650.000 pud olmuşdur. [4] Naxçıvan MSSR MİK-IN sədri B. Vəlibəyov VIII Naxçıvan Sovetlər qurultayında (2 fevral 1931-ci il) demişdi: «Duz sənayesinin inkişafı mütəşəkkil şəkil almış və bütün sahələrdə mexanikləşdirmə və elektrikləşdirmə işləri başa çatdırılmışdır. 7—8 milyard pud duz ehtiyatı olduğu hesablanıb qurtarmışdır... Yaxın gələcəkdə mədənlər Zaqafqaziya respublikalarının və yaxın qonşu ölkələrin sifarişlərini ödəyəcəkdir. [5][94-95]

Muxtar respublikanın iqtisadiyyatında ipəkçilik sənayesi mühüm yer tutur. Sovet hakimiyyəti qurulmazdan əvvəl ipəkçilik Naxçıvan və Ordubadda əsas təsərrüfat sahələrindən biri hesab edilirdi. Ordubad qəzasının 46 kəndindən 43-ü ipəkçiliklə məşğul idi.

İpəkçilik sənayesinin inkişafında ən məhsuldar dövr 1900 — 1914-cü illər olmuşdur. Bu dövrdə təkcə Ordubad şəhərində əksəriyyəti buxarla işləyən 12 ipək əyirən fabrik inşa edilmişdi. Bunlardan başqa, Naxçıvan şəhərində, Əylis, Cənnəb və Əndəmic kəndlərində böyük fabriklər var idi. 1914-cü ildə təkcə Ordubad şəhərindəki ipək fabriklərində 325 nəfər fəhlə işləyirdi. Xam ipəyin əsas hissəsi Rusiyaya, bir hissəsi isə İrana

---

[1] *N. A. Sokolski:* -Ggöstərilən kitabı, *s,* 86
[2] Gürcüstan SSR OİMDA, f. 61, siy. 2, iş 109, vərəq 34.
[3] Социалистическое хозяйство Закавказья жур. № 11-12. с.113
[4] *N A. Sokolski.* Göstərilən kitabı, s. 91
[5] Naxçıvan MDA, f. 40, s. 1. qov. 226/375, v. 70—73.

göndərilirdi. Ordubad ipək fabriklərində ağır iş şəraitini unudulmaz yazıçımız M. S. Ordubadi belə təsvir etmişdir:

Qorxuruq küləkdən, qorxuruq yeldən,
Ruzimiz asılmış incə bir teldən,
İşə çağırırlar, ulduz batmamış,
İşdən buraxırlar şəhər yatmamış. [6]

Birinci dünya müharibəsi, sonra isə daşnak fitnəkarlıqları və basqınları Naxçıvanda ipəkçilik təsərrüfatlarını da tənəzzülə uğratmışdı. 1920-ci ildə ipəkçilik fabriklərinin heç biri işləmirdi.

İqtisadi həyatı dirçəltmək üçün Sovet hakimiyyətinin həyata keçirdiyi tədbirlər ipəkçilik sənayesindən də yan ötmədi. 1923 — 1926-cı illərdə 4 ipək fabrikini bərpa edib işə salmaq mümkün oldu. Lakin ipəkçilik sənayesinin tam bərpası üçün ilk növbədə baramaçılıq təsərrüfatı bərpa edilməli idi. Bu sahədə işin ləng getdiyini belə bir rəqəmdən də aydın görmək olar ki, 1924—25-ci təsərrüfat ilində cəmisi 4500 pud barama istehsal olunmuşdu ki, bu da müharibədən əvvəlki səviyyənin yalnız 35 faizini təşkil edirdi. 1929 — 30-cu təsərrüfat ilində isə 5000 pud barama istehsal edilmişdi. [7] 1926-cı ildə Ordubad şəhərində barama toxumu istehsal edən zavodun tikilib istifadəyə verilməsi təkcə Naxçıvanda deyil, bütövlükdə Azərbaycanda ipəkçilik sənayesinin inkişafında mühüm rol oynadı. Zavod 1926-cı ildə 9350 qutu, 1928-ci ildə 22000 qutu, 1930-cu ildə isə 30000 qutu barama toxumu istehsal edib Azərbaycan miqyasında payla[95-96]mışdı. Muxtar respublikanın özündə 1925 — 26-cı ildə 800 qutu, 1927-ci ildə 1000 qutu, 1928-ci ildə 1600 qutu, 1929-cu ildə 2200, 1930-cu ildə isə 2600 qutu barama paylanmışdı. [8]

Barama toxumu zavodu muxtar respublikada 12 təlim-təcrübə stansiyası təşkil etmiş, aqrotexniki qaydaların təbliğinə diqqəti artırmaqla yanaşı, 1 milyon tut tingini kolxozlara paylamışdı. Zavodun təşəbbüsü ilə Ordubadda ipəkçilik sovxozu da yaradılmışdı. Lakin bu tədbirlər Naxçıvanda ipəkçilik təsərrüfatının əvvəlkn şöhrətini özünə qaytara bilməmişdi. Səbəb isə bundam ibarət olmuşdu ki, əsas peşələri heyvandarlıq olan Zəngəzur, Qafan mahallarından qaçqın əhalinin Ordubad, Naxçıvan qəzalarında yerləşməsi baramaçılığa marağı xeyli azaltmışdı.

Üstəlik də 1931-ci ildə Ordubad rayonunda 7—8 bal gücündə zəlzələ baş verməsi nəticəsində maddi ziyan dəymiş, çoxlu barama qurdu torpağın altında qalmışdı. Buna görə də 88 ton əvəzinə cəmi 46 ton barama istehsal olunmuşdu. Yenə həmin ildə güclü sel rayonun 160 Nektar bağını və əkin zəmisini yuyub aparmışdı, insan tələfatına və böyük maddi ziyana səbəb olmuşdu. [9]

Xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi illərində muxtar respublikada kustar sənayenin inkişafına böyük əhəmiyyət verilmişdi. Bundan da başlıca məqsəd yoxsulları, ilk növbədə isə qaçqınları işlə təmin etmək idi.

1926-cı ildə ipək fabriklərinin istehsal etdiyi xam ipək materialları əsasında Ordubadda corab-kəlağayı fabriki, Vənənd, Əylis, Üstüpü, Cənnəb, Parağa və Bist kəndlərində isə onun şöbələri açılmışdı. Fabrikdə ipək, yarım ipək corablar, baş və cib yaylıqları istehsal olunurdu. Burada 17 dəzgahda çalışan 253 nəfər işçidən 217-si qadınlar idi.[10]

Ordubad şəhərində açılmış kustar sənayesi müəssisələri ayaqqabı artelləri idi. Muxtar respublikanın sənət birliyi nəzdində fəaliyyət göstərən ayaqqabı artelləri təkcə 1928-ci ildə 316427 manat dəyərində 18.690 cüt ayaqqabı hazırlamışdılar[11] [96-97]

Muxtar respublika sənayesinin əhəmiyyətli sahələrindən biri də sayı 80 — 85-ə çatan kustar pambıqtəmizləmə emalatxanalarının birləşdirilməsi əsasında yaradılmış Naxçıvan və Noraşen pambıqtəmizləmə zavodları idi. Tikintisinə 1924-cü ildə başlanmış hər iki zavod 1926-cı ildə istismara verilmişdi. İki zavod birlikdə ildə 500 min pud istehsal gücünə malik idilər. Lakin xammal çatışmazlığı üzündən zavodlar ildə yalnız 6 ay fəaliyyət göstərirdilər. Belə ki, muxtar respublikada istehsal olunan xammal həmin müəssisələri il boyu təmin edə bilmirdi. Azərbaycanın digər yerlərindən xammal daşıyıb gətirmək isə yol uzaq olduğu üçün iqtisadi cəhətdən əlverişli deyildi.

Dağılmış şəhər və kəndləri, müəssisələri, yolları, körpüləri bərpa və inkişaf etdirmək üçün tikinti materialları sənayesinin yaradılmasına böyük ehtiyac duyulurdu.

---

[6] *M. S Ordubadi* Seçilmiş əsərləri, I cild, s. 3
[7] *N. A. Sokolskiy.* Göstərilən kitabı, s. 112.
[8] Naxçıvan MDA f. 40, siy 1, qov. 226/375, v 70—73
[9] Naxçıvan MDA, f 40 siy. 1, qov. 238/400, vərəq 2 — 24
[10] Naxçıvan MDA, f. 40, siy. 1, qov. 238/400, vərəq 2 — 24
[11] Yenə orada

1925-ci ildə istifadəyə verilmiş Naxçıvan kərpic zavodu ildə 3 milyon ədəd kərpic buraxmaq gücünə malik idi. Zavod hər kamerası 9 mindən 12 min ədədə qədər kərpic tutan 16 kameralı Qofman sobası ilə təchiz edilmişdi.[12] Naxçıvan kəc zavodu bərpa edilmiş və 1925-ci ildə 1200 pud məhsul istehsalı gücünə malik idi.

1925-ci ildə həmçinin, Şahtaxtı, Ordubad kəc, əhəng və kərpic zavodları tikilib istifadəyə verilmişdi.

Tikinti materialları istehsalını genişləndirmək məqsədi ilə Şərur, Naxçıvan və Culfa ərazilərindəki tuf daşları karxanalarından istifadə edilməsi üçün də tədbirlər görülmüşdü.

1930-cu ildə Naxçıvan Xalq Komissarları Sovetinin qərarı ilə inşasına başlanmış, ildə 4,5 milyon kərpic istehsal edə bilən 2 nömrəli Naxçıvan kərpic zavodu 1931-ci ildə istismara verilmişdi. Tikintisinə hələ 1910-cu ildə başlanmış əhəng zavodu yenidən qurularaq illik istehsal gücü 50 min puda çatdırılmışdı.[13]

Naxçıvan MR sənayesinin digər mühüm sahəsi Ordubad meyvə konserv zavodu idi. Tikintisinə 1927-ci ildə başlanmış zavod 1929-cu il iyulun 15-də istifadəyə verilmişdi. Zavod 1929-cu ildə 233 ton, 1930-cu ildə isə 823 ton məhsul qəbul etmişdi. 1931-ci ,ildən etibarən zavod kolxozçu və təsərrüfatçılardan meyvə tədarük etmək üçün[97-98] əvvəlcədən müqavilələr bağlamağa başlamışdı. Nəticədə meyvə tədarükü planı 1931-ci ildə 1087 tona çatdırılmış, 1 milyon 829 min ədəd şərti banka istehsal edilmişdi. Lakin yolların abad olmaması və nəqliyyat vasitələrinin azlığı, dəmir yolundan uzaqda yerləşməsi, istehsalın yarım kustar formada təşkili, ixtisaslı kadrların olmaması və digər səbəblər zavodun öz işini daha da genişləndirməsinə mane olmuşdu. Zavodun mövsümi fəaliyyət göstərməsi, yəni mayın 15-dən dekabrın 15-nə kimi işləməsi də istehsal və tədarük planlarını artırmağa, daha çox işçi qüvvəsini istehsalata cəlb etməyə imkan vermirdi.

Yeyinti sənayesinin digər mühüm sahəsini şərabçılıq təşkil edirdi.

İlk vaxtlar Naxçıvan kənd təsərrüfatı şirkəti kəndlilərdən tədarük yolu ilə spirt və şərab alırdı. 1928-ci ildə Naxçıvan şəhərində istifadəyə verilmiş kiçik şərab zavodu 1931-ci ildə genişləndirilərək şərab kombinatına çevrilmişdi. Şərab kombinatının fəaliyyəti bütövlükdə üzümçülük təsərrüfatının inkişafına müsbət təsir göstərmişdi. Belə ki, 1932-ci ildə üzümlüklərin sahəsi 1442 hektara çatdırılmışdı.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti 1930-cu il iyulun 28-də Naxçıvan MSSR-in 10 illik yubileyi ilə əlaqədar qəbul etdiyi qərarda 1930-cu illərdə Naxçıvan şəhərində pambıq-parça zavodu tikilməsini, Ordubad konserv zavodunda yenidənqurma və genişləndirmə işləri aparmağı, duz üyütmə kombinatının tikilməsini, həmçinin, Ordubadda ipək fabriklərini yeni avadanlıqla təmin etməyi, muxtar respublikada yerli sənayeni inkişaf etdirmək məqsədi ilə, buz, limonad, ağacyonan, mexanikləşdirilmiş dəyirman və s. müəssisələri tikməyi nəzərdə tutmuşdu. Qadınları istehsalata cəlb etmək məqsədi ilə kustar sənayeni inkişaf etdirməyə böyük əhəmiyyət verilirdi. Hər biri 300 nəfər qadını işlə təmin etmək şərti ilə Ordubad şəhərində corab-kəlağayı, trikotaj, Şərurda isə ağ alt paltarı, döşək ağları istehsal edən fabriklər hələ birinci beş illikdə təhvil verilmiş müəssisələr sırasında idi.[14]

Muxtar respublikada abadlıq işlərinə diqqəti artırmaq, sovetliklər ilə rayon mərkəzləri, rayonlar və iri[ 98-99]kəndlər ilə Naxçıvan şəhəri arasında şose yolları salmaq, rabitə xətləri çəkmək, Naxçıvan, Ordubad, Culfa şəhərlərində fəhlələr üçün yaşayış binaları tikmək, əhaliyə göstərilən ticarət xidmətini yaxşılaşdırmaq kimi məsələlər də qarşıda durur və həllini gözləyirdi.

İkinci beşillikdə muxtar respublikada sənayenin inkişaf etdirilməsində dəmir yolu çəkilişi başlıca yer tutmuşdu. Culfa — Ələt dəmir yolunun çəkilişinin başa çatdırılması muxtar respublikanın iqtisadiyyatında çox mühüm əhəmiyyətli bır hadisə olmalı idi. Çünki Tiflis — Yerevan, Naxçıvan — Culfa dəmir yolu əsasən Ümumittifaq və beynəlxalq əhəmiyyətli olduğuna görə muxtar respublikanın ehtiyaclarını təbii idi ki, tam ödəyə bilmirdi. Bu baxımdan Culfa — Ələt dəmir yolu muxtar respublika ilə Bakını birləşdirən ən qısa yol ola bilərdi. 1941-ci ildə Bakı — Ələt — Culfa dəmir yolu çəkilişinin başa çatdırılması muxtar respublika üçün həqiqətən çox böyük iqtisadi sosial və mədəni əhəmiyyətə malik oldu. Digər tərəfdən, Naxçıvan MR daxilində də dəmir yolu çəkilişini sürətləndirmək tələb olunurdu. Məsələn, Culfadan Ordubada qədər yolun çəkilişinə böyük hazırlıq işləri görülmüşdü.

İkinci beşillik illərində muxtar respublikanın iqtisadiyyatında duz sənayesi mühüm yer tutmaqda davam etmişdi. Bununla belə, duza böyük ehtiyacın olmaması üzündən məhz həmin illərdə Sovet duz mədəninin istismarı dayandırılmışdı. Naxçıvan duz mədənində isə istehsal olunan duzun keyfiyyətcə yaxşılaşdırılmasına diqqət artırılmışdı. Bunun üçün ilk əvvəl duzun göllərdə yuyulmasını təşkil etmək tələb olunurdu. Bu məqsədlə Bozbaşı stansiyasında 25 hovuz tikilmiş, sudartan vasitəsilə hovuzlara su vurulmuş, hər il göllərdə 87 ton duzun yuyulması təmin edilmişdi.

---

[12] Naxçıvan MDA, f. 2, siy. 2, qov. 36, vərəq 9.
[13] Ə. *A. Sokolski.* Göstərilən əsəri səh. 100— 101.
[14] «Зarya Vostoka» qəzeti, 19 yanvar 1931-ci il.

İkinci dünya müharibəsinə qədərki illərdə muxtar respublika zəhmətkeşlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün yeni yaşayış binaları, məktəblər, xəstəxanalar, tibb məntəqələri, aşxanalar, mədəniyyət ocaqları tikintisinə böyük əhəmiyyət verilmişdi. Məhz həmin illərdə Naxçıvan, Ordubad və Culfa şəhərlərini mədəni şəhərlərə çevirmək şüarı irəli sürülmüşdü. Bu məqsədlə Naxçıvan şəhərinə içməli su kəməri çəkilmiş, kanalizasiya xətti inşa edilmiş, mehmanxana, camaşırxana, yanğından mühafizə binaları, Naxçıvançay üzərində körpü tikilmiş, hər üç şəhərdə səkilər yaraşıqlı[99-100]hala salınmış, küçələr işıqlandırılmış və abadlaşdırılmışdı.

İlk beşilliklərdə muxtar respublikanın elektrikləşdirilməsi sahəsində də müəyyən işlər görülmüşdü. Naxçıvan duz mədənlərində, Noraşen pambıq təmizləmə zavodunda elektrik stansiyaları istifadəyə verilmiş, Naxçıvan, Ordubad, Culfa şəhərlərində məişət əhəmiyyətli stansiyalar qurulmuşdu. 1932-ci ildə muxtar respublikada elektrik stansiyalarının hamısının birlikdə gücü 350 kvt-a çatdırılmış, sonrakı illərdə Naxçıvançay, Arpaçay və Vənədçay üzərində elektrik stansiyaları inşa edilmişdi.

Muxtar respublikada sənaye istehsalı sahələrinin genişləndirilməsi üçün ilk addımlar atılmışdı. Məsələn, Ordubad şəhərində yarım kustar formada fəaliyyət göstərən üç ipək fabriki birləşdirilərək müasir avadanlıqla təchiz olunmuş iri fabrikə çevrilmişdi. Təkcə bu işə 672 min manat vəsait xərclənmişdi Yenə də bu məqsədlə barama istehsalını 1100 tona çatdırmaq üçün 1500 hektar sahədə tut bağları salınmışdı. Ordubad meyvə-konserv zavodunun illik istehsal gücünü 3,4 milyon bankadan 10 milyon bankaya çatdırmaq üçün 1935-ci ilə qədər 1 milyon manat vəsait sərf olunmuşdu. Eyni zamanda zavodu sabit qaydada xammal ilə təchiz etmək üçün Ordubadda meyvəçiliyi inkişaf etdirməyə yönəldilən tədbirlər həyata keçirilmişdi. Bunlardan əlavə, muxtar respublikada tütün, şirniyyat fabriklərinin, yağ, sabun, pivə, limonad, iki şərab zavodu, ət kombinatı və bir neçə kustar müəssisə tikilərək istifadəyə verilmişdi.

Muxtar respublika sənayesinin inkişafında şose yollarının böyük əhəmiyyəti olduğu üçün həmin sahəyə diqqət xeyli artırılmışdı. Təkcə 1933 — 1937-ci illərdə dövlət vəsaiti və zəhmətkeşlərin qüvvəsi səfərbər olunmaqla 232 km şose yolları salınmışdı. Bütövlükdə isə muxtar respublikanın şəhər və kəndlərinə çəkilmiş yolların uzunluğu 430 km dən çox idi.[15] 1935-ci ildə Naxçıvan şəhərinə 12 km uzunluğunda su kəməri çəkilmişdi.[16]

Muxtar respublikanın yeraltı sərvətlərini aşkara çıxarmaq sahəsində böyük işlər görülmüşdü. Bu məqsədlə Ordubad dağlarında geoloji-kəşfiyyat işləri ge[100-101]nişləndirilmiş, dəmir, molibden, mis mərmər, kükürd, gümüş, qızıl və s. müxtəlif yeraltı sərvət yataqları aşkar edilmişdi.

Naxçıvan MR-də sənayenin dirçəldilməsi və inkişafına yönəldilmiş bütün bu tədbirlər hələ ikinci dünya müharibəsindən əvvəlki illərdə öz müsbət nəticələrini vermişdi. Məhsul buraxılışı artmış, fəhlələrin maddi mənəvi vəziyyəti xeyli yaxşılaşmışdı. 1940-cı ildə təkcə ipək fabriklərinin buraxdığı məhsulun dəyəri 4 milyon 25 min manata bərabər idi. Naxçıvan duz mədəni 45 min ton parça və 15 min ton narın xörək duzu buraxmışdı ki, bu da 20 il üçün rekord nəticə sayılırdı. Ordubad konserv zavodunun buraxdığı 15 növ əla keyfiyyətli mürəbbə və kompotlar müharibədən əvvəlki illərdə bütün ittifaqda geniş şöhrət qazanmışdı. Pambıqtəmizləmə zavodları 1940-cı ildə 11.100 ton əla keyfiyyətli məhsul təhvil vermişdilər.[17]

Yenə həmin ildə yerli sənayeni müntəzəm olaraq xammalla təchiz etmək məqsədi ilə 2 milyon 300 min manat, şərab anbarları tikmək üçün isə 350 min manat pul xərclənmişdi. Kərpic, kəc, əhəng istehsalı iki dəfə artmışdı.[18]

İyirmi il ərzində, həmçinin fəhlələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün müəyyən işlər görmək mümkün olmuşdu. Duz mədənlərində, Naxçıvan, Culfa, Ordubad şəhərlərində çoxlu yaşayış binaları tikilib istifadəyə verilmişdi.

Beləliklə, sovet hakimiyyətinin ilk 20 ilində kənd təsərrüfatında olduğu kimi, sənayedə də müəyyən irəliləyiş əldə edilmişdi. Bu dəyişikliklər indiyə qədər deyildiyi kimi, «nəhəng nailiyyətlər» olmasa da, hər halda, muxtar respublikanın o qədər də güclü olmayan sənaye bazasını bərpa etmək və genişləndirmək, müasir avadanlıqla təchiz etmək sahəsində ciddi addımlar atıldığından, daha çox iş yerləri açılmasından, fəhlələrin əmək şəraitinin yaxşılaşdırılmasından, onun məişətində baş vermiş yüksəlişdən xəbər verirdi. Bütün ittifaq dövləti miqyasında bərqərar olmuş inzibati amirlik rejimi belə bu müsbət dəyişiklikləri dayandıra bilməmişdi.[101]

---

[15] «Şərq qapısı» qəzeti, 30 dekabr 1935-ci il.
[16] Yenə orada
[17] «Kommunist» qəzeti, 27 iyul 1940-cı il
[18] Yenə orada

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MAARİFİN YAYILMASI VƏ MƏDƏNİ SƏVİYYƏNİN YÜKSƏLDİLMƏSİ

Azərbaycan kimi, onun ayrılmaz hissəsi olan Naxçıvan diyarı da Rusiya imperiyasının geridə qalmış milli ucqarlarından biri idi. Çarizmin müstəmləkəçilik siyasəti nəticəsində Naxçıvan təkcə iqtisadi cəhətdən deyil, həm də mədəni cəhətdən geri qalmışdı. Diyarın zəhmətkeş əhalisi başdan-başa savadsız idi. Üç qəzada olan 50—60 ibtidai məktəb, həmçinin, məscid və kilsə məktəbləri əsasən, bəylərin, xanların, dövlət məmurlarının və digər imkanlı şəxslərin ixtiyarında idi. Məktəblərdə ilahiyyat dərsləri əsas yer tuturdu, tədris üsulunda əzbərçilik metoduna böyük üstünlük verilirdi.

1913-cü ildə Naxçıvan diyarında məktəblərin mənzərəsi belə idi: Naxçıvan şəhərində 3 birsinifli, qəzalarda isə 19 birsinifli, 11 ikisinifli məktəb var idi; bunlardan başqa Naxçıvan və Ordubad şəhərlərində 2 erməni kilsə məktəbi, qəzalarda 17 məktəb tipli mədrəsə fəaliyyət göstərirdi. Məktəblərdə təhsil rus dilində aparılırdı. Hər qəzada təhsilin Azərbaycan dilində aparıldığı yalnız bir məktəb var idi. Bütövlükdə məktəblərin sayı 57, şagirdlərin sayı isə 2000 nəfərə çatırdı. Qızlar şagirdlərin cəmisi 10 faizini təşkil edirdi ki, bunlar da əsasən erməni və ruslardan ibarət idi. [1]

Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları şəraitində Naxçıvan məktəbləri də demək olar ki, tamamilə bağlanmış, məktəb binaları kazarmalara, xəstəxanalara və yaxud qaçqınlar üçün sığınacaqlara çevrilmişdi. 1921-ci ilin əvvəllərində cəmi 18 məktəb fəaliyyət göstərirdi.

Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra xalq təsərrüfatının bərpası illərində əhalinin savadsızlığının ləğv edilməsi və mədəni səviyyəsinin yüksəldilməsi sahəsində də nəzərə çarpacaq işlər görülmüşdü. Belə ki, hələ 1920/1921-ci dərs ilində 45 məktəb açılmış, 1921/1922-ci dərs ilində isə bunların sayı daha da artmışdı. Xal[102-103]q maarifini inkişaf etdirmək üçün müəllim kadrlarına böyük ehtiyacı nəzərə alaraq Naxçıvan Xalq Komissarları Soveti 1922-ci il sentyabrın 22-də Naxçıvan şəhərində müəllimlər seminariyası açılması haqqında qərar qəbul etmişdi. Birinci il seminariyaya 20 nəfər qəbul edilmişdi. [2]

Qadınların təhsilə cəlb edilməsi sahəsində də xeyli iş görülmüşdü. Artıq 1922/23-cü tədris ilində Naxçıvan məktəblərində 1000 nəfərə qədər qız təhsil alırdı. Həmin dərs ilində Naxçıvan şəhərində qadın pedaqoji kursu təşkil edilmiş, 40 nəfər qadın burada təhsilə cəlb olunmuşdu. [3] Qadın pedaqoji kursu 1924-cü ildə qadın pedaqoji texnikumuna çevrilmişdi. Xalqın təhsilə böyük marağını belə bir faktdan görmək olar ki, məktəblərin təşkili və təmirində kəndlilər həvəslə iştirak edirdilər. Məsələn, 1923-cü ildə Şərur qəzasından muxtar respublika rəhbərliyinə göndərilmiş teleqramlardan birində göstərilirdi ki, kəndlilər bütün məktəbləri öz qüvvələri ilə təmir etməyi və tarla işləri zamanı şagirdləri məktəbdən ayırmamağı öhdələrinə götürürlər.[4] III Ümumnaxçıvan Sovetlər qurultayındakı hesabat məruzəsində göstərilirdi ki, məktəblərin təşkili və təmirinin 50 faizdən çoxu kəndlilərin hesabına olmuşdur. Qeyd edək ki, 1922/23-cü dərs ili zamanı yeni məktəblərin yaradılmasında din xadimlərinin də fəal iştirak etmək cəhdləri nəzərə çarpır. Lakin bu məktəblər əlbəttə, daha çox şəriətin əsaslarını öyrədirdi və «sosializm cəmiyyətinin prinsiplərinə» cavab vermirdi. Buna görə də Naxçıvan Xalq Komissarları Soveti özünün 22 sentyabr 1922-ci il tarixli qərarı ilə belə məktəblərin yaradılmasını əslində qanundan kənar vəziyyətdə qoymuşdu. [5]

Bununla belə, xalqın maariflənməsinə dövlət qayğısı hər addımda özünü hiss etdirirdi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə 1923/1924-cü tədris ilində Naxçıvan MR məktəbliləri dövlət fondu hesabına pulsuz dərs vəsaiti ilə təmin olunmuşdular.

1922-ci ilin martında çağırılan Naxçıvan müəllimlərinin birinci qurultayında təlim-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq və ilk növbədə savadsızlığı ləğv etmək məsələləri müzakirə edilmişdi.[103-104]

1922-ci ildə muxtar respublikanın qəzalarında 70 savadsızlığı ləğv etmək kursu təşkil olunmuş, qadınların savadsızlığını ləğv etmək üçün təkcə Naxçıvan şəhərində 10 dərnək yaradılmışdı.

1922-ci ilin aprelində «Şərq qapısı» qəzetinin çap olunmasına başlandı. Bundan əlavə Naxçıvan dövlət dram teatrı, azərbaycanlı qadınlar üçün klub açılmış, qəzalarda qiraət komaları, klubları təsis olunmuşdu. [6]

---

[1] Naxçıvan MDA, f. 2, siy. 2, qov. 12, vərəq 1—15
[2] Naxçıvan MDA, f. 1, siy 4 qov. 2/60, vərəq 1
[3] Azərb. OİA, f. 2004, siy. 1,' iş 11 vərəq 10-11
[4] Naxçıvan MDA, f. 2, siy 1, qov.17, vərəq 2
[5] Naxçıvan MDA, f. 1, siy 4 qov. 2/60, vərəq 3
[6]Naxçıvan MDA, f. 40, siy. 1, qov. 21/3, iş 2, vərəq 1 — 10

Məktəbləri müəllim kadrları ilə təmin etmək məqsədilə 1923-cü ilin yay tətili zamanı iki aylıq müəllimlər kursu təşkil edilmiş və qısa müddətdə burada 40 nəfər müəllim hazırlanmışdı.

Qeyd olunmalıdır ki, oğlan uşaqlarının təhsilə cəlb olunmasına böyük həvəslə yardım göstərən kəndlilər din xadimlərinin təbliğatının təsiri altında qızların təhsil almasına maneçilik göstərirdilər. Məsələn, Ordubadda mollaların təbliğatı nəticəsində qızlar məktəbdən uzaqlaşmışdılar. [7]

Müəllim kadrlarının tərkibi də məktəb işini yaxşılaşdırmağa imkan vermirdi. Bunu belə faktdan da görmək olar ki, pedaqoji təhsil görmüş şəxslər muxtar respublikada müəllimlərin yalnız 4—5 faizini təşkil edirdi. [8]

Bu ehtiyacı qismən də olsa, ödəmək məqsədilə 1925-ci il-də Naxçıvan şəhərində axşam pedaqoji texnikumu açılmış, Gəncə və Qusar şəhərlərində açılmış üçaylıq müəllimləri təkmilləşdirmə kurslarına bir qrup müəllim ezam olunmuşdu.

Məktəblərin yaradılması ilə yanaşı, savadsızlığı ləğv etmək işlərini sürətləndirmək məqsədilə daha 120 yerdə dərnək təşkil edilmiş və bu dərnəklərə 3055 nəfər cəlb olunmuşdu. Muxtar respublikada, həmçinin, 12 yerdə qiraət komaları və 6 klub açılmışdı. Qadınların savadsızlığı ləğv etmək kurslarına marağını artırmaq məqsədilə Naxçıvan və Ordubad şəhərlərində qadın klubları nəzdində paltar və tikiş dərnəkləri də təşkil olunmuşdu. 1925-ci ilin fevralında keçirilmiş IX Ümumnaxçıvan Sovetlər qurultayında qeyd edilirdi ki, 1923—1924-cü illərdə muxtar respublikada 3 ikinci dərəcəli məktəb—Ordubad müəllimlər seminariyası, Naxçıvanda qeyri millətlər[104-105] (rus, erməni) üçün seminariya və Naxçıvan qadın seminariyası, 45 məktəb fəaliyyət göstərmişdir. Bu məktəblərdə oxuyanların mütləq əksəriyyətini (6 nəfər azərbaycanlı və 10 nəfər erməni qızı istisna edilməklə) oğlanlar təşkil etmişdi. Xalq maarifinin vəziyyətini yaxşılaşdırmaq üçün görülmüş tədbirlər nəticəsində artıq 1925-ci ildə məktəbləri sayı 61-ə, şagirdlərin sayı isə 5200-ə çatdırılmışdı. Məktəblərdə dərs deyən 161 nəfər müəllimdən yalnız ikisi institut təhsili almışdı. [9] Qadın müəllimlərindən 1 nəfəri Bakıda qadın pedaqoji məktəbini bitirmiş, qalanları isə Naxçıvan qadın məktəbində 10 aylıq kursları bitirmişdilər.

Onu da qeyd edək ki, 1924-cü ilə qədər Naxçıvan MR məktəblərinin böyük əksəriyyəti üçün heç bir avadanlıq alınmamışdı. Şərur qəzasında şagirdlər torpaq döşəmə, Naxçıvan, Ordubad qəzalarında isə həsir üstündə dərs keçirdilər. Azərbaycan SSR Xalq Maarif Komissarlığı Naxçıqvanda maarif işinin ehtiyaclarını nəzərə alaraq ora 5 vaqon taxta göndərmişdi. Naxçıvan şəhərində həmin taxtalardan 800 skamya, 100 sinif lövhəsi, 100 taburet hazırlayaraq məktəblərə göndərmişdilər. Azərbaycan SSR Maarif Komissarları xətti ilə 1924-cü ildə Naxçıvana daha 200 ədəd parta göndərilmiş, muxtar respublikanın bütün məktəbliləri dövlət vəsaiti hesabına dərsliklərlə təmin edilmişdi.

Muxtar respublikada maarif və mədəniyyətin yayılmasında Naxçıvan teatrı da mühüm rol oynamışdır. Savadsızlığa, cəhalətə, nadanlığa, qadın əsarətinə qarşı mübarizə ilk olaraq elə teatr səhnəsindən başlanmışdır. 1923-cü ildə Naxçıvan teatrının bərbad vəziyyətdə olan binası bərpa edilmiş və teatra dövlət dram teatrı adı verilmişdi. 1923-cü ilin iyulunda A. Ş. Şərifzadə, 1924-cü ildə isə Kazım Ziya Naxçıvana dəvət edilmiş, onların hər ikisinin Naxçıvan dövlət dram teatrının fəaliyyətinin güclənməsində, repertuarının yaxşılaşmasında çox böyük əməyi olmuşdur. Teatrın işlərini canlandırmaq üçün maarif komissarlığı hər ay 200 manat vəsait sərf edirdi.

IV Ümumnaxçıvan Sovetlər qurultayı muxtar respublikada xalq maarifinin və mədəni-kütləvi işlərin canlandırılmasına həsr olunmuş geniş qərar qəbul etmişdi. Qərarda Azərbaycan SSR rəhbərliyindən xahiş edilirdi ki, [105-106]ən azı 10 məktəb binasının tikilib istifadəyə verilməsinə kömək etsin, Naxçıvanda Azərbaycan kino idarəsinin şöbəsinin açılması və Naxçıvan uşaq evinin emalatxana ilə təmin edilməsi üçün tədbirlər görülməsində öz yardımını əsirgəməsin. Qurultay, həmçinin, Naxçıvanda kənd təsərrüfatı texnikumu və yay tətili zamanı müəllimləri təkmilləşdirmə kursu açmağı, latın əlifbasına keçilməsinə hazırlığı gücləndirməyi Naxçıvan MR maarif komissarlığı qarşısında mühüm vəzifə kimi qoymuşdu.[10]

Naxçıvan MR-də maarif və Mədəniyyətə göstərilən qayğı tez bir zamanda öz müsbət nəticələrini verdi. Artıq 1925 - 26-cı dərs ilində müəyyən irəliləyişlər əldə edildi. Bir il ərzində muxtar respublika məktəblərinin 75 faizi qismən təmir olunmuş, 19 məktəbdə isə əsaslı təmir işləri başa çatdırılmışdı. Məktəblərin sayı 80-ə, şagirdlərin sayı isə 5766 nəfərə çatmışdı ki, bunlardan da 1214 nəfərini qızlar təşkil edirdi. İki pedaqoji texnikumda 172 nəfər təhsil alırdı ki, bunlardan da 120 nəfəri pansion hesabına idi.

---

[7] *H. Sultanov.* Göstərilən əsəri, s 89
[8] Yenə orada. səh. 87 — 95
[9] Naxçıvan MDA, f. 2, siy, 1, qov. 16, iş 17, vərəq 2 — 9.
[10] Naxçıvan MDA, f. 2, siy, 1, qov. 16, iş 17, vərəq 12

1926-cı ildə Naxçıvan şəhərində yaradılmış kənd təsərrüfatı texnikumuna 60 nəfər tələbə qəbul edilmişdi. Naxçıvan və Ordubad şəhərlərində əsasən müharibə vaxtı valideynlərini itirmiş uşaqlar üçün uşaq evləri açılmışdı. Naxçıvan, Ordubad və Culfa şəhərlərində, həmçinin, uşaq bağçaları fəaliyyətə başlamışdı.

1926-cı ildə Naxçıvanda radio qovşağı və səyyar kino qurğusu işə salınmışdı.

Maarif və mədəniyyətin yüksəlişi yolunda atılmış bu ilk uğurlu addımlar sonrakı illərdə də həmin işi müvəffəqiyyətlə davam etdirməyə imkan vermişdi. Bu deyilənlər xeyli dərəcədə 1928/29-cu dərs ilinə də aid olmuşdur. Həmin dərs ilində Naxçıvandakı kişi və qadın pedaqoji məktəbləri birləşdirilib, vahid pedaqoji texnikuma çevrilmişdi. Həmin ildən ibtidai və yeddiillik məktəblər sistemə keçilməsi ilə əlaqədar olaraq fizika-kimya kabinələri ilə təchiz olunmuş 8 yeddiillik məktəb yaradılmış, 5 yeni məktəb binası tikilib istifadəyə verilmişdi. Bu illərdə xalq maarifinə qoyulan vəsaitin ildən-ilə artması diqqəti cəlb edir. Əgər 1925/26 cı dərs ilində xalq maarifinin ehtiyacları üçün 250046 manat vəsait ayrılmışdısa, həmin rəqəm artaraq 1928-29-cu dərs ilində 474363 manat, [106-107] 1930-31-ci dərs ilində isə 1.235500 manat olmuşdu.[11] 1930/ 31-ci dərs ilində dövlət hesabına 20 məktəb binası, əhalinin qüvvəsi ilə isə daha 45 sinif otağı tikilib istifadəyə verilmişdi. Həmin dərs ilində məktəblərin sayı 98-ə siniflərin sayı 478-ə, şagirdlərin sayı 10441 nəfərə çatmışdı ki, bunlardan da 2619 nəfəri qızlar idi.

Həmin illərdə Naxçıvan MR-də latın qrafikasına əsaslanan yeni əlifbanın öyrənilməsi sahəsində də böyük işlər görülürdü. Muxtar respublikada yeni əlifbanın öyrənilməsinə 1924—1925-ci illərdən başlanmışdı. Lakin həyat bu işin daha da sürətləndirilməsi vəzifəsini irəli sürdü.

1928-ci il iyulun 21-də Azərbaycan SSR MİK və Azərbaycan XKS-nin «Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiqi haqqında» qərarı dərc edildi. 1928-ci il avqustun 23-də isə Azərbaycan kənd sovetlərinə, dairə və qəza icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırıldı ki, kənd sovetlərinin, dairə və qəza icraiyyə komitələrinin yeni, türk əlifbasını bilməyin bütün işçilərini uçota alsınlar, kargüzarlığı yeni əlifbaya keçirmək üçün komissiyalar yaratsınlar. Beləliklə, 1928-ci ildən sonra yeni əlifbanın öyrənilməsi savadsızlığın ləğv edilməsi ilə yanaşı həyata keçirilməyə başlandı.

Məlum olduğu kimi, 1930-cu il iyulun 23-də SSRİ-də «Ümumi icbari ibtidai təhsil haqqında» qərar qəbul edilmiş və həmin qərara əsasən 8 yaşından 15 yaşınadək uşaqların icbari qaydada ümumi ibtidai təhsilə cəlb olunacaqları zəruri sayılmışdı.

Azərbaycan SSR-də belə bir qərar 1930-cu il avqustun 20-də qəbul edilmişdi. Azərbaycan K/b/P MK və Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən qəbul edilmiş həmin qərarda deyilirdi: 1930/31-ci dərs ilindən etibarən Azərbaycanda ümumi icbari ibtidai təhsilə başlanılsın və bu məqsədlə 8—10 yaşlı bütün uşaqlar təhsilə cəlb edilsin. Ümumi ibtidai təhsili olmayan 12—16 yaşlı bütün yeniyetmələr icbari qaydada oxudulsun və onlar üçün yeni təhsil formaları 1—2 illik kurslar təşkil edilsin.[12]

Naxçıvan MR üçün müvafiq qərar 1930-cu il sentyabrın 7-də qəbul edilmişdi. Qərarda savadsız əhalinin xalq maarifinə cəlb edilməsi və yeni əlifbaya keçilməsi ilə əlaqədar vəzifələr göstərilmiş, ilk növbədə savadsız əha[107-108]lini siyahıya almaq üçün konkret tədbirlər müəyyən edilmişdi.

1931-ci ilin əvvəllərində əldə edilmiş siyahıya görə muxtar respublikada savadsızların sayı 53,112 nəfər olmuşdu. 1931—32-ci dərs ilində 8—11 yaşlı yeniyetmələrin 92,2 faizi təhsilə cəlb edilmişdi. Lakin qızların məktəblərə cəlb edilməsi işi yenə əvvəlki illərdə olduğu kimi ləng gedirdi. Bunu belə bir rəqəmdən də aydın görmək olar ki, 1933-cü ilin əvvəlində Naxçıvan məktəblərində oxuyan 25,8 min nəfər şagirddən yalnız 25 faizini qızlar təşkil etmişdi.[13]

Əhalinin savadsızlığını ləğv etmək sahəsində də görülən işlər xeyli geniş miqyas almışdı. 1931/32-ci dərs ilində 40 min nəfər savad məktəblərinə cəlb olunmuşdu.[14] 1935-ci ildə savadsızlığı ləğv etmək sahəsində daha böyük işlər görülmüşdü. Əlbəttə, bütün bu işlər xeyli dərəcədə Azərbaycanda və Naxçıvan MR-də Sovet hakimiyyəti qurulmasının on beşinci ildönümünə həsr olunub müəyyən mənada kampaniya xarakteri daşısa da, əldə edilən nəticələr baxımından əhəmiyyətsiz sayıla bilməzdi. Həmin ildə «Savadsızlığı ləğv edək», «Məhv olsun savadsızlıq» şüarları irəli sürülmüş, şəhər və kəndlərdə. ictimaiyyətin fəal iştirakı ilə savad kursları təşkil edilmişdi. Bu tədbirlər tezliklə öz müsbət nəticəsini vermişdi. Belə ki, 1935-ci ilin sonunda muxtar respublikada cəmisi 18000 min nəfər savadsız adam qalmışdı. Mədəni quruculuq işlərinin digər sahələrinə də diqqət artırılmış, kadr hazırlığı güclənmişdi. Pedaqoji, tibb, kənd təsərrüfatı və heyvandarlıq texnikumlarında 559 nəfər

---

[11] Azərb. OİMDA, f. 379, siy. 16, iş 74, vərəq 3.
[12] MLİ Azərbaycan filialının arxivi, f. 1, siy. 235, iş 363, vərəq 1.
[13] Социалистическое строительство в Нах. ССР. Экономико-статический бюллетень азербайджана.14/4, стр. 100-105.
[14] Naxçıvan MDA, f. 1, siy. 1, qov. 142/38, iş 55, vərəq 4-6.

tələbə, iki fabrik-zavod məktəblərində 175 şagird və o dövrdə xüsusi dəbdə olan partiya məktəbində isə 120 nəfər müdavim təhsil alırdı.[15]

1935-ci ildə muxtar respublikada 4740 uşağın tərbiyə aldığı 132 körpələr evi və uşaq bağçası fəaliyyət göstərir, 52 müxtəlif ictimai-siyasi, mədəni-maarif müəssisəsi, o cümlədən bir dövlət dram teatrı, 4 kino, 4 respublika və rayon qəzeti, qadın klubu, çoxlu kitabxana, qiraət komaları əhalinin mədəni səviyyəsinin yüksəldilməsinə xidmət edird[108-109]i.

Müharibədən əvvəlki illərdə muxtar respublikada bacarıqlı və işgüzar kadrlar hazırlığına diqqət artırılmışdı. Bu məqsədlə ittifaqın müxtəlif universitet ali məktəb və texnikumlarında muxtar respublika üçün kadrlar hazırlanması işi genişlənmişdi. Təkcə 1935-ci ildə muxtar respublikadan təhsil almaq üçün Moskva, Leninqrad Tiflis, Bakı, Gəncə şəhərlərinə 130 nəfər göndərilmişdi ki, bu da müharibədən əvvəlki illər üçün bir növ rekord ili sayıla bilər.[16]

Müharibədən əvvəlki illərdə muxtar respublikada maarif və mədəniyyətin maddi bazasının güclənməsini, ilk növbədə, ora ayrılan vəsaitdən də görmək olar. Əgər 1933-cü ildə bu məqsədlə 3848000 manat, 1935-ci ildə 4446460 manat vəsait ayrılmışdırsa, 1937-ci ildə bu rəqəm 10 milyon manat olmuşdu.[17]

1921-ci il və 1937-çi illərdə Naxçıvan MR-də xalq maarifinin inkişafı və savadsızlığı ləğv etmək sahəsində əldə edilmiş nailiyyətləri illər üzrə izləməkdə zənnimizcə, aşağıdakı cədvəldən istifadə edilə bilər:

| Dərs illəri | Məktəb-lərin sayı | Siniflərin Sayı | Şagird-lərin sayı | Müəllimlə-rin sayı | O cümlədən, qadın mü-əllimlərin sayı | Savad kursları-nın sayı | Müda-vimlərin sayı |
|---|---|---|---|---|---|---|---|
| 1921/22 | 58 | 144 | 4361 | 86 | 2 | 16 | 263 |
| 1924/25 | 75 | 210 | 6573 | 154 | 4 | 58 | 1658 |
| 1928/29 | 78 | 309 | 9298 | 250 | 64 | 125 | 2701 |
| 1930/31 | 98 | 476 | 10441 | 277 | 72 | 631 | 17181 |
| 1934/35 | 164 | 981 | 23180 | 544 | 85 | - | - |
| 1935/36 | 173 | 842 | 23311 | 575 | 91 | 601 | 15017 |
| 1936/37 | 177 | 948 | 24205 | 733 | 173 | 603 | 21126 |

Göstərilən illərdə Naxçıvan Dövlət Dram Teatrının keçmiş olduğu maraqlı yaradıcılıq yolunda bəzi yadda qalan anlar üzərində dayanmaq həmin teatrın muxtar respublikanın mədəni həyatındakı misilsiz rolunu vurğulamaq mənasında əhəmiyyətli görünə bilər. Məsələn, 1928-ci il martın 8-də böyük dramaturq C. Cabbarlının «Sevil» pyesi ilk dəfə tamaşaya qoyulmuşdu. Sevilin taleyi yüzlərlə qadının taleyini real və inandırıcı əks etdirdiyindən böyük əks-səda doğurmuşdu. Xüsusilə üçüncü pərdədə Sevil çadra[109-110]sını Balaşın üzünə çırpdığı zaman, tamaşa salonundakı qadınlar da «Məhv olsun çadra» deyərək çadralarını səhnəyə tullamağa başlamışdılar.

Tamaşa qurtardıqda teatrdan çıxan qadınların bəziləri çadrasız evlərinə getməkdən qorxaraq çadralarını geri almışdılar. Lakin 85 çadra səhnədə qalmış və teatr rəhbərliyinin göstərişi ilə geyim sexinə təhvil verilmişdi. Bu hadisə muxtar respublikanın ictimai həyatında böyük təbəddülata səbəb olmuş, qadınların öz hüquqları uğrunda mübarizəyə daha fəal surətdə qoşulmasında mühüm rol oynamışdı.[18]

Naxçıvan Dövlət Dram Teatrının işini yenidən qurmaq və əhaliyə mədəni xidmət göstərilməsini daha da yaxşılaşdırmaq məqsədi ilə 1932-ci ildə görkəmli səhnə ustası Sidqi Ruhulla Naxçıvana dəvət edilərək teatrın direktoru və baş rejissoru təyin olunmuşdu. Teatrın işini yenidən qurmaqla çoxlu gənc istedadı səhnəyə çıxaran S. Ruhulla qısa müddətdə muxtar respublika zəhmətkeşlərinin böyük rəğbətini qazanmışdı. Azərbaycan teatrının 60 illiyi münasibətilə S. Ruhullanın 1933-cü il mayın 3-də Naxçıvan MSSR MİK-in fəxri fərmanı ilə təltif olunması və ona Azərbaycan SSR xalq artisti adı verilməsi haqqında Azərbaycan SSR MİK qarşısında məsələ qaldırılması isə bu böyük etimadın təcəssümü olmuşdu.[19]

---

[15] Naxçıvan MDA, f. 1, siy. 1, qov. 142/38, iş 55, vərəq 4—6
[16] «Şərq qapısı» qəzeti, 15 avqust 1935-ci il
[17] Naxçıvan MDA, f. 40, siy. 1, qov. 331/474, iş 22, vərəq 1 — 32.
[18] Ə *Xəlilov*. Naxçıvan teatrının tarixi Bakı. 1964, səh 47
[19] Naxçıvan MDA, f. 40. siy. 1, qov. 271/17 iş 16, vərəq 8.

«Şərq qapısı» qəzeti Naxçıvan teatrının keçdiyi şərəfli yaradıcılıq yolundan bəhs edərkən yazmışdı: «Naxçıvan teatrının keçmişdəki vəziyyəti artıq geridə qalmış və bu müəssisə artıq mədəni inqilab ocağına çevrilmişdir».[20]

1933— 1934-cü illərdə Naxçıvan MTS-i yanında siyasi şöbənin orqanı olan «Sürət» qəzetinin redaktoru işləmiş görkəmli Azərbaycan yazıçısı Mirzə İbrahimovun «Həyat» pyesi də ilk dəfə Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulmuşdu. Az bir müddətdə, tamaşaçılar tərəfindən daim alqışlarla qarşılanan «Həyat» pyesinin 25 dəfə tamaşası göstərilmişdi.[21]

1938-ci ildə muxtar respublikada maarif və mədəniyyətin inkişafında xüsusilə mühüm uğurlar qazanılmışdı. Həmin ildə məktəblərin sayı 183-ə, şagirdlər və tələbələrin sayı 30 minə, müəllimlərin sayı 721 nəfərə çatmış, 17 mək[110-111]təb binasının tikilməsi başa çatdırılmışdı. 1938-ci il-də Naxçıvan şəhərində musiqi məktəbi açılmış, şəhər və kəndlərdə 15 özfəaliyyət dərnəyi təşkil olunmuşdu. İlin təkcə birinci rübündə Naxçıvan teatrı zəhmətkeşlər üçün 15 dəfə pulsuz tamaşalar göstərmişdi. Kino binalarının tikintisinə 230800 manat xərclənmişdi.

1938-ci ildə muxtar respublikada 28 klub, II kitabxana, iki mədəniyyət evi, 2 pioner evi fəaliyyət göstərirdi. Həmin ildən M. F. Axundovun adını daşıyan Naxçıvan Dövlət Dram Teatrı maraqlı tamaşaları ilə xalqın dərin rəğbətini qazanmış, 1938—1941-ci illərdə teatrın maliyyə və təsərrüfat vəziyyəti xeyli yaxşılaşmış, 1940-cı ildə teatrın büdcəsi I milyon manat olmuşdu. Teatrın repertuarı zənginləşmiş, onun səhnəsində V. Şekspirin «Otello», S. Vurğunun «Vaqif», S. Rüstəmin «Qaçaq Nəbi», **Ç.** Cabbarlının «Od gəlini», «Yaşar», «Aydın», Ü. Hacıbəyovun «Ər və arvad» i. a. əsərlər tamaşaya qoyulmuşdu.[22]

Əlbəttə, 1920—1940-cı illərdə Naxçıvan MR-də mədəni quruculuq sahəsində görülmüş işlər xüsusi tədqiqat mövzusudur. Bu mənada haqqında danışılan məsələlər ətrafında daha çox fakt və rəqəmlər göstərmək mümkündür. Lakin elə burada verilmiş məhdud sayda nümunələr də həmin illərdə muxtar respublikada əhalinin mədəni səviyyəsinin yüksəldilməsi üçün böyük işlər görüldüyünü söyləmək üçün kifayət edər. Bütün bunlar onu göstərirdi ki, Naxçıvanda sosializm quruculuğu adlanan dövrdə xalqın dinc həyat sürməsi və təsərrüfatı dirçəltməsi ona özümün maariflənmə və mədəni yüksəliş məsələlərinə də xeyli diqqət yetirmək imkanı vermiş və həmin sahələrdə ardıcıllıqla həyata keçirilən tədbirlər, ən nəhayət, fakt və rəqəmlərdən də göründüyü kimi, uğurlu nəticələr vermişdi.

Əhalinin sağlamlığının qorunmadığı bir ölkədə onun mədəni səviyyəsinin yüksəlməsindən danışmaq zənnimizcə, o qədər də uğurlu çıxmaz. Atalar «sağlam ruh sağlam bədəndə olar» demişlər. Bu mənada 1920—1940-cı illərdə Naxçıvanda səhiyyənin vəziyyəti ilə əlaqədar bəzi məlumatlar verməklə həmin, sahədə də görülmüş işlər barədə oxucuda müəyyən. təsəvvür yaratmaq, heç şübhəsiz, mədəni səviyyənin yüksəldilməsi mövzusunun daha yaxşı qavranılmasına kömək edər. [111-112]

1920-ci ilə qədər Naxçıvanda səhiyyə işlərinin vəziyyəti belə idi: diyarda hər biri cəmi 20 çarpayılıq iki xəstəxana (Noraşen və Cənnəbdə), həmin kəndlərdə və Naxçıvan şəhərində 3 ambulatoriya fəaliyyət göstərirdi. Bunlardan əlavə Xanlıqlar, Cəhri, Əbrəqunis kəndlərində feldşer məntəqələri, Naxçıvan və Ordubad şəhərlərində aptek, üç yerdə isə təcili yardım məntəqələri yaradılmışdı. Üç qəzanın əhalisinə xidmət edən həkimlərin sayı cəmisi üç nəfər idi. Adi sanitar-gigiyena qaydalarına əməl olunmurdu. Müharibənin törətdiyi dağıntılar nəticəsində yaşayış evlərinin çatışmaması, Şərur və Naxçıvan qəzalarında içməli suyun olmaması, hamamların uçulub dağılması, ərzaq qıtlığı, isti geyimin olmaması və sərt təbiət xəstəliklərin yayılmasını sürətləndirirdi. Taun, vəba, qoturluq, qızdırma, traxoma xalqı taqətdən salmışdı. Arazboyu kəndlərdə vəziyyət daha ağır idi. Heç də təsadüfi deyildi ki, Naxçıvan İnqilab Komitəsi 1921-ci ilin aprelində Azərbaycan, Ermənistan İnqilab Komitələrinə, RSFSR Xarici İşlər Nazirliyinə, Ümumrusiya Qırmızı Xaç Cəmiyyətlərinə məktublar göndərərək diyarın əhalisinə təcili yardım göstərilməsini xahiş etmişdi.

Yeri gəlmişkən, hələ 1920-ci ilin avqustunda Azərbaycan İnqilab Komitəsinin sədri N. Nərimanovun göstərişi ilə xəstələri və yaralıları müalicə etmək məqsədilə bir qrup tibb işçisi ADU-nun ordinatoru Mustafabəy Topçubaşov başda olmaqla Naxçıvana göndərilmişdi. RSFSR Xalq Komissarları Soveti isə 1920-ci il sentyabrın 20-də Naxçıvana 100 min pud buğda və bir vaqon səhiyyə avadanlığı, habelə dərman göndərilməsi barədə qərar qəbul etmişdi.[23]

Naxçıvan ərazisində hərbi əməliyyatları dayandırılması və qismən siyasi sabitliyin əldə edilməsi hələ 1921-ci ildə əhalinin cansağlığını qorumaq sahəsində müəyyən işlər görməyə imkan verdi. Naxçıvan şəhərində

---

[20] «Şərq qapısı» qəzeti, 5 oktyabr 1934-cü il.
[21]Yenəorada. 11 dekabr 1934-cü il.
[22] MLİ Azərbaycan filialının arxivi; f. 95,-siy. 4,. iş 79, vərəq 127; «Şərq qapısı» qəzeti, 22 sentyabr, 1939.-cu il
[23] Naxçıvan MDA, f. 314, s. 5, qov. 16. iş 15, vərəq 23.

20 çarpayılıq xəstəxana açıldı, onun nəzdində isə ambulatoriya, aptek təşkil edildi. Ordubadda, Baş Noraşendə feldşer məntəqələri fəaliyyətə başladı.[24]

1924-cü ildə Naxçıvan Səhiyyə Komissarlığının təşkili muxtar respublikada müalicə-sağlamlıq işlərini planlı qaydada qurmaqda mühüm rol oynamışdı. Bunun da nəticəsində əhaliyə səhiyyə xidməti 1924-cü ildə 1923-cü ilə nis[112-113]bətən xeyli yaxşılaşmış və bir il ərzində 67180 adama səhiyyə xidməti göstərilmişdi. Təkcə Naxçıvan şəhərində xəstələr 36 min dəfə yardım almışdılar.[25]

Azərbaycan SSR Xalq Komissarları Soveti 1925-ci ilin martında Naxçıvan şəhərində yerləşən hərbi kazarmanın təmir edilərək xəstəxanaya çevrilməsi haqqında qərar qəbul etmişdi. Bina təmir edildikdən sonra orada 150 çarpayı yerləşdirilmişdi. Ayrı-ayrı şəhərlərdən Naxçıvana dəvət olunmuş 20 nəfər həkimdən 9-u 1925-ci ilin iyuluna qədər Naxçıvana gəlib işə başlamışdılar.[26]

Muxtar respublikada 1925-ci ildə 5 ambulatoriya, Şərurda və Naxçıvanda malyariya stansiyaları təşkil olunmuş, Naxçıvanda diş həkimliyi və bakterioloji kabinələr açılmışdı. Naxçıvan şəhərində təşkil olunmuş uşaq məsləhətxanasına müraciət edənlər pulsuz dərman və südlə təmin olunurdular.[27] 1925-ci ilin təkcə 9 ayı ərzində xəstələrə 149872 dəfə yardım göstərilmişdi. Əgər həmin dövrdə muxtar respublikada cəmisi 115—120 min nəfər əhali yaşadığı nəzərə alınarsa, o zaman aydın olar ki, göstərilən müddətdə hər vətəndaşa bir yarım dəfə yardım göstərilmişdi. Bu müvəffəqiyyətin çox çətin bir şəraitdə, yəni yolların pisliyi, rabitə xidmətlərinin olmaması, tibb məntəqələri binalarının adi səhiyyə-gigiyena tələblərinə cavab vermədiyi bir vəziyyətdə əldə edildiyi nəzərə alınarsa, onun əhəmiyyəti iki qat artmış olar.

1928-ci ildən etibarən muxtar respublikanın səhiyyə xidmətində nisbətən dönüş yaratmaq mümkün olur. Həmin ildə səhiyyə məntəqələri və xəstəxanaların sayı 32-yə, həkim, feldşer və başqa xidmətçilərin sayı isə 195-ə çatır. Həkimlərdən 32 nəfəri ali təhsilli idi. Rayonların hamısında həkimlərin rəhbərliyi altında sanitar komissiyaları yaradılmışdı. Məktəblərə təhkim olunmuş tibb işçiləri hər ay məktəblilərin sağlamlığını yoxlayırdılar. 1930—1932-ci illərdə Ordubadda 72 nəfərlik, Noraşendə 32 nəfərlik, Şahbuz, Əbrəqunis, Azada hər birində 16 nəfərlik, Bünyadzadə adına pambıqçılıq və Böyükdüz qoyunçuluq sovxozlarında hər biri 10 çarpayılıq xəstəxanalar tikilib istifadəyə verilmişdi. Malyariya xəstəliklərinin kökünü kəsmək üçün Şərur və Naxçıvan rayonlarında bataqlıqlar, gölməçələr, çəltik zəmiləri dərmanlanmış,[113-114] xəstələrin birbaşa yerlərdə müayinə və müalicəsinə başlanmışdı.

1929—1932-ci illərdə muxtar respublikada həkim məntəqələrinin, xəstəxanalarda çarpayıların, uşaq bağçalarının sayı iki dəfə artmışdı. Tibb kadrlarına olan böyük ehtiyacı ödəmək məqsədilə Naxçıvan şəhərində 1931-ci ilin sentyabrında tibb texnikumu açılmışdı.[28]

Naxçıvan MR-də səhiyyəni yenidən qurmaq sahəsində görülmüş işlər 1931-ci ilin aprelində Naxçıvanda baş vermiş güclü zəlzələnin ağır nəticələrini aradan qaldırmaqda mühüm rol oynamışdı. Həmin məqsədlə muxtar respublikaya göstərilən maliyyə yardımının müəyyən hissəsi hesabına Ordubad, Əbrəqunis, Şahbuz rayonlarında xəstəxana, hamam, körpələr evi üçün binalar tikilmiş, Moskvadan, Tbilisidən, Bakıdan Naxçıvana gəlmiş həkim briqadalarının qüvvəsindən əhaliyə səhiyyə xidmətini yaxşılaşdırmaq üçün istifadə edilmişdi.

1933—1940-cı illərdə də Naxçıvan MR-də səhiyyənin inkişafında xeyli irəliləyiş əldə edilmişdi. Bir sıra xəstəliklər və onları törədən mənbələr ləğv edilmiş, şəhər və kəndlərdə səhiyyə xidmətinin səviyyəsi xeyli yüksəlmişdi. Artıq 1936-cı ildə 120-dən çox orta təhsilli, 36 ali təhsilli həkim muxtar respublika əhalisinin cansağlığı keşiyində dayanmışdılar. Öz növbəsində səhiyyə işlərinin nisbətən qaydaya salınması muxtar respublikada mədəni quruculuq işlərinin ümumi səviyyəsini yüksəltməkdə mühüm amilə çevrilmişdi.

1940-cı ildə muxtar respublikada savadsızlıq tamamilə ləğv edilmişdi. 217 ümumtəhsil, 2 kolxoz üçün kadrlar hazırlayan məktəblərdə, 1 musiqi, 1 tibb və 2 kənd təsərrüfatı texnikumu və Müəllimlər İnstitutunda 32 min nəfər şagird və tələbə təhsil alırdı. 200-ə qədər savad, axşam və qiyabi məktəblərində yaşlı əhali təhsil alırdı. Respublikanın şəhər və kəndlərindəki 150-yə qədər uşaq bağçası, körpələr evi və sağlamlıq düşərgələrində 4500 nəfər yeni yetmə təhsil alırdı.

Beləliklə, arxiv sənədlərini, onlardakı fakt və rəqəmləri ötəri də olsa, nəzərdən keçirərkən ikinci dünya müharibəsindən, xüsusilə də, SSRİ-nin bilavasitə, müharibəyə cəlb edildiyi 1941-ci ildən əvvəlki dövrdə Naxçıvan Muxtar Respublikasında xalq təsərrüfatının bərpası, inkişafı, onun əhalisinin maariflənməsi, mədəni yüksəlişi yolunda şəksiz müvəffəqiyyətlərin əldə edilməsinin şahidi oluruq. Əlbəttə, bu müvəffəqiyyətlər əhalinin məruz qaldığı çoxlu məhrumiyyətlərsiz baş verərdisə, şübhəsiz, əsl nailiyyət sayıla bilərdi. Lakin

[24] *N. Sokolski,* Göstərilən əsəri, s. 143.
[25] Naxçıvan MDA, f. 2, siy. 1. qov. 16, iş 17. vərəq 9 — 11
[26] Yenə orada, iş 1, vərəq 8 — 17.
[27] Yenə orada, f. 63, siy. 1, qov. 15/3, iş 16, vərəq 17
[28] Naxçıvan MDA, f. 63, siy. 2. qov.  iş 40. vərəq 45-46.

Kommunist Partiyasının şəriksiz diktaturası şəraitində baş vermiş çoxlu haqsızlıqlar, əhalinin çəkdiyi ağrılı-acılı sıxıntılar həmin müvəffəqiyyətlərin çox baha başa gəldiyindən xəbər verir və bununla da onların mənəvi dəyərini xeyli azaldır, bizi «20 ildən artıq davam etmiş dinc quruculuq şəraitində daha böyük irəliləyişə nail olmaq mümkün idi» fikrinə gətirib çıxarır.[114-115]

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

30-cu illərin sonlarında beynəlxalq vəziyyətin kəskinləşməsi təhlükəli şəkil aldı. 1939-cu il sentyabrın 1-də isə faşist Almaniyasının Polşaya hücumu ilə əlaqədar İkinci dünya müharibəsi başlandı. Bundan bir qədər əvvəl avqustun 23-də Almaniya ilə SSRİ arasında 10 il müddətinə imzalanmış bir-birinə hücum etməmək haqqında müqavilə sülhü və təhlükəsizliyi möhkəmlətmək əvəzinə, geniş istilaçılıq planları olan hər iki dövlətin bir növ əl-qolunu açmışdı. Bu dövlətlərin biri qərbə, digəri isə şərqə doğru sürətlə irəliləyərək, nəhayət, üz-üzə dayanmış oldular.

Faşist Almaniyası bu əzablı sükuta son qoydu və birinci olaraq 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi. O zaman SSRİ-yə daxil edilmiş bütün respublikalar, o cümlədən Azərbaycan SSR və Naxçıvan MR bu dəhşətli müharibəyə cəlb olundu. Bütün Azərbaycan xalqı kimi, Naxçıvan əhalisi də o zaman ümumi vətən sayılan SSRİ-nin müdafiəsinə qalxdı...

Müharibənin birinci həftəsi ərzində respublikada 40 min nəfərdən çox oğlan və qız cəbhəyə, faşistlərə qarşı müharibəyə getmək üçün ərizə ilə hərbi komissarlıqlara müraciət etmişdilər. Onlardan 5 min nəfərdən çoxunu naxçıvanlılar təşkil edirdi. Yenə də müharibənin ilk həftəsi Naxçıvan əhalisi 7 min nəfər igid oğul və qızını döyüş cəbhələrinə yola salmışdı. 10 min nəfərdən çox naxçıvanlı xalq qoşunu və qırıcı batalyonların sıralarına yazılmışdı. Muxtar respublikanın minlərlə oğul və qızı vətən saydıqları Sovet İttifaqının hər qarış torpağını sinələri ilə qoruyaraq öz canlarını belə qurban verməkdən çəkinmədilər. Onların adları bütün ölkədə tanındı.

Naxçıvan əhalisi arxa cəbhədə də mətanətlə çalışdı. Müharibənin ilk günlərindən səfərbər edilib cəbhələrə göndərilmiş on minlərlə kişiləri qadınlar, qocalar uşaqlar layiqincə əvəz etdilər. Müharibənin birinci ayında, 1941-ci il iyulun 19-da Naxçıvan rayonundan 15 nəfər qadın traktorçu vəzifəsinə qəbul edilmək, 30 nəfər qadın[116-117] isə traktorçuluq kurslarında oxumaq üçün ərizə vermişdi Naxçıvan şəhərində və rayonlarda 185 hava hücumundan və kimyəvi hücumdan müdafiə dərnəkləri yaradılmış və onların işinə şəhər və kəndlərdən gəlmiş 6212 nəfər cəlb olunmuşdu. Bunlardan əlavə, kütləvi müdafiə işi üzrə müəssisələrdə, evlərdə və kolxozlarda 1134 nəfəri əhatə edən 31 özünümüdafiə qrupu yaradılmışdı. Qadınlar, qocalar və uşaqlar gecə-gündüz istirahət bilmədən çalışaraq cəbhəyə daha çox kənd təsərrüfatı məhsulları göndərmək uğrunda vətənpərvərlik hərəkatına qoşulurdular. Faşistlər üzərində qələbə çalmaq naminə ölkəyə daha çox taxıl, pambıq, tütün vermək məqsədi onların fəaliyyətinin başlıca məzmununu təşkil etdi. Elə bu cur fədakarlıqla çalışmağın nəticəsi idi ki, müharibə illərində muxtar respublikada əkin sahələri nəinki azalmamış, hətta 11 min hektar genişləndirilmiş, [1] mal-qaranın sayı isə iki dəfə artmışdı. Muxtar respublikanın kolxozçu kəndliləri, fəhlələri və ziyalıları öz sahələrində vicdanla işləməklə yanaşı, müdafiə fonduna vəsait toplanışında da fəal iştirak etmişdilər. Təkcə 1941-ci ilin bir neçə ayı ərzində ölkənin müdafiə fonduna 1.357.000 manat pul, 1. 748.000 manat istiqraz, 1222 qram qızıl, 11 kq gümüş, 908 kq yağ, 66 ton 432 kq ət, 796 kq pendir, 150 tondan çox taxıl və sair toplayıb dövlətə təhvil vermişdilər.[2] Naxçıvan MR əhalisinin bu yüksək vətənpərvərlik hərəkatı müharibənin davam etdiyi bütün illərdə özünü göstərmişdi. Məsələn 1943-cü ilin mayında onlar müdafiə fonduna 9 milyon manat istiqraz, 6699 sentner taxıl, 202 sentner ət və müxtəlif kənd təsərrüfatı məhsulları təhvil vermişdilər. Bütövlükdə isə, müharibə illərində Naxçıvan əhalisi 79 milyon manat məbləğdə pul-şey lotereyasına və istiqraza yazılmış, cəbhəyə 150 min ədəd isti paltar, minlərlə bağlamalar göndərmişdi. [3] Bir sözlə, arxa cəbhədə çalışanlar qələbə naminə nə mümkündürsə etmişdilər. Onların övladları isə ana-bacılarının, kiçik qardaşlarının, ata və babalarının bu fədakarlığına düşmən üzərinə çaldıqları parlaq qələbələrlə cavab vermişdilər. Əlbəttə, belə qəhrəman oğul və qızların sayı onlarla, yüzlərlə idi. Onların hamısı haqqın[117-118]da kiçik həcmli bir yazıda ətraflı məlumat vermək sadəcə olaraq imkan xaricindədir. Bu, «xatirə» kitabı kimi sanballı bir nəşrin işidir. Lakin müharibə cəbhələrində daha çox fərqlənmiş naxçıvanlı igidlər haqqında yığcam məlumat vermək mümkündür. Sovet İttifaqı qəhrəmanları Nəcəfqulu Rəfiyev, Qəzənfər Əkbərov, Abbas Quliyev, müharibə qəhrəmanları general mayor Akim Abbasov, polkovnik Mehdi Mahmudov, Nemət Kərimov, İsmayıl Məmmədov, Kazım İsmayılov, mayor Nemət Əhmədov, Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuş Rahim Rəhimov, hərbi feldşer Allahverdi Kərimov, iki Qırmızı Bayraq ordenli Qasım Qasımov,

---

[1] Naxçıvan MDA, f. 34, siy. 3, iş 50, vərəq 9.
[2] И.Г.Шукюрзаде. Сельское хозяйство и патриотическое движение колхозного крестьянства Нах. АССР в годы Великой Отечественной войны. Автореферат канд. дисс. Баку, 1961,с.15.
[3] Naxçıvan MSSR-in 40 illiyi. Bakı, 1964, səh. 15

zirehli avtomobil komandiri Baloğlan Rüstəmov, topçu Əli Hüseynov, sıravilər Bəxtiyar Kərimov, Məmməd Tahirov, Niyazi Vəzirov, Abdulla Qurbanov, Ənvər Vəzirov, İtaliyada beynəlmiləl partizan dəstəsinin komandiri Əli Babayev, Buhenvald faşist həbs düşərgəsində dustaq saxlanılmış Əkbər Ağayev və yüzlərlə başqaları özlərinin şücaət və qəhrəmanlıqları ilə doğma Naxçıvan torpağının şöhrətini də əbədiləşdirmişlər.

Faşist Almaniyasına qarşı döyüşlərdə Naxçıvan Muxtar Respublikasından cəbhələrə göndərilmiş qızlar da böyük qəhrəmanlıqla vuruşmuşlar. Onlar öz canları qayğısına qalmayaraq döyüşən ordu və partizan hissələri sıralarında cəsarətlə xidmət etmiş, döyüş meydanlarından çıxardıqları yüzlərlə yaralı döyüşçünü yenidən həyata qaytarmışdılar. Zəriyə Camalbəyova, Dilbər Təhməzbəyova, Surə Allahverdiyeva, Səkinə Şəfiyeva, Safiyə Sultanova, Firuş Məmmədəliyeva, Lora Abdullayeva və onlarla digər naxçıvanlı qızlar yüksək dövlət mükafatlarına layiq görülmüşdülər.

Müharibə illərində adı dillər əzbəri olmuş naxçıvanlı qəhrəmanlardan biri Əkbərov Qəzənfər Qulam oğludur. O, 1917-ci ildə Naxçıvan rayonunun Cəhri kəndində anadan olmuş, 1940-cı ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirmiş, 1941-ci ildə Qoşadizə kənd məktəbinin müdiri işləmişdir. Faşist Almaniyası SSRİ-yə hücum etdikdən sonra Sovet Ordusuna səfərbər edilmiş, Tbilisi topçuluq məktəbində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra 1942-ci ildə Şimali Qafqaza göndərilmişdir. Döyüş yoluna Qafqaz dağlarının ətəklərindən başlayan Q. Q. Əkbərov topçu komandir kimi Ukraynanın, Belorusiyaiın alman faşistlərindən təmizlənməsində fəal iştirak etmişdir. 1944-cü il avqustun 3-də Belorusiyanın Volojin şəhə[118-119]ri ətrafında gedən döyüşlərdə misilsiz qəhrəmanlıq göstərmişdir. Onun başçılığı altında üç nəfər topçu almanların beş ağır tankına qarşı qeyri-bərabər döyüşə girmişdilər. Bir neçə saat davam etmiş döyüşdə düşmənin 4 tankı, 60-dan artıq əsgər və zabiti məhv edilmişdi. Bu döyüşdə Q. Q. Əkbərov qəhrəmanlıqla həlak olsa da, düşmənin hücumunu dayandırmağa və beləliklə də öz döyüş yoldaşlarının mühasirəyə düşməsinin qarşısını almağa nail olmuşdu. Bu qəhrəmanlığına görə Q. Q. Əkbərov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Naxçıvan Muxtar Respublikasında Q. Q. Əkbərovun xatirəsi əbədiləşdirilmişdir. Ona Cəhri kəndində abidə qoyulmuşdur. Adına küçə, kolxoz, sovxoz və məktəb vardır.[4]

Rəfiyev Nəcəfqulu Rəcəbəli oğlu 1915-ci il martın 22-də Ordubad şəhərində anadan olmuşdur. 1935-ci ildə Sovet Ordusuna çağırılmış, 1937-ci ildən ali hərbi məktəbdə təhsil almağa başlamışdır. Faşist Almaniyasının SSRİ-yə hücum etməsindən 4 gün keçdikdən sonra sürücü-mexanik, tank komandiri, tank vzvodunun komandiri kimi Cənub—Qərb, Şimali Qafqaz, 1-ci Belorusiya cəbhələrində alman faşist işğalçılarına qarşı vuruşmalarda iştirak etmişdir. 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən vuruşmalarda, Baronoviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərmişdir. SSRİ Ali Soveti Rəyasət heyətinin 1944-cü il 9 sentyabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Müharibədən sonra müxtəlif hərbi hissələrdə qulluq etmiş, 1955—1959-cu illərdə Lənkəran hərbi komissarlığında şöbə rəisi, Culfa rayon hərbi komissarı işləmişdir. 1959-cu ildə ordudan tərxis olunmuş, Azərbaycan SSR avtomobil nəqliyyatı sistemində əmək fəaliyyətini davam etdirmişdir. 1970-ci il dekabrın 24-də vəfat etmişdir. N. R. Rəfiyevin adı hələ sağlığında əbədiləşdirilmişdir. Adına Minsk və Ordubadda küçə, Ordubadda zavod, Babək rayonunda sovxoz, texnikum və s. var, Ordubad şəhərində büstü qoyulmuşdur. Azərbaycan Respublikasında N. R. Rəfiyevin adına futbol yarışları keçirilir. [5]

Quliyev Abbas Şahbaz oğlu 1916-cı il sentyabrın 15-də Naxçıvan rayonunun Şəkərabad kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakı pedaqoji texnikumunda təhsil almış, 1937-ci ildə təhsilini başa vuraraq Nax[119-120]çıvana qayıtmışdır. O, teatr sənəti ilə maraqlanmış, özfəaliyyət dərnəklərinin iştirakçısı olmuşdur. 1941-ci ildə Sovet Ordusuna çağırılmış, Sumı topçuluq məktəbini bitirmişdir. Kapitan A. Ş. Quliyev Dneprdən Visla çayına qədər döyüş yolu keçmişdir. 1944-cü ilin avqustunda Polşa torpağında o, öz topçuları ilə birlikdə xüsusi tapşırığı yerinə yetirərək düşmənin diqqətini yayındırıb Visla çayının sağ sahilinə keçmiş, sonra isə üç gün ərzində faşistlərlə qeyri-bərabər döyüş aparmaqla sovet qoşunlarının maneəsiz çayı keçməsi və düşməni darmadağın etməsinə şərait yaratmışdı. 1945-ci il fevralın 25-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. O vaxtlar «İzvestiya» qəzeti bu münasibətlə yazmışdı: «Naxçıvan teatrı A. Quliyevin şəxsində müvəqqəti də olsa səhnə xadimini itirsə də, Sovet Ordusu onun simasında bacarıqlı və fədakar zabit əldə etmişdi».[6] Müharibədən sonra müxtəlif vəzifələrdə işləmişdir. İkinci dünya müharibəsi cəbhələrində general rütbəsinə qədər yüksəlmiş azərbaycanlı sərkərdələrdə biri də Abbasov Akim Əli oğlu olmuşdur. O, 1911-ci il mayın 25-də Naxçıvan şəhərində dünyaya göz açmış, 1927-ci ildən Sovet Ordusunda xidmət etmişdir. 1930-cu ildə Bakı, 1932-ci ildə isə Tiflis hərbi məktəblərini bitirmişdir. Faşist Almaniyası SSRİ-yə hücum etdikdən

---

[4] Azərbaycan Sovet Ensiklopediyası, c. IV, 1980, səh.154.

[5] Azərbaycanın qızıl ulduzları, Bakı, 1995, səh. 240.

[6] Советская Нахичевань. Баку. 1984. с. 77.

sonra müharibənin ilk günlərindən 76-cı diviziyanın heyətində Qərb cəbhəsində vuruşmalarda iştirak etmişdir. 1942-ci ildə milli hərbi birləşmələr yaradıldıqda 402-ci atıcı diviziya qərargahında əməliyyat şöbəsinin rəisi, sonra həmin diviziyada 833-cü atıcı polku komandiri təyin edilmişdir. Onun rəhbərliyi altında polkun döyüşçüləri və komandirləri Qafqaz uğrunda vuruşmalarda böyük qəhrəmanlıqlar göstərmişdilər. A. Abbasov öz polku ilə təkcə bir döyüşdə faşistlərin 40 tankını, çoxlu canlı qüvvəsini məhv etməyə nail olmuşdu. Zaqafqaziya cəbhəsinin komandanı İ. V. Tulenov 1943-cü il fevralın 23-də «Boyete FKQO» qəzetində dərc etdirdiyi məqaləsində 833 cü polkun döyüş xidmətlərini yüksək qiymətləndirmişdi.

Müharibədən sonrakı illərdə polk komandiri, diviziya komandirinin müavini və komandiri vəzifələrində işləmiş, 1956-cı ildən M. V. Frunze adına Hərbi Akademiyanı bitirmiş, 1967-ci ilədək 295-ci atıcı diviziyanın koman[120-121]diri olmuşdur. 1967-ci ildə ehtiyata keçirildikdən sonra Azərbaycanın həyatında daha fəal iştirak etmiş, bir çox illər respublika avtomobil nəqliyyatı nazirinin müavini vəzifəsində işləmişdir. Üç çağırışda Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. [7] A. Ə. Abbasov 1992-ci ilin fevralında vəfat etmişdir.

416-cı atıcı diviziyasının 1054-cü artilleriya polkunun komandiri naxçıvanlı Mehdi Abdulla oğlu Mahmudov 1932-ci ildən Sovet Ordusunda xidmət etmiş, böyük leytenantdan polkovnikə qədər yüksələrək şərəfli döyüş yolu qət etmişdir. Alman faşistləri ilə döyüşlərdə o özünü cəsarətli, igid və qorxmaz zabit kimi göstərmişdi. M. A. Mahmudov Melitopol, Nikolayev, Odessa, Kişinyov şəhərləri uğrunda gedən döyüşlərdə, həmçinin, Visla— Oder əməliyyatında, Küstrin qalasına və Berlinə olan hücumlarda xüsusilə fərqlənmişdi. Onun 6 orden və çoxlu medallarla təltif olunması həmin qəhrəmanlıqlara verilən layiqli qiymət idi.

Yaxud, Rəhimov Rəhim Cəfər oğlunu götürək. Babək rayonunun Əznəbirt kəndində doğulmuş bu igid azərbaycanlı balası 1941-ci ildə Sovet Ordusuna çağırılmış, Qafqazın müdafiəsində, Belorusiya, Pribaltika və Kalininqradın azad olunması uğurundakı döyüşlərdə misilsiz igidliklər göstərmişdi. Onun Sovet İttifaqı Qəhrəmanı adına bərabər tutulan Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunması da bu igidliklərin təsdiqi sayıla bilər. [8]

Hərbi feldşer Allahverdi Kərimov 1941-ci ildə Rostov uğrunda döyüşlərdə böyük hərbi şücaət nümayiş etdirmişdi. O, həlak olmuş komandirini əvəz edərək rotanı bacarıqla əks-hücuma aparmış, uğurlu əməliyyat nəticəsində düşmənin canlı qüvvəsi və texnikası böyük itki vermişdi. Qısa müddətdə igid döyüşçü Qırmızı Bayraq və Qırmızı Ulduz ordenləri ilə təltif olunmuşdu. 1-ci və 2-ci dərəcəli Şöhrət ordeni ilə təltif olunmuş Baloğlan Rüstəmovun döyüş yolu 1942-ci ilin mayında Tuapse şəhərinin müdafiəsindən başlanıb. Berlində başa çatmışdı. O müxtəlif tank ordularının, habelə Şimali Qafqaz, 1-ci Belorusiya ordularının tərkibində alman faşistlərinə qarşı vuruşmuş, Sandomir şəhəri ətrafında və Poznan şəhəri uğrunda gedən döyüşlərdə fərqlənmişdir. Berlinin alınması əməliyyatında iştirak etmişdir. 1947-ci ildə ordu sırala[121-122]rından tərxis olunmuş və doğma Azərbaycan qayıdaraq, dinc quruculuq cəbhəsində fəaliyyət göstərmişdir.

1904-cü ildə Naxçıvan torpağında dünyaya göz açmış İsmayıl Məmməd oğlu Məmmədov müharibə illərində 293-cü atıcı diviziyasının artilleriya polkunun hərbi komissarı olmuş, Qafqaz dağlarından Praqayadək döyüş yolu keçmişdir. Şimali Qafqazın, Rostov vilayətinin, Ukraynanın, Moldaviyanın və altı Avropa dövlətinin faşist işğalçılarından təmizlənməsində iştirak etmiş polkovnik İ. M. Məmmədov çoxlu orden və medallarla təltif olunmuş, müharibə qurtardıqdan sonra doğma vətəninə qayıdaraq, bir sıra məsul vəzifələrdə çalışmışdır. 1981-ci il noyabrın 29-da vəfat etmişdir.

Naxçıvan MR-in Qarabağlar kəndindən olan Nemət Əhmədov 1927-ci ildə ordu sıralarından hərbi xidmətini başa çatdırıb mətbuat sahəsində çalışmışdır. Müharibə başlananda «Kommunist» qəzeti redaksiyasında işləyən N. Əhmədov Şimali Qafqazdan Berlinədək çətin, lakin şərəfli döyüş yolu keçmişdir. Orden və medallarla təltif olunub, 1947-ci ildə ordu sıralarından tərxis olunmuş mayor N. Əhmədov ömrünün sonuna kimi mətbuat sahəsində xidmət etmişdir.

1942-ci ilin əvvəlində sıravi döyüşçü Bəxtiyar Kərimov Krım uğrunda döyüşlərdə təkbaşına on bir faşistlə döyüşə atılmış, onlardan on nəfərini məhv etmişdi. Ağır yaralanmasına baxmayaraq üzüntülü çarpışmada faşist zabitini də yerə sərməyə və öldürməyə müvəffəq olmuşdu.[9]

Naxçıvanlı müəllim Əli Babayevin rəhbərliyi altında Çapayev adına beynəlmiləl partizan batalyonunun döyüşçüləri italyan və Yuqoslaviya partizanları ilə əl-ələ verərək bir ildən artıq müddətdə faşistlərə qarşı mübarizədə ən yaxşı döyüş keyfiyyətləri göstərmişdilər. Azərbaycan xalqının igid oğlu, cəsur zabit Əli Babayev

---

[7] Azərbaycan Sovet Ensiklopediyası, ç. 1, Bakı, 1976, səh. 13.
[8] Yenə orada, ç. 8. Bakı, 1980, səh. 140.
[9] Советская Нахичеванъ, cəh. 78.

partizan əməliyyatlarına bacarıqla rəhbərlik etdiyinə, döyüşlərdə göstərdiyi şəxsi şücaət və qəhrəmanlığına görə İtaliya Respublikasının yüksək mükafatına—«Gümüş medal»a layiq görülmüşdü.[10]

Əkbər Ağayev Buhenvald faşist həbs düşərgəsində hökm sürən ağır şəraitdə mətinlik, mərdlik və sönməz iradə nümayiş etdirmişdi. Ə. Ağayev Buhenvald həbs düşərgəsində saxlanılan əsirlər arasında siyasi iş aparır, onları mə[122-123]nəvi cəhətdən ruhdan düşməyə qoymur və düşmənlə mübarizəyə ruhlandırırdı. Ən son anda belə Ə. Ağayev əsl qəhrəmanlıq və yüksək iradə nümayiş etdirmiş, öz həyatını qurban versə də, müqəddəs saydığı ideallardan imtina etməmişdi.

İkinci dünya müharibəsi cəbhələrində alman faşistlərinə qarşı döyüşlərdə batalyon komandiri mayor Əli Əliyev, serjant Yusif Qasımov, leytenant Adil Cəfərov, sıravi Qurban Qurbanov, döyüş yolu Berlində başa çatmış Abdulla Orduxanov, leytenant Hüseyn İmanov, Ənvər Vəzirov və bir çox başqaları da alman faşistləri üzərində qələbənin təmin edilməsi işinə öz layiqli töhfələrini vermişdilər.

Deyildiyi kimi, müharibə arxa cəbhədə çalışan əmək adamlarını da ağır sınaq qarşısında qoymuşdu. Onlar təsərrüfat planlarını yerinə yetirməklə yanaşı, hərbi qulluqçuların işlərinə, müharibə əlillərinə də hər cür qayğı göstərməyi unutmurdular.

Naxçıvan MR-in, xüsusilə də Naxçıvan rayonunun zəhmət adamları hərbi qulluqçuların ailələrinə və müharibə əlillərinə böyük yardım göstərmişdilər. Təkcə, 1943—1944-cü illərdə hərbi qulluqçuların ailələrinə göstərilən yardımın yaxşılaşdırılması haqqında məsələ 14 dəfə yüksək səviyyədə müzakirə edilmiş və ədalətli həllini tapmışdır.

1943—1944-cü illərdə Naxçıvan rayonunda cəbhəçilərin ailə üzvlərinin iştirakı ilə keçirilmiş 20 müşavirədə onların sorğu və ehtiyacları nəzərdən keçirilmişdi. Kolxozlarda 50-dən çox müvəqqəti körpələr evləri və uşaq bağçaları açılmış və bunlarda 967 nəfər hərbi qulluqçu ailələrinin uşaqları yerləşdirilmişdi.[11]

Naxçıvan rayonunun zəhmət adamların müharibə əlilləri haqqında daim qayğı göstərirdilər. Naxçıvan şəhərində müharibə əlilləri üçün təşkil olunmuş internatda onlar müxtəlif ixtisaslar mənimsəyirdilər.

Muxtar respublikada hərbi qulluqçuların ailələrinə xidmət göstərilməsi sahəsində də xeyli iş görülmüşdü. Bu işin təşkilində Noraşen rayonunun zəhmət adamları xüsusilə fərqlənmiş və Azərbaycan SSR-in qabaqcıl rayonları sırasında fəxri yer tutmuşdular. Rayonda müharibə başlanandan 1943-cü ilin sonuna kimi hərbi qulluqçuların ailələrinə 33200 kq taxıl və 25000 manat pul vermişdi. Rayonda, həmçinin, demək olar ki, bütün əsgər uşaqları körpələr evi [123-124]və uşaq bağçalarında yerləşdirilmiş, anaları isə işlə təmin olunmuşdu.[12]

Müharibə illərində SSRİ-nin azad olunmuş rayon və vilayətlərinə kömək hərəkatı çox geniş yayılmışdı. Bu, məqsədlə 1941-ci ilin dekabrından başlayaraq müxtəlif təşəbbüslər irəli sürülür və müraciətlər edilirdi. Hətta həmin təşəbbüs və müraciətlərə cavab olaraq Azərbaycan hökuməti 1942-ci ilin aprelində xüsusi qərar qəbul etmiş respublika əhalisini azad olunmuş rayonlara yardım fondu yaratmağa çağırmışdı.

Muxtar respublikanın əhalisi Azərbaycan hökumətinin çağırışına ürəkdən qoşulmuş və hələ 1942-ci ildə Naxçıvan rayonunun kolxozları plandan əlavə əkdikləri 92 ha sahədən topladıqları 833 kq noxudu, 27753 kq taxılı azad olunmuş rayonlara göndərmişdilər.[13]

1943-cü ildə muxtar respublika zəhmətkeşləri azad olunmuş rayonlara kömək kampaniyasına daha fəal surətdə qoşulmuş və Stavropol diyarının zəhmətkeşlərinə 483840 manat pul, 8348 pud buğda, 4168 pud arpa, 429 pud düyü, 700 pud noxud, 30 pud qarğıdalı, 15 pud lobya, 899 ədəd dəri, 901 pud meyvə qurusu, 450 baş qaramal, 226 baş davar, çoxlu paltar və ev əşyaları göndərmişdilər.[14]

Müharibə illərində muxtar respublikanın incəsənət işçiləri də vicdanla çalışmış və düşmən üzərində qələbənin təmin edilməsi işinə layiqincə kömək etmişdilər. Naxçıvan Dövlət Dram Teatrının müharibə dövründəki fəaliyyəti bu deyilənlərə səciyyəvi nümunə sayıla bilər. Müharibə başlandıqdan sonra teatrın aktyorlarından bir çoxu əllərinə silah alaraq cəbhəyə yollanmışdılar. Teatr kollektivinin qalan üzvləri isə ayrı-ayrı briqadalara bölünüb arxa cəbhənin möhkəmləndirilməsinə xidmət edən vətənpərvərlik mövzularında tamaşalar hazırlamış, müsamirələr təşkil etmişdilər.

Müharibə illərində Naxçıvan teatrının fəaliyyətində Azərbaycanda tanınmış yazıçıların, həmçinin yerli şair və dramaturqların hazırladığı kompozisiyalarda xalqın cəsur, alicənab və vətənpərvər adamlarının həyatının təsviri əsas yer tutmuşdu. Teatrın hələ müharibədən əvvəlki [124-125]illərdə repertuarında olmuş qəhrəmanlıq

---

[10] Yenə orada

[11] Т.А.Новрузов. Трудовые подвиги колхозного крестьянство в период Великой отечественной войны (1941 — 1945 гг.), Bakı, 1963, səh. 84.

[12] .А. Новрузов. Трудовые подвиги колхозного крестьянство в период Великой отечественной войны (1941 — 1945 гг.), Bakı, 1963, səh. 85.

[13]Yenə orada, səh. 89 — 90.

[14] Ə, *Mahmudov.* Naxçıvan MSSR, Bakı, 1970, səh. 54 — 55.

və vətənpərvərlik məzmunlu tamaşaların göstərilməsi həmin məhrumiyyətlərlə dolu dövrün tələblərinə daha çox cavab verdiyindən belə əsərlərin tamaşaya qoyulmasına diqqət artırılmışdı. S. Vurğunun «Vaqif», «Xanlar», S. Rüstəmin «Qaçaq Nəbi» kimi xalqın azadlığı uğrunda mübarizəsini əks etdirən əsərlər tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanırdı. Teatr, həmçinin, Azərbaycanın digər yaradıcılıq kollektivləri ilə sıx əlaqə saxlayır, görkəmli səhnə ustalarını Naxçıvana dəvət edirdi.

1941-ci ildə Sidqi Ruhulla səhnə fəaliyyətinin 35 illiyi yubileyi münasibətilə Naxçıvana dəvət olunmuş və onun iştirakı ilə S. Vurğunun «Vaqif» pyesi tamaşaya qoyulmuşdu. Yenə həmin ildə M. H. Təhmasibin vətənpərvərlik mövzusunda yazılmış «Bahar» pyesi Naxçıvan səhnəsində tamaşaya qoyulmuşdu.[15]

1942-ci ilin çətin müharibə şəraitində Naxçıvan teatrı tarixi və vətənpərvərlik mövzularına öz repertuarın da daha çox yer vermiş, hərbi hissələrdə, hərbi xəstəxanalarda 250-dən artıq teatr və konsert tamaşaları təşkil etmişdilər. Göstərilən teatr tamaşalarından Mehdi Hüseynin «Nizami», S. Vurğunun «Fərhad və Şirin», M. H. Təhmasibin «Aslan yatağı», O. Sarıvəllinin «Babək» və s. pyeslərin adlarını çəkmək olar. Bundan başqa, həmin ildə Naxçıvan MR-in incəsənət işləri idarəsinin xidmət müəssisələri cəbhədə vuruşan əsgərlər üçün N ədəd bağlama, 100-dən çox dəri, 4633 manat 50 qəpik nağd pul, 107 ədəd isti alt paltarı, 10 ədəd sırıqlı, 60 cüt yun corab göndərmişdilər.[16]

1943-cü ilin dekabrında Naxçıvan teatrı səhnəsində tamaşaya qoyulan A. Şaiqin «Vətən» («Elman») pyesi xalqı öz vətənini sevməyə, onun yolunda hər cür fədakarlığa hazır olmağa çağırırdı. Heç də təsadüfi deyildi ki, «Şərq qapısı» qəzeti «Vətən» tamaşasındakı hadisələrlə davam edən müharibə arasında bənzərlik görərək yazmışdı: «Elman dünya gözəlini öz vətənini dərindən sevən, onun üçün bütün fədakarlığa gedən bir el qəhrəmanıdır. O, heç bır çətinlikdən qorxub çəkinmədən vətən qarşısındakı borcunu namusla yerinə yetirir. Biz Elmana («Vətən»ə) baxarkən qeyri-ixtiyarı olaraq, bu gün müharibə cəbhələrində, Hitlerə qarşı döyüşlərdə misli görünməmiş igidliklər gös[125-126]tərən vətən oğulları,—Məzahir Abbasovları, Kamal Qasımovları, Bəxtiyar Kərimovları və başqalarını xatırlayırıq».[17]

Görünür, 1944-cü ildə Ordubadda Dövlət Dram Teatrının yaradılması və ona M. S. Ordubadinin adının verilməsi, Naxçıvan teatrına isə C. Məmmədquluzadənin adının verilməsi, bir çox aktyorların müharibə illərində fəxri adlara və mükafatlara layiq görülməsi də elə teatrın xalqın gündəlik həyatına göstərdiyi böyük müsbət təsirin qiymətləndirilməsi olmuşdu.

Əlbəttə, 1941 — 1945-ci illərdə muxtar respublikanı digər mədəniyyət işçiləri də, maarif nümayəndələri də, incəsənət xadimləri də teatr işçilərindən geri qalmamışlar. Yalnız əlimizin altında olan sənəd və materiallar daha çox teatrdan bəhs etdiyi üçün biz onların fəaliyyəti üzərində bir qədər geniş dayandıq. Gələcək tədqiqatlarda heç şübhəsiz, bütün bu məsələlər öz layiqli ifadəsini və qiymətini alacaqdır. Burada isə demək istədiyimiz yalnız bundan ibarətdir ki, düşmənə qarşı mübarizədə xalqın bütün təbəqələrinin qüvvələri birləşdiyi bir zamanda onun qələbə çalacağına da inamı artır. Naxçıvan teatrı da xalqda bu inamı yaratmağa səy göstərirdi. [126]

---

[15] Naxçıvan MDA, f. 50. siy. 1, qov. 61/40, vərəq 30

[16] Yenə orada, f. 15, siy. 1, qov. 25, vərəq 28 — 29.

[17] Şərq qapısı» qəzeti, 16 dekabr 1943-cü il.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI MÜHARİBƏDƏN SONRAKI İLLƏRDƏ

Azərbaycan SSR hərbi əməliyyat meydanı olmadığı üçün, təbiidir ki, müharibənin törətdiyi dağıntılara məruz qalmamışdır. Lakin SSRİ-nin tərkib hissəsi olmaq etibarı ilə respublikamız da müharibənin xalq təsərrüfatına mənfi təsir etmiş bir çox ağırlıqlarını öz üzərində hiss etmişdi. 1945-ci ildə Azərbaycan SSR sənayesinin ümumi məhsulu, müharibədən əvvəlki səviyyənin ancaq 78 faizini təşkil edirdi. 1945-ci ildə neft hasilatı 1940-cı ildəkinə nisbətən yarıbayarı azalmışdı. Tara metal prokatı, elektrik enerjisi, sement, pambıq-parça başqa sənaye məhsulları istehsalı aşağı düşmüşdü. 1945-ci ildə pambıq lifi istehsalı 1940-cı ilə nisbətən demək olar ki, üç dəfə yarım, xam ipək istehsalı isə iki dəfə azalmışdı. Mal-qaranın sayı azalmış, əkin sahələri ixtisar olunmuşdu.[1]

SSRİ Ali Soveti sessiyasının 1946-cı ilin martında qəbul etdiyi dördüncü beşillik plan haqqında qanuna uyğun olaraq Azərbaycan SSR-in Ali Soveti 1946-cı ilin avqustunda «1946—1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinin beşillik planı haqqında qanun» qəbul etmişdi. Müharibədən sonrakı ilk beşillik planda respublikanın məhsuldar qüvvələrinə, xalq təsərrüfatına müharibənin vurduğu ziyanı aradan qaldırmaqla yanaşı, onun ittifaq dövlətindən iqtisadi asılılığını daha da gücləndirmək, sərvətlərini istismar etmək üçün daha münasib maddi və sosial imkanlar yaratmaq vəzifələri də müəyyən edilmişdi. İttifaq sənayesinin xüsusilə ehtiyac hiss etdiyi neft məhsulları istehsalının artırılmasına göstərilən diqqət də məhz həmin vəzifələrin həyata keçirilməsinə maraqdan irəli gəlirdi. Bunu belə bir faktdan da aydın görmək olar ki, SSRİ-nin 80 zavodu Azərbaycan neft sənayesinin sifarişlərini yerinə yetirirdi.[127-128]

Faşist Almaniyası üzərində çalınan qələbə Naxçıvan MR-də də yenidən dinc quruculuq işlərinə başlamağa imkan verdi. Müharibənin ehtiyacları üçün işləyən sənaye sahələri sülh dövrü üçün məhsul istehsalına keçirildi. Yüngül və yeyinti sənayesi müəssisələri kütləvi istehlak malları buraxmağa başladı.

Dördüncü beşillik planda Naxçıvan MRdə sənayenin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmiş və bir sıra sənaye sahələrinin yaradılması planlaşdırılmışdı. Ət, yağ—pendir kombinatlarının, Badamlı mineral su zavodunun, ipək fabriklərinin və şərab zavodlarının yenidən qurulması, mexanikləşdirmə işlərinin genişləndirilməsi və məhsuldarlığın artırılması nəzərdə tutulmuşdu. 1946—1950-ci illərdə, həmçinin, muxtar respublikada geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi, yeraltı faydalı sərvətlərin aşkar edilərək ittifaq sənayesinin xammal bazasına çevrilməsi məsələlərinə də xüsusi diqqət yetirilmişdi. Bu məqsədlə Parağaçay molibden və Gümüşlü filiz mədənlərinin Ümumittifaq metallurgiya sənayesi üçün xammal istehsalına başlanması nəzərdə tutulurdu.

Əlbəttə, beşillik planda, həmçinin, kənd təsərrüfatının, xüsusilə də onun bağçılıq, üzümçülük, ipəkçilik, ictimai heyvandarlıq kimi daha perspektivli sahələrinin inkişafına da ciddi əhəmiyyət verilmişdi. Müharibədən çıxmış və onun bütün məhrumiyyətlərini öz çiyinlərində daşımış zəhmətkeş əhalinin maddi rifahını yaxşılaşdırmaq və mədəni səviyyəsini yüksəltmək vəzifələri də planda öz əksini tapmışdı.

Üzücü, xalqın maddi və mənəvi ehtiyatlarını az qala tükəndirən müharibədən canını qurtarmış zəhmət adamları tezliklə onun vurmuş olduğu ağır yaraları sağaltmaq işinə girişdilər. Müharibədən sonrakı illərdə xalqın maddi rifahını yaxşılaşdırmaq məqsədilə çoxişlənən malların qiymətlərinin dalbadal hər il aşağı salınması da xalqın sabaha olan ümidini artırırdı. Xalqın nikbinliyi və gələcəyə ümidlə baxması onun əməli fəaliyyətində, gündəlik işində öz əksini tapırdı. Dördüncü beşilliyin plan tapşırıqlarına muxtar respublikada əməl olunması ayrı-ayrı istehsal sahələrində yaxşı nəticələr əldə edilməsi ilə başa çatırdı. Bu deyilənlər fakt və rəqəmlərlə də təsdiq olunurdu. Məsələn, 1950-ci ildə muxtar respublikada sənaye məhsulu buraxılışı 1940-cı illə müqayisədə 1,4 dəfə art[128-129]mışdı. 5 il ərzində Naxçıvanda mebel fabriki və mərmər zavodu işə salınmışdı. Ordubad baramaaçan fabriki ta tamamilə yenidən quruldu. Qarabağlar və Xok kəndlərində respublikada ilk kənd elektrik stansiyaları tikildi.[2]

Kənd təsərrüfatında da müəyyən irəliləyiş əldə edilmişdi. İriləşdirilərək sayı 72-yə çatdırılmış kolxozlar kənd təsərrüfatı qarşısında duran böyük vəzifələri həll etməyə qadir olan iri müəssisələrə çevrilmişdilər. Beş il ərzində Naxçıvan MR-də pambıq istehsalı iki dəfə artmışdı. Tütün istehsalı da xeyli çoxalmışdı. İctimai heyvandarlıq 1940-cı illə müqayisədə 40 min baş artmışdı. Əlbəttə, maddi istehsal sahəsində baş vermiş bu əsaslı dəyişikliklər əhalinin yaşayışının və mədəni səviyyəsinin də yaxşılaşmasına səbəb olmuşdu. Bir sıra mədəni-maarif müəssisələri tikilərək istifadəyə verilmişdi.

---

[1] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, 1964, səh. 653.

[2] Советская Нахичеванъ, сəh. 82.

1946—1950-ci illərdə Naxçıvan MR sənayesinin coğrafiyası əhəmiyyətli dərəcədə genişlənmişdi. Naxçıvan və Ordubadla yanaşı Noraşen, Culfa və Şahbuz rayonlarında da yeni sənaye müəssisələri tikilməyə başlandı. 1951 —1955-ci illərdə Noraşen rayonunda elektrik şəbəkəsi, Parağaçay və Gümuşlü mədənləri, Naxçıvan şəhərində çörək zavodu və ət-süd kombinatı, Şahbuz rayonunda Badamlı mineral sularını qablara dolduran zavod və digər sənaye müəssisələri tikilərək istifadəyə verilmişdi.

Bütövlükdə 50-ci illəri Naxçıvan MR sənayesinin müəyyən mənada tərəqqi illəri hesab etmək olar. Məhz, həmin illərdə yuxarıda adları çəkilən müəssisələrdən əlavə, Sirab mineral sular zavodu, elektrotexnika məmulatları zavodu, avtomobil təmiri zavodu, mebel və tikiş fabrikləri inşa edilmiş, Naxçıvan duz mədəninin yenidən qurulması başa çatdırılmışdı. Artıq 1959-cu ildə muxtar respublikanın sənayesi 40 adda məhsul istehsal edirdi. Onun məhsulları Azərbaycan SSR və keçmiş SSRİ-nin yüzlərlə şəhər və müəssisələrindən başqa bir çox xarici ölkələrə ixrac edilirdi. Məsələn, Ordubad ipək fabrikinin məhsulları İtaliyaya, Hollandiyaya, Yaponiyaya, Şahtaxtı mərməri Almaniya Federativ Respublikasına, Polşaya göndərilirdi. Şahtaxtı karxanasında kəsilən travertin bloku Moskvada, Leninqradda, Ulyanovskda və digər ittifaq şəhərlərində ucaldılan mədəni-maarif müəssisələrində, monumental abidələrdə, habelə, yeraltı stansiyalarda və sair yer[129-130]lərdə istifadə olunur, Bakı metrosunun stansiyalarına xüsusi yaraşıq verirdi.

1958-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilən Ümumdünya sərgisində nümayiş etdirilmiş «Badamlı» suyunun şöhrəti bütün dünyaya yayılmışdı. Naxçıvan və Noraşen pambıqtəmizləmə zavodlarının məhsulları Avropa və Asiyanın bir sıra ölkələrinə ixrac edilirdi.

1959—1965-ci illərdə muxtar respublikada duz sənayesinin inkişaf etdirilməsi üçün xüsusilə böyük işlər görülmüşdü. Bunun da nəticəsində parça duz istehsalı 2 dəfə, ümumi məhsul istehsalı isə 11,5 dəfə artmışdı. Duz mədənlərində elmi-texniki nailiyyətlərin tətbiqi, istər çıxarılan duzun məhsuldarlığını artırmağa, istərsə onun daşınma xərclərini azaltmağa imkan vermişdi. 1964-cü ildə parça duz istehsalı 70 min ton, ümumi məhsul isə 120 min ton olmuşdu. həmin illər, həmçinin, muxtar respublikanın elektrikləşdirilməsi sahəsində daha ciddi addımlar atılmışdı. Mingəçevir SES-nin elektrik enerjisi Naxçıvan torpağına daxil olmuşdu. İpək xammalı istehsalı 40 min tona çatmışdı. Yeni magistral və kənd yolları salınmış, telefon və digər rabitə vasitələri genişlənmişdi.

Bütün bu müvəffəqiyyətlər, heç şübhəsiz əsaslı kapital qoyuluşu olmadan əldə edilə bilməzdi. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, Naxçıvan MR-nin xalq təsərrüfatına qoyulan vəsait ildən-ilə artmışdı. Məsələn əgər 1956—1960-cı illərdə muxtar respublikanın xalq təsərrüfatına qoyulan vəsait orta hesabla, hər ildə 4,8 milyon manat təşkil etmişdisə, həmin rəqəm 1971 — 1975-ci illərdə 32 milyon manat təşkil edərək, bütövlükdə 1956—1980-ci illər üçün 624 milyon manat olmuşdu. Əsaslı vəsait qoyuluşunun daimi artımı şəraitində göstərilən illərdə sənaye obyektlərinin tikintisi xüsusilə genişlənmişdi. Bu isə öz növbəsində muxtar respublika sənayesinin inkişaf sürətini xeyli artırmış, onun strukturunu təkmilləşdirmişdi. Nəticədə, ümumi sənaye məhsulunun həcmi 1971-ci ildə 1924-cü ildəkinə nisbətən 150 dəfə, 1977-ci ildə isə 1940-cı ildəkinə nisbətən 14 dəfə artmışdı.

Təbii ehtiyatlardan səmərəli istifadə olunması muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalını da xeyli artırmağa imkan vermişdi. Bir sıra iri su təsərrüfatı qurğularının tikilməsi məsələlərinin müvəffəqiyyətlə həll edilməsi kənd təsərrüfatının yüksəlişin[130-131]də xüsusilə mühüm rol oynamışdı. Arpaçay və Sirab su təsərrüfatı komplekslərinin, Naxçıvan süni dənizinin, Uzunoba su anbarının yaradılması və Arazın sularından mexaniki suvarmanın genişləndirilməsi üçün istifadə olunması suvarılan torpaq sahələrinin su ilə təchizatını yaxşılaşdırmağa və kənd təsərrüfatında məhsuldarlığı yüksəltməyə əlverişli şərait yaratmışdı.

80-ci illərin əvvəlləri üçün muxtar respublikada 20 kolxoz və 65 sovxoz fəaliyyət göstərirdi. Kənd təsərrüfatına yararlı torpaqlar 148 min hektar, suvarılan torpaqlar isə 51 min hektar təşkil edirdi.

Kənd təsərrüfatında dənli bitkilər istehsalı mühüm yer tutur və demək olar ki, muxtar respublikanın ərazisinin hər yerdə əkilirdi. Tərəvəzçiliyin və üzümçülüyün inkişafına ciddi əhəmiyyət verilirdi. Tərəvəz əkinlərinin yarıdan çoxu Noraşen rayonunun payına düşürdü. Üzümçülüyün inkişafını aşağıdakı rəqəmlərdən də görmək olar. Əgər üzümlüklərin sahəsi 1960-cı ildə 2,3 min hektar, 1970-ci ildə 7,3 min hektar idisə, 1980-ci ildə 15 min hektardan artıq olmuşdu. Bunun müqabilində dövlətə satılan üzümün miqdarı 1960-cı ildəki 4,2 min tondan, 1989-cu ildə 53,9 min tona çatmışdı. 1975-ci ildən muxtar respublikada pambıq əkini dayandırılmışdı.

Müharibədən sonrakı illərlə muxtar respublikada bağçılıq daha da inkişaf etmişdi. Kolxoz və sovxozlarda 2,4 min hektar meyvə bağları var idi. Meyvə bağlarının 80 faizindən çoxu yenə də Ordubad şəhərinin payına düşürdü.

Muxtar respublikada maldarlığın inkişafı da nəzərə çarpırdı. Düzənliklərdə, əsasən ətlik-südlük, dağlıq sahələrdə isə ətlik-yunluq heyvandarlıq yayılmışdı. 80-ci illərin əvvəllərində muxtar respublikada 70 min başdan artıq qaramal (o cümlədən, 25 mindən çox inək və camış), 290 mindən artıq davar var idi. Burada balbas

cinsli qoyunlar yetişdirilməsini, quşçuluğun inkişafına böyük əhəmiyyət verilirdi. Babək rayonunda iri quşçuluq fabriki fəaliyyət göstərirdi.

Göstərilən illərdə nəqliyyat əlaqələrinin genişləndirilməsi, onlardan daha səmərəli istifadə olunması diyarın məhsuldar qüvvələrinin inkişafını sürətləndirməkdə mühüm amillərdən biri olaraq qalırdı. Bu baxımdan Bakı ilə İrəvanı birləşdirən dəmir yolunda hələ müharibə ərəfəsində işə salınmış Mincivan—Culfa sahəsi muxtar respublikanın ölkənin (keçmiş SSRİ nəzərdə tutu[131-132]lur—S. S.) digər rayonları, xüsusilə də Zaqafqaziya regionu ilə iqtisadi əlaqələrini genişləndirməkdə mühüm rol oynamış və burada mühüm istehsal sahələrinin yaradılmasına və inkişafına təkan vermişdi. Nəticə isə artıq göz qabağında idi. 80-ci illərin əvvəlləri üçün Naxçıvan MR Azərbaycan SSR-in inkişaf etmiş aqrar-sənaye rayonlarından birinə çevrilmişdi.

80-ci illərin əvvəllərində Azərbaycanda istehsal olunan parça duz və şüşə qabın (butulka) hamısı; mineral suların 90 faizdən çoxu, konservlərin 6,2 faizi, ipək xammalının 20 faizdən çoxu, alt trikotaj paltarının 22 faizi, bir sıra elektrotexniki məmulatların, mədən-filiz istehsalının, tütün və şərab materiallarının xeyli hissəsi Naxçıvan MR-in payına düşürdü.

60—70-ci illərdə Naxçıvan MR-in xalq təsərrüfatının inkişafında sənayenin rolunun artması mühüm keyfiyyət dəyişikliyi hesab edilə bilər. Bunun da nəticəsində Azərbaycan SSR-in sənaye istehsalında Naxçıvan MR-in payı artaraq 2 faizə yaxınlaşmışdı. 80-ci illərin əvvəllərində muxtar respublikada sənaye istehsalı sahələri 100-ə yaxın müəssisəni əhatə edirdi ki, bunlardan da 46-sı müstəqil balansda duran iri müəssisələr idi. Elektrik enerjisi, əlvan metallurgiya, maşınqayırma və metal emalı, tikinti materialları istehsal sahələri daha perspektivli və muxtar respublikanın gələcək sənaye simasını müəyyən edən sahələr sayılırdı.

Elektrik enerjisi 1963-cü il iyulun 27-də SSRİ il İran arasında imzalanmış müqaviləyə əsasən Araz çayı üzərində salınmış su elektrik stansiyası və yerli elektrik şəbəkəsi ilə təmin edilirdi. 80-ci illərin əvvəlləri üçün elektrik enerjisi istehsalı 72 milyon kv. saat təşkil edirdi.

Muxtar respublikanın iqtisadiyyatında mədən sənayesi əhəmiyyətli yer tuturdu. Bu sənaye sahəsini Naxçıvan duz mədən, Parağaçay molibden və Gümüşlü qurğuşun-sink mədənləri təmsil edir. Həm də qeyd edilməlidir ki, bu mədənlər Azərbaycan müvafiq sənaye sahəsinin yeganə müəssisələridir.

Naxçıvan MR-in xalq təsərrüfatında maşınqayırma və metal emalı sənayesinin xüsusi çəkisi vardır. Bu sənaye sahəsinin ən iri müəssisələri Naxçıvan elektrotexnika Şahbuz avtomobil təmiri zavodlarıdır. Bunlardan başqa, Naxçıvan alümin qablar zavodu və Naxçıvan məişət texni[132-133]kası kombinatı da maşınqayırma və metal emalı sənayesinin iri müəssisələri sayılır. Rayonlardakı kənd təsərrüfatı texnikası təmiri müəssisələri yerlərdə bu sənaye sahəsini təmsil edirlər.

Naxçıvanda meşə və ağac emalı sənayesini inkişafı üçün kifayət qədər xammal bazası yoxdur. Meşə örtüyü muxtar respublika ərazisinin yalnız 0,4 faizini—Batabat sahəsini əhatə edir. Buna görə də Naxçıvanda ağac emalı sənayesinin yeganə müəssisəsi olan Naxçıvan mebel fabriki əsasən yerli tələbatı ödəmək üçün kənardan gətirilən xammal hesabına işləyir.

Tikinti materialları istehsalı sahəsi 60—70-ci illərdə daha çox genişləndirilmişdir. Bu sahənin müəssisələri başlıca olaraq yerli xammal hesabına işləyirlər. Bu müəssislər, əsasən, dəmir-beton məmulatları, kərpic, travertin, mərmərlənmiş əhəng daşı, üz çəkilmiş tava daşları və s. istehsal edir, dəmir-beton məmulatları buraxmaq üçün çınqıl və qum əldə etməklə məşğul olurlar. Əsas müəssisələri Naxçıvan tikinti materialları kombinatı, Naxçıvan dəmir-beton məmulatları və kərpic zavodlarıdır. 80-ci illərin əvvəllərində evtikmə kombinatının inşasına başlanılmışdı.

Yeyinti sənayesi muxtar respublikanın daha çox şaxələnmiş və inkişaf etmiş sənaye sahəsidir. Məhsul istehsalı həcminə görə bu sahə digər sənaye sahələri arasında birinci yeri tutur və ümumi sənaye məhsulunun yarıdan çoxunu verir. İri müəssisələri Ordubad aqrar sənaye birliyinin konserv zavodu, Naxçıvan tütün fermentasiya zavodu, şərab zavodları və sairdən ibarətdir. Şərabçılıq daha çox inkişaf etmişdir. Naxçıvanda Şahbuz, Əbrəqunisdə yerləşən iri şərab zavodları ilə yanaşı, üzümçülük sovxozları nəzdində də bir neçə ilkin şərab zavodu, Badamlıda və Sirabda şüşələrə mineral su dolduran zavodlar var. Yeyinti sənayesinin digər müəssisələri (ət kombinatı, süd, pivə, çörək zavodları, qənnadı sexləri və s.) yerli əhəmiyyətlidir. Dəyirman kombinatı var. 1980-ci ildə Noraşen rayonunun Qıvraq kəndində pendir zavodu istifadəyə verilmişdir.[3]

Yüngül sənaye ümumi məhsul istehsalında ikinci yerdə gedir və muxtar respublika sənayesinin ənənəvi sahələrini daha çox əhatə edir. Bu sahələrdən biri və daha qədim ta[133-134]rixə malik olanı ipəkçilik sənayesidir. Muxtar respublikada tikiş və alt trikotaj paltar istehsalı sahələri də yüngül sənayenin mühüm sahələri sayılır. Ən iri müəssisələri Ordubad ipək kombinatı, Naxçıvan tikiş və alt trikotaj paltar fabrikləridir. Naxçıvanda, həmçinin, fərdi tikiş fabriki fəaliyyət göstərir.

---

[3] Azərbaycan Sovet Ensiklopediyası, VII c., Bakı, 1983, səh. 174-175.

Özünün yeraltı sərvətləri ilə qədimdən məşhur olan Naxçıvan diyarını, həm də haqlı olaraq müalicəvi əhəmiyyətli mineral sular məskəni adlandırırlar. Naxçıvan MR ərazisində 200 mineral su mənbəyi vardır. 1953-cü ildən Badamlıda avtomatlaşdırılmış və mexanikləşdirilmiş güclü zavod işə düşmüşdür 60—70-ci illərdə isə Sirab və Vayxır mineral sularının sənaye üsulu ilə istismarına başlanmışdır. Naxçıvan MR sənayesinin müharibədən sonrakı illərdə keçmiş olduğu tərəqqi yoluna ötəri nəzər salınması bir daha təsdiq edir ki, xalqın əməyinin, yaradıcı qüvvəsinin düzgün təşkili nə deməkdir. Eyni sözləri muxtar respublikanın kənd təsərrüfatı, səhiyyəsi haqqında da demək olar. Əhalinin gündəlik həyatında və məişətində də mühüm dəyişikliklər yaranmışdı.

Artıq 70-ci illərdə muxtar respublika özünün mədəniyyət, maarif, səhiyyə, sahəsindəki nailiyyətləri ilə öyünməyə haqlı idi. Yaxın keçmişdə əhalisinin 90 faizindən çoxu savadsız olmuş muxtar respublikada tədris müəssisələrinin geniş şəbəkəsi yaradılmış, savadsızlıq tamamilə aradan qaldırılmışdı. Odur ki, müharibədən sonrakı illərdə bu terminin özünə belə təsadüf edilmirdi. 80-ci illərin əvvəllərində muxtar respublikada 206 ümumtəhsil məktəbində 61 min nəfərdən çox, 4 orta ixtisas məktəbində 1700 şagird, 1972-ci ildən müstəqil instituta çevrilmiş Naxçıvan Pedaqoji İnstitutunda 2 min nəfər tələbə təhsil alırdı. Muxtar respublikada Azərbaycan Elmlər Akademiyasının Elm Mərkəzi, Şamaxı astrofizika rəsədxanasının Günəşli müşahidə stansiyası fəaliyyət göstərirdi. Muxtar respublikada 10 kənddə filialı olan 5 musiqi məktəbi, 244 kütləvi kitabxana, 228 klub müəssisəsi, o cümlədən 54 mədəniyyət evi, 4 muzey, C. Məmmədquluzadə adına Dövlət Dram Teatrı, Dövlət Rəqs ansamblı, Ordubad və Naxçıvanda xalq teatrları, 189 kinoqurğu zəhmətkeş əhaliyə xidmət edirdi. Vaxtilə müxtəlif yoluxucu xəstəliklərin əhaliyə böyük əzab verdiyi Naxçıvan diyarında malyariya, traxoma, qarın yatalağı və səpkili yatalaq kimi ağır fəsadlı xəstəliklər tamamilə ləğv edilmişdi. Əgər 1940-cı ildə Nax[134-135]çıvan MR-də cəmi 399 çarpayılıq 14 xəstəxana, 58 həkim, 200 nəfər orta təhsilli tibb işçisi fəaliyyət göstərirdisə, 1981-ci ildə 2480 çarpayılıq 41 xəstəxana müəssisəsi, 6 dispanser, 147 feldşer-mama məntəqəsi, 6 sanitar-epidemioloji stansiya, 579 nəfər həkim, 1782 orta təhsilli tibb işçisi əhalinin sağlamlığı keşiyində dururdu. Bunlardan əlavə, muxtar respublikanın ərazisində Badamlı balneoloji kurortu, Sirab, Nəhacir müalicə yerləri, Darıdağ, Vayxır və sair mineral bulaqlar əsl şəfa ocaqları idi. Duz dağda açılan sanatoriyada bronxial astma və sair xəstəliklərə tutulanlar müalicə olunurdular. Bütün bunlar, əlbəttə, kiçik nailiyyətlər sayıla bilməzdi və onlarla fəxr etməyə dəyərdi.

Belə bir faktı da qeyd edək ki, Sovet hakimiyyəti illəri adlanan illərdə Azərbaycan SSR-də yetişmiş, adları respublikamızın hüdudlarından çox-çox uzaqlarda məşhur olmuş ziyalılarımızın böyük dəstəsi Naxçıvan torpağının yetirmələridir. Bunlardan adlarını iftixarla çəkdiyimiz görkəmli alimlərimiz Yusif Məmmədəliyev, Həsən Abdullayev, Azərbaycan Elmlər Akademiyasının prezidenti Eldar Salayev, akademiklər Müzəffər Abutalıbov, Həsən Əliyev, Cəlal Əliyev, Zərifə Əliyeva, Məmmədcəfər Cəfərov, İsmayıl İbrahimov, Fəraməz Maqsudov, Əhməd Mahmudov, Şirəli Məmmədov, Həbibulla Şahtaxtinski, Toğrul Şahtaxtinski, respublikanın Elmlər Akademiyasının müxbir üzvləri Bəhmər Axundov, Sabir Hadıyev, Mustafa Hüseynov ,Abbas Zamanov, Cümşüd Zülfuqarlı, Kərim Kərimov, Qaraş Mədətov, Həbib Məmmədəliyev, Siddiqə Məmmədova, Yəhya Məmmədov, Asəf Nadirov, Rəhim Rəhimov, Musa Rüstəmov, Ramiz Rzayev, Məhəmməd Şahtaxtinski Azərbaycan elminin inkişafına özlərinin layiqli töhfələrini vermişlər. Tanınmış publisist, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim Məhəmməd ağa Şahtaxtinski Beynəlxalq Fonetika Cəmiyyətinin (1899), «Beynəlxalq Asiya Cəmiyyətinin (1990) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü seçilmiş, Bakı universitetinin yaradılmasında fəal iştirak etmişdi. Əlbəttə, bu siyahını yüzlərlə professor, elmlər doktoru və elmlər namizədləri hesabına çox-çox uzatmaq da mülkündür.

1920—1970-ci illərdə muxtar respublikada onlarla görkəmli yazıçı, şair, rəssam, artist yetişmişdir ki, onlar öz həyatlarının əsas məzmununu mənsub olduqları xalqa xidmət etməkdə görmüşlər.[134-135]

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Yazıçılar İttifaqının, Azərbaycan Rəssamlar İttifaqının filialları çox məhsuldar fəaliyyət göstərirlər. Muxtar respublikanın yaradıcılıq təşkilatları və onların üzvləri Azərbaycan xalqının mədəniyyət və incəsənətinin inkişafında layiqincə iştirak edirdilər.

Bir əsrdən artıq yaşı olan Naxçıvan Dram Teatrı müharibədən sonrakı illərdə də özünün gərgin işi və yaradıcılıq fəaliyyəti ilə zəhmət adamlarının böyük rəğbətini qazanmışdı. Teatrın səhnəsində Azərbaycan, rus və xarici dramaturqların klassik və müasir əsərləri ilə yanaşı, yerli müəlliflərdən K. Ağayeva, H. İbrahimov, M. Tanrıverdiyev, Ə .Yusifli, H .Razi və başqalarının da əsərləri müvəffəqiyyətlə tamaşaya qoyulurdu. Teatrda Azərbaycanın xalq artistləri Z. Həmzəyev, Ə. Haqverdiyeva, M. Quliyev, Z. Əliyeva, S. Hüseynov, respublikanın əməkdar artistləri Ə. Qardaşbəyov, A. Şahsuvarov, Naxçıvan Muxtar Respublikasının əməkdar artistləri K. Hüseynov, Y. Haqverdiyev, R. Cəfərxanova, İ. Məmmədova, P. Məmmədova, M. Səfərov, İ. Məmmədov, T. Mövləvi, rejissorlardan V. Babayev, B. Qələndərli uğurla fəaliyyət göstərirdilər.

1922-ci ildə Naxçıvanda açılmış şəhər kitabxanası əsasında 1930-cu ildə yaradılmış Naxçıvan Dövlət Kitabxanası müharibədən sonrakı illərdə əsl elm və mədəniyyət məbədinə çevrilmişdir. 1953-cü ildə kitabxanaya

görkəmli ədib M. S. Ordubadinin adı verilmişdi. 1981-ci ildə kitabxananın fondunda 230 minə yaxın kitab var idi. Kitabxana kollektiv muxtar respublikanın ictimai-mədəni həyatında da fəal iştirak edirdi.

Muxtar respublikada Azərbaycan və rus dillərində çıxan «Sovet Naxçıvanı» (1980-ci ilədək «Şərq qapısı») respublika qəzetindən başqa «Yeni Ordubad», «Əmək bayramı», «İşıqlı yol, «Zəfər», «Qabaqcıl» rayon qəzetləri də nəşr olunurdu. Yerli radio verilişləri (1931-ci ildən), televiziya verilişləri (1965-ci ildən) aparılırdı. Bakı və Moskvadan radio və televiziya verilişləri retranslyasiya olunurdu.

1974-cü ildə Naxçıvan Muxtar Respublikası yaradılmasının 50 illiyi təntənə ilə qeyd olunmuşdu. Bu münasibət ilə keçirilən təntənəli yığıncaqda Azərbaycan SSRin rəhbəri H. Ə. Əliyev də iştirak etmişdi. O öz çıxışında demişdi: «... Naxçıvan indi dinamik tərəqqi edən çoxsahəli iqtisadiyyata, yüksək səviyyəli təhsilə, səhiyyəyə, mədəniyyə[135-136]tə söykənən inkişaf etmiş sosial struktura malik olan muxtar respublikadır».[4]

Məlum olduğu kimi 1977-ci il oktyabrın 7-də SSRİ-nin yeni konstitutusiyası, 1978-ci il aprelin 21-də isə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında Azərbaycan SSR-in yeni konstitutusiyası qəbul edilmişdi. Həmin konstitusiyalara müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsi hazırlanmış və ümumxalq müzakirəsinə verilmişdi. 1978-ci il mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Sovetinin IX çağırış növbədənkənar VIII sessiyasında Naxçıvan MR-in yeni konstitusiyası qəbul edildi.

Yeni Konstitusiya 1926-cı il aprel ayının 18-də qəbul edilmiş Naxçıvan MR Konstitusiyasının bir növ davamı və inkişafı oldu. Naxçıvan əhalisinin, onun zəhmət adamlarının əldə etmiş olduqları bütün nailiyyətlər yeni konstitusiya ilə qanun şəklinə salındı. Ən mühüm olanı bu idi ki, Naxçıvan zəhmətkeşlərinin vaxtilə erməni işğalçılarına, rus müstəmləkəçilərinə qarşı mübarizədə qazanmış olduğu muxtar respublika dövlət statusu hüququ saxlanıldı və möhkəmləndirildi. Naxçıvan diyarının əzəli Azərbaycan torpaqları olduğu bir daha təsdiq edildi. Yeni Konstitusiya zəhmətkeş adamlarının sabaha olan ümidini daha da artırdı, onları Azərbaycan iqtisadiyyatının möhkəmləndirilməsi, onun mədəniyyətinin inkişaf etdirilməsi naminə yeni qələbələrə səslədi. Lakin tarix Naxçıvan torpağı üçün yeni sınaqlar hazırlamaqda davam edirdi.[136-137]

---

[4] «Kommunist» qəzeti, 5 oktyabr 1974-cü il.

# Nəticə

20-70-ci illərdə Naxçıvan diyarının keçmiş olduğu inkişaf yolu birmənalı qiymətləndirilə bilməz. İnkişaf enişi-yoxuşlu olmuş. müvəffəqiyyətlərlə yanaşı, ciddi nöqsanlara, əyintilərə, bəzən isə hətta, cinayətkarcasına laqeydliklərə də yol verilmişdir.

Ən ümdə və başlıca müvəffəqiyyət Naxçıvan diyarının Azərbaycanın ayrılmaz bir hissəsi olması faktının, gözlərini qan pərdəsi örtmüş daşnaklardan başqa, hamı tərəfindən, bu gün isə onu da əlavə etmək olar ki dünya dövlətləri tərəfindən qəbul edilməsidir. Həmin müvəffəqiyyət isə əvvəl də qeyd etdiyimiz kimi heç də sovet hakimiyyəti illərində Azərbaycan rəhbərliyinin müdrikliyi, dəyanəti sayəsində əldə edilməmişdi. Bəlkə də əksinə, 1934-cü ilə qədər Azərbaycan rəhbərliyində hakim mövqe tutmuş rus və erməni güruhuna və onların kölgələrində baş girləyən bir sıra azərbaycanlı «rəhbərlərə qalsaydı, onlar çoxdan həmin torpaqları da Ermənistana «peşkəş» edərdilər və necə ki, etmişdilər. Bu qələbə ilk növbədə xalqın qələbəsi idi, onun arzusunun, idealının zəfər çalması demək idi.

Naxçıvan əhalisinin ikinci böyük qələbəsi diyarın muxtar dövlət qurumu statusunun əldə edilməsi olmuşdu. Bir sıra məsələlərin həllində Naxçıvan Muxtar Respublikası rəhbərlərinin xalqın iradəsi əleyhinə getməkdən çəkinərək öz milli-ərazi muxtariyyəti hüquqlarını qorumaq üçün, xüsusilə, Sovet hakimiyyətinin ilk illərində bir qədər qətiyyətli hərəkət etməsi qorxaq Azərbaycan rəhbərliyini də nisbətən ürəkləndirmiş, rəhbərlikdəki erməni rus güruhunu isə bir qədər ehtiyatlı davranmağa vadar etmişdi. Axı, əks təqdirdə onların iç üzü tamamilə açıla bilərdi. Açıq bəyanatlardan qaçan, lakin öz məkrli niyyətlərinə çatmaq üçün gecə-gündüz xəlvəti olaraq növbənöv layihələr hazırlayan ermənipərəst dairələr xalqın qisasından qorxaraq yalnız fürsət düşəndən düşənə öz neştərlərini batıra bilirdilər, qalan vaxtlarda isə üzlərinə «beynəlmiləlçi» maskası taxaraq işləməyə məcbur olurdular. Əgər belə olmasaydı, bütövlükdə Azərbaycan, o cümlədən Naxçıvan tor[138-139]paqları Sovet hakimiyyətinin ayrı-ayrı dövrlərində hissə-hissə kəsilərək ermənilərə «peşkəş» edilməzdi.

Sənədlərin, mətbuat materiallarının araşdırılması göstərir ki, Sovet hakimiyyəti illərində həyata keçirilmiş çoxsahəli tədbirlər iki respublika xalqlarının sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamaları üçün hər cür şərait yaratsa da, Ermənistan SSR rəhbərliyi həmişə özünü qeyri-səmimi apararaq həmin münasibətləri daha çox gizli, bəzən isə hətta açıq şəkildə pozmağa cəhd göstərmişdir. Ardı-arası kəsilməyən böhtanlar, yersiz iddialar Azərbaycan SSR tərəfdən müqavimətə rast gəlmədiyindən daha da baş alıb getmiş, erməni gəncliyinin az qala bütöv bir nəslinin Balayanlar, Kaputikyanlar ideologiyası ilə tərbiyələnib böyüməsinə imkan verilmişdir. Faktlara müraciət edək.

Ermənistan SSR rəhbərliyi hələ Sovet hakimiyyətinin ilk illərində Şərur qəzasının tərkib hissəsi olan Dərələyəz əhalisinin İran ərazisində və Naxçıvanda didərgin olmasından və kəndlərin boş qalmasından istifadə edərək bu torpağın Şərurdan alınıb Ermənistana birləşdirilməsinə nail olmuşdu.

1922-ci ildə yaradılmış Zaqafqaziya federasiyası Azərbaycanla Ermənistan arasında ərazi ixtilaflarını nəinki aradan qaldırmamış, əksinə, onların daha güclənməsinə rəvac vermişdi. Məsələn, 1929-cu il fevralın 18-də Türkiyənin, Azərbaycan və Naxçıvanın xəbəri olmadan Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan SSR-dən 9 kəndin: Şərur qəzasından Quroqulok, Xaçik, Horadiz; Naxçıvan qəzasının Şahbuz nahiyəsindən Ağbinə, Sultanbəy, Ağxaç, Almalı, İtqıran; Ordubad qəzasından Qarçevan yaşayış məntəqələrinin, həmçinin Qarçevan Sovetliyinin tərkibində olan Mehri, Bohkar kəndlərinin Ermənistan SSR-ə birləşdirilməsi barədə qərar qəbul etmişdi.

Az sonra Cəbrayıl qəzasının Zəngilan nahiyəsinin tabeliyində olan və azərbaycanlıların yaşadığı Əldərə, Layhvaz, Astazır, Nügədi kəndlərinin adamlarının rayon mərkəzlərindən uzaq olmaları barədə, narazılıqlarından məharətlə istifadə edən ermənilər bu ərazidə yeni rayon yaratmaqla həmin kəndləri də Ermənistana birləşdirmişdilər. 1930—1931-ci illərdə Mehri rayonu bu yolla meydana gəlmiş və bununla da Naxçıvanın ərazi cəhətdən Azərbaycanla əlaqəsi tamamilə kəsilmişdi. Göründüyü kimi, Naxçıvan blokadasının başlanğıcı da elə həmin dövrdən qo[139-140]yulmuşdur. Həmin blokadanın bir qədər də möhkəmləndirilməsi İkinci dünya müharibəsindən sonrakı illərdə baş verdi. Belə ki, 1948-ci ildə Ermənistan SSR rəhbərliyinin təşəbbüsü və Azərbaycan SSR rəhbərliyinin razılığı ilə İrəvan şəhəri və onun ətrafında yaşayan azərbaycanlıların Azərbaycana köçürülməsi barədə SSRİ Nazirlər Sovetinin qərarı qəbul edildi. Həmin qərarın həyata keçirilməsi nəticəsində 1948—1953-cü illərdə 150 min nəfərə yaxın azərbaycanlı əhali öz ana yurdlarından Azərbaycana qovuldu. Ərazi iddiaları isə sonrakı illərdə də davam etdirildi.

1949-cu ildə İ. V. Stalinin anadan olmasının 70 illiyi münasibətilə İrəvan şəhərində «bəşəriyyətin ən böyük insanına» ən böyük heykəl ucaldıldı. Dekabrın 18— 19-da heykəlin açılışı təntənəsində iştirak etmək üçün İ. Stalin Mikoyanın müşayiəti ilə bir günlüyə İrəvan şəhərinə gəldi. Onu qarşılayanlar arasında olmuş Azərbaycan K/b/P MK-nın birinci katibi M. C. Bağırovla aparılmış gizli danışıqlardan sonra o, öz çıxışında

bildirdi ki, bundan sonra Azərbaycana məxsus yaylaqlardan biz «dost» erməni xalqı ilə birlikdə istifadə edəcəyik. Bir neçə il həqiqətən də Azərbaycan və Ermənistanın mal-qara, qoyun sürüləri birlikdə yaylaqlarımızda bəslənildi. Lakin 1957-ci ildən sonra ermənilər bu yerlərin tam sahibləri kimi azərbaycanlıları bir daha yaylaqlara buraxmadılar. Onlarca kəndindən məhrum olmuş Naxçıvan bu dəfə də özünün yaylaqlarından məhrum edildi. Azərbaycan rəhbərliyi bu məsələyə də etirazını bildirmədi.

Lakin erməni fitnələri, bizim tərəfimizdən isə xəyanətkarlıq və satqınlıq bununla da bitmədi. Əksinə, plana uyğun şəkildə davam etdirildi. Nə qədər təəccüblü olsa da, erməni fitnələrinin əlverişli zəmin tapmasında həmişə «sapı özümüzdən olan baltaların» fəal iştirakı və köməyi olmuşdur. Məsələn, lap elə 80-ci illərdə Bakıdan «böyük hamilərin» telefon zəngləri nəticəsində Naxçıvan Vilayət Partiya Komitəsinin və Nazirlər Sovetinin göstərişi ilə Ordubad rayonunun Kotam və Kilit kəndlərinin yeraltı sərvətlərlə zəngin olan dağlarının bir hissəsi «ata mülkü» kimi Ermənistana peşkəş edilmişdi. Heç kəs düşünmür və düşünmək də istəmirdi ki, nə Naxçıvan Vilayət Partiya Komitəsinin, nə də Naxçıvan Nazirlər Sovetinin torpaq verməyə heç bir səlahiyyəti yoxdur. Torpaqdan pay olmaz, o, ulu əcdadlarımızın yadigarıdır, torpağı satan[140-141] axırda yurdsuz qalar. İndi həmin Kilit kəndinin dağlarında ermənilər qoyun kahaları tikmiş və buradakı otlaqların sahibinə çevrilmişlər. Əsasən, heyvandarlıqla məşğul olan Kilit kəndinin əhalisi isə artıq burada yaşamaq üçün heç bir şərait olmadığını görüb kəndi demək olar ki, tərk etmişlər. Görünür, erməni həyasızlıqlarının qarşısının alınmamasının acı nəticəsi idi ki, 1920-ci ildə cəmi-cümlətanı 11 min kv. km ərazidə yaradılmış Ermənistan SSR illər boyu Azərbaycan torpaqlarının hesabına genişləndirilərək 1988-ci ildə artıq 30 min kv. km-lik ərazisi olan bir respublikaya çevrilmişdi.

Bəla burqasında idi ki, hətta 80-ci illərin sonlarına qədər torpağı peşkəş edənlərə qarşı nəinki mübarizə aparılmamış, əksinə, faktları təhrif edərək onlara bəraət qazandıranlar da tapılmışdı. Məsələn, 1989-cu il aprelin 29-da «Kommunist» və «Vışka» qəzetlərinin, həmçinin, aprelin 30-da Azərinformun, məşhur «Həsənqulu bağları» haqqında verdiyi məlumatlar istər-istəməz təəccüb və ikrah hissi doğurur. Unudulmamalıdır ki, Həsənqulu bağları qədim Şərur torpağının bir parçasıdır. Qars müqaviləsinə görə, Arazdöyənə qədər olan torpaqlar, o cümlədən həmin ərazidə yerləşən Həsənqulu bağları da Şərur ərazisinə daxildir.

İştaha diş altdadır, deyiblər. Naxçıvan torpağını (həm də digər Azərbaycan torpaqlarını) tədricən, hissə-hissə öz ərazilərinə qatan xəyanətkar qonşular çox keçmədən daha böyük torpaq payları əldə etmək iddiasına düşdülər. Maraqlıdır ki, vaxtilə, 1920—1921-ci illərdə Zaqafqaziya respublikalarının, RSFSR-in və Türkiyənin iştirakı ilə bağlanmış Moskva—Qars müqavilələrinə yüksək qiymət vermiş qonşuların, onların tarixçi və siyasətçilərinin bu günün varisləri həmin müqavilələrin ləğv olunmasını tələb edirlər. Məhz buna görə də daşnak partiyasının Avropa Amerika ölkələrindən gəlmiş liderlərinin 1989-cu ilin noyabrında İrəvan şəhərində erməni ekstremistləri ilə birlikdə keçirdikləri ümumerməni milli qurultayında Moskva və Qars müqavilələrinin maddələrinə yenidən baxıb «əzablar çəkmiş» erməni xalqının xatirənə onların ləğv olunması tələb edilmişdir. Bu onunla əlaqədar idi ki, onlar Dağlıq Qarabağla yanaşı Naxçıvanı da Ermənistana birləşdirmək xəyalına düşmüşdülər. Bəli, onlar artıq Dağlıq Qarabağla günahsız qanlar tökülməsinə nail olmuşdular, indi növbə Naxçıvanın idi. Timsah tək göz [141-142]yaşları axıdıb hərisliklə ona tərəf boylanırdılar. Bakıdakı yanvar faciələri ilə eyni vaxtda 15— 20, min nəfər erməni ekstremistinin Sədərək kəndi istiqamətində Naxçıvan MR ərazisinə soxulması elmi qərargahda düşünülmüş və hazırlanmış planlar idi. Başlıca məqsəd Naxçıvan MR zəhmətkeşlərini qorxutmaq və çaşdırmaq, 1918—1921-ci illərdə olduğu kimi, əhalinin əksər hissəsinin İran Azərbaycanına qaçmasına nail olmaq, beləliklə də, çox asan bir yolla Naxçıvanı «Böyük Ermənistan dövləti»nə birləşdirmək idi. Yanvarın 4-dən başlayaraq erməni ekstremistləri radio vasitəsi ilə rus, Azərbaycan və erməni dillərində ultimatumlar verirdilər: «Naxçıvanlılar, bu torpağı boşaldın. Boşaltmasanız, sizi qıracağıq» hər yarım saatdan bir ultimatum təkrar olunurdu. Bu ultimatumların nə ilə nəticələndiyi artıq hamıya yaxşı məlumdur. Bitib-tükənmək bilməyən belə fitnəkarlıqlar hər dəfə gərginliyi daha da artırmış, erməni daşnak quldurların cinayətkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Lakin Naxçıvan əhalisi bu hədələrdən heç vaxt qorxmamış, bədxah qonşuların məkrli niyyətlərini hər dəfə vaxtında və layiqincə dəf etmiş, ən başlıcası isə, ən doğma torpağının keşiyində daim sayıq dayanmışdır. Bununla, xalq öz dövlətçiliyini də qorumuş, düşmənlərinə isə bir daha başa salmışdır ki, bədxah niyyətli hər hansı tədbir, yalnız və yalnız onların təşkilatçılarına üzüqaralıq gətirəcəkdir. Naxçıvan əhalisi, Azərbaycanın, ona dost dövlətlərin və xalqların, bütün dünyanın vicdanlı adamlarının maddi və mənəvi yardımına arxalanaraq öz doğma torpağını nəinki qoruyub saxlamağa, onu həm də dünyanın cənnət guşələrindən birinə çevirməyə qadir olduğunu dəfələrlə nümayiş etdirmişdir. Bütün çətinlik və məhrumiyyətlərə baxmayaraq, son 60—70 ilin tarixi də bunu bir daha təsdiq edir.

Əminik ki, erməni-daşnak quldurlarının cinayətkar əməllərinə nə vaxt son qoyulacaq, xalq gec-tez rahat nəfəs alacaqdır. Lakin, üzdəniraq erməni ideoloqlarının təbliğat maşınının yalan və böhtan kampaniyasına son qoyacağına ümid etmək çətindir. Elə buna görə də istər xalqımızın, istərsə də digər millətlərin nümayəndələrinin əsl tarixi həqiqətləri bilməsi bu gün həmişəkindən daha vacibdir.[142]

Сеид Гасан оглы Садыхов

**Из истории Нахичеванской автономной Республики**
(на азербайджанском языке)

Korrektor *M. Süleymanov*

Yığılmağa verilmiş 05.05.95. Çapa imzalanmış 30.05.95. Kağız formatı 60X84**'/i6-** Kağız №1. Şrifti ədəbi qarnitur. Yuksək çap usulu. Çap vərəqi 8,37. Tirajı 500. Sifariş 29. Müqavilə qiyməti.

Azərbayçan EA mətbəəsi, Bakı, Hüseyn Cavid prospekti, 31.